# AZƏRBAYCAN PROKURORLUĞU

Elmi-praktiki jurnal

## 2025 KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ

XÜSUSİ BURAXILIŞ




www.genprosecutor.gov.az



**“Konstitusiyanın layihəsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin birbaşa rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış, ümumbəşəri dəyərlərə, dünyanın qabaqcıl demokratik dövlətlərinin konstitusion təcrübəsinə əsaslanan Konstitusiya müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun, vətəndaş cəmiyyətinin bərqərar olmasının və demokratik ənənələrin təşəkkülünün qarantı rolunu oynamışdır”.**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Fazil Həsənəliyev

**Redaksiya heyətinin üzvləri:**
Tural Aslanov
Natiq Hüseynov
Aynur Osmanova
Səbuhi Alıyev
Elnur Musayev
Vüqar Əliyev
Natiq Abdullayev
Asəf Sarıkişiyev
Şəfahət İmranov

**Məsul katib:**
Fərizə Mirzəyeva

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu,
Süleyman Sani Axundov küçəsi 160.

**Telefon:** 361 14 26
**www.genprosecutor.gov.az**

*Elmi-praktiki jurnal*

*2025-ci il, Xüsusi buraxılış*

“Media haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbəəsində səhifələnmiş və 350 nüsxə kağız, 150 nüsxə elektron daşıyıcıda çap edilmişdir.

*Jurnalın çapına məsul:* Rövşən Abdullayev
*Texniki heyət:* Samir Vahidov, Səttar Əliyev

Çapa imzalanmışdır: 08.01.2026
60x84 1/8 formatda 220 səhifə həcmdədir.

© “Azərbaycan Prokurorluğu”, 2026

# MÜNDƏRİCAT

## KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ


**6** Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**7** Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**8** "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**9** Xalqın güvən və əzminin təntənəsi

**10** Birinci vitse-prezident Mehriban Əliyeva Dövlət Suverenliyi Günü münasibətilə paylaşım edib

**11** "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar Azərbaycan RespublikaMilli Məclisinin Bəyanatı

**13** Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin Laçına səfəri

**23** Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağı keçirilib

**29** İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Zəfər abidəsini ziyarət edib və Zəfər muzeyinin açılışında iştirak ediblər

**33** Bakıda Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad keçirilib

**44** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə əlaqədar olaraq ölkənin demək olar ki, bütün əsas dövlət orqanlarında və icra strukturlarında genişmiqyaslı tədbirlər planı həyata keçirilmişdir.

**50** Milli Məclisdə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Beynəlxalq Parlament Konfransı keçirilib

**54** Azərbaycan Konstitusiyasının 30 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans və TÜRK-AY-ın birinci konqresi keçirilib

**56** Almaniyada 28 May – Müstəqillik Günü təntənəli şəkildə qeyd olunub

**57** Vaşinqtonda Azərbaycanın Müstəqillik Gününə həsr olunmuş rəsmi qəbul keçirilib

**58** Tallində Azərbaycanın Dövlət Suverenliyi Günü qeyd olunub

**59** "Konstitusiya və Suverenlik İli" münasibətilə Moldovanın Milli Tarix Muzeyində fotosərginin açılışı olub

**60** Haaqada Azərbaycanın Zəfər Günü münasibətilə "Mənim Azərbaycanım: Odlar Yurdunun ritmləri" adlı konsert proqramı təqdim olunub

**61** Astanada Azərbaycanın "Konstitusiya və Suverenlik İli" qeyd edilib

**63** Türkiyə səfiri: Azərbaycan daim sülhü, birliyi və həmrəyliyi müdafiə edən dövlətdir

**65** Kamran Əliyev – 8 Noyabr Zəfəri müstəqil dövlətçiliyin ən qiymətli uğurudur

**72** Kamran Əliyev – Щит закона и справедливости

**80** Kamran Əliyev – Prokurorluq orqanları suverenliyin və qanunçuluğun keşiyindədir

**86** Kürdəmir rayon prokurorluğunun yeni inzibati binasının açılış mərasimi keçirilib

**88** Baş prokuror Kamran Əliyev Xankəndində keçirilən "Heydər Əliyev və Suveren Azərbaycan" mövzusunda konfransda iştirak etmişdir

**92** "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda beynəlxalq konfrans

**96** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Suverenliyin keşiyində: Konstitusiyada rokurorluğun statusu" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına Müraciət

**97** Azərbaycan Prokurorluğunun təşkilatçılığı ilə paytaxtda "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda beynəlxalq konfrans keçirilib

**102** Baş prokuror: Sülh müqaviləsinin paraflanması Azərbaycanın suverenliyinin dünya miqyasında tanınmasıdır

**103** Prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü münasibətilə tədbir keçirilib

**106** Zəngilanda "Zəfərin beş ili: Dövlətçilik və hüququn qələbəsi" mövzusunda konfrans keçirilib

**110** "Konstitusiya və suverenlik" ili çərçivəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Qadın iştirakçılığının təbliği" mövzusuna həsr olunan konfrans keçirilib

**111** "Konstitusiya və Suverenlik İli: gənclərin hüquqi dövlət quruculuğunda yeri və rolu" adlı konfrans keçirilib

**113** Nəsimi rayon prokurorluğunda "Hüquq və Suverenlik: Prokurorluğun Yeni Çağırışları" mövzusunda seminar keçirilib

**114** "Konstitusiya və Suverenlik İli" çərçivəsində Baş Prokurorluq tərəfindən Qəbələdə regional konfrans keçirilib

**116** Qəbələ rayon prokurorluğunda "Hüquq və Suverenlik: Prokurorluğun Yeni Çağırışları" mövzusunda seminar keçirilib

**117** Kürdəmir rayon prokurorluğunda "Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun Rolu" mövzusunda seminar keçirilib

**118** "Konstitusiya və Suverenlik İli" çərçivəsində Baş Prokurorluq tərəfindən işğaldan azad olunmuş Ağdamda regional konfrans keçirilib

**120** Baş Prokurorluqda "Azərbaycan Respublikasının Konstitusiyası və Dövlət Suverenliyi" mövzusunda hüquq viktorinası keçirilib

**121** Bakı şəhər prokurorluğunda "Azərbaycan Prokurorluğu: Suverenliyin təminatında rolu" adlı seminar keçirilib

**122** DİN-in Polis Akademiyasında "Konstitusiya və suverenlik ili" çərçivəsində "Polisin inzibati fəaliyyətində hüquqi bilik və bacarıqların rolu" mövzusunda elmi-praktik seminar keçirilib

# MÜNDƏRİCAT


**123** "Konstitusiya və Dövlət Suverenliyi: Hüquqi Aspektlər və Çağırışlar" mövzusunda Baş Prokurorluq tərəfindən regional konfrans Xaçmazda keçirilib
**125** Xaçmazda "Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun rolu" mövzusunda seminar keçirilib
**126** Qusar rayon prokurorluğunda "Konstitusiya və Suverenlik ili" çərçivəsində "Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda məşğələ keçirilib
**127** Polis Akademiyasında "Zəfərə aparan yol – Qarabağ Salnaməsi" mövzusunda konfransda Elm-Tədris Mərkəzinin nümayəndələri iştirak edib
**128** DİN Daxili Qoşunlarının Hərbi İnstitutunda Zəfər Gününə həsr olunmuş tədbir keçirilib
**129** İsmayıllıda Konstitusiya Günü qeyd olunub
**130** Konstitusiya və Suverenlik İli çərçivəsində Gəncədə ətraf mühitin mühafizəsinə həsr olunmuş elmi-praktiki konfrans keçirilib
**132** "Konstitusiya və Suverenlik İli" çərçivəsində Lənkəranda ətraf mühitin mühafizəsinə həsr olunmuş elmi-praktiki konfrans keçirilib
**133** Müstəqillik Günü ilə əlaqədar Siyəzəndə konfrans keçirilmişdir
**134** BDU-da "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş Respublika elmi konfransının açılış mərasimi
**136** Baş Prokurorluq tərəfindən Mingəçevirdə "Hüquqi Dövlət və Suverenlik: Konstitusion Yanaşma" mövzusunda regional konfrans keçirilib
**138** Ordubad rayonunda "Müstəqilliyimiz əbədi, inkişaf isə məqsədimizdir!" mövzusunda tədbir keçirilib
**139** Naxçıvan Hərbi Kollecində "Konstitusiya və Suverenlik İli" çərçivəsində tədbir keçirilib
**140** Culfa rayonunda "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Müstəqilliyimiz əbədi, inkişaf isə məqsədimizdir!" mövzusunda tədbir keçirilib
**141** Kəngərli rayonunda "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda tədbir keçirilib
**142** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən Muxtar Respublikanın mərkəzi və yerli icra hakimiyyəti orqanlarında "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda tədbirlər keçirilib


## MƏQALƏLƏR


**146** Nigar Qələndərli – Konstitusiya hüququnda suverenlik institutunun müasir inkişaf tendensiyaları
**151** Rauf Abdullayev – Kiber təhlükəsizlik və suverenliyin qorunması: milli strategiyaların rolu
**155** Bəhruz Qədirli – Azərbaycan Konstitusiyanın tələblərinə və suveren hüquqlarına əsaslanaraq strateji hədəflərə doğru inamla irəliləyir
**157** Firad Əliyev – Dahinin dühasından doğan müasir Azərbaycan
**160** Azər Qasımov – Konstitusiya və suverenlik ili: Hüquqi dövlətin təntənəsi
**162** Hidayət Nurəlibəyov – Azərbaycan dövlətçiliyinin ideoloji və siyasi təməli
**164** Rəşid Mahmudov – "Konstitusiya və Suverenlik İli" dövlətçilik tariximizin yeni mərhələsidir
**166** Pərviz İbayev – Milli birliyin, qanunun aliliyinin və dövlətçilik düşüncəsinin təntənəsi
**168** Mədinə Paşayeva – Prokurorların ali missiyası
**170** Günel Bayramova – Müstəqilliyin bərpası və suverenliyin təmin edilməsi tarixi uğurdur
**173** Günel Bayramova – Konstitusiya və Suverenlik
**177** Yunis Qurbanov – Suverenliyin hüquqi bünövrəsi Azərbaycan Konstitusiyasıdır
**180** Ləman Dadaşzadə – Hüquqi dövlət quruculuğunda prokurorluğun rolu
**181** Yusif Məmmədov – Dövlətçilik tariximizin şanlı səhifəsi
**184** Zaur Əliyev – Milli kimliyin təməli
**186** Camal Bağırov – Müstəqillik uğrunda qazanılmış dəyərlər
**188** Emil Kərimov – "Konstitusiya və Suverenlik İli" strateji hədəflərə doğru uğurları şərtləndirir
**192** Taleh Osmanov – Konstitusiya və Suverenlik ili: Azərbaycanın hüquqi və dövlətçilik inkişafı
**194** Şahin İmanov – Milli dövlətçilik modelinin konseptual əsasları
**197** Maarif Hüseynov – Suverenlik və Konstitusiya: Hüquqi normativ iyerarxiyanın ali mərhələsi və suverenlik
**199** Elnur Rüstəmov – Suveren dövlətçiliyin hüquqi təməli
**201** Rəşad Məmmədov – Konstitusion legitimlik və müasir, suveren dövlət idarəçiliyi modeli
**203** Nazim Babayev – Milli Suverenlik və Hüquqi təminatlar konteksində Prokurorluğun rolu
**205** Rəşad Məmmədov – Ümummilli lider Heydər Əliyevin dövlətçilik kursunda ətraf mühitin mühafizəsi
**215** Babək Paşayev – 2025-ci il – Konstitusiya və suverenlik ili
**207** Babək Paşayev – 2025-ci il – Konstitusiya və suverenlik ili
**211** Leyla Babakişiyeva – Konstitusiya – dövlət müstəqilliyinin və suverenliyinin təminatçısı
**214** Zəhraxanım Şamilova – Konstitusiyanın yaranmasından 30 il keçir
**216** Anar Mahmudov – 2025-ci il – Konstitusiya və Suverenlik İli: Dövlətçiliyimizin təntənəsi və Zəngilanın tarixi rolu
**217** Bahar Bayramzadə – Konstitusiya və suverenlik ili: dövlətçiliyin təməl prinsipləri
**219** Emil Vəlizadə – "Konstitusiya və Suverenlik İli"… Suveren dövlətimiz yeni qələbələrə doğru inamla irəliləyir



**“Mənim xalqım – Azərbaycan xalqı indi azaddır. İndi müstəqil Azərbaycan var, heç kəsdən asılı olmayan, müstəqil yaşayan dövlət vardır. İndi biz xalqımızın tarixi ənənələrini, tarixi köklərini heç kəsdən qorxmayaraq, heç kəsdən çəkinməyərək qaldırırıq, göstəririk və xalqımızın böyük sərvəti kimi dünyaya nümayiş etdiririk”.**

**Heydər ƏLİYEV**

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında

Ermənistan Respublikası 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir.

Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq **qərara alıram:**

1. Hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 sentyabr 2024-cü il

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

### Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991–1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 dekabr 2024-cü il

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında

*(Çıxarış)*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 dekabr tarixli 432 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilsin *(əlavə olunur).*

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 11 fevral 2025-ci il
№ 477

| Sıra №-si | Tədbirin adı | İcra müddəti | İcraçı orqanlar (qurumlar) |
|---|---|---|---|
| 1. | Azərbaycan Respublikasının Dövlət Suverenliyi Gününün və Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30 illiyinin geniş qeyd olunması, bununla əlaqədar yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi | 20 sentyabr, 12 noyabr | **Aidiyyəti dövlət orqanları (qurumları)**<br>*Tövsiyə olunur:*<br>Milli Məclis,<br>Konstitusiya Məhkəməsi,<br>Ali Məhkəmə,<br>Baş Prokurorluq,<br>İnsan hüquqları üzrə müvəkkil (ombudsman) |
| 2. | “Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir” mövzusunda silsilə tədbirlərin keçirilməsi | İl ərzində | **Aidiyyəti dövlət orqanları (qurumları)**<br>*Tövsiyə olunur:*<br>Milli Məclis,<br>Konstitusiya Məhkəməsi,<br>Ali Məhkəmə,<br>Baş Prokurorluq,<br>İnsan hüquqları üzrə müvəkkil (ombudsman) |
| 13. | Mediada sənədli filmlərin, verilişlərin, videoçarxların və digər materialların verilməsi, rəsmi qəzetlərin xüsusi buraxılışının hazırlanması, jurnalistlərin və blogerlərin işğaldan azad edilmiş ərazilərə səfərlərinin təşkili | İl ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Ədliyyə Nazirliyi,<br>Dövlət Təhlükəsizliyi Xidməti,<br>Heydər Əliyev Mərkəzi,<br>Medianın İnkişafı Agentliyi,<br>Audiovizual Şura,<br>Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi,<br>Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi,<br>Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC),<br>“Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti,<br>“Azərbaycan” qəzeti,<br>“Xalq” qəzeti,<br>“Respublika” qəzeti,<br>“Bakinski Raboçi” qəzeti,<br>Baş Prokurorluq *(tövsiyə olunur)* |

# XALQIN GÜVƏN VƏ ƏZMİNİN TƏNTƏNƏSİ

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz 2020-ci il sentyabrın 27-dən başlayan və cəmi 44 gün davam edən Vətən müharibəsini qələbə ilə başa vurdu. Nəticədə, ərazi bütövlüyümüz bərpa edildi, torpaqlarımız işğaldan azad olundu. Böyük zəfər və tarixi qələbə bir milyondan artıq qaçqın və köçkün düşmüş vətəndaşımızın Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit olunan hüquqlarını da bərpa etdi.

2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamında da qeyd edildiyi kimi, müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 20 sentyabr ölkəmizdə Dövlət Suverenliyi Günü elan edilmişdir. Xalqımızın həyatında müstəsna əhəmiyyət kəsb edən bu qalibiyyətlər sayəsində Azərbaycanın şanlı Dövlət Bayrağı hazırda suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Azərbaycan Prezidenti 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin gedişində xalqa müraciətində bütün cəmiyyəti qəti qələbəyə kökləyərək: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" – demişdi.

2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə qızıl hərflərlə Zəfər günü kimi yazıldı. Prezident İlham Əliyev xalqa müraciətini Şəhidlər xiyabanından edərək Şuşa şəhərinin işğaldan azad olunmasını Azərbaycan xalqına, bütün dünya azərbaycanlılarına elan etdi.

2023-cü il sentyabrın 19–20-də Azərbaycan Ordusunun cəmi 23 saat 43 dəqiqə ərzində həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmiz nəinki ərazi bütövlüyünü, həm də dövlət suverenliyini tam bərpa etdi. Bu nailiyyət, Azərbaycan xalqının iradəsinin, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasətinin və rəşadətli Ordumuzun peşəkarlığının bariz nümunəsi idi.

**"Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"**

**İlham ƏLİYEV**



# Birinci vitse-prezident Mehriban Əliyeva Dövlət Suverenliyi Günü münasibətilə paylaşım edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyeva 20 sentyabr 2025-ci il tarixdə rəsmi instaqram səhifəsində Dövlət Suverenliyi Günü ilə bağlı paylaşım edib. Paylaşımda deyilir: "Qoy qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı bahasına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz əbədi olsun!".**



# "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN B Ə Y A N A T I

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi mühüm siyasi əhəmiyyət və rəmzi məna daşımaqla, dövlətin hüquqi əsasları ilə ərazi bütövlüyü və suverenliyi arasında qırılmaz bağlar olduğunu göstərir. Bu sərəncam xalqımızın və dövlətimizin Konstitusiya və suverenlik prinsiplərinə sadiqliyini bir daha təsdiq edir, ölkəmizin öz dəyərlərinə və mirasına, keçmişin nailiyyətlərinə əsaslanaraq qlobal çağırışlara cavab vermək əzmini nümayiş etdirir.

Azərbaycan Respublikasının Milli Məclisi son 32 ildə Ümummilli Lider Heydər Əliyevin dövlətçilik konsepsiyasının həyata keçirilməsi yolunda əldə edilmiş uğurların, xüsusən, ilk Konstitusiyamızın qəbul edilməsinin, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunmasının tarixi əhəmiyyətini qeyd edir.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası müstəqil inkişaf yoluna qədəm qoyduqdan sonra dövlətin idarə edilməsində, daxili və xarici siyasətin həyata keçirilməsində, milli təhlükəsizliyin qorunmasında yol verilən kobud səhvlər ölkəni dərin siyasi, iqtisadi və hərbi böhran vəziyyətinə salmışdı. Ermənistanın silahlı təcavüzünün qarşısını almağa qadir olan nizami ordunun qurulmaması Azərbaycan ərazilərinin işğalının genişlənməsinə şərait yaradır, yüz minlərcə soydaşımızın yurd-yuvasından didərgin düşməsinə səbəb olurdu. Üstəlik, ölkənin müxtəlif bölgələrində separatizm meyilləri baş qaldırmış, real vətəndaş müharibəsi təhlükəsi törənmişdi.

1993-cü il iyunun 15-də dünya miqyaslı siyasi və dövlət xadimi, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xalqın təkidli tələbi ilə ali dövlət hakimiyyətinə qayıdışı milli dövlətin varlığı üçün təhdid yaradan problemlərin aradan qaldırılmasında, sabitliyin və hüquq qaydasının təmin edilməsində, Azərbaycanın davamlı inkişaf yoluna çıxarılmasında həlledici rol oynamışdır. Xalqımız müstəqil dövlətini qorumaq və yaşatmaq üçün tarixin verdiyi imkanı Heydər Əliyevin xilaskarlıq və quruculuq missiyası sayəsində reallaşdıra bilmişdir.

Ulu Öndərin strateji təfəkkürü, siyasi və dövlətçilik məharəti milli birliyi və həmrəyliyi təmin etməyə, siyasi-hüquqi sistemin sarsılmaz təməlini qurmağa, peşəkar dövlət hakimiyyəti institutlarını formalaşdırmağa və genişmiqyaslı siyasi, iqtisadi və hüquq islahatlarını həyata keçirməyə imkan verdi. Onun rəhbərlik etdiyi komissiya tərəfindən müstəqil dövlətimizin ilk Konstitusiyasının hazırlanması və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi müasir Azərbaycanın tarixində taleyüklü hadisələrdən biridir. Ulu Öndərin siyasi fəlsəfəsini əks etdirən Konstitusiya hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun əsaslarını müəyyən etmiş, qanunun aliliyi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının üstünlüyü prinsiplərini bərqərar etmiş, dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün və suverenliyinin sarsılmazlığını bəyan etmişdir. Əsas qanunumuz Azərbaycanın modernləşdirilməsinə yol açaraq milli tərəqqinin möhkəm bünövrəsini yaratmışdır.

Ötən 22 ilə yaxın dövrdə Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu XXI əsrin çağırışlarına uyğunlaşdıraraq, yaradıcı surətdə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz siyasi və hərbi cəhətdən güclü, iqtisadi cəhətdən dayanıqlı

bir dövlətə çevrilmişdir. Həyata keçirilən dövlət siyasətinin mərkəzində ölkənin dinamik inkişafının təmin olunması, müstəqilliyin möhkəmləndirilməsi, ərazi bütövlüyünün və suverenliyin bərpa edilməsi amalı dayanmışdır.

Ardıcıl siyasi-hüquqi islahatlar yolu ilə daxili sabitlik, qanunun aliliyi və demokratik təsisatların inkişafı təmin edilmişdir. Dövlət idarəçiliyi modernləşdirilmiş, hakimiyyət orqanlarının fəaliyyəti təkmilləşdirilmiş, rəqəmsal platformalar və hesabatlılıq mexanizmləri tətbiq edilmişdir.

Azərbaycan Respublikası beynəlxalq aləmdə etibarlı tərəfdaş və sözünün sahibi olan bir dövlət kimi tanınır. Dünyanın qüdrətli dövlətləri və təşkilatları ilə münasibətlərimiz daha da möhkəmlənmişdir.

Bu gün Azərbaycan öz tarixinin ən şərəfli dövrlərindən birini yaşayır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsində və antiterror əməliyyatında əldə edilən möhtəşəm qələbələr milli tariximizin ən şanlı səhifələrini təşkil edir. Qarabağın və Şərqi Zəngəzurun 30 illik işğalına son qoyulması, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması Cənubi Qafqaz bölgəsinin geosiyasi vəziyyətini həmişəlik dəyişdirmiş, Azərbaycanın qarşısında yeni perspektivlər açmışdır.

İki əsrə yaxın dövrdə xalqımıza qarşı düşmənçilik siyasəti yeridən erməni şovinizminə və ekspansionizminə endirilən "dəmir yumruq" Azərbaycanın sarsılmaz milli birliyini və həmrəyliyini nümayiş etdirmişdir. Tarixi ədalətin bərqərar edilməsi və ölkə ərazisinin vahidliyi, toxunulmazlığı və bölünməzliyi haqqında Konstitusiya müddəasının həyata keçirilməsi dövlətçilik tariximizin ən mühüm dövrlərindən birinə yekun vurmuşdur.

Bu gün Azərbaycan öz inkişafının yeni quruculuq dövrünə qədəm qoymuşdur. Məcburi köçkünlərin ata-baba yurdlarına dönməsini nəzərdə tutan azad edilmiş ərazilərə böyük qayıdış ölkəmizin 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuşdur. Bu məqsədlə ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsinə, işğal dövründə dağıdılmış şəhər və kəndlərin yenidən inşa edilməsinə, müasir yaşayış, istehsal, nəqliyyat və xidmət infrastrukturunun qurulmasına, iqtisadi fəallığın canlandırılmasına dair genişmiqyaslı layihələr həyata keçirilir.

İnamla söyləmək olar ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkənin dinamik iqtisadi inkişafının təmin edilməsinə, dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə, milli maraqların qorunmasına, milli təhlükəsizliyin, müdafiə qabiliyyətinin artırılmasına yönələn strategiyası sayəsində Azərbaycan dövləti qarşıdakı illərdə yeni böyük uğurlara imza atacaqdır. Konstitusiya, dövlət müstəqilliyi və suverenlik prinsiplərinə həmişə sadiq olan Milli Məclis Ulu Öndər Heydər Əliyev tərəfindən başlanmış və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən tarixi missiyanı qanunvericilik səviyyəsində bundan sonra da fəal surətdə dəstəkləyəcəyini bəyan edir. Parlament yeni çağırışlar və imkanlar şəraitində ölkənin bütün vətəndaşlarını ümumi dəyərlər və gələcəyə birgə baxış əsasında daha sıx birləşməyə səsləyir.

*(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il 8 may tarixli xüsusi iclasında qəbul edilmişdir.)*

## Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin Laçına səfəri



2025-ci il mayın 27-də Laçında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə nahar əsnasında geniş tərkibdə görüşü olub.










Mayın 28-də Laçın Beynəlxalq Hava Limanının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər.

Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsiblər.

Laçın Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edilib.

Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış olublar.

Qeyd edək ki, mürəkkəb dağlıq relyefdə yerləşən Laçın Beynəlxalq Hava Limanı işğaldan azad olunmuş ərazilərdə inşa edilən üçüncü beynəlxalq hava limanıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarımızda genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir. Bu layihələrin arasında hava limanlarının inşası xüsusilə mühüm strateji əhəmiyyət daşıyır. İndiyədək bu ərazilərimizdə müasir standartlara cavab verən Füzuli və Zəngilan Beynəlxalq Hava limanları inşa olunub. Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi ilə Azərbaycanın beynəlxalq hava limanlarının sayı doqquza çatıb.



Tikintisinə 2021-ci ilin avqust ayında başlanılmış bu mühüm infrastruktur obyektin inşası ən yüksək texnoloji və mühəndislik standartlarına uyğun həyata keçirilib. Qeyd edək ki, hava limanının təməli 2021-ci ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Ötən müddət ərzində dövlətimizin başçısı və birinci xanım bir neçə dəfə burada tikinti işlərinin gedişi ilə tanış olublar.

Hava limanında istənilən tip hava gəmisinin qəbuluna imkan verən, uzunluğu 3 min, eni isə 60 metr olan uçuş-enmə zolağı inşa edilib. Beş min kvadrat-



metrlik terminal binası saatda ən azı 200 sərnişinə xidmət göstərmək imkanına malikdir. Terminalda sərnişinlərin rahatlığı üçün VIP zal, qeydiyyat və təhlükəsizlik sistemləri, baqaj konveyerləri, ticarət obyektləri və iaşə zonaları nəzərdə tutulub. Tam avtomatlaşdırılmış sistemlərlə təchiz olunmuş Hava





Hərəkətini İdarəetmə Qülləsi uçuşların beynəlxalq normalara və təhlükəsizlik standartlarına uyğun şəkildə idarə olunmasını təmin edir. Burada yaradılmış infrastruktur ICAO və IATA standartlarına uyğun olaraq uçuşların təhlükəsiz və səmərəli şəkildə həyata keçirilməsinə imkan verir.

Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1700 metr hündürlükdə yerləşən hava limanının ümumi ərazisi 130 hektardan çoxdur. Bu hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportudur. Laçın şəhərindən 30 kilometr, Şuşadan 70 kilometr, Kəlbəcərdən isə 60 kilometr məsafədə yerləşən hava limanı Qarabağ və Şərqi Zəngəzur regionlarının nəqliyyat əlaqələrinin gücləndirilməsində mühüm rol oynayacaq. Bundan başqa, bu mühüm nəqliyyat layihəsinin icrası ümumilikdə bölgənin turizm potensialının inkişafına da geniş imkanlar yaradacaq. Coğrafi mövqeyi və əlçatanlığı ilə bu hava limanı bölgənin iqtisadi, sosial və logistik inteqrasiyasını dəstəkləyən əsas nəqliyyat mərkəzinə çevriləcək.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksi olan "Dost Aqropark"da istehsal edilən məhsullara baxdılar.

Qeyd edildi ki, kompleksdə ağıllı kənd təsərrüfatı texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulub. Aqroparkda hazırda 120 nəfər işlə təmin olunub. Tam işə düşdükdən sonra burada 500 nəfərə iş imkanı yaradılacaq.





Mayın 28-də Laçında 28 May - Müstəqillik Gününə həsr olunmuş konsert keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif konsertdə iştirak ediblər.

Əvvəlcə Azərbaycanın, Türkiyənin və Pakistanın Dövlət himnləri səsləndirilib.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı



– Hörmətli Türkiyə Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Hörmətli Pakistanın Baş naziri, əziz qardaşım Məhəmməd Şahbaz Şərif.

Hörmətli qonaqlar, əziz laçınlılar.

İlk növbədə, bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm. Bu bayram günündə bizimlə bərabər olan Türkiyə və Pakistan liderlərinə və onlarla bərabər Azərbaycana gəlmiş qonaqlara “Xoş gəlmisiniz!” deyirəm.

Azərbaycan, Türkiyə və Pakistan – üç qardaş ölkə əməkdaşlığı ildən-ilə, gündən-günə gücləndirirlər. Biz yaxşı günlərdə də, ağır günlərdə də hər zaman bir-birimizin yanındayıq, həmrəylik, dəstək göstəririk. Bu gün ikinci üçtərəfli Zirvə görüşündə bir daha bizim strateji əməkdaşlığımız təsdiqləndi. İşğaldan azad edilmiş Laçında, Şərqi Zəngəzurda iki qardaş ölkənin liderlərinin iştirakı ilə keçirilən bugünkü mərasim Azərbaycan-Türkiyə-Pakistan birliyinin, qardaşlığının növbəti təzahürüdür.

Xüsusilə bu bölgədə, 30 il ərzində işğal altında qalan Laçın şəhərində bizim birgə olmağımız böyük rəmzi məna daşıyır. Çünki 44 günlük İkinci Qarabağ müharibəsi zamanı bizi Türkiyə və Pakistan dəstəkləmişdir. Türkiyənin və Pakistanın dəstəyi bizi ruhlandırırdı, bizə əlavə güc verirdi. Bu böyük siyasi və mənəvi dəstəyə görə biz hər zaman qardaş ölkələrin rəhbərlərinə, qardaş xalqlara minnətdarıq.

Bu gün bizim üçtərəfli əməkdaşlığımızın yeni səhifəsi açılır. Əminəm ki, bu gün müzakirə etdiyimiz məsələlər, əldə edilmiş razılaşmalar bizi bir-birimizə daha da yaxın edəcək.

107 il bundan əvvəl müsəlman aləmində ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti yaradılmışdır. Bu, böyük tarixi hadisə idi. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İki il sonra – 1920-ci ilin aprel ayında müstəqilliyimiz əlimizdən alınmışdır. Ondan bir neçə ay sonra – 1920-ci ilin noyabr ayında sovet Rusiyası




tərəfindən Qərbi Zəngəzur bölgəsi Azərbaycandan ayrılıb Ermənistana birləşdirilmişdir. Bu, böyük ədalətsizlik idi və Azərbaycan xalqı buna oxşar ədalətsizliklərlə tarix boyu üz-üzə qalmışdır. Ancaq xalqımızın iradəsi və qardaş xalqların dəstəyi bizə güc verirdi, bizi ruhlandırırdı və iradəmizi gücləndirirdi.

1991-ci ildə Sovet İttifaqı dağılandan sonra Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. Ancaq Ermənistanın işğalçılıq siyasəti Azərbaycana böyük faciələr gətirmişdir. Müstəqillik elan olunandan dörd ay sonra Ermənistan dövləti xalqımıza qarşı soyqırımı törətmişdir. Xocalı soyqırımı nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın, 63 uşaq bir gecə içində vəhşicəsinə öldürülmüşdür. Müstəqillik elan olunandan yeddi ay sonra isə Laçın erməni işğalına məruz qalmışdır. Ondan əvvəl Şuşa şəhəri işğal olunmuşdur. Ermənistanın işğalçılıq siyasəti ondan sonra da davam etdirilmişdir. Xarici ölkələrin dəstəyi hesabına Azərbaycan ərazisinin təxminən 20 faizi erməni işğalına məruz qalmışdır. Qarabağ və Şərqi Zəngəzur bölgəsindən 100 minlərlə azərbaycanlı etnik təmizləməyə məruz qalmışdır, qaçqın-köçkün həyatına başlamışdır.

Azərbaycan dövləti və xalqı bu ədalətsizliklə, bu işğalla heç vaxt barışmayıb. Biz güc toplayırdıq, beynəlxalq müstəvidə daha güclü mövqelərə sahib olurduq. Beynəlxalq təşkilatlar çərçivəsində öz haqq işimizi aparırdıq. Bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanımaqla münaqişənin həlli üçün siyasi və hüquqi zəmin yaratmışdır. Biz, eyni zamanda, güclü iqtisadiyyat qurmuşuq və məhz bunun nəticəsində ordu quruculuğuna lazımi həcmdə vəsait ayırmışıq. Güclü siyasi iradə, güclü iqtisadiyyat və güclü ordu faktorları bizi Qələbəyə aparan amillərdir.

Bununla bərabər, biz vətənpərvərlik ruhunda, xalqa, torpağa bağlı yeni gənc nəsli yetişdirərək Qələbəmizi şərtləndirdik. 44 günlük İkinci Qarabağ müharibəsi zamanı biz hər gün irəli gedirdik. Bir gün belə geri addım atmamışdıq. Döyüş meydanında 300-dən çox şəhər və kəndimizi erməni işğalçılarından azad etmişdik. O cümlədən Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərləri döyüş meydanında işğalçılardan azad edildi. 2020-ci il noyabrın 8-də Şuşa Zəfərimizdən sonra Ermənistan ordusunda təslimçilik meyilləri daha da artdı və ondan bir gün sonra - noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktını, təslim aktını imzalamağa məcbur oldu. Məhz bunun nəticəsində bir güllə atılmadan Laçın, Kəlbəcər və Ağdam işğalçılardan azad edilmişdir. Bu şanlı tariximiz bölgəmizdəki geosiyasi vəziyyəti dəyişdirdi, yeni reallıqlar yaratdı və hər bir ölkə bu reallıqlarla barışmalı oldu. Bizim 2023-cü ildə birgünlük antiterror əməliyyatı isə dövlət suverenliyimizi tam bərpa etdi və Azərbaycanda separatizmin kökü birdəfəlik kəsildi.

İndi isə azad edilmiş bütün torpaqlarda bərpa işləri, quruculuq işləri gedir. Böyük infrastruktur layihələri icra edilir – xəstəxanalar, məktəblər, üç hava limanı tikilib, dəmir yolları, avtomobil yolları salınıb, 70 kilometrə yaxın tunelin inşası sürətlə gedir. Bu gün bizim qonaqlarımız azad edilmiş torpaqlarda gedən işlərin bir hissəsi ilə tanış olmuşlar. Artıq Şərqi Zəngəzur və Qarabağ bölgələrimizdə 43 min insan yaşayır və çalışır. Bu bölgəyə həyat qayıdıb, bu bölgənin sahibləri qayıdıblar. Biz qayıtmalıydıq və qayıtmışıq. Biz Ermənistan ordusunu məğlub etmişik və bununla Azərbaycan xalqı fəxr edir. Artıq dörd ildən çoxdur ki, biz müzəffər xalq və dövlət kimi yaşayırıq və əbədiyyətə qədər yaşayacağıq. Bu gün əziz qardaşlarımın – Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin bizimlə bərabər bu bayram tədbirlərində iştirakı, bizə göstərilən dəstək və həmrəylik artıq tamamilə yeni dünya miqyasında reallıqlar yaradır. Bizim gücümüz birliyimizdədir. Bu gün birliyimizi üçtərəfli formatda bir daha təsdiqlədik. Bu gün bayram konsertində səslənəcək mahnılar bir daha bizim birliyimizi, nə qədər zəngin mədəniyyətə malik olmağımızı göstərəcək. Əminəm ki, azad edilmiş Laçından üç ölkənin bu gün dünyaya verdiyi mesajlar lazımi ünvana çatacaq.

Mən bir daha Türkiyə Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğana, Pakistanın Baş naziri, əziz qardaşım Məhəmməd Şahbaz Şərifə və onlarla bərabər gəlmiş bütün qonaqlara "Xoş gəlmisiniz!" deyirəm. Laçınlıları ürəkdən salamlayıram. Allah səmamızı, yolumuzu həmişə açıq eləsin. Qələbə bizimlədir və bizimlə olacaq.

Yaşasın Azərbaycan-Türkiyə-Pakistan birliyi və qardaşlığı!

***

Sonra Türkiyə Prezidenti çıxış etdi.

## Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı



– Əziz qardaşım, Prezident cənab İlham Əliyev.

Əziz dostum, Pakistanın Baş naziri cənab Şahbaz Şərif.

Hörmətli hökumət üzvləri, dəyərli incəsənət xadimləri, xanımlar və cənablar.

Sizləri ən səmimi duyğularımla, hörmətlə, məhəbbətlə salamlayıram. Buradan Bakıdan Gəncəyə, Şuşadan Naxçıvana olmaqla, Azərbaycanın hər bir guşəsindəki qardaşlarıma sevgilərimi və ehtiramımı göndərirəm.

Əvvəlcə, sizlərə "Can Azərbaycan", "Bir millət, iki dövlət" deyiləndə qəlbində fırtınalar qopan 86 milyonun salamını çatdırmaq istəyirəm. İndi buradakı tabloda üç dövlət, bir millət var.

Can Azərbaycanın 28 May – Müstəqillik Günü münasibətilə ortaq mədəniyyətimizi və qardaşlığımızı vurğuladığımız bu mənalı görüşdə sizinlə birlikdə olmaqdan böyük məmnunluq duyuram. Müstəqilliyin necə qazanıldığını, nə qədər qiymətli olduğunu çox yaxşı bilən bir millətin övladı olaraq Müstəqillik Gününüzü səmimi-qəlbdən təbrik edirəm.

İstiqlal və gələcək uğrunda apardığımız şanlı mübarizələri şəhadətləri ilə taclandıran qəhrəmanlarımızı rəhmət və ehtiramla yad edirəm. Rəbbim əziz şəhidlərimizin ruhlarını şad, məkanlarını cənnət eləsin!

Bu unudulmaz gündə Azərbaycanın dahi şairi Səməd Vurğunun möhtəşəm misralarını bir daha xatırlayırıq:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma Vətənimsən,
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!
Mən bir uşaq, sən bir ana,
Odur ki, bağlıyam sana,
Hankı səmtə, hankı yana
Hey uçsam da, yuvam sənsən,
Elim, günüm, obam sənsən.

Bəli, obamız, yuvamız və göz bəbəyimiz Azərbaycan ilə aramızdakı məhəbbəti, inşallah, gücləndirərək davam etdirəcəyik. Bu xoş gündə olduğu kimi, Allah göstərməsin, çətin günlərində də Azərbaycan xalqının hər zaman yanında olacağıq. Rəbbimdən Azərbaycan-Türkiyə qardaşlığını əbədi və daimi etməsini diləyirəm.

Əziz qardaşlarım, dəyərli qonaqlar, 1918-ci ildə Azərbaycanda qurulan Cümhuriyyət üsul-idarəsi istiqlalın və azad iradənin rəmzinə çevrildiyi kimi, Qarabağdakı azadlıq Zəfəri də bu gün Azərbaycanı daha güclü və firavan edir. O gün alovlanan istiqlal məşəli bu gün daha parlaq və daha güclü şəkildə Azərbaycanın yolunu işıqlandırır. Qarabağın azadlığı ilə bu torpaqlarda yüksələn hər bir musiqi sədası təkcə bir Zəfərin deyil, bir millətin, necə deyərlər, yenidən dirçəlişinin səsinə çevrildi.

Bir azdan dinləyəcəyimiz musiqilərdə Qarabağın azad torpaqlarının səsi var. Bu nəğmələrdə Şuşanın daşlarında əks-səda verən azadlığın, Laçının vadilərində böyüyən ümidin, Gəncədə və Bakıda canlanan milli iradənin təzahürü var. Səslənən hər bir bəstədə qəhrəman şəhidlərimizin canları və mübarək qanları bahasına əldə olunmuş möhtəşəm Zəfərin ruhu var. Məhz bu gün bu konserti əbədi qardaşlığımızı, ortaq yaddaşımızı, rifah və güclü gələcəyimizi salamlayan bənzərsiz bir görüş kimi qiymətləndiririk.

Xatırlayacaqsınız, daha əvvəl Qarabağın dünyaya açılan qapıları – Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarını İlham qardaşımla birlikdə açmışdıq. Çox xoşbəxtik ki, bu gün də Laçın Beynəlxalq Hava Limanını açmaq yenə bizə nəsib oldu.

Enerjidən nəqliyyata, müdafiədən ticarətə, kənd təsərrüfatından təhsilə qədər hər sahədə Azərbaycanla güclü əməkdaşlıqlar qururuq. İlham qardaşımın bənzərsiz töhfələri sayəsində münasibətlərimizi hər gün təkcə bölgəyə deyil, bütün dünyaya nümunə olacaq səviyyəyə çatdırırıq.

Sabitlik abidəsi kimi yüksələn Azərbaycanın uğurları



ilə hamımız qürur duyuruq. Otuz ildən sonra əsarətdən azad olunan Qarabağ üçün artıq uğur, sülh və inkişaf hekayəsi yazmaq zamanıdır.

Bu gün keçmişdə yaşadığımız ağrılardan dərs alaraq davamlı sülhün bərqərar olmasını, etimadın və mehriban qonşuluq münasibətlərinin qurulmasını hədəfləyirik. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sülhün də memarı olaraq adını tarixə yazdıracağına inanırıq.

Bu fikirlərlə Can Azərbaycan xalqına, səmimi qonaqpərvərliyə görə laçınlı qardaşlarıma və buraya təşrif gətirməklə bizi son dərəcə sevindirən Pakistanın Baş naziri, dəyərli dostum cənab Şahbaz Şərifə təşəkkürlərimi ifadə edirəm.

Sizləri bir daha ən səmimi duyğularımla salamlayır, 28 May – Müstəqillik Günü münasibətilə bir daha təbrik edirəm. Allah yolumuzu və bəxtimizi açıq etsin. Yenidən görüşmək, yenidən qucaqlaşmaq diləyi ilə sizləri Allaha əmanət edirəm. Sağ olun, salamat qalın!

***

Daha sonra Pakistanın Baş naziri çıxış etdi.

## Baş nazir Məhəmməd Şahbaz Şərifin çıxışı



– Bismillahir-rəhmanir-rəhim.

Əziz qardaşlarım, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan.

Hörmətli nazirlər, zati-aliləri, əziz qonaqlar, bizim Laçından olan qardaş və bacılarımız.

Xanımlar və cənablar, salam-aleyküm.

Əziz qardaşım İlham Əliyev, nə gözəl haldır ki, bu gün biz Azərbaycanın Müstəqillik Gününü bir yerdə qeyd edirik. Həmçinin bu gün – 1998-ci il mayın 28-də Pakistan nüvə dövlətinə çevrilmişdir. Bu səbəbdən, bu gün bu tədbirdə iştirak etmək mənim üçün çox böyük şərəfdir. Mən səmimi-qəlbdən əziz qardaşım, Prezident İlham Əliyevi və bizim azərbaycanlı bacı və qardaşlarımızı təbrik edirəm. Bu gün burada olmaq mənim üçün çox böyük şərəfdir. Bu gün bu gözəl məkanda, füsunkar dağlıq ərazidə yerləşən Laçın şəhərində olmağımdan çox məmnunam.

Siz böyük liderliyiniz və dinamik baxışınız sayəsində 30 illik işğala son qoymusunuz, bu bölgəni, Qarabağı azad etməyə müvəffəq olmusunuz və bu işdə Sizin Silahlı Qüvvələriniz böyük cəsarət göstərib. Mən buradan şəhidlərin xatirəsini anıram, o şəhidlər ki, bu iş naminə həyatlarından keçiblər. Həyatda olan qaziləri də buradan salamlayıram. Onlar da bu işdə çox böyük şücaət və cəsarət göstəriblər. Bu çox böyük nailiyyət və Silahlı Qüvvələrinizin bu işə verdiyi töhfə münasibətilə bir daha hər birinizi təbrik edirəm. Həmin mübarizəyə qardaşımız Prezident Ərdoğan və Türkiyədən olan bacı-qardaşlarımız çox böyük dəstək oldular, azərbaycanlı bacı və qardaşlarını ruhlandırdılar. Həmin dövrdə Türkiyə Azərbaycana çox böyük dəstək göstərdi. Pakistan da öz növbəsində töhfəsini vermişdir ki, bu mühüm missiya uğurla başa çatsın. Biz bütün siyasi və diplomatik dəstəyimizi verdik ki, azərbaycanlı qardaş və bacılarımız Qələbəyə nail olsunlar. Bu dəstək səmimi-qəlbdən gəlirdi, çünki bu işdə azərbaycanlı qardaş və bacılarımız mütləq dəstəklənməli idi. Xanımlar və cənablar, ona görə də deyə bilərəm ki, bu gün bu ərazilər transformasiyaya uğrayıb və şüar da dəyişib: İki ruh bir qəlbdə idisə, bu gün üç ruh bir qəlbdədir. Bu şüarı artıq biz dəyişmişik.

Xanımlar və cənablar, Pakistan bu yaxınlarda düşmənə qalib gəlməyə müvəffəq oldu. Bir neçə həftə bundan öncə baş vermiş hadisələrdən bəhs edirəm. Həmin düşmən ölkənin əhalisi Pakistan əhalisindən beş dəfə çoxdur. Həmin ölkənin iqtisadi baxımdan da gücü bizdən çoxdur və həmin ölkə onilliklərdir ki, yüzlərlə milyard dollar həcmində vəsait xərcləyərək dünyanın ən müasir silahlarını almışdır, sursat, qırıcı təyyarələr və ən müasir texnologiyanı əldə etmişdir. Aprelin 22-də Pahalqam məntəqəsində, – bu yaşayış məntəqəsi işğal olunmuş Cəmmu-Kəşmirdə yerləşir, – 26 nəfər qətlə yetirildi. Bu, çox kədərli, acınacaqlı bir hadisə idi. Təəssüflər ki, Hindistan tez-tələsik Pakistana qarşı əsassız iddialar irəli sürdü, bizi ittiham etdi və faktları uydurmağa çalışdı. Dünyaya mesaj verməyə çalışdı ki, Pakistan məhz bu Pahalqam insidentinə görə təqsirli bilinməlidir. Biz dərhal təklif etdik ki, şəffaf və tərəfsiz qaydada beynəlxalq təhqiqat aparılsın. Ancaq Hindistan cavabında Pakistana hücum etdi, 33 günahsız pakistanlı qətlə yetirildi. Həmçinin bu hücum nəticəsində 55 pakistanlı yaralanmışdı. Xanımlar və cənablar, biz bunu cavabsız qoya bilməzdik. Biz Pakistanı müdafiə etməli idik və qısa bir zamanda hava qüvvələrimiz Hindistana məxsus 6 təyyarəni vurdu. Fransa istehsalı olan dörd "Rafale" təyyarəsi, "MiQ" tipli təyyarə və dronlar da vuruldu. Biz Hindistana mesaj verdik ki, Pakistan sülhsevər ölkədir. Biz regionda sülhü və firavanlığı təşviq edirik. Amma əgər biz hücuma məruz qalsaq, dərhal var gücümüzlə buna cavab verəcəyik.

Biz 9-cu və 10-cu günlərdə olduqca adekvat şə-

kildə Hindistanın təcavüzünə cavab verdik və səhər saat 04:30-da – fəcr namazından sonra Pakistanın silahlı qüvvələri Səid Əsim Muirin rəhbərliyi ilə düşmənə dərs verməli oldu. Ona qədər isə Hindistan "BrahMos" tipli raketlərdən Pakistanın müxtəlif əyalətlərini, xüsusilə də Ravalpindidə və digər məntəqələrdə olan hava limanlarını atəşə tutdu.

Bizim baş qərargah rəisi, – o, bu gün burada ön sırada əyləşib. Xahiş edirəm, feldmarşal ayağa qalxasınız, hər kəs sizi görsün, – mənə məlumat verdi ki, cənab Baş nazir, Hindistan bizə növbəti dəfə hücum etdi. Onun səsi qətiyyətli idi. O, tamamilə sakit idi. Amma, eyni zamanda da çox qətiyyətli mövqedə idi ki, biz düşmənə həyatlarının ən yaxşı dərsini verməliyik. Beləliklə, biz Hindistanın hərbi infrastrukturuna hücum etdik. Yəni, bizim onlardan fərqimiz budur. Onlar günahsız insanları qətlə yetirirdilər, biz isə onların hərbi infrastrukturunu hədəfə aldıq və onların cavabını verdik. Səhər saat 9-da feldmarşal mənə zəng edərək dedi ki, cənab Baş nazir, Hindistan bizə müraciət edib ki, atəşkəs elan edək, hansı təlimatlarınız olacaq. Mən dedim ki, feldmarşal, Allah bizə qələbə günü nəsib etdi. Gəl indi Hindistanın bu müraciətini müsbət cavablandıraq. Çünki biz inanırıq ki, sülh olmalıdır, atəşkəs olmalıdır və biz bu müharibəyə istənilən üsullarla son qoymalıyıq. Xanımlar və cənablar, bunu bu gün sizinlə bölüşmək istədim.

Azərbaycan vaxtilə Ermənistanın hücumuna məruz qalanda Türkiyə və Pakistan bir qaya kimi Azərbaycanın yanında oldu. Pakistan Hindistan tərəfindən hücuma məruz qaldı və əziz qardaşım Rəcəb Tayyib Ərdoğan, bizim türkiyəli olan qardaş və bacılarımız dərhal Pakistanı dəstəklədilər. Əziz qardaşım İlham Əliyev də, azərbaycanlı bacı və qardaşlarımız da eyni qətiyyəti göstərdilər. Onlar Azərbaycanın və Pakistanın həmrəy olduğunu nümayiş etdirdilər. Bu, dərhal baş verdi. Bu, bizim tariximizin ən gözəl anlarından biri idi ki, üç qardaş ölkə vahid ailə olaraq bir araya gəldilər. Çətin zamanda bir araya gəldilər. Biz bunu heç vaxt unutmayacağıq. İnanın mənə ki, qardaşım, Prezident Ərdoğanın və əlbəttə, əziz qardaşım Prezident İlham Əliyevin verdiyi dəstəyin əvəzini mən heç vaxt çıxa bilmərəm. Allah özü sizi mükafatlandıracaq bu qardaşlığa görə. Bu səmimi dəstəyə görə Sizə təşəkkür edirəm.

Bu gün bizim üçtərəfli formatda ikinci toplantımız oldu. Təfərrüata varmadan deyə bilərəm ki, bu üçtərəfli görüş çox səmərəli idi və bizi çox ruhlandırdı. Biz bir çox məsələləri müzakirə etdik və planlarımızı müəyyənləşdirdik ki, üç qardaş dövlət arasında daha sıx əlaqələndirmə olsun inşallah. Bu gün bu füsunkar məkanda – Laçın şəhərində üç ölkənin bayraqları dalğalanır və bu, onu sübut edir ki, bu bayraqlar bir yerdə, hər zaman yüksəklərdə ucalacaq, dalğalanacaq və inşallah, biz firavan gələcəyə doğru inamla irəliləyəcəyik.

Bununla yanaşı, hər iki qardaşıma təşəkkür edirəm ki, bizə Pakistanın ədalətli Cəmmu-Kəşmir məsələsində dəstək göstərirlər. Təəssüflər ki, o gözəl, füsunkar bölgədə qan tökülüb. Onlar onilliklərdir ki, zülmə qarşı mübarizə aparırlar. Onlar hər zamankı kimi qətiyyətlidirlər. Onlar heç zaman təslim olmayacaqlar, o vaxta qədər mübarizə aparacaqlar ki, onların BMT Nizamnaməsinə uyğun hüquqları təmin edilsin, Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr icra olunsun. Pakistan hər zaman kəşmirlilərin yanında olmuşdur, eyni zamanda, Türkiyə və Azərbaycan da eyni qətiyyəti nümayiş etdiriblər. İnşallah elə bir gün gələcək ki, tezliklə bu, baş verəcəkdir. Kəşmir xalqı da öz hüquqlarını təmin edəcək və mən deyərdim ki, bu quldarlıqdan canlarını qurtaracaqlar.

Xanımlar və cənablar, Qəzzada baş verənlər də o qədər fərqli deyil. 52 min fələstinli, o cümlədən qadınlar və uşaqlar, yaşlılar, mühəndislər, həkimlər şəhid olublar. Bu gün biz burada toplaşdığımız bir vaxtda da Qəzzada qan tökülür. Məncə, müasir tarixdə ona bənzər acınacaqlı mənzərə olmamışdır və sivil dünya nə vaxtadək bu vəhşiliyə göz yumacaqdır. Bu, İsrail tərəfindən törədilən barbarlıqdır və bir daha birlikdə pislənilməlidir. Türkiyə Prezidenti, əziz qardaşım Ərdoğan hər zaman bu çağırışları etmişdir. Təkcə müsəlman dünyasında deyil, bütün beynəlxalq arenada onun səyləri yüksək qiymətləndirilir ki, əziyyət çəkən insanlara dəstək verilsin. Mənim əziz qardaşım İlham Əliyev də eyni mövqedən çıxış edir. Pakistan da həmin mövqedən çıxış edir.

Əziz qardaş və bacılarımız, bu gün burada sizin qarşınızda çıxış edərək demək istəyirəm ki, biz səsimizi ən yüksək səviyyədə ucaltmalıyıq ki, bütün dünya Türkiyənin, Azərbaycanın və Pakistanın səsini eşitsin. Çünki Qəzzada mütləq atəşkəs əldə edilməlidir. Bu, nə qədər tez olsa, o qədər yaxşıdır. Çünki bu, bəşəriyyət naminə olmalıdır. Bizim orada olan qardaş və bacılarımızın qətlə yetirilməsi dərhal dayandırılmalıdır. Bizim fələstinli qardaş və bacılarımız azadlıq və ədalət naminə öz müqəddəratını müəyyən etmək hüququna nail olmalıdırlar. Orada məsələ iki dövlət prinsipi əsasında öz həllini tapmalıdır və bu prinsipi bütün dünya dəstəkləyir.

Xanımlar və cənablar, çıxışımın sonunda deyirəm ki, Türkiyənin, Azərbaycanın və Pakistanın bayraqlarında olan aypara hər zaman bir-birinin yanında ucalsın, işıq saçsın və bu, bizim gücümüzün, birliyimizin, inamımızın, xalqlarımızın və müsəlman dünyasının ümidinin rəmzinə çevrilsin.

Yaşasın Pakistan! Yaşasın Pakistan-Azərbaycan-Türkiyə qardaşlığı!

Allah sizi qorusun!



Çıxışlardan sonra Azərbaycan, Türkiyə və Pakistan mahnılarından ibarət konsert proqramı təqdim olundu.



# Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağı keçirilib



Noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaq keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Əvvəlcə dövlətimizin başçısı Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin üzvləri və Akademiyanın 80 illik yubiley yığıncağında iştirak edən xarici qonaqlarla görüşdü.

Sonra Prezident İlham Əliyev tədbirdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Hörmətli alimlər.



Mən sizi Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm, Akademiyanın gələcək fəaliyyətinə uğurlar arzulayıram. Əminəm ki, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan alimləri bundan sonra da ölkəmizin uğurlu inkişafına öz töhfələrini verəcəklər.

Akademiya 80 il ərzində böyük yol keçmişdir, Azərbaycanda elmin inkişafında aparıcı rol oynamışdır. Bu illər ərzində biz müxtəlif ictimai-siyasi quruluşlarda yaşasaq da, Azərbaycan hər zaman öz elminin inkişafına böyük diqqət yetirirdi. Sirr deyil ki, Ulu Öndər Heydər Əliyev hər zaman Azərbaycan alimlərini dəstəkləmək üçün öz səylərini əsirgəmirdi. Hələ ötən əsrin 70-ci illərində onun rəhbərliyi ilə Akademiyanın fəaliyyəti təkmilləşdi, bir neçə yeni elmi-tədqiqat institutu yaradıldı, elmin inkişafına böyük vəsait ayrılırdı. Faktiki olaraq bu siyasət müstəqillik illərində də davam etdirilirdi. Ulu Öndərin təşəbbüsü ilə keçən əsrin 70-ci illərindən başlayaraq yüz minlərlə Azərbaycan gənci o vaxt Sovet İttifaqının aparıcı ali məktəblərinə göndərilmişdir və beləliklə, ölkəmizdə intellektual potensial daha da güclənmişdir. Eyni siyasəti biz müstəqillik illərində də aparırıq. Bu gün də on minlərlə Azərbaycan gənci artıq dünyanın aparıcı ali məktəblərinə ezam olunur. Onların böyük əksəriyyəti oxuyub Vətənə qayıdırlar və beləliklə, ölkəmizin inkişafına öz dəyərli töhfələrini verirlər.

Müstəqilliyin ilk illəri çox ağır idi, faciəvi idi. O vaxt məhz Heydər Əliyevin qətiyyəti, iradəsi, xalqa olan bağlılığı bizi böyük bəlalardan qurtara bilmişdir. O da çox böyük göstəricidir ki, onun hakimiyyətə qayıdışından sonra Azərbaycan ziyalıları ilə, Azərbaycan ictimaiyyəti ilə ilk görüşü məhz 1993-cü ildə Milli Elmlər Akademiyasında olmuşdur. Beləliklə, o, bir daha müstəqil Azərbaycanın, yəni, yeniləşən Azərbaycanın prioritetlərini açıq şəkildə bəyan etmişdir. Düzdür, o vaxt bizim maliyyə imkanlarımız çox məhdud



idi, demək olar ki, yox idi, xəzinə boş idi. Azərbaycan böyük humanitar fəlakətlə üz-üzə idi. Bir milyondan çox qaçqın və məcburi köçkün, torpaqlarımızın işğal altına düşməsi və çox böyük iqtisadi, maliyyə çətinlikləri. Amma buna baxmayaraq, yenə də Akademiyanın işinə, Akademiyanın qorunmasına, alimlərin fəaliyyəti üçün vəsait ayrılırdı.

Təbii ki, illər keçdikcə, Azərbaycan inkişaf etdikcə bu vəsait daha böyük həcmdə ayrılır. Son on il ərzində Azərbaycan elminə ayrılan vəsait iki dəfədən çox artmışdır. Mənim prezidentlik dövrümdə də bu istiqamətdə, yəni, Azərbaycan elminin inkişafına göstərilən diqqət Ulu Öndərin siyasətinə uyğun şəkildə aparıldı. Bir çox addımlar atıldı. Akademiyanın maddi-texniki bazası möhkəmləndirilmişdir və burada yerləşən, bu akademiya şəhərciyində yerləşən binaların təmiri aparıldı. Buraya, elmə aidiyyəti olmayan, akademiyanın bəzi binalarını zəbt etmiş qurumlar buradan çıxarıldı. Yeni böyük elmi kitabxana inşa edilmişdir. Milli Ensiklopediya üçün yeni bina inşa edilmişdir. Elmi-tədqiqat institutlarının, dediyim kimi, təmiri və avadanlıqlarla təchizi təmin edilmişdir. Elm Fondu hələ 2009-cu ildə yaradılmışdır. O vaxt bu Fondun yaradılmasının əsas məqsədi Azərbaycan alimlərinə maddi dəstək vermək, elmin inkişafına qrantlar çərçivəsində təkan vermək idi. Elmin inkişafı üzrə Milli Strategiya qəbul edilmişdir. “Elm haqqında” Qanun qəbul edilmişdir, Dövlət Proqramı qəbul edilmişdir. Yəni, görülmüş bütün işləri sadalamaq üçün çox vaxt lazımdır. Sadəcə olaraq, bunu bildirməliyəm ki, bütün başqa sahələrdə olduğu kimi, bu istiqamətdə də Heydər Əliyev siyasəti davam edir, yaşayır, yeni formalarla zənginləşir.

Mən 10 il bundan əvvəl – Akademiyanın 70 illiyində bax bu salonda alimlər qarşısında çıxış etmişdim və çalışırdım ki, bu 10 il ərzində ölkə qarşısında duran bütün başqa vəzifələrlə yanaşı, elmin inkişafına da öz dəstəyimi göstərim. Bu gün bəzi fikirlərimi sizinlə bölüşmək istəyirəm. Çünki son 10 il ərzində həm dünyada, həm Azərbaycanda köklü dəyişikliklər baş vermişdir. Dünya iqtisadiyyatı tamamilə dəyişmiş, dünyada gedən siyasi proseslər, müharibələr, hərbi toqquşmalar, beynəlxalq hüququn pozulması, mövcud olan qaydaların tamamilə aradan qaldırılması göz önündədir. Azərbaycana gəldikdə, son 10 il bizim üçün inkişaf və zəfərlərlə zəngin illər olmuşdur. Əsas vəzifə – torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası, suverenliyimizin bərpası layiqincə təmin edilmişdir. Bu gün Azərbaycan bütün suveren torpaqlara sahibdir. Bizim ərazimizdə işğalçı qüvvələr yoxdur. Bizim ərazimizdə xarici hərbi birləşmələr yoxdur. Bu gün biz bu torpaqlarda qurub-yaradırıq. Biz bir neçə gündən sonra şanlı Zəfərimizin beşinci ildönümünü qeyd edəcəyik. Son beş il ərzində dünyada bir çox yerlərdə müharibələr, toqquşmalar, münaqişələr baş verirdi və hər şey müqayisə ilə ölçülür. Bunu da alimlər yaxşı bilir. Deyə bilərəm ki, bizim qədər parlaq, tam və mütləq Qələbə qazanan ikinci ölkə olmamışdır.

Azərbaycan tamamilə yeni vəziyyətdə yaşayır və əlbəttə ki, öz addımlarımızı dəyişən dünyada gedən proseslərə həm uyğunlaşdırmalıyıq, həm də ki, bir çox təşəbbüslər irəli sürməliyik. Ona görə təbii ki, illər keçdikcə qarşıda duran vəzifələr də dəyişir. Ona



görə bugünkü inkişafla bağlı, inkişafın gələcək istiqamətləri ilə bağlı əlbəttə ki, prioritetlər əvvəlki dövrdən fərqlənir. Bu gün sirr deyil ki, hər bir ölkənin inkişafını, eyni zamanda, təhlükəsizliyini o ölkənin texnoloji imkanları şərtləndirir. Bu gün biz bunu iqtisadi inkişafda görürük, yeni texnologiyaların tətbiqində görürük, yeni müharibələrdə görürük. Ona görə texnoloji inkişaf bizim üçün əsas prioritet olmalıdır və əlbəttə, burada Azərbaycan alimlərinin üzərinə böyük vəzifə düşür. Təbii ki, Azərbaycan dövlətinin üzərinə böyük vəzifə düşür ki, biz bu texnoloji inkişafı bütün sahələrdə tətbiq edək və beləliklə, bizim inkişafımız dayanıqlı olsun.

Artıq hər kəs görür və bilir ki, hər bir ölkənin inkişafını təbii resurslar yox, məhz cəmiyyətin intellektual potensialı, texnoloji inkişaf, elmin inkişafı müəyyən edir. Yəni, təbii resurslar bizim üçün sadəcə olaraq bir vasitədir, bir imkandır ki, biz təbii resursların ixracından əldə etdiyimiz vəsaiti insan kapitalına yönəldək, texnoloji inkişafa yönəldək ki, gələcəkdə bizim inkişafımız dayanıqlı olsun. Hər kəs yaxşı bilir ki, təbii sərvətlər tükənən sərvətlərdir, gec-tez tükənəcək. Tükənməz sərvət isə intellektual potensialdır, amma o halda əgər buna sərmayə qoyularsa. O sərmayəni dövlət qoymalıdır. Ölkənin elm ictimaiyyəti, alimlər bu istiqamətdə öz səylərini göstərməlidirlər. Ona görə bu gün əsas vəzifələrdən biri texnoloji inkişafdır.

Süni intellekt. On il bundan əvvəl bu barədə heç kim heç nə danışmırdı. Bu gün artıq bu, ölkələrin gələcək inkişafının ayrılmaz hissəsidir. Biz burada geri qalmamalıyıq. Ona görə dövlət lazımi addımları atır. Biz hər zaman əsas aparıcı xəttin, yəni, "mainstream"in, əgər belə demək mümkündürsə, arxasınca gedirik və geri qalmamalıyıq. Ona görə Azərbaycanda süni intellektin həm inkişafı, həm də həyatda, iqtisadiyyatda, texnoloji inkişafda tətbiqi bu gün reallıqdır və əlbəttə ki, biz burada Azərbaycan alimlərinin fəal iştirakını gözləyirik.

Bu istiqamətdə aparılan digər islahatlar nəticəsində əldə edilmiş uğurlar rəqəmsallaşma ilə bağlıdır. Biz rəqəmsallaşmanı ölkəmizdə geniş miqyasda tətbiq edirik və bunun faydasını görürük. Yəni, bəlkə də geniş ictimaiyyət bunu yaxından izləmir. Ancaq biz görürük ki, rəqəmsallaşma olan sahələrdə artıq işin keyfiyyətinin əmsalı da artır, səmərə də artır və nəticə etibarilə daha gözəl nəticələr hasil edilir. Ona görə təsadüfi deyil ki, artıq bir müddət bundan əvvəl bizim hökumət strukturunda nazirliyə "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" adı verilmişdir və bu istiqamətdə də addımlar atılır. Azərbaycan alimlərini burada yenə də fəal olmağa dəvət edirəm.

Digər vacib məsələ kibertəhlükəsizliklə bağlıdır. İndi dünyada kiberhücumlar geniş vüsət alıb. Azərbaycan da bu hücumlara bu il məruz qalmışdır və Kibertəhlükəsizlik Mərkəzinin yaradılması vaxtında atılmış addımdır. Biz beynəlxalq tərəfdaşlarla, bu sahədə böyük təcrübəyə malik olan şirkətlərlə çox geniş proqramlar üzərində işləyirik ki, özümüzü maksimum dərəcədə qoruya bilək, müdafiə edə bilək. Çünki kibertəhlükəsizlik, yəni, virtual təhlükəsizlik deyil. Bu, hər bir ölkənin fiziki təhlükəsizliyidir. Bu gün həm müharibələrin, deməli, aparılma qaydaları dəyişir, təhlükələrin mənbələri dəyişir və dünya dəyişir. Ona görə bu sahəyə əgər lazımi diqqət göstərilməsə, heç bir başqa müdafiə imkanı bizi böyük problemlərdən qoruya bilməz. Ona görə kibertəhlükəsizliklə bağlı həm dövlət, həm Azərbaycanın elm ictimaiyyəti birgə işləməlidir. Əlbəttə ki, eyni zamanda, bizə qarşı kiberhücumlar təşkil edən ölkələr, ya tərəflər, ya qurumlar cəzasız qalmamalıdır. Biz həm özümüzü müdafiə etməliyik, həm də ki, bizə zərər vermək istəyənlərə də layiqli cavab verməliyik.

Bu gün bildiyiniz kimi, Azərbaycanda hərbi sənaye sürətlə inkişaf edir və artıq uzun illər ərzində bu sahəyə böyük vəsait ayrılır, bu sahədə fəaliyyət göstərən şirkətlərin fəaliyyəti təkmilləşir. Eyni zamanda, bu yaxınlarda biz bu sahəni özəl sektor üçün də açmışıq. Çünki bu istiqamətdə ən böyük uğurlar əldə etmiş ölkələrdə hərbi təyinatlı məhsullar məhz özəl şirkətlər tərəfindən istehsal olunur. Ona görə biz də burada lisenziyaları verməklə özəl sektoru cəlb etmişik. Eyni zamanda, mənim tərəfimdən də onlara çağırış olub və bu gün özəl şirkətlər artıq hərbi təyinatlı məhsulların istehsalı ilə məşğul olmağa başlamışlar. Deyə bilərəm ki, hələlik bu proses icra mərhələsindədir, amma yəqin ki, yaxın gələcəkdə bir



olmalıdır. Təkcə elmi əsərlərdə yox, həyatda və iqtisadiyyatın sürətli inkişafını nəzərə alaraq, əlbəttə ki, burada əlaqələndirmə, uzlaşma yüksək səviyyədə olmalıdır. Əminəm ki, bu sözlərdən sonra bizim dövlət qurumlarımız Azərbaycan alimləri ilə daha fəal işləyəcəklər.

Bizim iqtisadi göstəricilərimiz çox müsbətdir. Düzdür, ümumi daxili məhsul çox artmır. Bunun da əsas səbəbi neft hasilatının obyektiv səbəblərə görə aşağı düşməsidir. Ancaq bu gün iqtisadiyyatımızın aparıcı təkanverici qüvvəsi qeyri-neft sektordur. Bu, bizim ümumi iqtisadiyyatımızın əksəriyyətini təşkil edir. Bu gün dünyanın aparıcı reytinq agentlikləri – iki aparıcı beynəlxalq reytinq agentliyi bizim kredit reytinqimizi qaldırıb və bunu investisiya reytinqinə uyğun səviyyədə artırıb. Bu, əlbəttə ki, ölkəmizdə gedən iqtisadi islahatların təzahürüdür. Çünki bu gün bizim iqtisadiyyat sağlam iqtisadiyyatdır. Biz heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq siyasi müstəqilliyi də gücləndirir. Bizim xarici borcumuz çox aşağı səviyyədədir. Sirr deyil ki, bir çox inkişaf etmiş ölkələrdə xarici borc o ölkələrin ümumi daxili məhsulunun yüz faizini, bəlkə də daha çox təşkil edir. Bizdə isə bu, cəmi 6 faizdən bir qədər çoxdur. Bizim valyuta ehtiyatlarımız ildən-ilə artır və bu il də əhəmiyyətli dərəcədə artıb, 80 milyard dolları ötüb. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 16 dəfə çoxdur. Biz əgər istəsək, xarici borcumuzu bir neçə ay ərzində sıfırlaya bilərik. Yəni, bu göstəriciyə görə Azərbaycan bu gün dünya miqyasında aparıcı yerlərdədir. Əlbəttə ki, iqtisadi və maliyyə dayanıqlılığı bizə imkan verir ki, böyük investisiya layihələrini icra edək. Təbiidir ki, bu gün əsas investisiya layihələrinin istiqaməti Qarabağ və Şərqi Zəngəzurdur. Azad edilmiş bu torpaqlarda da dünyada misli görülməmiş işlər görülür. Yəni, Azərbaycan ictimaiyyəti müntəzəm olaraq bu barədə məlumatlandırılır və bir çox vətəndaşlarımız artıq azad edilmiş torpaqlara gediblər. Dəfələrlə orada olublar və gedən inkişafı öz gözləri ilə görürlər. Yəni, bizim güclü iqtisadiyyatımız bizə həm əminlik verir, həm də azad edilmiş torpaqların tezliklə bərpa edilməsinə imkan verir. Güclü hərbi potensialı yaratmaq üçün imkan verir. Çünki yenə də demək istəyirəm ki, bu gün dünyada qaydalar tamamilə dəyişib. Beynəlxalq təşkilatlar, yəni, onların bir çoxu iflic vəziyyətindədir. Onların qərarları icra edilmir. Necə ki, BMT Təhlükəsizlik

çox Azərbaycan şirkətləri artıq dünya səviyyəli keyfiyyətli hərbi təyinatlı məhsullar istehsal edəcəklər. Eyni zamanda, dövlət xətti ilə bu istiqamətdə işlər aparılır və biz öz hərbi imkanlarımızı artıq böyük dərəcədə yerli istehsal hesabına genişləndiririk, öz tələbatımızı böyük dərəcədə ödəyirik. Artıq bir çox ölkələrə hərbi təyinatlı məhsul ixrac edirik və qarşıya vəzifə qoyulub ki, həm daxili tələbatı ödəmək, həm də ixrac etmək üçün bizdə bu istiqamətdə çox ciddi sənaye klasteri yaradılsın. Çünki bu, çox gəlirli sahədir və nəzərə alsaq ki, bu gün dünyanın bütün yerlərində müharibələr alovlanır, dayanmır, əfsuslar olsun ki, hərbi təyinatlı məhsullara bundan sonra da ehtiyac olacaq. Ona görə bu istiqamətdə bu gün biz çox fəal işləyirik. Yenə də deyirəm, biz təbii ki, dövlət və özəl şirkətlərimizi, eyni zamanda, Azərbaycan alimlərini bu istiqamətə dəvət edirik.

Bizim şanlı Vətən müharibəmiz. Bildiyiniz kimi, onun hər bir mərhələsi, hər bir günü öyrənilir, öyrənilib və bir çox beynəlxalq hərbi ali məktəblərində də tədqiq edilir. O cümlədən pilotsuz uçuş aparatlarının tətbiqi. Müharibədə məhz birinci biz bunu tətbiq etmişik. Bu gün müasir müharibələri bunsuz təsəvvür etmək mümkün deyil. Yəni, bunun təməlini biz qoymuşuq və bu gün bu istiqamətdə Azərbaycanda çox böyük işlər görülür. Biz bu məhsulları həm xarici bazarlardan tədarük edirik, eyni zamanda, özümüz də bir çox növdən ibarət pilotsuz uçuş aparatlarını istehsal etməyə başlamışıq və bunu davam etdirəcəyik. Burada da təbii ki, Azərbaycan elmi ictimaiyyəti üçün çox böyük fəaliyyət meydançası yaradılır.

Mən bütövlükdə bildirmək istəyirəm ki, elm iqtisadiyyatla, sənaye ilə sıx bağlı olmalıdır. Burada bu kürsüdən dövlət strukturlarına da göstəriş vermək istəyirəm ki, Azərbaycan alimləri ilə daha sıx işləsinlər.

Çünki bu gün bizim elmimizin praktik nəticələri

Şurasının 4 qətnaməsi 30 il icra edilməmişdir. Əgər biz öz torpaqlarımızı hərbi yolla azad etməsəydik, hələ bundan sonra 100 il də icra edilməyəcəkdi. Beynəlxalq təşkilatların nüfuzu böyük dərəcədə aşağı düşüb. Bu gün güc amili dünyada aparıcı amildir. Yəni, bugünkü dünya budur və belə olan halda təhlükəsizlik, müdafiə potensialı, hərbi güc əsas məsələdir. Əlbəttə ki, güclü iqtisadiyyat, maliyyə resursları olmadan bunu əldə etmək mümkün olmayacaq.

Bu gün yeni sahələr arasında əsas yerdə bərpaolunan enerji növlərinin yaradılmasıdır. Burada da Azərbaycan ön sıralardadır. Bu gün Azərbaycanda icra edilən bərpaolunan enerji layihələri çox genişmiqyaslıdır. Təkcə Qarabağda və Şərqi Zəngəzurda son 5 il ərzində 30-dan çox su elektrik stansiyası inşa edilmişdir. Onların toplam generasiya gücü 300 meqavatdan çoxdur. Günəş və külək elektrik stansiyalarının inşası gedir. Bu yaxınlarda Cəbrayıl rayonunda 100 meqavatlıq iki stansiyanın təməli qoyuldu. O stansiyaların yanında 240 meqavat gücündə üçüncü Günəş elektrik stansiyası inşa edilir. Bütövlükdə 2030-cu ilə qədər Günəş, külək və su elektrik stansiyalarının generasiya gücü 6 min meqavata çatmalıdır. Bu, böyük bir sənaye sahəsidir, sənayenin inkişafının növbəti istiqamətidir. Azərbaycan alimlərini burada da fəal olmağa dəvət edirəm.

Geoloji kəşfiyyat işləri xüsusilə Qarabağda və Şərqi Zəngəzurda çox böyük əhəmiyyət kəsb edir. Çünki bu ərazi sovet vaxtında lazımınca tədqiq edilməmişdir və tədqiq edilsə idi belə, yenə də ovaxtkı texnologiyalarla onları tam öyrənmək mümkün deyildi. Yəni, bu gün müasir texnologiyalarla peykdən tədqiqat, zondlama aparılır. Təbii resurslar, o cümlədən qeyri-ənənəvi neft yataqlarının aşkarlanması bir çox hallarda fiziki, yəni, əraziyə girmədən müəyyən edilir. Ona görə mənim göstərişimlə artıq bir neçə aydır ki, Qarabağda və Şərqi Zəngəzurda böyük geoloji işlər aparılır. Azərbaycan alimlərini bu işlərə dəvət edirəm, dövlət strukturlarına da göstəriş verirəm. Hesab edirəm ki, yaxın bir neçə ay ərzində bizə çox yaxşı xəbərlər gələcək. Bizim çox zəngin təbii resurslarımız var – qızıl, gümüş, mis yataqları, polimetal yataqlar. Onların aşkarlanması, kəşfiyyatı, işlənməsi bizə böyük xeyir gətirəcək, Qarabağ və Şərqi Zəngəzur regionlarımızda iş yerlərinin böyük sayda yaradılmasına gətirib çıxaracaqdır.

Təbii ki, Qarabağ və Şərqi Zəngəzur haqqında danışdıqda Azərbaycan tarixi haqqında da danışmalıyıq. Bizim zəngin tariximiz əfsuslar olsun ki, Ermənistan tərəfindən, erməni diasporu tərəfindən uzun illər ərzində təhrif edilmişdir və bu istiqamətdə bizə qarşı aparılan təbliğat bu gün də dayanmır. Ona görə bunun qabağına biz öz həqiqətlərimizi qoymalıyıq. Bu barədə mən 10 il bundan əvvəl Akademiyanın 70 illiyində danışmışam. Bu gün də bu barədə danışmaq istəyirəm ki, biz öz tariximizi tədqiq və təbliğ etməliyik. Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər. Bilməlidirlər ki, Azərbaycan xalqının tarixi, dövlətçilik tariximiz, xalqımızın qurub-yaratma qabiliyyəti çoxəsrlidir. Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır. Təkcə onu demək kifayətdir ki, bizim hüdudlarımızın o tayında hər istiqamət üzrə Azərbaycan əhalisi yaşayır. Ermənistanda da yaşayıb, amma oradan qovulub. Amma əminəm ki, yenə də yaşayacaq. Çünki biz bu gün bütün qonşu ölkələrlə sərhədlərimizin o tayında görürük ki, orada Azərbaycan əhalisi öz əzəli tarixi torpaqlarında yaşayır və yaşadıqları ölkələrdə ləyaqətli vətəndaşlar kimi yaşayırlar. Azərbaycanlılar heç vaxt separatizm xəstəliyinə düçar olmamışlar. Bizim xalqımız yaşadığı ölkələrin dövlətçiliyinə töhfə verib və bu gün heç bir ölkədə azərbaycanlılar heç bir dövlət üçün, heç bir başqa xalq üçün problem yaratmır və yaratmayacaq. Ona görə azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır. Mən bunu artıq bir müddət bundan əvvəl demişəm. Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq. Bunu etmək üçün, əlbəttə ki, əsas vəzifə dövlətin üzərinə düşür. İctimai təşkilatlar və eyni zamanda, Azərbaycan alimləri, mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıb. Onların sayı daha çox olmalıdır. Həm elmi əsərlər, sərgilər, təqdimatlar, tarixi xəritələrin dərc edilməsi. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. O xəritələrdə Sevan gölü adlı göl yoxdur. O xəritələrdə Göyçə gölüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb. O xəritələri biz tərtib etməmişik ki, kimsə desin biz burada saxtakarlıq eləyirik. Bunu çar Rusiyası edib. Həmin o çar Rusiyası ki, vaxtilə erməniləri İrandan və Şərqi Anadoludan gətirərək bizim Qarabağ torpağında yerləşdirib ki, burada etnik və dini tərkib dəyişsin. Yəni, bu xəritələr tamamilə tarixi həqiqətə əsaslanan xəritələrdir. Ona görə biz bunu təbliğ etməliyik, tədqiq etməliyik. Daha çox elmi əsərlər, daha çox hətta kiçikhəcmli bukletlər hazırlanmalıdır ki, həm Azərbaycan gəncləri öz tarixini yaxından bilsinlər, həm dünya ictimaiyyəti bilsin və eyni zamanda, indiki Ermənistana bizim qayıdışımız da tamamilə məntiqli və ədalətli səslənsin. Ona görə Azərbaycan tarixi ilə bağlı bax, bu istiqamətdə əlbəttə ki, əlavə addımlara ehtiyac var. Bütövlükdə müstəqil Azərbaycan dövlətinin tarixi ilə bağlı sanballı elmi əsərlərə də böyük ehtiyac var.

Artıq 30 ildən çoxdur ki, biz müstəqil dövlət kimi yaşayırıq və Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində Azərbaycan bugünkü qədər güclü olmamışdır. Ona görə müstəqil Azərbaycanın tarixini tədqiq edən, təbliğ edən bir çox əsərlərə ehtiyac var.

On il bundan əvvəl mən bu kürsüdən, eyni zamanda, Azərbaycan dili haqqında danışmışdım, öz narahatlığımı ifadə etmişdim. Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram. Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Ancaq təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları bizik – müstəqil Azərbaycan dövləti. Mən azərbaycanlıların yaşadıqları müxtəlif bölgələrdə vəziyyətlə müntəzəm surətdə olaraq tanış oluram, diqqətdə saxlayıram, lazımi tədbirlər görürəm. Görürəm ki, bəzi yerlərdə bizim ədəbi dilimiz digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirilir. Daha çox məişət dili kimi istifadə olunur, xarici kəlmələrlə dolu olur. Ona görə biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik. Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Bizim dilimiz qədimdir. Yenə də deyirəm, 50 milyondan çox insan üçün Ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir.

Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Yenə də deyirəm, 10 il bundan əvvəl mən bu məsələni qaldırmışdım. Çünki bu, məni narahat edirdi. On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya bilək. Amma yenə də oradan-buradan eşidirəm, - həm televiziyalarda, həm yazılı mediada, həm bəzi insanların çıxışlarında, - buna heç bir gərək yoxdur. Yəni, biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər. Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm. Azərbaycan alimlərindən də bax, bu məsələyə də öz münasibətini və dəstəyini göstərmək çağırışını edirəm.

Qeyd etdiyim kimi, bir neçə gündən sonra biz tarixi Zəfərimizin beş illiyini qeyd edəcəyik. Hərbi parad təşkil ediləcək. Beş il əvvəl, 2020-ci ilin dekabrında Zəfər paradı keçirilmişdir. 2023-cü ildə Xankəndidə hərbi parad keçirilmişdir ki, Azərbaycanın suverenliyi tam bərpa edilmişdir. Bir neçə gündən sonra Azadlıq meydanında hərbi paradın keçirilməsi böyük hadisədir, qürurverici hadisədir. Azərbaycan xalqı bu Şanlı Zəfərlə bundan sonra əbədi fəxr edəcək.

Mən sizi, bütün Azərbaycan xalqını həm Milli Elmlər Akademiyasının 80 illiyi münasibətilə, həm də qarşıdan gələn Zəfər Günü və Bayraq Günü münasibətilə təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.



# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Zəfər abidəsini ziyarət edib və Zəfər muzeyinin açılışında iştirak ediblər






Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Zəfər abidəsini ziyarət edib və Zəfər muzeyinin açılışında iştirak ediblər.

Prezident İlham Əliyev Zəfər abidəsinin önünə əklil qoydu, şəhidlərin xatirəsini ehtiramla andı.

Birinci xanım Mehriban Əliyeva abidənin önünə gül dəstələri düzdü.

Sonra dövlətimizin başçısı və birinci xanım Zəfər muzeyinin açılışında iştirak etdilər.

Zəfər muzeyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci ilin dekabrında "Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında" Sərəncamından irəli gələrək Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı şanlı Zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılıb.

Muzeyin ekspozisiyası beynəlxalq təcrübə və dünyada mövcud muzey konsepsiyaları əsas götürülməklə,



həmçinin ən son texnologiyalar tətbiq edilməklə işlənilib. Burada 8 ekspozisiya zalı yaradılıb: “Qarabağ və Şərqi Zəngəzur. Əsrlərin hekayəsi”, “Ermənistan–Azərbaycan münaqişəsi. Tarixə baxış”, “44 günlük Vətən müharibəsi. “Dəmir yumruq” əməliyyatı”, “Şanlı Zəfər. Şuşanın azad olunması”, “Qəhrəmanlar yolu”, “Qarabağ Azərbaycandır!”, “Dövlət suverenliyinin bərpası. 20.09.2023”, “Qarabağ və Şərqi Zəngəzur. Dirçəliş”.

Təqdim olunan faktlar, foto və videomateriallar, interaktiv nümayişlər və xüsusi olaraq bu muzey üçün



hazırlanmış eksponatlar, maketlər münaqişə haqqında həqiqətləri, 44 günlük Vətən müharibəsinin gedişi, şanlı Zəfər nəticəsində dövlət suverenliyinin bərpa olunması barədə məlumatları ziyarətçiyə dolğun çatdırmaqla yanaşı, həm də bu hadisələri hər bir kəsə yenidən yaşadır.

Muzeyin girişində tarixi Qələbənin rəmzinə çevrilmiş "Dəmir yumruq" instalyasiyası və Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin çıxışından fikirlər əks olunur. Muzeyi əhatə edən divarda 44 günlük Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın adı ehtiram əlaməti kimi həkk edilib. Divarboyu axan su daimi həyat mənbəyi kimi şəhidlərimizin qəhrəmanlıqları ilə ölümsüzlüyə qovuşduqlarını, hər zaman qəlbimizdə yaşadıqlarını simvolizə edir. Muzeyin ekspozisiya zallarında isə Qarabağda Vətən müharibəsinədək və Zəfər Günündən sonra həlak olmuş şəhidlərimizin adları var.





**Muzeyin "Qarabağ və Şərqi Zəngəzur. Əsrlərin hekayəsi"** adlı birinci zalında Azərbaycanın mədəniyyət beşiyi olan Qarabağın təbii gözəlliyi, tarixi memarlıq baxımından zənginliyi təqdim edilir. Zalın divarındakı kitab instalyasiyalarında Ümummilli Lider Heydər Əliyevin bölgənin sosial-iqtisadi inkişafına verdiyi töhfələrə dair geniş məlumatlar var.

Zalın mərkəzində yerləşən interaktiv kitablar isə Qarabağın təbiəti, ədəbi irsi, musiqisi və xalq sənəti ilə yaxından tanış olmağa imkan yaradır. Eyni zamanda, ziyarətçilərə Qarabağın dövlətçilik, hərb, ədəbiyyat və incəsənət sahələrində iz qoymuş görkəmli şəxsiyyətlərinə dair məlumatlar çatdırılır.

Zəfər muzeyinin **"Ermənistan–Azərbaycan münaqişəsi. Tarixə baxış"** zalı Qarabağ münaqişəsinin ağrılı və unudulmaz səhifələrini əks etdirir. Burada münaqişənin xronologiyası, Ulu Öndərin və dövlətimizin başçısının apardıqları ardıcıl siyasət nəticəsində torpaqlarımızın işğaldan azad olunması, sülh prosesi barədə məlumatlar yer alıb. Zalda qaçqınlar və məcburi köçkünlər, münaqişə qurbanları, eləcə də işğal dövründə ermənilər tərəfindən dağıdılmış abidələr, məscidlər və milli irsə vurulan ziyan haqqında geniş məlumat təqdim olunur.

Qarabağda işğal dövründə dağıdılmış binaların, yerlə-yeksan edilmiş yaşayış yerlərinin taleyinə həsr olunan instalyasiya – viran qalmış ev və bu evin qalıqları altından baş qaldıran ağac isə həyatın yenidən dirçəlişinin rəmzidir.

**"44 günlük Vətən müharibəsi. "Dəmir yumruq" əməliyyatı"** adlı üçüncü zal Azərbaycan torpaqlarının azadlığı uğrunda aparılan qəhrəmanlıq mübarizəsini əks etdirir. Zalın mərkəzindəki LED monitorlar süni intellektlə hazırlanmış videomateriallarla ziyarətçini 44 günlük döyüşlərin mərkəzinə aparır. Monitorlarda döyüş əməliyyatları, hərbi nailiyyətlər və Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə qarşı hərbi hücumları ilə bağlı materiallar təqdim olunur. Holoqrafik ekranlar isə müasir hərbi texnikanı 3D formatda nümayiş etdirir. İnteraktiv xəritələr işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən hərbi əməliyyatların mərhələlərini ardıcıllıqla göstərir. Bu zalda tarixi Qələbənin qazanılmasında müstəsna xidmətləri olan Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin qoşun növlərinin bayraqları, eyni zamanda, Silahlı Qüvvələrin xüsusi təyinatlılarının maketləri var. Həmçinin burada Azərbaycan Prezidentinin Vətən müharibəsi və Zəfərlə bağlı bir sıra fərman və sərəncamları nümayiş olunur.

**"Şanlı Zəfər. Şuşanın azad olunması"** adlı dördüncü zalda Azərbaycanın hərb tarixində xüsusi yer tutan, misilsiz taktiki bacarıqla həyata keçirilmiş əməliyyatı təqdim olunur. Vətən müharibəsi zamanı xüsusi təyinatlı döyüşçülər ağır artilleriyasız Şuşanı azad edərək böyük qəhrəmanlıq göstəriblər. Zalın mərkəzindəki Şuşa maketi döyüş meydanını əks etdirir, interaktiv monitorlar isə əməliyyatın gedişini və əsas taktiki məqamları ardıcıl izləməyə imkan yaradır. Digər monitorda şəhərin müharibə dövründə dağıdılmış abidələri təqdim edilir. Ekranda şanlı Zəfər yolunun emosional gedişi nümayiş olunur. Bu zal Şuşanın azadlığını, Azərbaycan əsgərlərinin rəşadətini və qəhrəmanlığını əks etdirir.









Azərbaycan əsgər və zabitlərinin igidliyinə, fədakarlığına və yenilməz iradəsinə həsr olunan **“Qəhrəmanlar yolu”** zalı isə ziyarətçilərə torpaqların azadlığı uğrunda aparılan mübarizənin ruhunu hiss etdirir. Burada Vətən müharibəsində iştirak etmiş qəhrəmanlara təqdim olunan orden və medalların nümunələri sərgilənir. Dəhlizi xatırladan “Qəhrəmanlar yolu” ziyarətçiləri xalqın birliyi və qələbə sevincini simvolizə edən növbəti zala aparır.

Növbəti zal isə **“Qarabağ Azərbaycandır!”** adlanır və xalqımız üçün milli bayrama çevrilən Zəfər Gününü, ümumxalq sevincini əks etdirir. Zalın mərkəzində Vətən müharibəsində şanlı Zəfərin və Qarabağın dirçəlişinin rəmzinə çevrilmiş Xarıbülbülün Murano şüşəsindən hazırlanmış instalyasiyası yerləşir. Parlaq işıqlar və rənglər zala bayram ab-havası bəxş edir, vizual effektlər sevinc və qürur hissini gücləndirir. Böyük ekranlarda 30 illik həsrətə son qoyan Zəfərin yaşatdığı qürurverici və sevinc dolu anlar nümayiş olunur.

**“Dövlət suverenliyinin bərpası. 20.09.2023”** adlı yeddinci zal Azərbaycanın suverenliyinin bərpasına həsr olunub. Xəritə instalyasiyasında Qarabağın və Şərqi Zəngəzurun tam azad edildiyi, Azərbaycan tarixində yeni bir dövrün başlandığı nümayiş olunur.

Muzeyin sonuncu **“Qarabağ və Şərqi Zəngəzur. Dirçəliş”** adlı zalı isə Qarabağın bərpasına və gələcək inkişafına həsr olunub. Zalın mərkəzindəki instalyasiyada qəhrəman şəhidlərimizin övladlarının səsi ilə Qarabağın parlaq gələcəyinə dair mesajlar verilir. İşıqlı üç keçid – bərpa, ekoturizm və inkişaf mövzularını əks etdirərək bölgənin yenidən qurulmasına yönəlmiş fəaliyyəti göstərir. Hər keçiddə mədəniyyət, təhsil və infrastruktur layihələrinin maketləri təqdim olunur. İnteraktiv ekranlar Qarabağın təbii gözəlliyini və davam edən bərpa prosesini canlandırır. Bu məkan Qarabağın dirçəlişini, dayanıqlı inkişafını və gələcəyinə olan inamı ifadə edir.

Ekspozisiya zalının çıxışındakı “Danışan fotolar” adlı bölmədə isə Zəfərin hekayəsini və ruhunu əks etdirən fotolar yer alıb. Burada qonaqlar üçün xatirə kitabı da yerləşdirilib.

Muzeydə, eyni zamanda, Auditorium zalı, kitabxana və kafe yaradılıb. Auditorium zalında seminar və konfransların, müxtəlif ictimai tədbirlərin təşkili nəzərdə tutulur. Muzeyin kitabxanasında Azərbaycan tarixinə, mədəni irsinə, artıq keçmişdə qalan Ermənistan-Azərbaycan münaqişəsinə, eləcə də Qarabağın bərpasına və inkişafına dair kitablar, araşdırma materialları təqdim olunur. Gələcəkdə hər bir şəhidimiz barədə toplanmış materialların, eləcə də Vətən müharibəsi qəhrəmanları haqqında sənədli filmlərin muzeyin bazasına yerləşdirilməsi nəzərdə tutulur.

Zəfər muzeyi, muzeyi əhatə edən Zəfər parkı, parkın girişindəki Zəfər tağı Azərbaycan tarixinə həkk olunmuş 44 günlük Vətən müharibəsini, şanlı Qələbəmizi, qəhrəman şəhidlərimizin əziz xatirəsini yaşadır, buraya gələn hər bir ziyarətçinin yaddaşında qürurverici bu tarix yenidən canlanır.

Zəfər muzeyi noyabrın 9-dan ziyarətçilər üçün açıqdır.

# Bakıda Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad keçirilib



Noyabrın 8-də Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif paradda iştirak ediblər.

Azərbaycanın, Türkiyənin və Pakistanın Dövlət himnləri səsləndirildi.

Ümummilli Lider Heydər Əliyevin və qəhrəman şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı paradda çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Əziz hərbçilər.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Mən Sizi və bütün Azərbaycan xalqını şanlı Zəfərimizin beşinci ildönümü münasibətilə ürəkdən təbrik edirəm. Mənim dəvətimi qəbul edən qardaş ölkələrin rəhbərlərini, nümayəndə heyətlərini səmimiyyətlə salamlayıram.



Bu gün bizim paradda Əziz qardaşım, Türkiyə Cümhuriyyətinin cümhurbaşqanı hörmətli Rəcəb Tayyib Ərdoğan iştirak edir. Əziz qardaşım İkinci Qarabağ müharibəsinin ilk saatlarından başlayaraq Azərbaycana, Azərbaycan xalqına, Azərbaycan Ordusuna öz dəstəyini göstərirdi. Onun verdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verirdi, bizi ruhlandırırdı. Qardaş Türkiyə xalqı hörmətli Prezident Ərdoğanın liderliyi ilə Azərbaycana müntəzəm olaraq dəstək göstərmişdir. Müharibə zamanı onun “Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır!” deməsi bütün dünyaya çox ciddi mesaj idi. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq.

Müharibədən və şanlı Zəfərimizdən bir il sonra tarixi Şuşa şəhərində Türkiyə və Azərbaycan prezidentləri Şuşa Bəyannaməsini imzalayaraq bizim əlaqələrimizi ən yüksək zirvəyə - müttəfiqlik səviyyəsinə qaldırmışlar. Bu gün bizim Hərbi paradda Türkiyə hərbçilərinin iştirakı birliyimizin



növbəti təzahürüdür.

Beş il bundan əvvəl Zəfər paradında da əziz qardaşım Rəcəb Tayyib Ərdoğan bizimlə bərabər idi. Bu gün isə bizimlə bərabər digər əziz qardaşım iştirak edir. Qardaş Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif bizim qonağımızdır. Pakistan dövləti və xalqı 44 günlük Vətən müharibəsi zamanı Azərbaycana dəstək və həmrəylik göstərmişdir. Bu gün ilk dəfə olaraq Azadlıq meydanında Pakistan hərbçiləri də bizimlə bərabər iştirak edirlər. Bu, üç ölkənin - Azərbaycan, Türkiyə, Pakistan xalqlarının, ordularının birliyinin təzahürüdür.

Dost ölkələrdən gəlmiş bütün qonaqları salamlayıram və onların bu gün bizimlə bərabər olmaları bir daha birliyimizi, həmrəyliyimizi, qarşılıqlı dəstəyi əyani şəkildə göstərir.

1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın təxminən 20 faizi işğal altına düşmüşdü. Bir milyon Azərbaycan vətəndaşı qaçqın, köçkün vəziyyətinə salınmışdır. Xalqımıza qarşı hərbi cinayətlər törədilmişdir. Xocalı soyqırımı törədilmişdir, etnik təmizləmə siyasəti aparılırdı. Bu, bizim iradəmizi sındırmadı. Azərbaycan heç vaxt işğalla barışmaq fikrində deyildi. Biz sülh danışıqlarını apararkən, eyni zamanda, bəyan edirdik ki, əgər bu danışıqlar nəticə verməsə, Azərbaycan istənilən yollarla, o cümlədən hərbi yolla öz tarixi, əzəli torpaqlarını azad edəcək.

Uzun müddət davam edən danışıqların nəticəsi sıfır olmuşdur. Onun da əsas səbəbi o idi ki, Ermənistan öz xoşu ilə bir qarış torpağı azad etmək fikrində deyildi. Ermənistanın arxasında duran bəzi dövlətlər isə onlara siyasi, iqtisadi və hərbi dəstək göstərərək onlarla həmrəy idi. Onların fikri əzəli Qarabağ torpağımızı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək idi. Bizim isə siyasətimiz ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa etməkdən ibarət idi. Hələ 2003-cü ildə ilk dəfə Azərbaycan Prezidenti vəzifəsinə seçiləndə mən bəyan etmişdim ki, nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. Biz güc toplayırdıq və aydan-aya, ildən-ilə gücümüz artırdı. Biz beynəlxalq arenada öz səsimizi ucalda bildik. Bütün aparıcı beynəlxalq təşkilatlarda ölkəmizin münaqişə ilə bağlı mövqeyi üstünlük təşkil edirdi. Bir çox qərar və qətnamələr bizim Zəfərimizin hüquqi və siyasi əsasını təşkil edirdi. Biz güclü iqtisadiyyat qurmuşduq. Əgər bunu etməsəydik, bizim maliyyə imkanlarımız çox məhdud idi. Biz iqtisadi müstəqillik qazanmışdıq və bu gün Azərbaycan iqtisadi cəhətdən heç bir ölkədən asılı deyil. Bu, bizə daha böyük siyasi güc verirdi. Biz müstəqil siyasət aparan ölkə idik. Bu amillər digər amillərlə bərabər bizi şanlı Zəfərə yaxınlaşdırırdı.

Azərbaycanda ictimai-siyasi sabitlik tam bərqərar olmuşdur. Vətəndaş həmrəyliyi, vətəndaş birliyi, xalq-iqtidar birliyi əsas amillərdən biridir. Biz gənc nəsli vətənpərvərlik ruhunda, Vətənə sevgi ruhunda tərbiyə etmişik və bizim gənclərimiz 44 gün ərzində öz sinələrini qabağa verərək, güllə altına gedərək tarixi torpaqlarımızı işğalçılardan azad etdilər. Vətənpərvərlik, mənəvi keyfiyyətlərimiz şanlı Zəfərimizin əsas amillərindən biridir.

Biz enerji və nəqliyyat layihələrini uğurla həyata keçirərək bir çox ölkələr, böyük coğrafiya üçün əvəzolunmaz ölkəyə çevrildik. Bütün bu amillərlə bərabər, ordu quruculuğu hər zaman prioritet məsələ olaraq qalırdı. Biz güclü ordu, güclü Silahlı Qüvvələr yaratmışıq. Ordumuzun döyüş qabiliyyətini artırmışıq, ordumuzu ən müasir silahlarla, texnika ilə təchiz etmişik. Bütün bu və digər amillər bizim Qələbəmizi, şanlı Zəfərimizi şərtləndirmişdir.

Ermənistan isə düzgün nəticə çıxara bilməmişdir və İkinci Qarabağ müharibəsi ərəfəsində daha da azğınlaşmışdı, bizə qarşı yeni ərazi iddiaları ilə çıxış etməyə başlamışdı. Onlar bizi yeni müharibə ilə hədələyirdilər. Hətta deyirdilər ki, onlar yeni torpaqlar uğrunda yeni müharibə aparacaqlar və Azərbaycanı tam işğal edəcəklər. Deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq. Deyirdilər ki, onlar Bakıda çay içəcəklər. Əslində, onların bu arzuları həyata keçdi. Onları biz gerçəkləşdirdik. Onların tankları bu gün Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Erməni hərbi cinayətkarları bu gün Bakıda məhkəmə qarşısında cavab verirlər və istintaq təcridxanasında Azərbaycan çayını içirlər.

44 gün ərzində bizim şanlı Silahlı Qüvvələrimiz hər gün irəli gedirdi, bir gün bir addım geriyə atmamışdır. Böyük peşəkarlıq, rəşadət, qəhrəmanlıq



oldular. Ondan bir gün sonra - noyabrın 9-dan 10-na keçən gecə Ermənistan rəsmən təslim olaraq kapitulyasiya aktına imza atdı. Beləliklə, ərazi bütövlüyümüzü, tarixi ədaləti, beynəlxalq hüququ və milli ləyaqətimizi biz özümüz bərpa etdik.

Bu gün isə Qarabağ və Şərqi Zəngəzur dirçəlir. Bu gün "Böyük Qayıdış" Proqramı icra edilir. Məktəblər, xəstəxanalar, sənaye müəssisələri, elektrik stansiyaları, su anbarları, evlər tikilir. Artıq 60 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, çalışır və təhsil alır. Bütün bu tarixi nailiyyətlərlə bağlı bir daha əziz xalqımı təbrik edirəm. Biz bu beş ili qürur hissi ilə yaşamışıq. Əminəm ki, bundan sonra Azərbaycan xalqı qəhrəman, müzəffər xalq kimi, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaqdır. Biz - bu torpaqların sahibləri Qarabağa, Şərqi Zəngəzura qayıtmışıq və bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan Bayrağı bu torpaqlarda əbədi dalğalanacaqdır.

Mən bütün Azərbaycan xalqını şanlı Zəfərimiz münasibətilə bir daha ürəkdən təbrik edirəm, Azərbaycan xalqına cansağlığı, yeni uğurlar arzulayıram. Qarabağ Azərbaycandır!

və fədakarlıq göstərmişdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz bütün dünyaya güclü dövlət və müzəffər xalq kimi özümüzü göstərmişik. Bunu döyüş meydanında sübut etmişik. 44 gün ərzində döyüş meydanında 300-dən çox şəhər və kənd düşmənlərdən azad edildi. Biz düşməni qova-qova irəliyə gedirdik və azad edilmiş hər şəhər və kənd, orada qaldırılan Azərbaycan Bayrağı bizim Ordumuzu, xalqımızı daha da ruhlandırırdı. Nəhayət noyabrın 8-də "alınmaz qala" sayılan Şuşa şəhəri erməni işğalçılarından azad edilmişdir. Bizim şanlı Zəfər yürüşümüz 27 sentyabrdan 8 noyabra qədər uğurla davam edirdi. Biz dağlardan, çaylardan, dərələrdən keçərək, sıldırım qayalara dırmaşaraq şanlı Zəfərə doğru gedirdik. Şuşanın düz beş il bundan əvvəl azad edilməsi Ermənistan ordusunun belini qırdı və ondan sonra onlar təslim

***

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

**Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı**

–Əziz Qardaşım, Prezident cənab İlham Əliyev.

Pakistanın Baş naziri cənab Şahbaz Şərif.

Azərbaycan Silahlı Qüvvələrinin qəhrəman şəxsi heyəti.

Azərbaycanlı qardaşlarım.

Sizləri ən səmimi hisslərimlə, hörmət və sevgi ilə salamlayıram.



Zəfər Günümüzün beşinci ildönümündə sizinlə bərabər olmaqdan böyük xoşbəxtlik duyuram. İlham Əliyev qardaşıma zərif dəvətinə görə təşəkkürlərimi bildirirəm. Sizlərə Türkiyədəki qardaşlarınızın salamlarını gətirdim. Sizlərə 86 milyonun ən səmimi sevgilərini gətirdim.

Bu qürur günümüzdə inanıram ki, hazırda Türk Dövlətləri Təşkilatındakı qardaşlarımız da bizimlə eyni coşqunu yaşayır. Zəfərimiz mübarək olsun! Allah Azərbaycanı və Türk dünyasını neçə belə Zəfərlərə qovuşdursun! Azərbaycanın sevincini bölüşən Pakistanın Baş naziri Şahbaz qardaşım başda olmaqla bu gün aramızda olan dost ölkələrdən bütün təmsilçilərə təşəkkür edirəm.

Qardaşlarım, bu gün hamımız birlikdə otuzillik işğala son qoyan möhtəşəm və misilsiz bir Zəfərin beşinci ildönümünü qeyd edirik. Vətən müharibəsində həlak olan bütün şəhidlərimizi - Azərbaycanın igid övladlarını bir daha rəhmətlə yad edirəm. Rəbbim şəhidlərimizin ruhlarını şad, məkanlarını, inşallah, cənnət etsin.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Məmməd Araz Azərbaycan türkünün Vətən eşqini belə təsvir edirdi:

**Bu gün gərək**
**Hər anımız Vətən! – desin!**
**Qılıncımız, qalxanımız**
**Vətən! – desin**
**Ölənlərin əvəzinə**
**Qalanımız Vətən! – desin.**
**Vətən! – desin**
**Qəlbimizin hər duyğusu,**
**hər vurğusu**
**Vətən! – desin.**
**Fərqi yoxdur, harda olaq,**
**Zamanımız, məkanımız**
**Vətən! – desin.**



Ürəkləri hər dəfə Vətən deyə döyünən qəhrəman qazilərimizə minnətdarlıq hisslərimi ifadə edir, "Uca Allah onlardan razı olsun!" deyirəm. Həyatları bahasına apardıqları qəhrəmanlıq mübarizəsi ilə otuzillik işğala son qoyan Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətini bir daha təbrik edirəm. Həmçinin bu böyük Zəfərin memarı və lideri olan İlham Əliyev qardaşımı səmimi-qəlbdən təbrik edir, uğurlarının daimi olmasını diləyirəm.

İstəyirəm biləsiniz ki, Qarabağın azadlığa qovuşması təkcə Azərbaycan üçün deyil, Türk dünyası üçün də böyük bir qürur mənbəyidir. Azərbaycan Ordusunun Qarabağ torpağında atdığı hər addım, istiqlal və şərəf uğrunda tökülən hər damla qan Türk dünyasının tarixində şərəf nişanəsi olaraq ortaq tariximizə qızıl hərflərlə yazılmışdır.

Bu gün burada Azərbaycan əsgəri Türkiyədən gələn əsgər qardaşları ilə çiyin-çiyinə, yan-yanadırlar. Əsgərlərimizə baxdıqca "Bir millət, iki dövlət" şüarının nə demək olduğunu hamımız görə bilirik. Şəhidlərimizin bir-birinə qarışan qanlarının üzərində yüksələn Azadlıq Bayrağı Qarabağın dörd bir yanında şanla, şərəflə, qürurla dalğalanır.

Bilirsiniz ki, əslən qarabağlı olan böyük bir şairimizi 45 gün əvvəl haqq dünyasına yola saldıq. Mərhum Yavuz Bülent Bakiler Qarabağ həsrətini bu misralarla dilə gətirmişdi:

**Torpağına bayraqlarla girə bilərəm,**
**Qara sevdalılar kimi həsrətəm Qarabağa.**
**Uğrunda ölə bilərəm.**
**Bir gün bitərsə hər şey Qarabağı görmədən.**
**İstəmərəm orkestr, böyük əklillər.**
**Allahım, ruhuma bir az sükun ver.**
**Üstümə oxunmuş bir ovuc müqəddəs**
**Qarabağ torpağından sərpilsə yetər.**

İllərlə şairlər Qarabağ üçün həsrət dolu belə şeirlər yazmışlar. İlham qardaşımın qətiyyətli liderliyi ilə Azərbaycan Ordusu Qarabağı işğaldan azad edərək könüllərdəki 30 illik bu yanğını da söndürdü. Allaha şükürlər olsun, bu gün Laçından Şuşaya, Zəngilandan Xankəndiyə, Xocalıdan Füzuliyə qədər Qarabağın hər qarışında əmin-amanlıq, inkişaf, sülh, rifah və azadlıq var. İnşallah, bu sülh və təhlükəsizlik mühiti daha da güclənməkdə davam edəcək.

Əziz dostlarım, hörmətli qonaqlar, Qarabağ Zəfəri vicdanları qanadan böyük bir ədalətsizliyə son qoymaqla qalmadı. Eyni zamanda, bölgəmizdə yeni bir dövrün qapılarını açdı. Vətən müharibəsi Asiyada və Avropadakı geosiyasi balansı da dəyişdi. Biz nə kin saxlayarıq, nə də keçmişdəki zülmlərin yenidən yaşanmasına izn verərik. Beləliklə, bu Zəfəri bir son olaraq deyil, Qafqazda davamlı sülhə gedən yolun məhək daşı olaraq görürük. Qafqazda sülhün bərqərar olmasının Asiyadan Avropaya qədər bütün bölgənin rifahına xidmət edəcəyi qənaətindəyik. Bunu da burada xüsusilə vurğulamaq istəyirəm ki, biz davamlı sülh məsələsində son dərəcə ümidvarıq, nikbinik. İlham Əliyev qardaşımın davamlı sülhün bərqərar olması üçün göstərdiyi səmimi fəaliyyəti təqdir edirik. Ermənistanın Baş naziri cənab Paşinyanın da bu yolda atdığı cəsur addımlarını məmnunluqla izləyirik. İnşallah, bu möhtəşəm Zəfər hər iki liderin konstruktiv mövqeyi ilə bölgədə əmin-amanlığı və sülhü bərqərar edəcək davamlı bir müqavilə ilə nəticələnəcək.

Türkiyə olaraq bu məsələdə üzərimizə nə düşürsə, inşallah, bunu etməkdə davam edəcəyik. Hazırkı nöqtədə Can Azərbaycanın həm bölgəsində, həm də kənarda əldə etdiyi irəliləyişlərdən böyük qürur duyuruq. Aramızdakı müstəsna əlaqələr konkret strateji layihələrlə hər gün daha da güclənir. Xatırlayırsınız, "Əsrin müqaviləsi", "Azəri-Çıraq-Günəşli" başda olmaqla, Bakı-Tbilisi-Ceyhan xam neft boru kəməri, "Şahdəniz" və TANAP ilə taclandırdığımız əməkdaşlığımızı son olaraq İğdır-Naxçıvan təbii qaz boru kəmərinin istismara verilməsi ilə daha da möhkəmləndirdik. İndi bu əməkdaşlığımızı daha da inkişaf etdirmək və miqyasını genişləndirmək üçün səy göstəririk.

Qafqazda yaradılacaq yeni marşrutların nəqliyyat və enerji tədarükü imkanlarının artırmasını gözləyirik.

Xəzərdən keçən Şərq-Qərb Orta Dəhlizini bölgədəki bütün qardaşlarımızın faydasına xidmət edəcək şəkildə sərmayələrlə inkişaf etdirməliyik. Bilavasitə Bakı-Tbilisi-Qars dəmir yolu xəttini ən səmərəli şəkildə istifadə etmək üçün Azərbaycanla birlikdə irəliyə doğru daha çox addımlar atacağımıza inanıram.

Əziz qardaşlarım, Azərbaycan Qarabağ başda olmaqla bölgənin bərpasında və yenidən qurulması, xalqın təhlükəsiz şəkildə geri qayıtması, yox edilən mədəni və dini mirasın bərpası üçün böyük səylər göstərir. Qarabağa İlham qardaşımla birlikdə, həmçinin Pakistanın Baş naziri Şahbaz Şərifin də bir qismində iştirak etdiyi səfərlərimiz oldu. Zəfərdən sonra Qarabağın bütün ərazisində yaşanan inkişaf və investisiya səfərbərliyinə bilavasitə şahid oldum. Hava limanlarını, yolları, körpüləri, tunelləri, dəmir yollarını, evləri, yüksələn binaları, kənd təsərrüfatı və nəqliyyat layihələrini yerində gördüm. İlham qardaşımın liderliyi ilə Can Azərbaycanın nələrə qadir olduğuna yaxından şahid oldum. Bir daha “Maşallah!”, “Bərəkallah!” deyirəm. Təbii ki, bizim gördüklərimiz, sadəcə, bir başlanğıcdır. İnşallah, bunların davamı da gələcəkdir. Qarabağ möhtəşəm gözəlliyi ilə bölgənin yenidən parlayan ulduzu olacaq. Bu prosesdə biz də Azərbaycana hər cür lazımi dəstəyi verəcəyik.

Can Azərbaycan ilə ikitərəfli əlaqələrimizlə yanaşı, Türk Dövlətləri Təşkilatı çərçivəsindəki birlik və həmrəyliyimizi də davam etdiririk. Ailə məclisimizin bütün üzvlərinin ən yüksək səviyyədə iştirakı ilə oktyabr ayında Qəbələdə 12-ci Zirvə Görüşümüzü keçirdik. Zirvə Görüşündə çağırışını etdiyim 15 Dekabr – Dünya Türk Dili Günü qərarının da UNESCO nəzdində həyata keçməsindən məmnunluq duyuram. Təşkilata sədrliyi dövründə Azərbaycan ilə həmrəyliyimiz, inşallah, daha geniş vüsət qazanacaq. İndidən Can Azərbaycana fəaliyyətində uğurlar diləyirəm. Azərbaycanın sarsılmaz dəstəyi ilə Şimali Kipr Türk Respublikasının Türk dünyası içərisindəki mövqeyinin güclənməsini arzu edirəm.

“Rəbbim yar və yardımçınız olsun!” deyirəm. Bu düşüncələrlə Vətən müharibəsində al qanları ilə torpağı sulayan əziz şəhidlərimizi rəhmətlə yad edir, qazilərimizə təşəkkürlərimi bildirirəm.

Eynilə, 1918-ci ildə Bakını işğaldan azad edən Qafqaz İslam Ordusunun bütün şəhidlərini, xüsusən şöhrəti ilə ün salmış şəhid Ənvər Paşanı və qardaşı Nuri Killigil Paşanı bir daha ehtiramla yad edirəm. Fürsətdən istifadə edərək 9 Noyabr – Dövlət Bayrağı Gününüzü də ürəkdən təbrik edirəm. Hamınızı ən səmimi hisslərimlə salamlayıram. Sağ olun, var olun, Allaha əmanət olun!

***

Daha sonra Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif çıxış etdi.

**Baş nazir Məhəmməd Şahbaz Şərifin çıxışı**



– Mənim əziz qardaşım, Prezident İlham Əliyev.

Mənim əziz qardaşım, Prezident Rəcəb Tayyib Ərdoğan.

Əziz qardaşım, Birləşmiş Ərəb Əmirliklərinin Şeyx həzrətləri Əl Məktum.

Azərbaycan Silahlı Qüvvələrinin qəhrəman şəxsi heyəti.

Azərbaycanlı qardaş və bacılar.

Hörmətli rəsmilər, xanımlar və cənablar.

Salaməleyküm, günortanız xeyir olsun.

Əziz qardaşım Prezident İlham Əliyevə belə bir sevinc dolu münasibətlə mənə etdiyi nəzakətli dəvətə, mənə və nümayəndə heyətimə göstərdiyi səmimi qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Pakistan xalqının səmimi salamlarını azərbaycanlı qardaş və bacılarına çatdırıram. 44 günlük Vətən müharibəsində əldə edilmiş şanlı Qələbənin beşinci ildönümünü qeyd edirik.

Xanımlar və cənablar, Pakistan, Azərbaycan və Türkiyə – ürəkləri bir döyünən üç qardaş bu gün burada çiyin-çiyinə dayanaraq, belə möhtəşəm tədbiri birlikdə, hamılıqla qeyd edirlər.

Azərbaycanlı və türk qardaşların arxasınca marşla gedən müzəffər Silahlı Qüvvələrimizi görmək, əlhəmdülillah, hər il güclənən möhkəm dostluğumuzun gözəl rəmzi olan “JF-17 İldırım” qırıcı təyyarələrin gurultulu səsinə qərq olan səmanı seyr etmək nə dərəcədə fəxarət və duyğulandıran mənzərədir.

Xanımlar və cənablar, bu il avqustun 14-də Hindistanla dördgünlük mübarizədə tarixi zəfərimizi – Maarka-e-Haqqı qeyd etmək məqsədilə sürəkli alqışlarla İslamabadda Pakistanın Silahlı Qüvvələri ilə birlikdə fərəh hissi ilə marş altında keçən Azərbaycan və Türkiyənin hərbi kontingentləri yadıma düşür. Bu gün ürəyim fəxarət hissi ilə dolur.

Xanımlar və cənablar, çünki mən böyük həvəslə və vətənpərvərlik eşqi ilə möhtəşəm hadisəni qeyd

edən güclü Azərbaycan xalqını burada görürəm. Uşaqlıq xatirələrim göz önünə gəlir. O zaman, mərhum atam 1947-ci ildə Pakistanın yaranması ilə nəticələnmiş ulu babalarımızın tarixini mənə söylədi. Bu gün sizin təbəssümlü simanızı və sevinc dolu gözlərinizi gördükdə uşaqlığın o əziz xatirələri bir daha qəlbimdə canlanır.

Xanımlar və cənablar, azadlıq mübarizəmizdə işıq saçan mayakımız, milli şairimiz Allama Məhəmməd İqbal şeirində yazırdı:

"Birlik qarşısında dayanır nə qılınc, nə strategiya!

İnamın alovu zəifləyəndə isə bu birliyin bütün telləri titrəyir!".



Mən bu misraları indi ingilis dilində söyləyirəm. İqbal öz tarixi şeirində bu misraları bu cür yazmışdır. Bu cür dəyərli misralar bizə xatırladır ki, azadlığı yalnız güclə qazanmırlar. Onu təmin edən qətiyyətli inam və bağlılıqdır, çünki onlar qəhrəman mücadiləsinə həvəs verir.

Xanımlar və cənablar, beş il əvvəl Azərbaycanın cəsur oğulları əziz qardaşım Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən rəhbərliyi ilə tarixi mübarizəyə qalxdılar. Bütün dünya təəccüblə onun şahidi oldu ki, Azərbaycanın cəsur Silahlı Qüvvələri öz ata-baba yurdlarının tacı olan Qarabağı azad etdi. Torpaqların azadlığı uğrunda bütün mübarizə dövründə Pakistan qardaş Azərbaycanın yanında bir qaya kimi dayandı. Bundan sonra da belə olacaq.

Hörmətli qonaqlar, Azərbaycanın Qarabağdakı Qələbəsi suverenlik və öz müqəddəratı uğrunda vuruşan bütün xalqlar üçün, o cümlədən Qəzzanın cəsur və güclü xalqı və Hindistanın qeyri-qanuni işğal etdiyi Cəmmu və Kəşmir xalqı üçün ədalətin möhtəşəm təntənəsi, ümid yeri oldu.

Bu ilin mayında Hindistanla dördgünlük mübarizə zamanı bütün dünya Azərbaycan ilə Türkiyənin böyük xalqlarının və qətiyyətli rəhbərlərinin Pakistanın yanında dayandığının şahidi oldu. Feldmarşal Səyid Asim Munirin dinamik və qorxmaz rəhbərliyi ilə Pakistanın olduqca peşəkar Silahlı Qüvvələri düşmənin burnunu ovdu, düşməni şoka və qorxuya salan sərrast və çox tutarlı hərbi zərbələr endirdi.

Hava Qüvvələri Marşalı Zahir Bəbir Sidhunun bacarıqlı komandanlığı altında Vətənin müdafiəsi üçün səmaya qalxan və hər zaman ayıq-sayıq olan şahinlərimiz düşmənin çox müasir yeddi təyyarəsini ildırım sürəti ilə sıradan çıxartdılar.

Əslində, Pakistan azərbaycanlı və türkiyəli qardaşları kimi, sülhə çalışır, lakin heç kəsdə şübhə belə qoymur ki, kimsə qarşımıza çıxsın, suverenliyimizə hücum çəksin, yaxud ərazi bütövlüyümüzü şübhə altına alsın.

Xanımlar və cənablar, bu gün keçmişimizi xatırlamaqla bərabər, gələcəyimizə də böyük ümid və arzularla baxırıq. Məcburi köçkün ailələrin Qarabağa, öz yurdlarına qayıdışını görmək çox ilhamlandırıcıdır. Əziz qardaşım cənab Prezident, bu, Sizin Azərbaycan xalqının rifahı və tərəqqisinə olan güclü şəxsi sadiqliyinizin böyük rəmzidir.

Qarabağın incisi Şuşada, Xankəndidə, Füzulidə, Laçında və azad edilmiş Qarabağın bütün ərazilərində yenidənqurmanın bu cür inanılmaz sürəti tam fenomenal xarakter daşıyır. Həmçinin inkişafın ən uğurlu modellərindən biri bu gün Türkiyədə görünür və onun memarı əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğandan başqa kim ola bilər?! Bütün qonaqlarla yanaşı, bu gözəl mərasimdə Türkiyəni müasir, aparıcı, strateji və iqtisadi gücə çevirən onun uzaqgörən rəhbərinə böyük iftixarla baxdığımı qeyd etməliyəm.

Xanımlar və cənablar, əsl qələbə təkcə döyüş meydanında deyil, eləcə də sülh və anlaşma körpülərinin salınmasındadır.

Əziz qardaşım Prezident İlham Əliyev, Azərbaycan ilə Ermənistan arasında ləyaqət və qarşılıqlı hörmətə əsaslanan sülhə aparan çətin yolda Azərbaycanı istiqamətləndirərək, Sizin müdrik rəhbərliyiniz mənə böyük təəssürat bağışlayır.

Qarabağda möhtəşəm hərbi Qələbəni qazandıqdan sonra, cənab Prezident, Siz indi də bacarıqlı diplomatiyanız sayəsində sülhü qazandınız. Burada mən həmin sülh üçün uğur gətirmiş nümunəvi rəhbərlik keyfiyyətlərinə görə ABŞ Prezidenti Donald Trampa təşəkkürümü bildirməliyəm. Məhz Prezident Trampın qətiyyətli və həlledici rəhbərliyi ilə Pakistanla Hindistan arasında atəşkəs əldə olundu, əsas müharibəyə imkan verilmədi və milyonlarla insanın həyatını xilas edərək Cənubi Asiyada sülh bərpa olundu.

Xanımlar və cənablar, sülhə olan ümumi qətiyyətimiz bu yaxınlarda Əfqanıstanla olan hadisələrdə sınaqdan keçdi. Mən əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğana verdiyi böyük töhfəyə görə

təşəkkürümü bildirmək istəyirəm. Bu, Qətər dövlətinin iştirakı ilə baş tutdu. Bu, həm çətin, həm də asan anlarda çiyin-çiyinə dayanan ölkələrimiz arasında güclü, sınaqdan keçmiş qardaşlıq əlaqələrinin əsl təzahürüdür.

Xanımlar və cənablar, bu gün Zəfəri qeyd etdiyimiz bir vaxtda, biz, həmçinin şəhidləri yad etməliyik. Azərbaycan torpaqlarının azadlığı uğrunda mübarizə aparmış şəhidlərə Allah rəhmət eləsin. Onların cəsarəti, qüvvəsi və verdiyi qurbanlar xalqınızın tarixində və yaddaşında qalan fəsli yazdı. Bu gün cəsur oğul və qızlarımızın qanı və canı sayəsində azad olmuş zəngin Qarabağ torpaqlarında gözəl xarıbülbül yenə çiçək açır və sülh ümidi gətirir.

Qoy, Uca Allah tərəqqi və firavanlıq dolu gələcəyə doğru qətiyyətlə addımlayan böyük xalqlarımıza qüvvə versin.

Yaşasın Pakistan-Azərbaycan dostluğu!

Yaşasın Pakistan, Azərbaycan və Türkiyə dostluğu!

Sağ olun.

***

Dövlət başçılarının çıxışlarından sonra Hərbi parad başladı.

Hərbi parada müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi, “Zəfər” və “Qarabağ” ordenli general-polkovnik Kərim Vəliyev komandanlıq edib.







Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət Bayrağı altında tribunaya doğru irəlilədi. Dövlət Bayrağının ardınca Azərbaycan Ordusunun və hərbi əməliyyatlarda xüsusilə fərqlənən birləşmələrin Döyüş bayraqları “Vətənə xidmətə görə” ordenli general-mayor Vüqar Əliverdiyevin başçılığı ilə Azadlıq meydanına gətirildi.

Sonra Xüsusi Təyinatlı Qüvvələrin parad heyətləri tribuna qarşısından keçdilər. Parad heyətlərinə Vətən Müharibəsi Qəhrəmanı general-mayor Ələkbər Cahangirov rəhbərlik edirdi.

Ardınca "Qarabağ" ordenli polkovnik Zamiq Əmirov, "Azərbaycan Bayrağı” ordenli polkovniklər Çingiz Əliyev, Mərdan Musayev və Vətən Müharibəsi Qəhrəmanı polkovnik İlqar Orucovun başçılıq etdikləri





Beşinci Ordu korpusunun, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Kənan Seyidovun rəhbərliyi ilə Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları tribuna qarşısından keçdilər.

"Azərbaycan Bayrağı" ordenli general-mayor Anar Hüseynovun başçılığı ilə Hərbi Hava Qüvvələrinin parad heyəti, “Vətənə xidmətə görə” ordenli polkovnik Adəm Hüseynovun rəhbərlik etdiyi İnsansız Sistem Qoşunlarının parad heyəti, "Hərbi Xidmətlərə görə" medallı Hərbi Dəniz Qüvvələri komandanı kontr-admiral Şahin Məmmədovun başçılıq etdiyi Azərbaycan Hərbi Dəniz Qüvvələrinin parad heyəti, Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Xaliq İbrahimovun rəhbərliyi ilə dəniz piyadalarından ibarət parad heyəti, "Vətənə xidmətə görə" ordenli 2-ci dərəcəli kapitan Sirac Siracovun başçılıq etdiyi dəniz xüsusi təyinatlılarından ibarət parad heyəti, "Vətənə xidmətə görə" ordenli polkovnik Aqil Cəbrayılovun rəhbərlik etdiyi Raket və Artilleriya Qoşunlarının parad heyəti Azadlıq meydanına daxil oldular.

Müdafiə Nazirliyi Hərbi Polisinin hərbi qulluqçuları "Vətənə xidmətə görə" ordenli general-mayor Elgün Əliyevin, Dövlət Sərhəd Xidmətinin 2 kolondan ibarət parad heyəti Vətən Müharibəsi Qəhrəmanı” general-leytenant İlham Mehdiyevin, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Xüsusi Təyinatlı bölmələrinin 2 kolondan ibarət hərbi qulluqçuları "Vətənə xidmətə görə" ordenli general-mayor Tofiq Hüseynovun rəhbərliyi ilə mətin addımlarla tribunanın önündən keçdilər.

Sonra Xarici Kəşfiyyat Xidmətinin “Yarasa” və Dövlət Təhlükəsizliyi Xidmətinin “Qartal” xüsusi təyinatlılarından ibarət parad heyətləri tribunanın qarşısından addımladılar. Dövlət Təhlükəsizliyi Xidmətinin parad heyətinə “Qarabağ” ordenli general-mayor Cabir Cəfərov başçılıq edirdi.

Dövlət Mühafizə Xidmətinin “Hərbi xidmətlərə görə” medallı polkovnik-leytenantı Eldar Quliyevin rəhbərlik etdiyi Milli Qvardiyanın parad heyəti, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin "Şücaətə görə" medallı polkovniki Orxan Novruzovun başçılıq

parad heyətləri tribunanın önündən keçdilər.

Hərbi paradda Türkiyə Respublikası Silahlı Qüvvələrinin hərbçiləri də iştirak etdilər. İki kolondan ibarət parad heyətinə polkovnik-leytenant Uğur Alan rəhbərlik edirdi.

İlk dəfə olaraq paytaxt Bakının Azadlıq meydanında Pakistan İslam Respublikası Ordusunun mayoru Saqib Alamın başçılıq etdiyi parad heyəti mətin addımlarla tribunanın qarşısından keçdi.

Quru Qoşunların bayrağı altında ordu korpuslarının tribuna önündən keçən parad heyətlərinə müdafiə nazirinin müavini - Quru Qoşunları Komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-polkovnik Hikmət Mirzəyev rəhbərlik edirdi.

Daha sonra "Qarabağ" ordenli polkovnik Teymur Məmmədovun başçılığı ilə Birinci Ordu korpusunun, "Rəşadət" ordenli general-mayor Vilayət Quliyevin rəhbərliyi ilə İkinci Ordu korpusunun, "Azərbaycan Bayrağı" ordenli general-mayor Bilal Çompuzovun başçılığı ilə Üçüncü Ordu korpusunun, "Vətənə xidmətə görə” ordenli general-mayor İdris Məhərrəmovun rəhbərliyi ilə Dördüncü Ordu korpusunun, "Zəfər" ordenli general-mayor Akif Pirverdiyevin başçılığı ilə










etdiyi parad heyəti, Fövqəladə Hallar Nazirliyinin "Hərbi xidmətlərə görə" medallı polkovniki Xaliq Hüseynovun rəhbərlik etdiyi parad heyəti, Milli Müdafiə Universitetinin "Hərbi xidmətlərə görə" medallı rektoru general-mayor Gündüz Əbdülovun başçılıq etdiyi parad heyəti, Heydər Əliyev adına Hərbi İnstitutun "Qarabağ" ordenli general-mayoru Ümidvar Quliyevin rəhbərlik etdiyi parad heyəti, Bakı Hərbi Kollecinin "Vətən uğrunda" medallı polkovniki İntiqam Mirzəyevin başçılıq etdiyi parad heyəti, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanovun rəhbərlik etdiyi parad heyəti tribunanın önündən keçdilər.

***

Ardınca Hərbi Dəniz Qüvvələrinin və Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin döyüş gəmiləri və katerləri Hərbi parad üçün Xəzər dənizinin sahil sularında yüksək döyüş hazırlığı nümayiş etdirdi.

Daha sonra hərbi texnikaların keçidi oldu.

Bundan sonra xüsusi təyinatlı avtomobil texnikası və silah sistemləri kolonu Azadlıq meydanına daxil oldu. Kolona "Vətən uğrunda" medalı ilə təltif edilmiş general-mayor Eldəniz Yəhyayev başçılıq edirdi.

Azadlıq meydanından keçid edən, üzərində 12,7 millimetrlik NSV pulemyotları, tankəleyhinə idarəolunan "SPIKE-ER", 120 millimetrlik "SPEAR" minaatanlar quraşdırılan "SandCat-Stormer" zirehli idarəetmə, çevik hərəkət avtomobilləri, silahlanmaya yeni qəbul edilmiş Milli Müdafiə Sənayesinin məhsulu "VAŞAQ" xüsusi əməliyyat nəqliyyat vasitələri, "COBRA-II" zirehli tibbi təxliyə avtomobilləri, "SKİF" raket kompleksi, "BTR-82A" zirehli transportyorları, "PDM-3" Piyadaların Döyüş Maşınları, "T-72M1" və "T-90S" tankları Azərbaycan Ordusunun hərbi qüdrətini nümayiş etdirdi.

Daha sonra Azadlıq meydanında Hava Hücumundan Müdafiə silahları sistemləri kolonunun keçidi oldu. Kolona "Vətən uğrunda" medalı ilə təltif olunmuş general-mayor Zaur Yusifli başçılıq edirdi. Tribuna önündən "S-125 TM", "BUK-MB", "BUK-MB2K", "İLDIRIM-8", "S-300 FAVORİT" və "TOR-2M" zenit-raket komplekslərinin keçidi oldu. Ardınca silahlanmaya yeni qəbul edilmiş Yerli Müdafiə Sənayesinin məhsulu "VİKİNQ" hava hədəflərinə qarşı çoxfunksiyalı mobil döyüş kompleksi, təkmilləşdirilmiş "Şilka" özüyeriyən zenit qurğusu və "HQ-9" uzaqmənzilli zenit-raket kompleksi nümayiş olundu.

Sonra İnsansız Sistem Qoşunları tərəfindən Ordumuzun pilotsuz uçuş aparatları və digər insansız vasitələri təqdim edildi. Kolona "Azərbaycan Bayrağı" ordenli general-mayor İlqar Qafarov başçılıq edirdi. Azadlıq meydanına üzərində "Orbiter-1KM" zərbə pilotsuz uçuş aparatları, "Orbiter-2", "Orbiter-3" və "Orbiter-4" kəşfiyyat pilotsuz uçuş aparatları, "Aerostar"










taktiki-kəşfiyyat pilotsuz uçuş aparatları, "Bayraktar-TB2" silahlı kəşfiyyat pilotsuz uçuş aparatı, silahlanmaya yeni qəbul edilmiş "Hero-120", "Sky Striker" sərbəst uçan döyüş sursatları, "Orbiter-5" taktiki-kəşfiyyat pilotsuz uçuş aparatları, "Harop" zərbə pilotsuz uçuş aparatları, "Hermes-450" taktiki-kəşfiyyat pilotsuz uçuş aparatı yerləşdirilmiş "Marauder" və "Matador" tipli minaəleyhinə zirehli nəqliyyat vasitələri daxil oldu.



Ardınca Azadlıq meydanına artilleriya silahları sistemlərinin kolonu daxil oldu. Kolona "Zəfər" ordenli general-leytenant Ağamir Sultanov başçılıq edirdi. Meydanda 120 millimetrlik "Vena" özüyeriyən minaatan qurğusu və artilleriya qurğuları – 122 millimetrlik "Qvozdika", 152 millimetrlik "Akasiya", 152 millimetrlik "MSTA-S", 203 millimetrlik "Pion", həmçinin 220 millimetrlik "TOS-1A" ağır odsaçan, tankəleyhinə "Xrizantema-S" kompleksləri, "DANA" özüyeriyən artilleriya sistemi, 155 millimetrlik uzaqmənzilli "NORA" və 155 millimetrlik uzaqmənzilli "DİTA" özüyeriyən artilleriya sistemləri, 122 millimetrlik RM-70/85 yaylım atəşli reaktiv sistemi, silahlanmaya yeni qəbul edilmiş PULS üzərində 122 millimetrlik "ACCULAR" idarəolunan











yaylım atəşli reaktiv sistemi, 160 millimetrlik "QRADLAR" yaylım atəşli reaktiv sistemi, silahlanmaya yeni qəbul edilmiş PULS üzərindən buraxılan SkyStriker BLOK-4 sərbəst uçan döyüş sursatları sistemi, "Qasırğa" taktiki raket kompleksi, 300 millimetrlik uzaqmənzilli TRG-300 taktiki raket sistemi, 300 millimetrlik iriçaplı "Smerç" yaylım atəşli reaktiv sistemi, 306 millimetrlik "Ekstra" taktiki raket kompleksi, 306 millimetrlik "Polonez" əməliyyat taktiki raket kompleksi, silahlanmaya yeni qəbul edilmiş PULS üzərində 370 millimetrlik yüksəkdəqiqlikli "Predator Hawk" əməliyyat taktiki raket kompleksi, beşinci nəsil İCEBREAKER qanadlı raket kompleksi və "LORA" əməliyyat-taktiki raket sistemlərinin keçidi oldu.

***

Bundan sonra Azadlıq meydanı üzərində Azərbaycan və Türkiyə pilotlarının iştirakı ilə Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu oldu. "Akıncı" pilotsuz uçuş aparatı Bakı səmasında, Azadlıq meydanı üzərində 900-1500 metr hündürlükdə dövrə vuraraq çəkilişlər apardı.

Azərbaycan, Türkiyə və Pakistan respublikalarının Dövlət bayraqlarını daşıyan "Mİ-17" döyüş-nəqliyyat helikopterləri üçlüyünə Vətən Müharibəsi qəhrəmanları – Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə və polkovnik Rəşad Nadirov başçılıq edirdi. "Qarabağ" ordenli general-mayor Zaur Rüstəmovun başçılığı ilə "Mİ-17" helikopteri isə Ümummilli Lider Heydər Əliyevin portretini nümayiş etdirdi.

Paytaxt səmasında təntənəli aviasiya nümayişləri davam etdi. Əvvəlcə polkovnik-leytenant Ziya Əliyevin başçılıq etdiyi uzaqmənzilli hava-yer tipli raketlərlə təchiz olunmuş "Mİ-17" döyüş-nəqliyyat helikopterləri beşliyi klin düzülüşündə Azadlıq meydanının üzərindən keçdi. Növbəti mərhələdə "Mİ-17" döyüş-nəqliyyat helikopterlərinin beşliyi klin düzülüşündə uçaraq tamaşaçılara heyranedici anlar yaşatdı. Bu beşliyə "Vətənə xidmətə görə" ordenli polkovnik-leytenant Sabit Hüseynov rəhbərlik edirdi.

Daha sonra polkovnik-leytenant Aslan Ramazanovun başçılığı ilə "MFİ-17" təlim təyyarələrinin beşliyi səmada dövrə vurdu. Ardınca "L-39" təlim təyyarələrinin beşliyi klin düzülüşündə nümayişini davam etdirdi. Qrupun rəhbəri "Vətənə xidmətə görə" ordenli polkovnik Əliyar Əsgərov idi. "İL-76" hərbi-nəqliyyat və silahlanmaya yeni qəbul edilmiş "C-27J" yük təyyarələrindən ibarət üçlüyü polkovnik-leytenant Zəfər Fərhadov, "Rəşadət" ordenli polkovnik Ruslan Ələkbərov və "Qarabağ" ordenli polkovnik Vüqar Salahov idarə etdilər. Silahlanmaya yeni daxil olan "JF-17" çoxməqsədli qırıcı təyyarələrinin beşliyi də klin düzülüşündə nümayişini davam etdirdi. Qrupa "Vətənə xidmətə görə" ordenli polkovnik Novruz Tahirov başçılıq edirdi. Türkiyə Hərbi Hava Qüvvələrini təmsil edən "F-16" çoxməqsədli qırıcı təyyarələr beşliyi Bakı səmasında peşəkar uçuş nümayiş etdirdi. Beşliyə Albay Nevzat Oflamaz başçılıq edirdi. Təkmilləşdirilmiş "SU-25-Laçın" hücum təyyarələri beşliyinin başçısı "Qarabağ" ordenli general-mayor Həsən Əlövsədov, 2-ci pilotu isə "Vətənə xidmətə görə" ordenli polkovnik Anar Həsənov idi. Sonuncu - Azərbaycan Respublikasının Dövlət Bayrağının rənglərini paytaxt səmasında canlandıran "SU-25" hücum təyyarələri qrupuna "Vətənə xidmətə görə" ordenli polkovnik Ruslan Məmmədrzayev başçılıq edirdi.

Bununla da Vətən müharibəsində qazanılan Qələbənin 5-ci ildönümünə həsr olunmuş Hərbi parad başa çatdı.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə əlaqədar olaraq ölkənin demək olar ki, bütün əsas dövlət orqanlarında və icra strukturlarında genişmiqyaslı tədbirlər planı həyata keçirilmişdir.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam şəhərinə səfər ediblər. Prezident və birinci xanım səfər zamanı "Hilton Garden İnn" hotelində aparılan tikinti işləri ilə tanış olublar. Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma hoteldə görülən işlər barədə məlumat vermişdir.



Bundan başqa, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam Muğam Mərkəzində, Ağdam şəhərində 1268 mənzilli 2-ci yaşayış kompleksində, Ağdam şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasında, Ağdam şəhər 1 nömrəli tam orta məktəbdə aparılan tikinti işləri, "Ağdam Residence" yaşayış kompleksində yaradılan şəraitlə ilə tanış olublar. Dövlət başçısına və birinci xanıma görülən işlərlə bağlı məlumat verilib




Prezidenti İlham Əliyev fevralın 18-də “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin (ASC) Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin açılışında iştirak edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Əsgəran qala-kompleksinin konsepsiya layihəsi ilə tanış olublar. Mədəniyyət naziri Adil Kərimli və Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına və birinci xanıma layihə barədə məlumat verdilər.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra “Bulud” hotelinin açılışında iştirak edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Xankəndi şəhərində Zəfər parkının təməlqoyma mərasimində iştirak edib.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabrikinin fəaliyyəti ilə tanış olub.



İlham Əliyev Xocalının Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, kəndə köçən bir qrup sakinlə görüşüb.




İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamın Sarıcalı kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 27-də Şuşada tarixi Çöl Qala məscidinin və bulağının bərpadan sonra açılışında iştirak edib, iaşə obyektlərində yaradılan şəraitlə, Qarabağ küçəsində, Şuşa Müalicə-Sağlamlıq Mərkəzində və Yeni Şuşa məscidində aparılan tikinti işləri ilə tanış olublar.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Şuşa rayonunun Daşaltı kənd məscidinin açılışında iştirak ediblər.



Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin açılışında iştirak ediblər.



Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada inşa ediləcək dördüncü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin "Xocalı" yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib.

# Milli Məclisdə “Konstitusiya və Suverenlik İli” çərçivəsində Beynəlxalq Parlament Konfransı keçirilib




Oktyabrın 29-da Milli Məclisdə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş “Konstitusiya müasir dünyada dövlətlərin müstəqilliyinin və suverenliyinin təməli kimi” mövzusunda beynəlxalq parlament konfransı keçirilib.



Tədbirdə 20-dək ölkənin parlament nümayəndə heyətləri, 7 beynəlxalq təşkilatın təmsilçiləri iştirak ediblər.

Konfransı giriş nitqi ilə açan Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, “Konstitusiya müasir dünyada dövlətlərin müstəqilliyinin və suverenliyinin təməli kimi” mövzusuna həsr edilən beynəlxalq parlament konfransının Azərbaycanda keçirilməsinin dərin rəmzi mənası var. Bu il biz müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunmasının 30 illiyini qeyd edirik. Bununla əlaqədar 2025-ci il Azərbaycanda “Konstitusiya və Suverenlik İli” elan olunmuşdur.

Azərbaycan dövlətçiliyinin tarixi ağır sınaqlar və parlaq qələbələr tarixidir. 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan siyasi, iqtisadi, hərbi və digər sahələrdə mürəkkəb vəziyyətə düşmüşdü. Ölkəmizə qarşı silahlı təcavüz və daxili böhran dövlət müstəqilliyinin itirilməsi təhlükəsini törətmişdi.

Belə bir şəraitdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əzmlə həyata keçirdiyi tarixi missiya ölkəmizin qarşısında dayanan problemləri aradan qaldırmağa, vəziyyəti sabitləşdirməyə, qanunçuluğu bərpa etməyə və müasir dövlətin əsaslarını yaratmağa imkan verdi. Onun rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə qəbul edilmiş Konstitusiya ölkənin inkişaf strategiyasını irəli sürdü, xalqın suverenliyi, qanunun aliliyi, hakimiyyət bölgüsü prinsiplərini müəyyən etdi, insan hüquqlarının və azadlıqlarının müdafiəsi üçün təminatlar yaratdı. Bu mənada dövlətimizin əsas qanunu təkcə hüquqi sənəd deyil, həm də milli tariximizin yeni dövrünün, gələcəyə inam və quruculuq dövrünün simvoludur.

Milli Məclisin sədri deyib ki, Ulu Öndər Heydər Əliyevin başladığı yol Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Son iyirmi iki il Azərbaycanın dövlətçilik tarixinə dinamik və hərtərəfli inkişaf dövrü kimi daxil olmuşdur. Bu dövrdə həm də Konstitusiyamızın real gücü praktikada sınaqdan keçmişdir.

Bildiyiniz kimi, ölkəmizin beynəlxalq miqyasda tanınan ərazisinin 20 faizi otuz ilə yaxın Ermənistanın işğalı altında olmuşdur. Bu dövrdə Konstitusiya döv-



lətimizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizənin hüquqi, mənəvi və fəlsəfi əsasını təşkil edirdi. Ölkəmizin əsas qanunu silahlı təcavüzə son qoymaq və sülh yaratmaq uğrunda diplomatik səylərimizin təməlində dayanmışdı.

2020-ci ilin Vətən müharibəsində və 2023-cü ilin antiterror əməliyyatında əldə edilən tarixi qələbələr nəticəsində Azərbaycan özü beynəlxalq hüququn qüvvəsini bərpa etdi. Dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərqərar edilməsi ilə Azərbaycan Konstitusiyasında müəyyənləşdirilmiş prinsiplər real həyatda öz təcəssümünü tapdı.

Diqqətə çatdırılıb ki, ölkəmizin Konstitusiyası ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi başlıca niyyətlərdən biri kimi bəyan edib. Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev cari ilin sentyabrında BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışında beynəlxalq hüquqa əsaslanan sülh və inkişafı, dövlətlərin daxili işlərinə qarışmamağı, qarşılıqlı hörmət və əməkdaşlığı Azərbaycanın baxışları kimi təqdim edib.

Azərbaycanın regional və qlobal səviyyədə bütün fəaliyyəti – həyata keçirdiyi irimiqyaslı enerji və nəqliyyat layihələri, sivilizasiyalar və mədəniyyətlər arasında dialoqu təşviqi, bu gün dünyanın üzləşdiyi müxtəlif çağırışlarla mübarizədə göstərdiyi səylər bu niyyət və baxışları əks etdirir.

Spiker xüsusilə qeyd edib ki, 30 illik işğal dövrünə baxmayaraq, məhz Azərbaycan Vətən müharibəsi başa çatdıqdan dərhal sonra sülh təşəbbüsü ilə çıxış edib. Sülhün əsasını təşkil edən 5 təməl prinsip və sülh sazişinin layihəsi də Azərbaycan tərəfindən təqdim olunub. Cari ilin avqust ayında Vaşinqtonda Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Azərbaycan Respublikası Prezidentinin və Ermənistan Respublikası Baş nazirinin Birgə Bəyannamə imzalaması və iki ölkə arasında sülh sazişinin paraflanması münaqişə dövrünə son qoymuş və regionumuzda uzunmüddətli sülh və sabitliyin yolunu açıb.

Konfrans iştirakçılarının diqqətinə çatdırılıb ki, indiki qlobal geosiyasi dinamika şəraitində məhz Konstitusiya qaydası dövlətlərə öz dayanıqlığını qorumaqda və milli maraqları əsasında inkişaf etməkdə kömək göstərir. Azərbaycanın təcrübəsi də əyani surətdə göstərir ki, Konstitusiya xalqın iradəsindən və milli dəyərlərdən güc alanda, hakimiyyət ilə xalq arasında uzlaşmanı təmin edəndə cəmiyyəti birləşdirən və dövlətin müstəqilliyini qoruyan böyük qüvvəyə çevrilir.

Azərbaycan Respublikasının Konstitusiyası xalqımızın tarixi təcrübəsini və azadlıq əzmini əks etdirir. O, milli birliyimizi möhkəmləndirir və cəmiyyətin sabit inkişafına kömək göstərir.

Müasir dövlətlər arasında siyasi, iqtisadi, hüquqi və humanitar əlaqələr getdikcə daha intensiv və dinamik xarakter alır. Bu baxımdan dövlətlərin suveren bərabərliyi və müstəqilliyi, daxili işlərə qarışmamaq və ərazi bütövlüyünə hörmət kimi beynəlxalq prinsiplərin möhkəmləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar parlamentlərarası əməkdaşlığın rolu da güclənir.

Sahibə Qafarova çıxışında deyib ki, bu gün parlament diplomatiyası ən mühüm yumşaq güc alətlərindən birinə çevrilib. Parlament təmasları vasitəsi ilə qarşılıqlı anlaşma körpüləri qurulur, ən kəskin məsələlər hüquq bərabərliyi və qarşılıqlı hörmət əsasında həll edilir. Biz hesab edirik ki, ənənəvi diplomatiyanı uğurla tamamlayan parlament diplomatiyası sülhün və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsində daha böyük rol oynaya bilər.




Qeyd olunub ki, müasir dövrdə bəşəriyyət saxta informasiyanın yayılmasından və hibrid hücumlardan başlamış xalqların mədəni və ideoloji müstəqilliyinə edilən qəsdlərə qədər müxtəlif yeni təhdidlərlə qarşılaşır. Bu təhdidlərə bizim cavabımız qəti və prinsipial olmalıdır. Biz qanunun aliliyi və Konstitusiyaya hörmət əsasında suverenliyimizi möhkəmləndirməliyik. Yalnız birgə səylərlə yeni çağırışlara və təhdidlərə qarşı mübarizə aparmaq, bütün dünyada sülhü və sabitliyi möhkəmləndirmək mümkündür. Digər tərəfdən, milli maraqların müdafiəsi, insan hüquqlarının və azadlıqlarının təmin edilməsi də Konstitusiya dəyərlərinə sadiqliyimizdən çox asılıdır.

Konstitusiya prinsipləri ölkələr arasında ahəngdar qarşılıqlı əlaqə üçün təməl rolunu oynayır, beynəlxalq münasibətlərdə qarşılıqlı hörmət və etimadın möhkəmlənməsinə şərait yaradır. Azərbaycan dövləti və parlamenti ardıcıl olaraq məhz bu yanaşmanı həyata keçirir.

Çıxışına yekun vuran Milli Məclisin sədri inamını ifadə edib ki, bu konfrans sülh, ədalət və dövlətlərin rifahı naminə ətraflı fikir mübadiləsi aparmağa, xalqlarımız və parlamentlərimiz arasında qarşılıqlı anlaşmanı gücləndirməyə şərait yaradacaq. Biz əminik ki, konstruktiv dialoq və birgə səylər Konstitusiya dəyərlərini daha da möhkəmləndirmək yollarını tapmağa kömək göstərə bilər.

Sahibə Qafarova Azərbaycan parlamenti adından forum iştirakçılarına səmərəli iş və maraqlı diskussiyalar arzulayıb.

Sonra konfrans iştirakçıları müasir dövlətlərin hüquqi əsaslarının möhkəmləndirilməsində konstitusiyaların rolu, dövlətlərin suverenliyi və milli müstəqilliyinin qorunması məsələlərinə dair fikirlərini bölüşüblər.

Tədbirdə çıxış edən Birləşmiş Ərəb Əmirliklərinin Federal Milli Şurasının sədri Saqr Qobaş Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümü münasibətilə ilə təbriklərini çatdıraraq, ölkənin suverenliyinin möhkəmləndirilməsi, dayanıqlı inkişafın təmin edilməsində Konstitusiyanın rolunu qeyd edib. Son 30 il ərzində Azərbaycanda milli iradə, siyasi uzaqgörənlik sayəsində hərtərəfli inkişafın müşahidə olunduğunu söyləyib. Bildirib ki, Azərbaycan təcrübəsi Konstitusiyanın cəmiyyət və dövlət arasında münasibətləri tənzimləyən, dövlətin konstitusion quruluşunu təsbit edən, ölkənin iqtisadi, siyasi, sosial, xüsusiyyətlərini özündə əks etdirən, habelə regional və beynəlxalq münasibətlərdə mövqeyini müəyyən edən bir sənəd olduğunun bariz nümunəsidir.

Saqr Qobaş Azərbaycanda həyatın bütün sahələrində, o cümlədən təhsil, səhiyyə, ətraf mühitin qorunması, enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində təqdirəlayiq nailiyyətlərin əldə edildiyini vurğulayıb. Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında qarşılıqlı hörmətə əsaslanan əməkdaşlığın gələcəkdə daha da möhkəmləndirilməsinə inamını ifadə edib. Hər iki ölkənin qanunverici orqanlarının Konstitusiya dəyərlərinin və prinsiplərinin həyata keçirilməsində önəmli rolundan bəhs edib. Azərbaycan dövləti və xalqına davamlı tərəqqi və rifah arzulayıb.

Sonra Pakistan İslam Respublikası Senatının sədri Syed Yusuf Raza Gilani çıxış edərək, Azərbaycan üçün əlamətdar hadisə - ölkə Konstitusiyasının qəbul edilməsinin 30 illiyi münasibəti ilə keçirilən tədbirdə iştirakından məmnunluğunu ifadə edib. O, Konstitusiyanın dövlət və xalq arasında körpü rolunu oynadığını, cəmiyyətdə ədalətin təmin edilməsi, dövlətçiliyin əsaslarının müəyyənləşdirilməsi ilə bağlı məsələlərin, insanların hüquq və azadlıqlarının təsbit edildiyi ali sənəd olduğunu bildirib. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın demokratik prinsiplərə əsaslanan Konstitusiyasının hazırlanmasında və qəbul edilməsində müstəsna xidmətlərini xüsusi qeyd edib. Pakistan Senatının spikeri Prezident İlham Əliyevin Azərbaycan dövlətinin suverenliyini və müstəqilliyini qorumaq, ərazi bütövlüyünü təmin etmək və ölkənin beynəlxalq mövqeyini möhkəmləndirmək sahəsində atdığı mühüm əhəmiyyətli addımları təqdir edib. 2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilməsinin ölkə başçımızın bu dəyərlərə sadiqliyinin nümunəsi olduğunu vurğulayıb. Azərbaycan Prezidentinin ölkəmizdə qanunun aliliyinə əsaslanan ədalətli, müasir cəmiyyətin qurulması, multikulturalizm

və tolerantlığın inkişafı, regionda sülhün, sabitliyin, təhlükəsizliyin bərqərar olması istiqamətində gördüyü işləri yüksək qiymətləndirib.

Konfransda çıxış edən Tacikistan Respublikası Ali Məclisinin Nümayəndələr Palatasının sədri Fayzali İdizoda Azərbaycan Konstitusiyasının 30 illiyi ilə əlaqədar təbriklərini çatdıraraq, Konstitusiyanın hər bir müstəqil dövlətin hüquqi, siyasi və sosial əsasını təşkil edən, dövlətin suverenliyini təsdiqləyən ali hüquqi sənəd olduğunu qeyd edib. Tacikistanla Azərbaycan arasında dərin tarixi köklərə, ortaq mədəni dəyərlərə, adət-ənənələrə əsaslanan dostluq əlaqələrinin olduğunu söyləyib. Ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin, mütəmadi təmaslarının mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. İkitərəfli əlaqələrin inkişaf etdirilməsində parlamentlərin rolunu qeyd edərək, hər iki ölkənin qanunverici orqanları arasında əməkdaşlıq haqqında sazişin imzalandığını və bunun ölkələrimiz arasında siyasi, iqtisadi, elmi-texniki, sosial-mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsində vacibliyindən danışıb.

Fayzali İdizoda Azərbaycan Konstitusiyasının ölkənin əsas siyasi-hüquqi sənədi kimi ən dəyərli və mütərəqqi ünsürləri özündə cəmləşdirdiyini, dövlət müstəqilliyini, suverenliyini və beynəlxalq nüfuzunu möhkəmləndirdiyini bildirib. Bu sənəddə dayanıqlı inkişaf, milli birlik və daxili sabitlik üçün möhkəm təməllərin təsbit edildiyini və bunun ölkənin yeni tarixi şə-raitdə davamlı tərəqqisini təmin etdiyini deyib.

Tədbirdə Rumıniya Parlamenti Senatının sədri Mirça Abrudean çıxış edərək, Rumıniyanın Azərbaycanla əlaqələrinə önəm verdiyini bildirib. Azərbaycan Konstitusiyasının 30 illiyinin qeyd edilməsini ölkə həyatında mühüm hadisə kimi dəyərləndirib. Konstitusiyanın dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, ölkənin siyasi sisteminin əsaslarının təmin edilməsi, ərazi bütövlüyünün, suverenliyin qorunması, qanunun aliliyi, insan hüquq və azadlıqlarına əməl edilməsi baxımından önəmli olduğunu söyləyib. Konstitusiyanın 30-cu ildönümünə həsr olunmuş Beynəlxalq Parlament Konfransının keçirilməsinin qanunverici orqanlar arasında əməkdaşlığın əyani sübutu olduğunu deyib. Azərbaycan Konstitusiyasının ölkəmizin və xalqımızın gələcək inkişafı üçün möhkəm təməl rolunu oynadığını vurğulayıb.

Konfransda Belarus Milli Assambleyası Respublika Şurasının sədr müavini Vladislav Tatarinoviç, Gürcüstan Parlamentinin sədr müavini Nino Tsilosani, Serbiya Milli Assambleyasının sədr müavini Covan Canciç, Kamboca Milli Assambleyası sədrinin ikinci müavini Sot Vonq, Türkiyə Böyük Millət Məclisinin üzvləri Hasan Turan və Şamil Ayrım, Özbəkistan Ali Məclis Senatının komitə sədri Əbdulhakim Eşmuratov, Rusiya Federal Məclis Federasiya Şurasının deputatı Natalya Kuvşinova, Pakistan Milli Assambleyanın deputatı Sofiya Said Şah, Qazaxıstan Parlament Məclisinin üzvü Aydos Sarım, İtaliya Deputatlar Palatasının üzvü Eucenio Zoffili, Malayziya Senatının üzvü Mohd Hatta Bin Ramli və Cənubi Afrika Milli Assambleyasının üzvü Verner Horn çıxış edərək Azərbaycan Konstitusiyasının qəbul edilməsinin 30 illiyi münasibətilə səmimi təbriklərini, dəvətə və yüksək təşkilatçılığa görə Milli Məclisin sədri Sahibə Qafarovaya minnətdarlıqlarını bildiriblər. Qeyd olunub ki, bu konfrans konstitusiya irsinin təntənəsinin bariz nümunəsi olmaqla yanaşı, qanunverici orqanlar arasında faydalı fikir mübadiləsi və əməkdaşlıq üçün səmərəli platforma yaradır.

Çıxışçılar öz ölkələri ilə Azərbaycanın konstitusiya tarixləri arasında paralellər aparıblar, müstəqillik və suverenlik uğrunda mübarizədə oxşar tarixi təcrübələrə diqqət çəkiblər.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Konstitusiyası xalqın arzularının və milli iradəsinin ifadəsi kimi formalaşmış, Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji məqsədlərin hüquqi əsasını yaratmaqla, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin möhkəm zəminini təşkil etmişdir.

Konfrans iştirakçıları Azərbaycanın bu gün Qarabağ Zəfəri ilə taclanan yeni bir tarixi dövr yaşadığını qeyd ediblər. Vurğulanıb ki, Azərbaycan bu gün yalnız ərazi bütövlüyünün deyil, həm də konstitusional quruluşunun və suverenliyinin təntənəsini yaşayır.

Sonra konfransda Qlobal Tolerantlıq və Sülh Şurasının sədri Əhməd Əlcarvan, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının baş katibi Asəf Hacıyev və Türk Dövlətləri Parlament Assambleyasının baş katibinin müavini Muhammet Alper Hayali çıxış ediblər.

Onlar bildiriblər ki, konstitusiya prinsiplərinin möhkəmləndirilməsi təkcə bir dövlətin tarixini və irsini qorumaq deyil, həm də uzunmüddətli dayanıqlı gələcəyin təminatıdır. Yalnız qarşılıqlı hörmət və suverenliyə riayət prinsipləri əsasında xalqlar arasında bərabərlik, dostluq və qarşılıqlı fayda üzərində qurulan əməkdaşlıq sülh və tərəqqinin əsasını təşkil edir.

Konfransda çıxış edənlər Azərbaycanın sülhə, tərəqqiyə və əməkdaşlığa verdiyi töhfələri yüksək qiymətləndirərək, Azərbaycan Milli Məclisi ilə əməkdaşlıqdan məmnunluqlarını ifadə ediblər. Onlar Azərbaycanın daha böyük uğurlar qazanacağına əminliklərini bildiriblər və parlamentlərarası əməkdaşlığın sülhə və bəşəriyyətin rifahına xidmət edəcəyinə inandıqlarını vurğulayıblar.

**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi**

# Azərbaycan Konstitusiyasının 30 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans və TÜRK-AY-ın birinci konqresi keçirilib

İyulun 16-da Azərbaycan Respublikası Konstitusiyasının 30 illik yubileyinə həsr olunmuş "Konstitusiya ədalət mühakiməsinin həyata keçirilməsi yolu ilə Konstitusiyanın aliliyinin təmin edilməsində müasir tendensiyalar" mövzusunda beynəlxalq konfrans və Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransının (TÜRK-AY) birinci konqresi keçirilib.



Konfransda iştirak etmək üçün ölkəmizə gələn xarici qonaqlar əvvəlcə Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri düzüblər.

Sonra Bakıda Zəfər parkı ziyarət edilib, abidə önünə gül dəstələri düzülüb.

Konfransın açılışında Azərbaycanın Dövlət Himni səsləndirilib və tədbir üçün hazırlanmış videoçarx nümayiş olunub.



Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Şimali Kipr Türk Cümhuriyyəti, Belarus, Gürcüstan, Moldova, Serbiya, İraqın konstitusiya ədalət mühakiməsi orqanlarının nümayəndə heyətləri beynəlxalq tədbirlərdə iştirak etmək üçün Konstitusiya Məhkəməsinin dəvəti ilə Bakı şəhərinə dəvət olunublar.

Həmçinin konfransda Milli Məclisin, Ali Məhkəmənin, Baş Prokurorluğun, Ədliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Vəkillər Kollegiyasının rəhbər şəxsləri və nümayəndələri, insan hüquqları üzrə müvəkkil (ombudsman), habelə bir sıra məhkəmələrin sədr və hakimləri, tanınmış alimlər, hüquq ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev konfransı açaraq Konstitusiyamızın 30 illik yubileyinə həsr olunan tədbirin əhəmiyyətini yüksək qiymətləndirib, burada səmərəli müzakirələrin aparılacağına əminliyini bildirib.

F.Abdullayev xüsusi vurğulayıb ki, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində Qələbəmizin 5-ci ildönümü tamam olur. Prezident İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi müasir Azərbaycan dövlətçiliyinin inkişafında mühüm hadisə olmaqla, hüquqi dövlətçilik və suverenlik dəyərlərinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir.

Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında əvəzolunmaz xidmətlərindən biri uğurlu dövlət quruculuğu prosesinin əsasının qoyulmasıdır. Ümummilli Liderin rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycanın ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunub, bununla da ölkəmizdə hüquqi dövlət quruculuğunun möhkəm təməli qoyulub. Müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu dövlətçilik tarixində mühüm hadisə olmaqla, insan hüquq və azadlıqlarının həyata keçirilməsinə əsaslı zəmin yaradıb.

Diqqətə çatdırılıb ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin uzaqgörən və dərin düşünülmüş siyasəti, sərkərdəlik məharəti, əsgər və zabitlərimizin qəhrəmanlığı 2020-ci ilin sentyabrında başlayan 44 günlük Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror əməliyyatında tarixi zəfərləri təmin edib. Qazanılan şanlı Qələbə sayəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib, Konstitusiyamızın hüquqi qüvvəsi işğaldan azad edilmiş bütün torpaqlarımızda bərqərar olub.

Sonra Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov, Baş prokuror Kamran Əliyev, Ədliyyə naziri Fərid Əhmədov, insan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva və Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov açılış nitqləri ilə çıxış ediblər.



Konfransın praktiki hissəsində Türkiyə Konstitusiya Məhkəməsinin sədri Kadir Özkaya, Belarus Konstitusiya Məhkəməsinin sədri Pyotr Miklaşeviç, Serbiya Konstitusiya Məhkəməsinin sədri Snejana Markoviç, Azərbaycan Konstitusiya Məhkəməsinin hakimi Fikrət Məmmədov, Özbəkistan Konstitusiya Məhkəməsinin sədri Mirzə-Uluqbek Abdusalomov, Moldova Konstitusiya Məhkəməsinin sədri Domnika Manole, İraq Federal Ali Məhkəməsinin sədri Munter İbrahim Hüseyn, Tacikistan Konstitusiya Məhkəməsinin sədri Abdulhafiz Aşurzoda, Şimali Kipr Türk Respublikası Ali Məhkəməsinin sədri Bertan Özerdağ, Qırğız Respublikası Konstitusiya Məhkəməsinin hakimi Çinarə Aydarbekova, Qazaxıstan Konstitusiya Məhkəməsinin hakimi Erkin Onqarbayev çıxış edərək, öz ölkələrində konstitusiya ədalət mühakiməsinin həyata keçirilməsi yolu ilə Konstitusiyanın aliliyinin təmin edilməsi sahəsində mövcud təcrübələrini bölüşüblər.

Məruzələrdən sonra mövzular ətrafında müzakirələr və geniş fikir mübadiləsi aparılıb.

Tədbirə yekun vuran Fərhad Abdullayev konfransın gedişatında müxtəlif aktual mövzulara toxunulduğunu və səmərəli fikir mübadiləsi aparıldığını bildirib. Qeyd edilib ki, müxtəlif hüquq sistemlərinə malik ölkələrin təcrübələrinin bölüşüldüyü konfransda maraqlı müzakirələr aparılıb, Konstitusiya məhkəmələrinin qərarlarında formalaşdırılan hüquqi mövqelər, konstitusiya ədalət mühakiməsinin həyata keçirilməsi yolu ilə Konstitusiyanın aliliyinin təmin edilməsində müasir tendensiyalar ilə bağlı maraqlı fikirlər ifadə edilib.

Konfransdan sonra Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransının (TÜRK-AY) birinci konqresi işə başlayıb. Konstitusiya Məhkəməsinin sədrliyi ilə keçirilən konqresdə Təşkilatın tamhüquqlu üzvləri olan Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan Konstitusiya məhkəmələrinin nümayəndələri iştirak ediblər. Eyni zamanda, Şimali Kiprin Ali Məhkəməsinin sədrinin və İraq Federal Ali Məhkəməsinin sədrinin başçılıq etdiyi nümayəndə heyətləri konqresə fəxri qonaq qismində qatılıblar.

Konqresin əvvəlində Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək, bu əlamətdar tədbirin ölkəmizdə keçirilməsinin önəmini vurğulayıb.

O qeyd edib ki, türk dövlətləri arasında hüquqi əməkdaşlığın genişləndirilməsi, ortaq hüquqi dəyərlərin təşviqi baxımından TÜRK-AY platforması mühüm hüquqi əməkdaşlıq meydanına çevrilib.

Tədbirdə Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransının (Təşkilatı) 6-cı konqresi ilə əlaqədar TÜRK-AY-a üzv məhkəmələrin nümayəndələri tərəfindən milli məruzələr üzrə icmallar təqdim edilib.

İcmalların təqdimatından sonra TÜRK-AY-ın beynəlxalq təşkilatlarla əməkdaşlıq istiqamətində fəaliyyəti, bu sahədə əldə olunmuş nailiyyətlər və perspektivlər ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra Şimali Kiprin Ali Məhkəməsinin müraciəti müzakirə olunub və bu qurumun TÜRK-AY-a müşahidəçi statusunda qəbul olunması haqqında qərar qəbul edilib.

Konqres çərçivəsində Türk dövlətləri arasında konstitusiya ədalət mühakiməsi sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə xidmət edən "Bakı Bəyannaməsi" imzalanıb. Bəyannamə 2024-cü il 6 iyul tarixli "Türk Dövlətləri Təşkilatının Zirvə görüşünün Qarabağ Bəyannaməsi"ndə əksini tapmış türk dövlətlərinin səylərinin, birliyinin vacibliyini bir daha təsdiqləyərək, türk dövlətlərinin konstitusiya ədalət mühakiməsi orqanları arasında hüquqi əməkdaşlığın vacibliyini qeyd edir.

Konqres iştirakçıları TÜRK-AY Konfransının birinci konqresinin təşkilinə görə Azərbaycana minnətdarlıqlarını bildirib, xalqımızı "Konstitusiya və Suverenlik İli" münasibətilə təbrik ediblər.

Tədbir zamanı, həmçinin Azərbaycan Konstitusiya Məhkəməsi ilə Türkiyə Konstitusiya Məhkəməsi, eləcə də Azərbaycan Konstitusiya Məhkəməsi ilə İraq Federal Ali Məhkəməsi arasında Anlaşma memorandumları imzalanıb.

Sonda Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev TÜRK-AY-ın birinci konqresinin işini yüksək qiymətləndirib və tədbirin uğurla başa çatmasından məmnunluğunu ifadə edib.

O, TÜRK-AY çərçivəsində konstitusiya ədalət mühakiməsi sahəsində əməkdaşlığın davamlı olacağına və gələcəkdə daha da dərinləşəcəyinə əminliyini ifadə edib.

İyulun 17-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında tədbirin xarici qonaqları üçün konsert proqramı təşkil edilmişdir.

Həmçinin qonaqların Azərbaycanın zəngin tarixi və mədəni irsi ilə tanışlığı üçün proqramlar təşkil edilmişdir.



# Almaniyada 28 May – Müstəqillik Günü təntənəli şəkildə qeyd olunub




28 May – Müstəqillik Günü münasibətilə Azərbaycanın Almaniyadakı səfirliyi tərəfindən mayın 28-də Berlində rəsmi qəbul təşkil olunub. Qəbul, həmçinin Azərbaycanın Konstitusiya və Suverenlik İlinə həsr olunub.

Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində keçirilən təntənəli tədbirdə 400-dən çox qonaq, o cümlədən Almaniyanın bir sıra dövlət qurumlarının yüksək vəzifəli nümayəndələri, Bundestaqın deputatları, xarici ölkələrin səfirləri, media nümayəndələri, elm və mədəniyyət xadimləri, eləcə də Almaniyada yaşayan Azərbaycan, türk və digər dost icmaların üzvləri iştirak ediblər.

Tədbirdə əvvəlcə Azərbaycanın və Almaniyanın dövlət himnləri səsləndirilib.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev çıxış edərək, 1918-ci ildə mürəkkəb ictimai-siyasi şəraitdə qurulan Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlətçilik tariximizin ən şərəfli səhifələrindən biri olduğunu vurğulayıb. Diqqətə çatdırılıb ki, mövcud olduğu 23 ay ərzində müsəlman dünyasında ilk parlamentli respublika modelini formalaşdıran və mütərəqqi islahatlar həyata keçirən Cümhuriyyət xalqımızın azadlıq və müstəqillik əzminin nümayişi idi.

1991-ci ildə dövlət müstəqilliyini bərpa edən Azərbaycanın ilk illərdə ciddi təhdidlərlə üzləşdiyini qeyd edən diplomat bildirib ki, yalnız Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra ölkədə sabitlik bərpa olundu, hüquqi dövlət quruculuğu və iqtisadi inkişafın əsası qoyuldu. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır, regional və qlobal proseslərdə mühüm rol oynayır.

Səfir Azərbaycanın 2020-ci ildə qazandığı şanlı Qələbə və 2023-cü ildə dövlət suverenliyinin tam bərpası ilə bağlı mühüm məqamları diqqətə çatdıraraq bildirib ki, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir. Artıq 14 mindən çox məcburi köçkün doğma torpaqlarına qayıdıb. İlk dəfə olaraq Azərbaycanın bütün ərazisində dövlət suverenliyinin tam təmin edildiyi və ölkəmizin ərazisində heç bir xarici hərbi birləşmələrin qalmadığı bildirilib.

Bu ilin martında Azərbaycan və Ermənistan tərəfindən sülh sazişinin mətnini razılaşdırılmasının mühüm tarixi nailiyyət olduğu qeyd edilib, bunun bölgədə sülh, əməkdaşlıq və firavan gələcək üçün yeni səhifə açmağa imkan yarada biləcəyi vurğulanıb.

Səfir bu il Azərbaycan Respublikasının Konstitusiyasının qəbulunun 30 illiyinin qeyd olunduğunu xatırladaraq, bu münasibətlə Prezident İlham Əliyevin 2025-ci ili ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan etdiyini diqqətə çatdırıb.

Nəsimi Ağayev çıxışında Azərbaycan-Almaniya münasibətlərinə də toxunaraq, iki ölkə arasında siyasi dialoqun intensivləşdiyini, müxtəlif sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayıb. Prezident İlham Əliyevin son iki ildə Almaniyaya dörd dəfə səfər etməsinin, Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin bu ilin aprelində ölkəmizə səfərinin ikitərəfli siyasi dialoqun yüksək səviyyədə olmasının bariz göstəricisi olduğu qeyd edilib.

Almaniya Xarici İşlər Nazirliyinin Cənub-Şərqi Avropa, Türkiyə, ATƏT və Avropa Şurası üzrə müvəkkili, səfir Mixael Rayfenştul çıxışında 28 May – Müstəqillik Günü münasibətilə Almaniya xarici işlər naziri Yohan Vadefulun təbriklərini çatdırıb. Ölkələrimiz arasında münasibətlərin dərin tarixi köklərə əsaslandığını qeyd edən Mixael Rayfenştul XIX əsrin əvvəllərində alman şvablarının Azərbaycana köçərək burada öz qəsəbələrini yaratdığını və onların mədəni irsinin ölkəmizdə qorunduğunu və yaşadıldığını xatırladıb. O, ikitərəfli əlaqələrin bu gün də dinamik şəkildə inkişaf etdiyini vurğulayaraq, Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin münasibətlərimizin tarixində ilk dəfə olaraq Azərbaycana səfərinin əlaqələrin yüksək səviyyəsinin bariz nümunəsi kimi dəyərləndirib.

Çıxışlardan sonra "Qafqaz" musiqi ansamblı maraqlı proqramla çıxış edib. Milli rəqslərimizin və musiqimizin ifası zamanı salonda quraşdırılmış böyük monitorda Azərbaycanın füsunkar təbiəti, paytaxt Bakının görməli yerlərini əks etdirən videoçarx nümayiş etdirilib.

Təntənəli tədbir ziyafətlə davam edib.

# Vaşinqtonda Azərbaycanın Müstəqillik Gününə həsr olunmuş rəsmi qəbul keçirilib










Azərbaycanın ABŞ-dəki Səfirliyinin təşkilatçılığı ilə Vaşinqtonda 28 May - Müstəqillik Günü və 26 İyun – Silahlı Qüvvələr Gününə həsr olunmuş rəsmi qəbul keçirilib. Qəbulda əvvəlcə hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Daha sonra çıxış edən səfir Xəzər İbrahim 107 il əvvəl müsəlman Şərqində ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğunu bildirib. O deyib ki, cümhuriyyəti quran atalarımız güclü suverenlik həsrətində olublar və bu gün Azərbaycanın suverenliyi güclüdür, sabitdir və çiçəklənir. Səfir 1919-cu il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının Parisdə ABŞ Prezidenti Vudro Vilsonla görüşünü xatırladıb.

Daha sonra çıxış edən ABŞ enerji katibinin beynəlxalq əlaqələr üzrə köməkçisi vəzifəsini icra edən Tomi Coys Birləşmiş Ştatların Azərbaycanla əlaqələri çox yüksək qiymətləndirdiyini deyib. O bildirib ki, 30 ildən çox müddət ərzində ölkələrimiz arasında ortaq maraqlara və qarşılıqlı hörmətə əsaslanan tərəfdaşlıq qurulub: “Azərbaycan və ABŞ terror və zorakı ekstremizmə qarşı birgə mübarizə aparıb, Əfqanıstanda çiyin-çiyinə döyüşüb. Biz birlikdə Azərbaycan nefti və təbii qazının Qərb bazarlarına çıxarılması üçün yollar hazırlamışıq”. O bildirib ki, Birləşmiş Ştatlar Azərbaycanın dünyanın enerji tərəfdaşı kimi artan rolunu görməkdən məmnundur.

Azərbaycanın ABŞ-da hərbi attaşesi vəzifəsini müvəqqəti icra edən 3-cü dərəcəli kapitan Kamran Tahirbəyli Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə ABŞ Müdafiə Departamenti arasında əməkdaşlıqdan danışıb və bu əlaqələrin illər ərzində daha da möhkəmləndiyini bildirib. Onun sözlərinə görə, bu münasibətlər ortaq dəyərlər, qarşılıqlı hörmətlə yanaşı, birgə təlim proqramları, operativ əməkdaşlıq, potensialın gücləndirilməsi təşəbbüsləri və strateji dialoq vasitəsilə təkcə regionda deyil, bütün dünyada sülh, təhlükəsizlik və sabitliyi inkişaf etdirmək öhdəliyi üzərində qurulub. O bildirib ki, bu münasibətlərin təməl daşı dövlət tərəfdaşlığı proqramı vasitəsilə Oklahoma Milli Qvardiyası ilə davamlı tərəfdaşlıq olub.

Oklahoma Milli Qvardiyasının Qərargah rəisi, briqada generalı Kolbi Vayt azərbaycanlılarla işləməkdən hədsiz zövq aldığını və Azərbaycanla Oklahoma mədəniyyətləri arasında çox oxşarlıqlar gördüyünü dilə gətirib. O Azərbaycanla təmsil etdiyi ştat arasında gələcəkdə əməkdaşlığın daha da inkişaf edəcəyini deyib.

Tədbirin davamında Vaşinqton şəhərinin meri Myuriel Bauzerin Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 107-ci ildönümü ilə bağlı imzaladığı bəyannamə səsləndirilib.

Sonda azərbaycanlı azyaşlılar Rəşid Behbudovun “Azərbaycan” mahnısını ifa ediblər.

# Tallində Azərbaycanın Dövlət Suverenliyi Günü qeyd olunub






Estoniyanın nüfuzlu Tallin Universitetinin mərkəzi binasında fəaliyyət göstərən Azərbaycan Həftəsonu Məktəbində 20 Sentyabr – Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü ilə əlaqədar dəyirmi masa təşkil olunub. Tədbir Azərbaycanın Estoniyadakı səfirliyinin dəstəyi ilə gerçəkləşib.

Tədbirdə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Azərbaycan Həftəsonu Məktəbinin rəhbəri Sənəm Əliyeva tədbirin açılışında çıxış edərək Dövlət Suverenliyi Gününün tarixi əhəmiyyətindən bəhs edib, Azərbaycan dövlətçiliyinin bu mərhələyə qədər keçdiyi mürəkkəb yola dair ətraflı məlumat verib.

Çıxışlarda vurğulanıb ki, 2023-cü il sentyabrın 19-da başlanmış və cəmi 23 saat davam edərək sentyabrın 20-də başa çatmış lokal xarakterli antiterror əməliyyatı nəticəsində ölkəmizin suverenliyi tam bərpa olunub.

Gənc tələbələr harada yaşamalarından və təhsil almalarından asılı olmayaraq dünya azərbaycanlılarını dövlət müstəqilliyimizin və suverenliyimizin möhkəmləndirilməsi naminə azərbaycançılıq ideologiyası ətrafında birləşməyə çağırıblar. İkinci Qarabağ müharibəsinin rəmzinə çevrilən "Dəmir yumruq" xalqımızın gücünün və birliyinin təcəssümüdür. İkinci Qarabağ müharibəsində qazanılmış tarixi Zəfər nəticəsində işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı quruculuq və bərpa işlərinin əhəmiyyəti xüsusi vurğulanıb.

Diqqətə çatdırılıb ki, bu cür görüşlərin və tədbirlərin təşkili Azərbaycanın dünyada daha geniş tanıdılması və təbliği baxımından mühüm əhəmiyyət daşıyır.

# “Konstitusiya və Suverenlik İli” münasibətilə Moldovanın Milli Tarix Muzeyində fotosərginin açılışı olub



2025-ci il sentyabrın 29-da Moldovanın paytaxtı Kişineu şəhərində “Konstitusiya və Suverenlik İli” münasibətilə Moldovanın Milli Tarix Muzeyində fotosərginin açılış mərasimi olub.

Azərbaycanın Moldovadakı səfirliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə Moldova Parlamentinin deputatı, Moldova XİN-in nümayəndələri, Moldovada akkreditə olunmuş diplomatlar və Azərbaycan diasporunun üzvləri iştirak ediblər.

Tədbirdə çıxış edən ölkəmizin Moldovadakı səfiri Ülvi Baxşəliyev 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30 illiyinin və Vətən müharibəsində Qələbəmizin 5-ci ildönümünün qeyd edildiyini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edildiyini vurğulayıb. Səfir sərgidə nümayiş etdirilən şəkillər arasında Bakının 1918-ci ildə Qafqaz İslam Ordusu tərəfindən daşnak-bolşevik işğalından azad edilməsini, Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı altında Ordumuzun Vətən müharibəsində parlaq Qələbəsini, eləcə də ölkəmizin inkişafını əks etdirən fotoların yer aldığını diqqətə çatdırıb.






Muzeyin direktoru Eugeniu Sava və deputat Vitali Jakot çıxışlarında konstitusiyanın hər bir ölkənin inkişafında mühüm rol oynadığını qeyd edərək, sərginin paytaxt Kişineu şəhərinin sakinləri və qonaqları tərəfindən böyük maraqla qarşılanacağını bildiriblər.

Daha sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

# Haaqada Azərbaycanın Zəfər Günü münasibətilə "Mənim Azərbaycanım: Odlar Yurdunun ritmləri" adlı konsert proqramı təqdim olunub





Azərbaycanın Niderlanddakı Səfirliyində keçirilən tədbirdə bu ölkənin dövlət qurumlarının, ölkədə akkreditə olunmuş diplomatik korpusun, siyasi, ictimai, işgüzar, mədəniyyət və akademik dairələrin, kütləvi informasiya vasitələrinin nümayəndələri, eləcə də Azərbaycan icmasının üzvləri iştirak ediblər.

Çıxış edən Azərbaycanın Niderland Krallığındakı səfiri Məmməd Əhmədzadə 2025-ci ilin Azərbaycanda Konstitusiya və Suverenlik İli elan olunmasını, bu günlərdə Zəfərin beş illiyinin və Dövlət Bayrağı Gününün böyük fəxarət hissi ilə qeyd edilməsini dövlətçiliyimizin daha da möhkəmlənməsinin və milli birliyimizin təntənəsi olduğunu bildirib.

M.Əhmədzadə tədbiri sülhün, dostluğun və Azərbaycan-Niderland mədəni əlaqələrinin parlaq rəmzi adlandırıb.

Ardınca tədbirin bədii hissəsi nümayiş olunub. Rəngarəng konsert proqramında Azərbaycanın "Ritm" rəqs qrupu "Qaytağı", "Sarı gəlin", "Vağzalı", "Çay", "İgidlər", "İnnabı", "Nağara", "Uzundərə", "Fantaziya" və "Yallı" kimi rəqslər nümayiş etdirilib.

Həmçinin Niderlandda yaşayan azərbaycanlı ifaçılarla Azərbaycandan gəlmiş musiqiçilər musiqi kompozisiyası ilə çıxış ediblər.

Qeyd edək ki, tədbir Azərbaycan Niderlanddakı Səfirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Diasporuna Dəstək Fondu və Azərbaycan-Niderland "Odlar Yurdu" Cəmiyyətinin birgə təşkilatçılığı ilə baş tutub.

# Astanada Azərbaycanın "Konstitusiya və Suverenlik İli" qeyd edilib



2025-ci il noyabrın 13-də Astanada Azərbaycanın "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə çıxış edən Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edildiyini diqqətə çatdırıb.

Səfir bildirib: "Bu qərar ölkəmizin yaxın tarixində iki mühüm hadisəni - Konstitusiyanın qəbul edilməsinin 30-cu ildönümünü və Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin 5 illiyini bir araya gətirir".

Diplomat qeyd edib ki, 1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş Konstitusiya sabit dövlət idarəçiliyi sisteminin, vətəndaşların hüquqlarının qorunmasının və milli suverenliyin təməlini qoyub. O əlavə edib: "Noyabr ayında biz daha bir əlamətdar hadisəni – 9 Noyabr – Dövlət Bayrağı Gününü qeyd edirik. Müstəqilliyin bərpasından bəri Azərbaycanın Dövlət Bayrağı ölkəmizin dövlətçiliyinin müqəddəs rəmzlərindən birinə çevrilib".

Azərbaycan-Qazaxıstan münasibətlərindən danışan diplomat qeyd edib ki, iki qardaş ölkə müttəfiq və strateji tərəfdaşdır. "Bu ilin 20-21 oktyabr tarixlərində Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana dövlət səfərini mübaliğəsiz olaraq tarixi hadisə adlandırmaq olar. Səfərin ölkələrimiz arasında Strateji Tərəfdaşlıq və Müttəfiqlik haqqında Müqavilənin 20-ci ildönümünə təsadüf etməsi simvolikdir", – deyə o əlavə edib.

Səfir Türkiyə hərbi-nəqliyyat təyyarəsinin qəzaya uğraması xəbəri ilə bağlı qardaş xalqa və Türkiyə Silahlı Qüvvələrinə başsağlığı verib.

O qeyd edib ki, 8 Noyabr – Zəfər Günü tariximizin ən yaddaqalan səhifələrindən biridir: "Şanlı Qələbəmizin 5-ci ildönümünü qeyd edirik. Bu gün Azərbaycan xalqı qəhrəmanlıq salnaməsi yazıb və tarixi Qələbə qazanıb. Biz təkcə ərazi bütövlüyümüzü deyil, həm də milli qürurumuzu bərpa etdik".

Diplomat işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və tikinti işləri barədə də məlumat verib.

Tədbirdə çıxış edən Qazaxıstanın elm və ali təhsil naziri Sayasat Nurbek qardaş Azərbaycan xalqını Qazaxıstan hökuməti adından Konstitusiyanın qəbul edilməsinin 30-cu ildönümü münasibətilə təbrik edib.

Nazir deyib: "Bu tarixi sənəd müstəqilliyin, suverenliyin və davamlı inkişafın təməl daşına çevrilib. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi Azərbaycanın qanuna və ədalətə əsaslanan milli inkişafa sarsılmaz sadiqliyinin bariz təzahürüdür".

S.Nurbek qeyd edib ki, Qazaxıstan Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətçiliyin





möhkəmləndirilməsi, sabitliyin təmin edilməsi və ölkənin beynəlxalq mövqeyinin gücləndirilməsi istiqamətində Azərbaycanın nailiyyətlərini yüksək qiymətləndirir.

Qazaxıstanlı nazir əlavə edib: "Əminəm ki, Qazaxıstan və Azərbaycan uzunmüddətli strateji tərəfdaşlığı dərinləşdirməyə davam edəcək, nəqliyyat əlaqələrini genişləndirəcək, ticarət həcmini artıracaq və bütün Türk dünyasının davamlı inkişafı üçün yeni imkanlar yaradacaq".

S.Nurbek ölkələr arasında təhsil sahəsində əməkdaşlığın möhkəm institusional təməl üzərində inkişaf etdiyini vurğulayıb. "Təhsil nazirlikləri arasında hökumətlərarası sazişə əsasən, tələbə mübadiləsi müntəzəm şəkildə həyata keçirilir və bu, yeni akademik imkanlar açır, həmçinin universitetləri bir-birinə daha da yaxınlaşdırır", - deyə o bildirib.



# *Türkiyə səfiri:*
# Azərbaycan daim sülhü, birliyi və həmrəyliyi müdafiə edən dövlətdir







Noyabrın 18-də "İMZA" İctimai Birliyinin təşəbbüsü və təşkilatçılığı ilə "Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpası: beynəlxalq hüquqi aspektlər" mövzusunda elmi-praktik konfrans keçirilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Həmçinin "İMZA"nın fəaliyyəti barədə videoçarx nümayiş etdirilib.

Konfransda çıxış edənlər arasında "İMZA" İctimai Birliyinin sədri Xəyyam Əsgərov, Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün, Milli Məclisin deputatları Nigar Məmmədova, Arzu Nağıyev və digərləri, həmçinin Türkiyənin sabiq səfiri və "İMZA" İB-nin Türkiyə təmsilçisi Hulusi Kılıç, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Elçin Əhmədov, onlayn formatda isə pakistanlı beynəlxalq hüquq üzrə ekspert Mohammed Sohail, ABŞ-ın ölkəmizdəki sabiq səfiri Metyu Brayza, Fransa Parlamentinin Fəxri deputatı Jerom Lambert və bir sıra xarici ekspertlər yer alıblar.

Çıxışlarda Azərbaycanın həyata keçirdiyi proqram və təşəbbüslərin dövlət strukturlarının gücləndirilməsinə, hüquq sisteminin təkmilləşdirilməsinə və vətəndaşların hüquqlarının qorunmasına xidmət etdiyi vurğulanıb. Təhsil, infrastruktur və sosial sahələrdə atılan addımların beynəlxalq hüquq və insan haqları prinsiplərinə uyğunluğu diqqətə çatdırılıb.

Azərbaycan daim sülhü, birliyi və həmrəyliyi müdafiə edən bir dövlətdir. Azərbaycanda 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması təsadüfi deyil. Bu il həm tarixi köklərimizə, həm dövlətçilik iradəmizə, həm də azadlıq dəyərlərimizə dərin ehtiramın göstəricisidir.

Bu sözləri Türkiyənin ölkəmizdəki səfiri Birol Akgün "Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpası: beynəlxalq hüquqi aspektlər" mövzusunda keçirilən 18 noyabr 2025-ci il tarixli elmi-praktiki konfransda söyləyib.

O bildirib ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsi, 2023-cü ildə isə həyata keçirilən antiterror tədbirləri ilə Azərbaycan öz torpaqlarında tam suverenliyini bərpa etdi. Bu, tarixi ədalətin bərpası, böyük Qələbə və bütün Türk dünyası üçün qürur mənbəyidir.

Türkiyə hər zaman Azərbaycanın yanında olub. Prezident Rəcəb Tayyib Ərdoğanın açıq və qətiyyətli dəstəyi, "Azərbaycanın sevincini sevincimiz, kədərini kədərimiz bilirik" sözləri qardaşlığımızın rəmzidir", - deyə diplomat əlavə edib.

O ümid etdiyini bildirib ki, yaxın vaxtlarda Zəngəzur dəhlizi ilə bağlı yekun anlaşmanın əldə olunması Türk dünyasını daha da birləşdirəcək.



**"Siyasi iradədən qaynaqlanan hazırda davam etdirilən islahatlar bu yeni dövrdə, xüsusən də “Konstitusiya və Suverenlik ili” çərçivəsində Azərbaycan Prokurorluğu qarşısında yeni və olduqca mühüm vəzifələr qoyur".**

**Kamran Əliyev,**
**Azərbaycan Respublikasının Baş prokuroru**

# 8 Noyabr Zəfəri müstəqil dövlətçiliyin ən qiymətli uğurudur

## Nəsillər bu tarixlə həmişə fəxarət duyacaqlar

**Müsahibimiz Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevdir**



**– Cənab baş prokuror, elə söhbətimizin əvvəlində istərdim Sizi və rəhbərlik etdiyiniz respublika prokurorluq orqanlarının bütün işçilərini Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 8 Noyabr – Zəfər Günü münasibətilə redaksiyamız adından təbrik edəm. Bizim üçün bilmək maraqlıdır, Baş prokuror kimi fəaliyyət göstərdiyiniz dövrə təsadüf edən 44 günlük Vətən müharibəsində qazanılan Zəfər 5 il əvvəl Sizdə hansı təəssüratlar yaratdı?**

– Belə möhtəşəm bir bayram münasibətilə Azərbaycan Prokurorluğunun əməkdaşlarını və məni təbrik etdiyinizə görə minnətdarlığımı bildirirəm. Eyni zamanda, mən də xalqımızı, "Xalq qəzeti"nin redaksiyasını və sizin simanızda bütün media nümayəndələrini 8 Noyabr – Zəfər Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Təbii, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan belə möhtəşəm qələbənin bu vəzifədə çalışdığım dövrə təsadüf etməsi məni son dərəcə qürurlandırır. Çünki yaşadığımız dövr dünyada gedən kəskin siyasi-iqtisadi proseslər, qarşıdurmalar, bir çox regionlarda alovlanan lokal münaqişələr fonunda, Ermənistanın havadarlarının dünyanın nəhəng aktorları olduğu, eyni zamanda, ölkəmizə qarşı münasibətlərin heç də birmənalı olmadığı bir şəraitdə, əraziləri dünyanın gözü qarşısında 30 ilə yaxın işğal altında qalan Azərbaycanın Silahlı Qüvvələrinin misilsiz qələbə qazanması şübhəsiz, məni son dərəcə qürurlandırdı. Səmimi etiraf edim ki, bir vətəndaş olaraq, qazandığımız bu Zəfər məni son dərəcə duyğulandırdı. Sual edə bilərsiniz ki, nə üçün?

Xatırlayırsınızsa, Ümummilli liderimiz Heydər Əliyevin 100 illik yubileyi zamanı sizə verdiyim müsahibədə qeyd etmişdim ki, mən Rusiya Federasiyasında təhsil almış və bir müddət o ölkədə hüquq-mühafizə orqanlarında çalışmışam. O dövrdə Ermənistanın torpaqlarımıza təcavüz edib ərazilərimizi işğal etməsini heç cür qəbul edə bilmirdim. Ancaq bu, acı bir reallıq idi və mənim kimi ölkədən kənarda yaşayıb-işləyən minlərlə soydaşımızın ürək ağrısına çevrilmişdi. Ona görə 2020-ci ildə Prezidentimizin müstəsna xidmətləri sayəsində 44 günlük Vətən müharibəsində qazanılan bu Zəfər bizim yaralarımıza məlhəm oldu, şərəfimizi göylərə qaldırdı.

İkinci bir tərəfdən, belə tarixi dövrdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin komandanlığı ilə respublikanın Baş prokuroru kimi rəhbərlik etdiyim prokurorluq orqanlarının ölkənin Konstitusiyası və qanunvericiliyi ilə üzərinə düşən vəzifələri qüsursuz yerinə yetirməsi, əlbəttə, mənim üçün böyük şərəf idi. Əməkdaşlarımızla Zəfər bayramı ərəfəsində müzakirələr aparanda, onların Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu Qələbənin canlı şahidi olmalarının məhz bizlərə nəsib olmasından necə qürurla danışdıqlarının çox tez-tez şahidi oluram. Bu, illərlə qəlbimizdə dolaşan müqəddəs arzumuz idi və təbii ki, gerçəkləşəndə bizə böyük qürur və sevinc yaşatdı. Əlbəttə, bizim kollektivin bütün əməkdaşları çalışdılar ki, bu Zəfərin qazanılmasında üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirsinlər. Bəzən hətta lazım olandan daha çox işlədilər, bundan yorulmadılar, qüvvələrini əsirgəmədilər, çünki torpaqlarımızın erməni işğalından xilas olması, ərazi bütövlüyümüzün bərpası və vüqarımızın, qürurumuzun özümüzə qaytarılması kimi son dərəcə mühüm və qiymətli dəyərlərdən söhbət gedirdi.



**– Ümumiyyətlə, suverenliyimizin pozulması, 30 ilə yaxın işğal altında qalması, Sizcə bu nə üçün baş verdi? Və 30 ildən sonra Azərbaycanın belə bir qalibiyyətə imza atacağına, ərazi bütövlüyünü bərpa edəcəyinə nə qədər inanırdınız?**

– Toxunduğunuz məsələ çox dərin və geniş bir mövzudur, hətta mən deyərdim, bir müsahibəyə sığan söhbət deyil. Amma müəyyən qədər yığcam və əhatəli şəkildə bunu açıqlamağa çalışacağam. Düşünürəm, siz də şahidi olmusunuz ki, Azərbaycan 1990-cı illərdə müstəqilliyini qazananda çox mürəkkəb bir vəziyyətlə üz-üzə idi. Həmin illərdə Azərbaycanda hakimiyyət başına gələn təsadüfi və naşı şəxslərin qeyri-peşəkar idarəçiliyi və yarıtmaz fəaliyyətləri sayəsində ölkəmiz böyük uğursuzluqlara düçar oldu. Bu siyasətin ən acı nəticəsi isə Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilməsi oldu. Bundan sonra ölkə çox ciddi siyasi və sosial-iqtisadi böhranla üzləşdi.

Açıq etiraf etmək lazımdır ki, bu dövr müstəqil Azərbaycan tarixinin ən ziddiyyətli və dövlətçiliyimizin məhv olmaq təhlükəsi ilə üzləşdiyi bir dövr oldu. Azərbaycanda cərəyan edən hadisələr Ermənistanın təcavüz və işğalçılıq iştahını daha da artırırdı və onlar bu ədalətsiz müharibədən öz mövqelərini möhkəmləndirmək üçün çox ustalıqla istifadə edirdilər. İkinci bir tərəfdən də Ermənistanın terrorçu siyasi-hərbi hakimiyyətinin xarici ölkələrdəki havadarları beynəlxalq səviyyədə onlara dəstək verir, Azərbaycanı dünya ictimaiyyətinə yalnız neqativ arqumentlərlə təqdim edirdilər.

Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra bu problemlər öz həllini tapmağa başladı. Təbii ki, bütün bunları həll etmək zaman tələb edirdi. Amma Ulu öndərin hakimiyyətə gəlişindən dərhal sonra, ilk növbədə, müstəqil dövlətin hakimiyyət atributları yaradılmağa və formalaşmağa başladı. Bununla paralel olaraq iqtisadiyyatımız, sənayemiz, kənd təsərrüfatımız tədricən dirçəlir, ordumuz formalaşırdı.

Mən həmişə qeyd edirəm ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin müstəsna siyasi və hərbi uzaqgörənliyi ilə qazanılan 2020-ci ilin 8 Noyabr Zəfərinə yol 1994-cü il mayın 12-də Ümummilli lider Heydər Əliyevin siyasi ustalığı sayəsində Bişkekdə imzalanmış atəşkəs sazişindən başlayır. Bunu vurğulamaq çox vacibdir. Çünki 2020-ci ildə 44 günlük Vətən müharibəsindəki Qələbənin təməli məhz həmin tarixdən qoyulmağa başlandı. Bişkekdə əldə olunan atəşkəs 26 il sonra işğalı aradan qaldıracaq Azərbaycan Ordusunun Zəfər yürüşünə hazırlıq üçün ölkəyə son dərəcə mühüm və qiymətli vaxt qazandırdı.

Atəşkəs sazişindən bir neçə ay sonra – 1994-cü il sentyabrın 20-də dünyanı idarə edən dövlətlərin 13 nəhəng neft şirkəti ilə imzalanan “Əsrin müqaviləsi” Azərbaycan iqtisadiyyatının, cəmiyyətin sosial həyatının və eyni zamanda çevik və müasir Silahlı Qüvvələrimizin ən qısa zamanda formalaşmasında müstəsna rol oynadı. 2003-cü ildə cənab İlham Əliyev ölkədə keçirilən prezident seçkilərində qalib gələndən sonra Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu iqtisadi, siyasi islahatlar daha geniş şəkildə və qətiyyətlə davam etdirilməyə başlandı. Yəni 1993-cü ildən Ulu öndər Heydər Əliyevin başladığı və Prezident cənab İlham Əliyevin 2003-cü ildən 2020-ci ilə qədər davam etdirdiyi bu siyasi, sosial-iqtisadi kurs Azərbaycana istər beynəlxalq aləmdə diplomatik cəbhədə, istərsə də ölkə daxilində çox böyük uğurlar qazandırdı.

Məhz Heydər Əliyevin qətiyyətli xarici siyasəti sayəsində qısa müddətdə BMT kimi beynəlxalq təşkilatda Ermənistanın işğalçı siyasətini, faktiki olaraq, tanıyan və işğal etdiyi Azərbaycan ərazilərindən dərhal, qeyd-şərtsiz çıxmasını tələb edən 822, 853, 874 və 884 saylı 4 qətnamə qəbul edildi. 1996-cı ilin dekabrında isə ATƏT-in Lissabon sammitində Ulu öndər Heydər Əliyevin dəmir iradəsi sayəsində ATƏT-in üzvü olan 53 Avropa ölkəsi Qarabağ probleminin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi və ölkəmizin ərazi bütövlüyünü tanıyan sənəd qəbul etdi. Bütün bunlar və bir çox digər sənədlər 2020-ci ildə Azərbaycanın öz torpaqlarını azad etməsi üçün hüquqi baza yaradırdı.

Prezident cənab İlham Əliyevin xarici siyasəti isə Azərbaycanın haqlı tələblərini bütün dünyaya açıb göstərdi. Hələ 44 günlük Vətən müharibəsinə qədər

cənab Prezident müxtəlif beynəlxalq təşkilatlarda, siyasi və diplomatik görüşlərində tam qətiyyətlə bəyan edirdi ki, əgər Ermənistan işğal etdiyi torpaqlardan çıxmasa, onları silah gücünə çıxarmaq Azərbaycanın qanuni haqqıdır.



Onu da xüsusi qeyd etmək istərdim ki, 44 günlük Vətən müharibəsinə qədər 1 milyona yaxın məcburi köçkün və qaçqının problemləri də dövlətimiz tərəfindən bu və digər formada həll edilmişdi. Onlara humanitar yardımlar edilirdi, ən yüksək səviyyədə qayğı göstərilirdi və demək olar dövlətimiz öz gücü ilə ölkədə bir dənə də olsun çadır şəhərciyi saxlamadı və yurd-yuvalarını itirmiş insanlar normal yaşayış yerləri ilə təmin edildilər.

Təbii ki, Baş prokuror olaraq mən və prokurorluğun əməkdaşları xarici ölkələrə səfərlər edir, müxtəlif beynəlxalq tədbirlərdə iştirak edir, orada Ermənistanın təcavüzü, ölkəmizin ərazisinin 20 faizini işğal etməsi və 30 ilə yaxın bu əraziləri qanunsuz olaraq işğal altında saxlamaları, xalqımıza qarşı soyqırımı həyata keçirmələri barədə arqumentlər və faktlarla təbliğat aparırdıq.

Yəni bütün dövr ərzində bir xalq, millət olaraq üzərimizdə çox ağır bir yük var idi və bu yük bizi mənən əzirdi, incidirdi. Bu, torpaqlarımızın işğal altında qalması idi. Millətimiz, xalqımız nə qədər yaxşı yaşasa, normal həyat şəraiti qursa, ölkəmiz nə qədər sürətlə inkişaf etsə, müasir texnika və texnologiyalara sahib olsa da, Qarabağ yarası psixoloji olaraq düşüncəmizdə, ürəyimizdə bizi rahat buraxmırdı və buraxa da bilməzdi.

Yalnız 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdən sonra içimiz rahatlıq tapdı, xalqımız ərazi bütövlüyünü təmin etməklə öz qürurunu özünə qaytardı.

**– Cənab Baş prokuror, bu böyük və şanlı Zəfərdə Azərbaycanın dövlət strukturlarının, hətta adi vətəndaşların belə öz payı var. Amma düşünürəm, Milli Ordumuzla yanaşı, hüquq-mühafizə orqanlarının da xidmətləri az olmayıb. Prokurorluq orqanlarının fəaliyyəti, apardıqları istintaq işlərinin detalları, gördükləri işin həcmi bəzən üzdə olmur, geniş açıqlanmır. Bilmək istərdik, bu Zəfərə aparan yolda Azərbaycan prokurorluğunun payı, rolu nədən ibarət olub?**

– Əgər Zəfərdə paydan söhbət gedirsə, ilk növbədə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident cənab İlham Əliyevin və onun ən yaxın silahdaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müstəsna xidmətlərini xüsusi qeyd etməliyik. Müasir dünya liderlərinin ən parlaq nümayəndəsi olan cənab İlham Əliyev, ilk növbədə, öz ölkəsinin lideri olaraq bütün cəmiyyəti, xalqı və komandasını son dərəcə mükəmməl şəkildə səfərbər etdi. Əlbəttə, bu səfərbərlik olmasaydı, qələbəni əldə etmək çox mürəkkəb və çətin olacaqdı. Ona görə də Zəfərin qazanılmasında, birinci növbədə, Ali Baş Komandan İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi ilə formalaşdırılan və ən müasir silah-sursat, hərbi texnika ilə təchiz edilən, yüksək döyüş hazırlığı səviyyəsinə qaldırılan Azərbaycan Silahlı Qüvvələri, bütün dövlət strukturları, daha sonra isə liderin ətrafında sıx birləşən Azərbaycan xalqını və cəmiyyətini qeyd etmək lazımdır.

Hüquq-mühafizə orqanlarının Zəfərdəki payına gəldikdə, mən sizinlə tamamilə razıyam, çünki bu dövlət qurumlarının, o cümlədən prokurorluq orqanlarının cəmiyyətdə rolu böyükdür. Bura birinci növbədə 44 günlük Vətən müharibəsi dövründə cəmiyyətdə sabitliyin qorunması, qanunların aliliyinin, xüsusilə vətəndaşların hüquqlarının və onların etibarlı müdafiəsinin təmin olunması daxildir. İkincisi, bu çətin müharibə zamanı cəbhə bölgəsində fəaliyyətimizin davam etdirilməsidir. Burada həm mülki prokurorluq orqanlarının, həm də hərbi prokurorluq orqanlarının fəaliyyətini qeyd etmək istərdim. Yəqin izləmisiniz ki, 44 günlük müharibə zamanı Ermənistan silahlı birləşmələri Gəncəyə, Tərtərə və dinc əhali yaşayan digər yaşayış məntəqələrimizə raket zərbələri endirdikdən dərhal sonra bizim əməkdaşlar, prokurorluğun kriminalistləri təhlükələrə məhəl qoymadan həmin ərazilərə gedir, hadisə yerlərindən sübutların toplanması və digər istintaq əməliyyatlarını həyata keçirirdilər. Beləliklə, Ermənistanın hərbi-siyasi hakimiyyətinin Azərbaycanın mülki vətəndaşlarına qarşı törətdikləri hərbi cinayətlərin hamısını qeydə alır, sübutları toplayır, istintaq-təhqiqat fəaliyyətini həyata keçirir və bunlar barədə xalqımızla yanaşı, beynəlxalq institutlara, dünya ictimaiyyətinə informasiya verirdilər.

Hərbi Prokurorluğun əməkdaşları isə bizim Silahlı Qüvvələrimizlə birlikdə bilavasitə döyüş bölgələrinə gedir, üzərlərinə düşən vəzifələri icra edirdilər. Siz doğru qeyd edirsiniz ki, prokurorluq orqanlarının işin-

də ictimaiyyət üçün açıq olmayan və məxfi saxlanılan fəaliyyət sahələri də var. Görünən fəaliyyət sahələri haqqında mən əvvəldə danışdım, amma məxfi olanlar təbii ki, sirr olaraq qalmalıdır.

**– 30 il əvvəl Azərbayan əraziləri işğala məruz qalarkən erməni silahlı birləşmələri azərbaycanlılara qarşı xüsusi amansızlıqla kütləvi soyqırımı cinayətləri törətmişlər. Azərbaycan prokurorluğunda bütün bu cinayətlər qeydə alınaraq, onlarla bağlı müvafiq istintaq fəaliyyəti həyata keçirilibmi?**

– Tamamilə yerində verilən sualdır, çünki cəmiyyət də bu məsələdə maraqlıdır. Bir anlıq tarixə, erməni separatizminin başlandığı ötən əsrin 80-90-cı illərinə qayıtsaq, görərik ki, Azərbaycana qarşı bu ədalətsizlik, təcavüz və terrorçuluq əməlləri 1987-ci ildə Ulu öndər Heydər Əliyev siyasi hakimiyyətdən istefaya getməyə məcbur edildikdən sonra başlayıb. O tarixdən etibarən son illərə qədər bu və digər formada və miqyasda Ermənistanın həmin illərdəki siyasi-hərbi rəhbərliyi, terrorçu qruplaşmalar tərəfindən xalqımıza, Azərbaycanın ərazi bütövlüyünə qarşı cinayətlər törədilməyə başlanıb.

Tam əminliklə deyirəm ki, o dövrdən bu günə qədər, təkcə prokurorluq orqanları deyil, Azərbaycanın bütün hüquq-mühafizə orqanları törədilmiş cinayətləri sənədləşdiriblər. Bunu həm Dövlət Təhlükəsizlik Xidməti, həm Daxili İşlər Nazirliyi, həm də Azərbaycan prokurorluq orqanları ediblər.

Diqqət etsək, görərik ki, hər iki respublika Sovetlər Birliyinin tərkibində olanda Ermənistan separatçıları və terrorçuları Azərbaycan xalqına qarşı cinayətləri bir formada törədirdilərsə, müstəqillik illərində bu, bir başqa forma və metodlarla törədilməyə başlandı. Cəzasızlıq mühitinə düşən erməni caniləri qanlı terrorlar, soyqırımı cinayətləri, kütləvi qırğınlar törətməkdən belə çəkinməyiblər. Hətta 1994-cü ilin mayında atəşkəs əldə ediləndən sonra belə, bu cinayətlər bitmək bilmirdi və davam edirdi. Məsələn, bizim əsgərlərimizi təmas xəttində namərdcəsinə qətlə yetirirdilər. Təbii ki, xalqımıza, dövlətimizə və suverenliyimizə qarşı törədilən bütün bu cinayətlər sübutlar, faktlar və əsaslarla tam sənədləşdirilib, qeydiyyata götürülüb və cinayət işləri açılıb. Yeri gəlmişkən, fürsətdən istifadə edib, 1987-ci ildən bu günə qədər xalqımıza qarşı törədilmiş cinayətlərlə bağlı sübutları toplamış, cinayət hadisələrini bircə-bircə qeydə almış bütün prokurorluq orqanlarının, eləcə də digər hüquq-mühafizə orqanlarının əməkdaşlarına öz peşə fəaliyyətlərini, açıq demək lazımdır, peşəkarcasına və böyük vətənpərvərlik ruhu ilə yerinə yetirdiklərinə görə dərin təşəkkürümü bildirirəm.

**– Qarabağda qanunsuz fəaliyyət göstərən erməni silahlı hərbi birləşmələri və Ermənistan Respublikasının silahlı birləşmələri tərəfindən Azərbaycan Respublikasının Qarabağ və digər işğal olunmuş ərazilərində törədilmiş sülh və insanlıq əleyhinə, habelə ağır və xüsusilə ağır cinayətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, əlbəttə, mühüm bir işdir. Amma bundan daha mühümü bu cinayətləri törədən canilərin, hərbi cinayətkarların ədalət məhkəməsi qarşısına çıxarılmasıdır. Bu sahədə görülən işlər barədə bir qədər geniş məlumat vermək mümkündürmü?**

– Sualınızın ikinci hissəsinə cavab verməmişdən əvvəl, istərdim, erməni siyasi-hərbi hakimiyyətinin müxtəlif illərdə törətdikləri cinayətləri beynəlxalq ictimaiyyətə çatdırmaqda xüsusi rol oynayan media nümayəndələrimizin roluna və fəaliyyətinə toxunam. Bildiyiniz kimi, 1987-ci ildə bu hadisələr başlayanda Azərbaycan çox ciddi informasiya blokadasında idi. Xalqımıza qarşı törədilən cinayətlər, SSRİ rəhbərliyinin Azərbaycana ədalətsiz və qərəzli yanaşması, hüquqlarımızın kobud şəkildə pozulması beynəlxalq ictimaiyyətə ya çatdırılmırdı, ya da düşmənlərimizə sərf edən, onların xeyrinə olan şəkildə çatdırılırdı. Azərbaycan həqiqətlərinin ölkədən kənara çıxarılmasına ya heç imkan verilmirdi, ya da yanlış xəbərlər ötürülürdü. Bunu 44 günlük müharibə zamanı Prezident cənab İlham Əliyev xarici kütləvi informasiya vasitələrinə müsahibələrində, müxtəlif beynəlxalq tədbirlərdəki çıxışlarında dəfələrlə qeyd etmişdir. Çünki burada erməni lobbisi amili ilə yanaşı, bir çox Qərb ölkələrinin hadisələrə ikili standartlardan yanaşması özünü açıq göstərirdi. Bunlarla yanaşı, Azərbaycan mediasının və media nümayəndələrinin də hələ beynəlxalq aləmlə işləmək təcrübəsi ya az idi, ya da heç yox idi.

Əlbəttə, bu, təkcə Ermənistan hərbi-siyasi hakimiyyətinin törətdiyi cinayətlərlə deyil, ümumilikdə, Azərbaycana qarşı təcavüzkar və işğalçı müharibə, torpaqlarımızın işğalı, baş verən digər proseslərlə bağlı idi. Amma müstəqilliyin ilk illərindən başlayaraq, Azərbaycan mediasının inkişafından, jurnalistlərimizin peşəkarlığının təkmilləşməsindən və xarici aləmə çıxışı genişlənəndən sonra vəziyyət kökündən dəyişdi. İnformasiya blokadası aradan qaldırılmağa başlayandan sonra dünya ictimaiyyəti münaqişənin nədən qaynaqlanması, kimin ədalətli tərəf olması haqqında məlumatlandırıldı və mediamız Azərbaycanın haqlı tərəf olmasını, torpaqlarımızın işğala məruz qalmasını və sair məsələləri obyektiv olaraq dünya ictimaiyyətinə çatdırmağa nail oldu. Bu işdə həm Ulu öndər Heydər Əliyevin, həm də Prezident cənab İlham Əliyevin çevik xarici siyasətini, diplomatik ustalığını da xüsusi qeyd etmək istərdim. Çünki həm Ulu öndər Heydər Əliyev, həm Prezident İlham Əliyev hər hansı xarici

ölkəyə səfəri, hər hansı beynəlxalq təşkilatda iştirakı, hər hansı xarici media nümayəndəsinə müsahibələri zamanı münaqişənin əsas mahiyyətini, erməni terrorizminin məram və məqsədini çox təmkinlə, müdrikcəsinə, böyük ustalıqla onları dinləyən auditoriyaya açıqlayırdılar.

Vətən müharibəsi dövründə də bu proses çox böyük intensivliklə dünya mediasında işıqlandırılırdı və bizim üçün çox fərəhli haldır ki, prokurorluq orqanları Ermənistan hərbi-siyasi hakimiyyətinin Azərbaycanın dinc əhalisinə qarşı törətdiyi hərbi cinayətlərin dərhal təhqiqatını aparır, əldə olunan sübutlar və faktlar mediaya, beynəlxalq hüquq institutlarına, insan hüquqlarının müdafiəsi təşkilatlarına çatdırılırdı.

Azərbaycan xalqına qarşı törədilən, insanlıq əleyhinə olan cinayətlərin istintaqına gəldikdə isə deməliyəm ki, əlbəttə, bunlar çox mühüm əhəmiyyət kəsb edir. Sübutların toplanması, faktların dəqiq müəyyən olunması, həmin cinayətləri törədənlərin şəxsiyyətlərinin dəqiqliklə müəyyənləşdirilməsi vacib məsələlərdir. Çünki istintaq elə prosesdir ki, orada hər bir şəxsin məsuliyyətinin fərdiləşdirilməsindən söhbət gedir. Prokuror ümumilikdə kimlərəsə, ümumi kütləyə ittiham verə bilməz. Prosessual qanunların tələblərinə uyğun olaraq ittihamlar konkret olur və konkret şəxslərə verilir. Bax, bu istiqamətdə prokurorluq orqanları, ümumən hüquq-mühafizə orqanları, düşünürəm, çox səmərəli işlədilər.

– **Bir ilə yaxındır ki, paytaxt Bakıda Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan vətəndaşlarının məhkəməsi davam edir. Dövlət ittihamçısı olaraq Azərbaycan Prokurorluğunun istintaq materiallarında elə faktlar varmı ki, onlar xalqımıza, eləcə də beynəlxalq ictimaiyyətə məlum olmamış olsun?**

– Bu cinayətlərlə bağlı bizdə qaranlıq məqamlar, demək olar ki, yoxdur. Bütün cinayətlərin təhqiqatı aparılıb, faktlar aşkar olunub və bizə məlumdur. Bu barədə də biz media üzərindən cəmiyyətimizi kifayət qədər məlumatlandırmışıq. Bir faktı diqqətə çatdırmaq istərdim və yəqin bilirəm ki, bu, ictimaiyyətin marağında olan məsələdir. 1980-ci illərin ortalarından son dövrə qədər prokurorluq və ayrı-ayrı istintaq orqanlarında 2548 cinayət işi açılmışdır. 2023-cü ildə antiterror tədbirlərindən sonra qondarma "DQR"in rəhbərləri və digər şəxslər məsuliyyətə alınandan sonra, Baş Prokurorluq bütün bu işləri bir icraatda birləşdirdi. Həm Hərbi Prokurorluqdan, həm digər istintaq qruplarından o işləri götürüb Baş Prokurorluqda birləşdirdik və bütün bu işlər üzrə istintaq hərəkətləri aparıldı. Bu işdə Baş Prokurorluğun rəhbərliyi altında çalışan Dövlət Təhlükəsizlik Xidməti orqanlarını, Daxili İşlər Nazirliyini, Dövlət Gömrük Komitəsini və eyni zamanda, xüsusi olaraq Hərbi Prokurorluğu qeyd etmək istərdim. Nə üçün Hərbi Prokurorluğun adını ayrıca çəkirəm? Çünki Azərbaycan Hərbi Prokurorluğunda xüsusi istintaq şöbəsi vardı və bu şöbə bilavasitə Azərbaycan xalqına qarşı törədilmiş hərbi cinayətlərin istintaqı ilə məşğul idi. Bu növ cinayətlərlə bağlı bütün materiallar orada toplanırdı.

Açığını deyim ki, bu cinayətlərlə bağlı bizim istintaq orqanlarına bütün işlər məlumdur. Sadəcə, bəzi cinayətlərdə şərəf və ləyaqətlə bağlı olan məsələlər var və biz onları açıqlamırıq. Qalan bütün məsələlər barədə xalqımıza açıq məlumat veririk.

– **Ermənistan silahlı birləşmələri təkcə Azərbaycanın dinc əhalisinə qarşı deyil, suveren ərazilərimizi işğal etməklə, şəhərlərimizi, qəsəbə və kəndlərimizi viran qoymaqla da son dərəcə amansız cinayətlər törətmiş və müstəqil Azərbaycana dəyəri milyard manatlarla ölçülən maddi ziyan vurmuşlar. Bu ziyanın məbləğinin müəyyənləşdirilməsi, Ermənistanın ölkəmizə vurduğu maddi ziyana görə reparasiya, yəni təzminat ödəməsi ilə bağlı hüquqi tədbirlər görülürmü? Beynəlxalq qurumlar və hüquq institutları ilə bu sahədə hər hansı bir iş aparılırmı?**

– Tamamilə aktual bir məsələyə toxundunuz. Bunun xalqımızın, cəmiyyətimizin diqqətində olmasını da təbii hesab edirəm. Ermənistan hərbi-siyasi hakimiyyətinin və onların silahlı qüvvələrinin törətdikləri cinayətlərin təhqiqatı, Azərbaycana vurduqları maddi ziyan bizim üçün çox əhəmiyyətli idi. Çünki elan etdiyimiz ittihamda vurulan ziyan mütləq müəyyən edilməli idi. Amma bu, çox vaxt və enerji tələb edən, ancaq son dərəcə zəruri olan element idi.

Baş Prokurorluq olaraq biz bu məsələni Azərbaycan Respublikası Nazirlər Kabineti qarşısında qaldırdıq. Mənim tərəfimdən Baş nazir cənab Əli Əsədova məktub ünvanlandı və təklif edildi ki, vurulan ziyanı müəyyənləşdirmək üçün dövlət komissiyası yaradılsın. Əlbəttə, möhtərəm Prezidentin tapşırığı və nəzarəti ilə belə bir komissiya yaradıldı. Aidiyyəti dövlət qurumlarının nümayəndələri, mütəxəssislər və həmçinin prokurorluğun nümayəndələri də həmin komissiyaya daxil edildi və Baş Prokurorluğun təqdim etdiyi materiallar əsasında ciddi işlər başlandı. Əldə edilən faktlar, cinayət yerlərinə baxışlar, arqumentlər və araşdırmalardan sonra bu ziyanın miqdarı müəyyənləşdirildi.

Bir faktı da diqqətinizə çatdırmaq istəyirəm: burada iki növ ziyandan söhbət gedir. Birincisi, birbaşa dəyən ziyan. Biz istintaqçılar, cinayət təqibi orqanı, prokurorluq üçün bu çox vacibdir. Çünki biz ittihamda birbaşa dəyən ziyanı göstəririk. Bir də var birbaşa olmayan, dolayısı ilə olan ziyan. Məsələn, minaların təmizlənməsi ilə bağlı Azərbaycan tərəfinə dəyən ziyan. Axı Ermənistan silahlı qüvvələri bu minaları Azərbaycan torpaqlarında basdırıblar və biz bunların təmizlənməsinə külli miqdarda vəsait sərf edirik. Eləcə də digər sahələrdə, bərpa işlərində çəkilən xərclər. Mülki qaydada bununla bağlı iddia vermək mümkündür. Son olaraq deyim ki, birbaşa dəyən ziyan 103 milyard manat müəyyən edilib. Amma dolayısı ilə olan ziyan arta-arta davam edir, çünki ildən-ilə dövlət yenə minaların təmizlənməsinə vəsait xərcləyir. O ziyanın məbləği daha da böyükdür, səhv etmirəmsə, 150 milyard manatı ötüb keçir.

– **Təzminat məsələsi təkcə ölkəyə vurulan maddi ziyanla məhdudlaşmır. Ermənistan silahlı qüvvələri və erməni qanunsuz silahlı dəstələri işğal olunmuş ərazilərdə yaşayan vətəndaşlarımıza da son dərəcə böyük fiziki, maddi və mənəvi ziyan vurublar. Yəqin bu qisimdən olan vətəndaşlarımıza da Ermənistan tərəfinin təzminat ödənməsi barədə Azərbaycan Prokurorluğu ciddi işlər görür?**

– Komissiya bütün bunları hesablayıb. Təbii ki, təcavüz prosesində və işğal dövründə hər bir vətəndaşa, ailəyə dəyən maddi ziyan ödənilsə də, mənəvi ziyan, əlbəttə, ölçüyə gələn deyil. Amma onun da hesablanma qaydaları var. O mənəvi ziyanı maddi dəyərə çevirib təzminat tələb etmək artıq vətəndaşlarımızın şəxsi işidir. Mənəvi ziyan çəkmiş hər vətəndaşın bununla bağlı iddia qaldırmaq hüququ var.

– **Kamran müəllim, son illərdə Baş Prokurorluq Bakıda bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bir çoxuna mən də jurnalist kimi dəvət edilmişəm. Təbii ki, gələnlərin tam əksəriyyəti beynəlxalq hüquq institutlarının, insan hüquqlarını müdafiə təşkilatlarının, Azərbaycana dost olan və olmayan ölkələrin prokurorluq orqanlarının nümayəndələridir. Onların Ermənistan silahlı birləşmələrinin, qanunsuz hərbi dəstələrin təcavüz dövründə və işğal illərində ölkəmizə və xalqımıza qarşı törətdikləri insanlıq əleyhinə olan cinayətlərə, xalqımıza qarşı soyqırımına, şəhər və kəndlərimizi amansızcasına dağıtmalarına münasibəti necədir, həmkarlarınızın fikirlərini nə qədər ədalətli, obyektiv hesab edirsiniz?**

– Əlbəttə, təkcə Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq tədbirlərdə deyil, həmçinin xarici ölkələrdə keçirilən toplantılarda, ümumiyyətlə, bütün platformalarda Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasətinin acı nəticələrini, soyqırımı kimi ağır və amansız cinayət faktlarını xarici həmkarlarımızın diqqətinə çatdırmağa, onları bu barədə məlumatlandırmağa çalışmışıq. Əslində onların özlərində də buna böyük maraq olub. Bu kimi hadisələr müxtəlif bölgələrdə gedən lokal münaqişələrdə də qeydə alınır deyə, bu təcrübəni öyrənməyə maraq göstərirlər.

Məsələn, indi haqqında danışdığımız cinayət işlərinin istintaqı ilə bağlı Azərbaycan Prokurorluğu müəyyən presedentlər yaradıb. Biz özümüz də bu cinayətlərin istintaqı zamanı digər dövlətlərin, məsələn, Balkan ölkələrində baş verən cinayətlərin tədqiqat təcrübələrini araşdırıb öyrənmişik. Yəni peşəkarlıq baxımından da bunlar xarici həmkarlarımız üçün vacib hesab edilir.

Biz bunu təkcə müxtəlif tədbirlərdəki məruzələrimizlə, yaydığımız bukletlərlə, kitablarla deyil, həm də əyani şəkildə nümayiş etdirməyə çalışırıq. Məsələn, Bakıda beynəlxalq tədbirlərdə iştirak edən xarici həmkarlarımızı işğaldan azad edilmiş ərazilərə səfərə aparır, ermənilərin törətdikləri dağıntıları, viran qoyduqları Azərbaycanın yaşayış məntəqələrini onlara göstərir və izahlar veririk.

Yaxşı xatirimdədir, o vaxt cənab Prezidentimiz "Hərbi qənimətlər parkı"nın yaradılmasına göstəriş verəndə, Azərbaycana qarşı ikili standartlardan çıxış edən, qələbəmizi heç vəchlə həzm edə bilməyən bədxah ölkələr bunu sərt tənqid etməyə başladılar. Guya bu parkın yaradılması erməni xalqına qarşı nifrət hissinin oyadılmasına xidmət edir. Tamamilə yanlış bir yanaşmadır.

Ermənistanın ovaxtkı hərbi-siyasi rəhbərliyinə qarşı nifrət yaratmaq üçün xüsusi bir parka ehtiyac yoxdur. Elə xalqımızın nümayəndələrini dağıdılmış, yerlə-yeksan edilmiş Ağdama, Cəbrayıla, Zəngilana və işğaldan azad edilmiş Qarabağın digər yaşayış məntəqələrinə səyahətə aparsaq və insanlar oralardakı vəhşilikləri gözləri ilə görsələr, bu yetər, artıq təbliğata ehtiyac qalmaz.

Biz xarici ölkələrdən gələn qonaqlarımızı, beynəlxalq tədbirlərin iştirakçılarını bu yerlərə aparıb dağıntıları onlara göstərəndə, artıq söz deməyə ehtiyac qalmır. Ermənistan silahlı birləşmələrinin işğalının qəddar və amansız izləri onların simasını açıb göstərir.

– **Cənab Baş prokuror, başqa bir sualım prokurorluq orqanlarının apardığı istintaq materiallarının, ittihamlarının tarixçilərimiz, tədqiqatçılarımız, elə jurnalistlərimiz üçün gələcəkdə əlçatan olub-olmaması ilə bağlıdır. Yəni bu istintaq materiallarının saxlandığı arxivlər tarixçi-alimlərimizin, tədqiqatçı jurnalistlərimizin üzünə açıla bilərmi? Çünki nə qədər acı olsa da,**

**bunlar bizim ölkəyə qarşı savaşın tarixini əks etdirir...**

– Təbii, buna imkan veriləcək. İndi məhkəmə prosesi gedir. Biz beynəlxalq konvensiyaların, beynəlxalq qanunvericiliyin, ölkə qanunlarının tələblərinə çox həssaslıqla riayət edirik. Təqsirsizlik prizumpsiyasını pozmuruq. Məhkəmənin davam etdiyi bütün proseslər dövründə onların hüquqları tam təmin olunur.

Amma ümumən 1987-ci ildən son dövrlərə qədər baş vermiş hadisələr onu göstərir ki, biz bunu dərindən öyrənməli, təhlil etməli, qiymətləndirməli və xalqımıza çatdırmalıyıq. Gələcək nəsillər Ermənistan terrorçularının, keçmiş hərbi-siyasi hakimiyyətin və terrorçu hərbi birləşmələrinin törətdikləri vəhşilikləri, qanunsuzluqları, xalqımıza qarşı təcavüzün köklərini bilməlidirlər. Eyni zamanda, onlara qarşı xalqımızın apardığı mübarizəni, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız Zəfərin dəyərini bilməli və qiymətləndirməlidirlər.

– **Kamran müəllim, bu gün Zəfər tariximizin 5 illiyini qeyd edirik. Bu 5 ildə Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağda çox sürətli bərpa-quruculuq işləri həyata keçirilir, yeni şəhərlər, ən müasir texnologiyalarla təchiz edilən müasir, "ağıllı" qəsəbə və kəndlər salınır. Artıq qaçqın və köçkünlük adını üstündən atmış insanlar bu yaşayış məntəqələrinə, doğma yurdlarına dönürlər. Deməli, burada hüquq-mühafizə orqanlarının işi də öz ritminə düşməlidir. Bərpa edilən ərazilərdə prokurorluq orqanlarının fəaliyyətinin təşkili sahəsində hansı işlər görülüb və görülməkdədir?**

– Vacib məsələyə toxundunuz. Bu gün möhtərəm Prezidentimizin bilavasitə rəhbərliyi, mən deyərdim ki, birbaşa iştirakı ilə Qarabağda misilsiz quruculuq işləri həyata keçirilir və bu işlər bir an olsun belə dayanmır. Diqqətçəkən məqam ondan ibarətdir ki, bu yaşayış məntəqələrimizin, şəhərlərimizin, qəsəbə və kəndlərimizin tikintisi ən müasir texnologiya və şəhərsalma qaydalarına uyğun şəkildə aparılmaqla yanaşı, erməni silahlı birləşmələrinin törətdikləri vəhşiliklərin izləri də bir görk olaraq qorunub saxlanılır. Bu, bütün xalqımız kimi, bizim prokurorluq orqanlarını da çox qürurlandırır.

Mən özüm də, Baş Prokurorluğun digər rəhbər işçiləri də bərpa-quruculuq işlərinin getdiyi yaşayış məntəqələrinə tez-tez səfərlərdə oluruq və bunu çox vacib vəzifə hesab edirik.

Digər tərəfdən, sizin də dediyiniz kimi, artıq on minlərlə Azərbaycan vətəndaşı yeni salınan və bərpa edilən yaşayış məntəqələrinə, öz doğma yurd yerlərinə qayıdıblar. Həyat sürətlə öz ritminə düşür və təbii ki, bu yerlərdə artıq hüquq-mühafizə orqanları, o cümlədən prokurorluqlar da fəaliyyətə başlayıb, qanuni vəzifələrini yerinə yetirir, asayişin, qanunçuluğun təmin edilməsinə töhfələrini verirlər.

2021-ci ilin aprel ayında Azərbaycan Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə yeni prokurorluqlar - Kəlbəcər və Qubadlı hərbi prokurorluqları yaradıldı. Bu prokurorluqlar da Baş Prokurorluq tərəfindən tam komplektləşdirilib və onların fəaliyyətinin təmin edilməsi üçün maddi-texniki baza yaradılıb.

– **Nəhayət, son sualımızı vermək istərdim. Zəfər Günümüzün 5 illiyi çox əlamətdar bir tarixi dövrə – "Konstitusiya və Suverenlik İli"nə təsadüf edib. Bu Zəfərin bərpa etdiyi Azərbaycanın dövlət suverenliyinin, ümumiyyətlə, tarixi müstəqilliyimizin əbədiyyətə qədər qorunması yolunda təkcə prokurorluq əməkdaşlarına deyil, gənclərimizə, illər sonra qanunlarımızın keşiyində duracaq hüquqşünas kadrlara nə tövsiyə edərdiniz?**

– 2020-ci il 8 Noyabr Zəfəri müstəqil dövlətçiliyimizin ən qiymətli tarixidir. Nəsillər bu tarixi həmişə anacaq və onunla qürur, fəxarət duyacaqlar. Təkcə prokurorluq orqanlarında çalışacaq gənclərə deyil, bütün Azərbaycan gənclərinə tövsiyə edərdim ki, hər şeydən əvvəl, vətənpərvər olsunlar. Vətənə, dövlətə sadiq olsunlar. Bu, müstəqil Azərbaycanın inkişafı, əbədi yaşaması üçün çox vacib bir elementdir.

İkincisi, peşələrini sevsinlər və onu dərindən, incəliklərinə qədər mənimsəyib peşəkar olsunlar. Hüquq-mühafizə orqanlarında işləmək, istintaq aparmaq, cinayətləri obyektiv təhqiq edib açmaq kənardan göründüyü qədər də asan deyil. İnsan taleyi ilə bağlı olduğu üçün kifayət qədər mürəkkəb bir peşədir.

Üçüncü tövsiyəm də ondan ibarətdir ki, Azərbaycan kifayət qədər mürəkkəb coğrafi regionda qərarlaşıb. Gənc hüquqşünaslarımız dövlətimizin keçmiş və yaxın tarixini dərindən bilməlidirlər. Bu tarixi bilmədən biz ölkəmizin əmin-amanlığını təmin edə bilmərik. Gənclərimiz ölkəmizi haradan və hansı qüvvələr tərəfindən təhlükə gözlədiyini unutmamalıdırlar. Ona görə regionda gedən geosiyasi prosesləri diqqətlə izləməli, dərk etməlidirlər. Müstəqilliyimizin bərpasından sonra baş verən hadisələr, ölkəmizə olan münasibətlər bizim üçün dərsdir. Bu dərsi unutmamalı və bundan nəticə çıxarmalıdırlar. Hesab edirəm ki, sadaladığım bu 3 element gənc hüquqşünaslarımız üçün kifayət qədər mühüm məqamlardır.

**Müsahibəni qələmə aldı:**
**İlqar RÜSTƏMOV.**

# Щит закона и справедливости

## Роль прокуратуры в укреплении верховенства закона и защите прав граждан в рамках Конституции

*Считанные дни остаются до знаменательной даты - 30-летия Конституции Азербайджанской Республики, Основного закона, который стал надежным фундаментом правовой системы государства и гарантией защиты прав и свобод граждан. Конституция не только закрепляет фундаментальные принципы верховенства закона, независимости судебной власти и соблюдения прав человека, но и служит ориентиром для всех государственных органов, включая прокуратуру, в обеспечении законности и поддержании общественного порядка.*

***За три десятилетия Конституция выдержала проверку временем и продолжает оставаться ключевым инструментом адаптации законодательства к вызовам современности. Сегодня, когда преступность приобретает новые сложные формы, становится транснациональной и цифровой по своей природе, перед органами прокуратуры стоят новые задачи: противодействие киберпреступности, онлайн-мошенничеству, незаконному обороту цифровых активов, защита интересов государства и граждан в условиях стремительно меняющегося правового и технологического ландшафта.***

***В этом контексте особое значение приобретает роль прокуратуры как гаранта соблюдения законности и правопорядка, аналитика и активного участника нормотворческого процесса. Органы прокуратуры не только выявляют и предупреждают преступления, но и оказывают влияние на совершенствование законодательства, обеспечивая его соответствие современным социальным, экономическим и технологическим реалиям.***

***О том, как прокуратура применяет конституционные принципы в повседневной деятельности, какие стратегические приоритеты определяют развитие ведомства, каким образом формируется кадровый потенциал и укрепляется доверие граждан, а также о роли Конституции как ориентира для поддержания баланса между государственной безопасностью и защитой индивидуальных прав и свобод - особенно в условиях цифровой трансформации и глобализации – Генеральный прокурор Азербайджанской Республики, Государственный советник юстиции I класса, вице-президент Международной ассоциации прокуроров, кандидат юридических наук Кямран Алиев рассказал в интервью газете «Бакинский рабочий».***

**– Президент Азербайджана Ильхам Алиев объявил 2025 год «Годом Конституции и Суверенитета». Данный шаг символизирует полное восстановление территориальной целостности страны, 30-летие Конституции и пятую годовщину Победы в Отечественной войне. Как вы оцениваете эволюцию роли прокуратуры в системе государственной власти за этот период?**

– В жизни страны не осталось ни одной сферы, где бы не проводились последовательные и всесторонние реформы, соответствующие современным вызовам. С этой точки зрения период с 2020 года по настоящее время особенно знаменателен для органов прокуратуры. Он вошел в историю как эпоха прогресса и обновления, когда прокуратура не просто выполняет свои функции, а активно совершенствует подходы к правоприменению, повышает прозрачность и укрепляет доверие общества.

Особое внимание этому процессу уделил глава государства во время официального приема, посвященного моему назначению на должность Генерального прокурора 1 мая. Он подчеркнул, что реформы в прокуратуре должны идти в ногу с вызовами времени, а институциональная эффективность и открытость для граждан остаются ключевыми приоритетами работы: «Сегодня результаты реформ, проводимых во всех сферах Азербайджана, высоко оцениваются гражданами. Реформы означают обновление, новый подход, адаптацию к современной ситуации. Проводя реформы, мы укрепляем нашу страну и обеспечиваем ее будущее устойчивое развитие. Уверен, что прокуратура Азербайджанской Республики добьется успехов в проведении этих реформ».

Эти слова стали не просто ознаменованием нового этапа работы, но и ориентиром для всей системы прокуратуры на будущее. Они задали стратегический вектор, направленный на проведение преобразований, соответствующих международным стандартам и национальным интересам, обеспечивающих поступательное и устойчивое развитие нашей независимой страны.

Практически сразу после этой встречи органы прокуратуры начали реализацию масштабных структурных и кадровых преобразований. Внимание было сосредоточено на повышении прозрачности, оперативности и эффективности деятельности органов

прокуратуры, а также на внедрении единых механизмов организации проводимой работы и совершенствования функционального управления.

Результаты этих преобразований стали заметны практически сразу. Существенно повысилось качество предварительного расследования, раскрыто множество преступлений, в том числе умышленных убийств, совершенных в прошлые годы при неустановленных обстоятельствах. Улучшены процессуальное руководство следствием и прокурорский надзор, что обеспечило более высокий уровень соблюдения закона и справедливости.

Сегодня органы прокуратуры демонстрируют не только эффективность в борьбе с преступностью, но и готовность к постоянному совершенствованию, соответствующему современным вызовам общества и ожиданиям граждан. Наряду с уголовно-процессуальной деятельностью обеспечено участие прокуроров и в производствах, не связанных с уголовным преследованием: предприняты необходимые меры по борьбе с экологическими правонарушениями, усилена защита прав несовершеннолетних и социально уязвимых категорий граждан, в предусмотренных законом случаях возбуждены производства по административным правонарушениям, начато практическое применение института специальной конфискации. Особое внимание уделяется повышению профессионального уровня сотрудников, развитию научно-теоретической деятельности и совершенствованию кадрового состава.

Важное значение придается также международному сотрудничеству: налажено взаимодействие по вопросам экстрадиции, оказания правовой помощи и другим направлениям; проведен ряд крупных международных конференций, на которых обсуждались правовые аспекты борьбы с преступностью; установлены прямые контакты с зарубежными ведомствами и подписаны меморандумы о взаимопонимании.

Эффективное деловое сотрудничество налажено с авторитетными международными организациями - Международной ассоциацией прокуроров (IAP), Управлением ООН по наркотикам и преступности (UNODC), Глобальной операционной сетью правоохранительных органов по борьбе с коррупцией (GlobE Network), Организацией экономического сотрудничества и развития (OECD), Группой государств по борьбе с коррупцией Совета Европы (GRECO), Международной антикоррупционной академией (IACA) и другими авторитетными структурами. Сотрудники органов прокуратуры участвовали в международных оценочных миссиях и были направлены в ведущие международные структуры.

Особое внимание уделяется также повышению уровня удовлетворенности граждан, просветительской работе, открытости деятельности и подотчетности перед обществом.

Одним из важнейших направлений продолжающихся современных реформ стало внедрение Информационной системы «Электронная прокуратура», созданной по Указу Президента от 7 мая 2021 года. Это позволило вывести работу ведомства на принципиально новый уровень цифровизации и повысить эффективность деятельности.

Также следует отметить ввод в эксплуатацию нового административного комплекса Генеральной прокуратуры, а также зданий ряда районных и территориальных военных прокуратур. Важным событием стало предоставление в пользование жилого комплекса на 160 квартир для сотрудников прокуратуры и ветеранов на льготных условиях.

Сегодня при поддержке главы государства продолжаются целенаправленные меры по повышению эффективности деятельности органов прокуратуры, устранению существующих недостатков, обеспечению прозрачности, укреплению общественного доверия, внедрению научно-технических достижений, развитию материально-технической базы и социальной защиты работников. Эти процессы и впредь будут осуществляться с той же решимостью и последовательностью.

– **Каково конституционно закрепленное место прокуратуры в системе государственной власти и каким образом ее функции определены в Основном законе?**

– Особо подчеркну, что формирование прокуратуры Азербайджана как органа, служащего интересам государства, обеспечивающего верховенство закона, борьбу с преступностью и охрану правопорядка, стало возможным исключительно благодаря государственной политике и вниманию к этой сфере со стороны Общенационального лидера нашего народа - Гейдара Алиева, архитектора масштабных, в том числе правовых, реформ в стране.

В советский период органы прокуратуры обладали широкими полномочиями, в том числе так называемой «общенадзорной функцией». Она предусматривала контроль за единообразным и точным применением законов всеми гражданами, учреждениями и организациями, а также государственными органами и их должностными лицами. Эта функция делала прокуратуру ключевым инструментом поддержания законности, хотя рамки ее деятельности были определены социалистической системой и соответствовали особенностям того времени.

После обретения Азербайджаном независимости перед государством встал сложный вызов: переход от социалистической общественно-экономической модели к новой системе государственного устройства потребовал пересмотра функций и статуса прокуратуры, а также четкого определения границ ее

полномочий. В этих условиях формировалась современная структура, которая сочетает традиционные функции надзора с эффективными механизмами уголовного преследования и защиты прав граждан.

Высоко оценивая роль прокуратуры в обеспечении общественно-политической стабильности, верховенства закона и защиты прав и свобод человека, великий лидер Гейдар Алиев неоднократно подчеркивал: «Республиканская прокуратура и Генеральный прокурор являются одними из главных столпов азербайджанской государственности».

Эти слова ясно отражают значение, которое Гейдар Алиев придавал роли прокуратуры в системе государственной власти, и стали ориентиром для последующих реформ, направленных на укрепление института прокуратуры как независимого, профессионального и современного органа государства.

Не случайно именно по инициативе и под непосредственным руководством великого лидера Гейдара Алиева была подготовлена и принята на референдуме 12 ноября 1995 года первая Конституция независимой Азербайджанской Республики. Впервые в истории государства прокуратуре была посвящена отдельная статья Конституции, которая закрепила за ней конституционный статус и определила фундаментальные принципы ее деятельности.

Конституционное положение прокуратуры означает, прежде всего, ее функционирование как единой централизованной системы в структуре правоохранительных органов. Конституция определяет основные направления деятельности: надзор за исполнением законов, уголовное преследование и расследование в предусмотренных законом случаях, поддержание государственного обвинения в судах, а также право обращения в суд с исками для защиты прав и свобод граждан и государственных интересов, а также право обжалования судебных актов. Эти положения подчеркивают ведущую роль прокуратуры в обеспечении правовой стабильности и справедливости.

При этом Конституция четко указывает, что данные функции осуществляются «в случаях и порядке, установленных законом». Это означает конкретизацию практических механизмов, процедур, пределов полномочий и правил подотчетности в специальных законодательных актах - прежде всего в Законе «О прокуратуре» от 7 декабря 1999 года. Таким образом, конституционная норма задает стратегическое направление, а отраслевое законодательство формирует конкретные инструменты реализации, обеспечивая прозрачность, эффективность и соответствие деятельности прокуратуры принципам правового государства.

Особое значение имеет вступивший в силу 1 сентября 2000 года Уголовно-процессуальный кодекс Азербайджанской Республики, который окончательно освободил органы прокуратуры от функций, характерных для тоталитарного режима. С этого момента деятельность органов прокуратуры превратилась в реальный гарант верховенства закона, основанный на принципах демократии и соблюдения прав человека.

Продолжением этих преобразований стало предоставление прокуратуре права законодательной инициативы. На основании референдума от 19 сентября 2002 года были внесены изменения в Конституцию, что значительно усилило роль прокуратуры в правовой системе страны и повысило функциональную гибкость в конституционном контексте.

– **Какие из принципов, закрепленных в Конституции, вы считаете наиболее важными для деятельности прокуратуры в правовом государстве?**

– Конституция является Основным законом государства, реализация всех ее положений и каждого пункта является ключевым направлением деятельности прокуратуры. Высшая цель государства - обеспечение прав и свобод человека и гражданина, и именно на практическую реализацию этой гарантии направлена повседневная работа органов прокуратуры. Это означает оперативное реагирование на нарушения прав граждан, устранение правовой неопределенности и содействие формированию единой судебной практики.

Если говорить о конкретных принципах, то в Конституции закреплены фундаментальные гарантии, которые формируют правовую основу уголовного преследования и прокурорского надзора. Среди них: право на свободу и личную неприкосновенность, согласно которому задержание и арест могут применяться только на основаниях и в порядке, предусмотренных законом; право на справедливое судебное разбирательство, обеспечивающее беспристрастное рассмотрение дел в разумный срок; презумпция невиновности, согласно которой лицо считается невиновным до вступления приговора суда в законную силу; право на получение юридической помощи и участие защитника на любой стадии процесса. Все эти положения служат достижению высшей цели прокуратуры – обеспечению верховенства закона и защите прав граждан.

Одновременно особое значение имеют принципы защиты частной и семейной жизни, тайны переписки и связи, неприкосновенности жилища, а также установление того, что обыск, выемка, прослушивание переговоров и иные следственные действия могут проводиться исключительно на основаниях, предусмотренных законом. Абсолютный запрет пыток, бесчеловечного и унижающего достоинство обращения относится к основополагающим принципам на всех стадиях уголовного процесса.

Кроме того, полномочия прокуратуры по предъявлению исков, поддержанию государственного обвинения и внесению протестов на судебные акты обеспечивают гражданам эффективный доступ к правовой защите и придают деятельности органа конституционную легитимность. Таким образом, деятельность прокуратуры в правовом государстве строится на прочной правовой основе, сочетая законность, защиту гражданских прав и ответственность перед обществом.

– **В чем заключаются уникальные особенности азербайджанской модели прокуратуры по сравнению со странами постсоветского пространства и государствами Европейского союза?**

– Уникальные особенности азербайджанской модели прокуратуры проявляются в нескольких ключевых аспектах и выгодно отличают ее как от систем постсоветских стран, так и от моделей, действующих в государствах Европейского Союза.

Если рассматривать наиболее распространенные типы правовых систем - романо-германскую (или континентальную), к которой относится и Азербайджан, англосаксонскую и религиозно-правовую - можно отметить, что направления деятельности прокуратуры в целом схожи: это защита прав и свобод человека, борьба с преступностью и обеспечение законности. Тем не менее, в каждой стране, в зависимости от национального законодательства и исторического пути развития, прокуратура имеет собственные функциональные особенности.

В соответствии со статьей 133 Конституции Азербайджанской Республики прокуратура представляет собой единую и централизованную систему. Территориальные и специализированные прокуроры подчиняются Генеральному прокурору, который назначается Президентом Азербайджанской Республики с согласия Милли Меджлиса. Эта сбалансированная процедура назначения выделяет азербайджанскую модель среди различных моделей, существующих на постсоветском пространстве, где порядок формирования органов прокуратуры может быть менее стандартизированным. В странах Европейского Союза статус и порядок назначения прокуроров существенно различаются, и единой модели не существует. В Азербайджане же организационные основы деятельности прокуратуры закреплены в Конституции, что обеспечивает нормативное единство системы и централизацию полномочий.

Национальная прокуратура Азербайджана - это не просто орган, который поддерживает государственное обвинение. Это современная система, объединяющая уголовное преследование, надзор за соблюдением законов в ходе следствия, дознания и оперативно-розыскные мероприятия, а также процессуальное руководство досудебным расследованием. Такие полномочия позволяют прокуратуре быть не только «стражем закона», но и активным участником всей правоохранительной системы страны.

На мой взгляд, особое место в этой структуре занимает Главное управление по борьбе с коррупцией при Генеральном прокуроре. Этот орган уникален: он совмещает следственные и оперативно-розыскные полномочия, что делает его исключительным не только в нашем регионе, но и на мировой арене. Благодаря этому управление способно не только выявлять коррупционные правонарушения, но и эффективно расследовать их, доводя дело до логического завершения. Для граждан это означает, что борьба с коррупцией ведется системно, профессионально и без формальностей.

Прозрачность и открытость для общества - один из ключевых приоритетов прокуратуры. Колл-центр «961», «горячая линия» по вопросам коррупции «161», регулярные приемы граждан, публикация отчетов о проделанной работе - все эти меры создают условия для укрепления доверия общества к органам прокуратуры. Граждане могут напрямую обратиться, задать вопрос или сообщить о нарушении закона, и их обращения получают реальный отклик. Такой подход способствует развитию культуры прозрачности и подтверждает ориентированность государственных институтов на потребности общества, а не на поддержание бюрократических механизмов.

Немаловажную роль в деятельности прокуратуры играет ее кадровая политика. Прием на службу осуществляется посредством конкурса с прозрачными процедурами, а деятельность сотрудников строго регламентируется специальным законом. Это обеспечивает высокий профессионализм, ответственность и этичность работы каждого прокурора. В современном обществе, где доверие к правоохранительным органам имеет ключевое значение, такой подход приобретает особую важность.

Прокуратура Азербайджана представляет собой результат многолетней работы, гармонично сочетающей национальные традиции и мировые стандарты. Ее отличают конституционная централизация, руководство уголовным преследованием, участие во внеуголовных производствах, наличие специализированного антикоррупционного органа и высокая открытость перед гражданами.

Совокупность этих характеристик обеспечивает уникальность и эффективность системы как в постсоветском пространстве, так и в сравнении с государствами Европейского союза.

Сегодня прокуратура Азербайджана демонстрирует, что современное и справедливое правосудие возможно там, где соблюдаются принципы прозрачности, профессионализма и решимость противодей-

ствовать коррупции на всех уровнях. Эта модель является примером для других стран, показывая, что гармоничное сочетание строгой законности и открытости для общества - не абстрактная идея, а реальная практика, способная приносить ощутимые результаты.

**– Как прокуратура обеспечивает верховенство Конституции и защиту прав человека? Какие механизмы используются для реагирования на нарушения конституционных прав граждан?**

– Прокуратура Азербайджанской Республики, опираясь на конституционный мандат, несет ответственность за защиту верховенства Конституции и прав человека. Четко определенные законом полномочия создают прочную нормативную основу ее деятельности, позволяя эффективно выполнять главную миссию – укрепление законности и справедливости в стране. Эта основа реализуется через действующие законодательные акты, обеспечивая устойчивость и эффективность правоприменительной практики.

Закон «О прокуратуре» закрепляет функции ведомства и акты - протест, представление и другие меры прокурорского реагирования. В свою очередь, Уголовно-процессуальный кодекс определяет процессуальное руководство прокурора над предварительным следствием. Именно через механизм процессуального надзора прокуратура обеспечивает защиту ключевых прав граждан – права на защиту, презумпции невиновности и справедливого судебного разбирательства на стадии уголовного преследования.

На стадии судебного разбирательства прокурор, поддерживая государственное обвинение, применяет акты прокурорского реагирования при выявлении нарушений закона и, при необходимости, приносит протесты на судебные решения. То, что более половины таких протестов удовлетворяются, наглядно подтверждает важную роль прокуратуры в защите и обеспечении фундаментальных прав граждан.

Что касается второй части вашего вопроса, то отмечу, что в целом деятельность прокуратуры направлена на своевременное выявление и предотвращение правонарушений, устранение их последствий и профилактику повторений. В этом контексте особое значение имеет оперативное рассмотрение обращений граждан и жалоб, что на протяжении последних лет остается одной из ключевых задач ведомства. Для этого действуют не только центры связи, но и электронные платформы обращений, а также прямые приемы граждан, что обеспечивает оперативную реакцию на поступающую информацию. По выявленным нарушениям закона принимаются меры прокурорского реагирования, возбуждаются уголовные дела и предпринимаются все необходимые действия для восстановления нарушенных прав.

При осуществлении процессуального руководства предварительным расследованием прокурор проверяет законность следственных действий и решений, руководствуясь конституционными гарантиями - презумпцией невиновности, правом на защиту, справедливым судопроизводством, а также правом на перевод для лиц, не владеющих языком производства. Все это способствует устранению процессуальных нарушений и укреплению законности.

**– Какие формы прокурорского надзора применяются в случаях нарушений законодательства и Конституции?**

– Прежде всего следует подчеркнуть, что прокурор располагает непосредственными мерами реагирования для предотвращения и устранения нарушений закона. К их числу относятся: предостережение, направленное на недопущение правонарушений; представление, вносимое прокурором, с целью устранения выявленных нарушений, а также причин и условий, их породивших; письменное указание следственным и дознавательным органам о необходимости соблюдения процессуальной законности; подача искового заявления в суд для защиты прав граждан, государственных и общественных интересов; протест, требующий пересмотра судебных актов, несоответствующих закону.

В сфере уголовного процесса прокурорский надзор направлен не только на восстановление законности, но и на обеспечение реальной защиты конституционных гарантий, таких как презумпция невиновности и право на защиту.

Кроме того, прокурор следит за соблюдением закона в производстве по делам об административных правонарушениях. В случае выявления нарушений он вносит представления и другие меры реагирования, а при необходимости опротестовывает решения компетентных органов.

**– Как изменилась стратегия борьбы с преступностью в контексте формирования конституционно-правового порядка за последние 30 лет?**

– Принятие Конституции Азербайджанской Республики стало важной вехой на пути правового строительства страны. Она создала прочную основу для всесторонних и комплексных правовых реформ во всех сферах жизни общества. В результате были разработаны и приняты новые, прогрессивные законодательные акты, которые получили высокую оценку международных экспертов.

Прежде всего обеспечение надежной защиты прав человека было определено в качестве приоритета государственной политики. Азербайджан присоединился ко всем основным международным конвенциям в области прав и свобод человека, а в

1998 году стал первой страной Востока, полностью отменившей смертную казнь. Были активно внедрены институты помилования и амнистии, что стало важным шагом на пути гуманизации уголовного права и укрепления принципа справедливости.

В сфере борьбы с преступностью ключевыми задачами на этапе становления правового государства стали укрепление законности, создание современной законодательной базы, четкое определение статуса и полномочий правоохранительных органов, а также совершенствование института справедливого судебного разбирательства.

Особое значение в этом контексте имел период 1999-2000 годов, который стал фундаментальным для развития уголовного и уголовно-процессуального права. В этот период были приняты и введены в действие Закон «О прокуратуре», а также Уголовный и Уголовно-процессуальный кодексы Азербайджанской Республики. Одновременно был принят Закон «Об оперативно-розыскной деятельности», который определил правовые основы проведения оперативных мероприятий, включая рамки прокурорского и судебного контроля.

Создание в 2004 году Главного управления по борьбе с коррупцией при Генеральном прокуроре заложило основу централизованной и специализированной модели противодействия коррупционным преступлениям. Этот шаг продемонстрировал политическую волю руководства страны к активной борьбе с коррупцией - явлением, признанным одной из наиболее острых социальных проблем XXI века.

Благодаря инициативе главы государства и проводимым под его руководством реформам, направленным на укрепление верховенства закона и обеспечение соответствия современным требованиям, Азербайджан прочно утвердился на международной арене как «остров стабильности». Сегодня, оценивая соотношение числа преступлений к численности населения, наша страна неизменно входит в число государств с самым низким уровнем преступности, что подтверждает эффективность проводимых преобразований.

Реформаторский процесс в стране носит непрерывный характер и осуществляется последовательно, с учетом современных реалий и вызовов времени. Каждое нововведение направлено на создание условий для устойчивого развития общества, повышение безопасности граждан и укрепление правового государства.

– **Какие вызовы сегодня стоят перед прокуратурой в сфере киберпреступности и цифровизации, и каким образом Конституция может служить инструментом их преодоления?**

– Современные изменения в структуре, динамике и тенденциях преступности требуют от органов прокуратуры широкого применения передовых методов, технических средств и достижений научно-технического прогресса в борьбе с преступностью. Активное использование возможностей искусственного интеллекта, цифровых и нанотехнологий в исследовательской и практической деятельности, а также изучение передового международного опыта создают основу для организации работы прокуратуры на высоком профессиональном уровне.

В частности, для эффективного противодействия новым видам экономических преступлений, киберпреступности и киберугрозам, возникающим в условиях стремительного развития технологий и глобального интернет-пространства, предпринимаются комплексные меры совместно с профильными государственными органами и международными партнерами. При этом сбор цифровых доказательств нередко осложняется трансграничными процедурами, сроками хранения данных, а также внутренней политикой интернет-провайдеров и международных онлайн-платформ.

Как известно, Азербайджан присоединился к Будапештской конвенции о киберпреступности, однако вопросы оперативности реагирования остаются актуальными. В этой связи подготовлены и внесены на рассмотрение проекты дополнений и изменений в соответствующие законодательные акты, вытекающие из положений конвенции, и направленные на обеспечение более гибкого реагирования на современные киберугрозы. Ожидается, что данные поправки будут приняты в ближайшее время.

Одним из приоритетных направлений деятельности прокуратуры является расширение профессиональных ресурсов для противодействия онлайн-мошенничеству, атакам на платежные системы, эксплуатации детей в сети, а также фактам отмывания денежных средств и сокрытия следов преступлений с использованием криптовалют. Наряду с законодательными и институциональными мерами проводятся специальные тренинги и образовательные программы, направленные на повышение квалификации сотрудников в сфере киберпреступности.

Безусловно, Конституция Азербайджанской Республики играет ключевую роль в регулировании данных процессов. С одной стороны, Основной закон распространяет действие фундаментальных прав и свобод - неприкосновенности личной и семейной жизни, тайны связи, свободы выражения мнений и информации - на цифровую сферу. С другой стороны, Конституция закрепляет необходимость соблюдения принципа пропорциональности между требованиями безопасности государства и защитой индивидуальных прав и свобод граждан, что является основой законного применения современных технологий в расследовании преступлений.

– **Насколько активно прокуратура участвует в процессе совершенствования законодатель-**

**ства и правоприменительной практики в соответствии с нормами Конституции?**

– Повседневная деятельность органов прокуратуры, связанная с надзором за соблюдением законов и осуществлением уголовного преследования, оказывает существенное влияние на предотвращение принятия противоречивых судебных решений по единым правовым вопросам, возникающих вследствие неопределенности содержания нормативно-правовых актов, а также на устранение коллизий в практике их применения.

В этом процессе прокуратура выступает одновременно как участник нормотворческого процесса и как аналитический гарант доказательной основы права. С одной стороны, в ходе расследований она выявляет пробелы, противоречия и неоднозначности действующих норм, осуществляет анализ судебной практики и статистических данных. С другой стороны, органы прокуратуры оказывают прямое влияние на формирование законодательства, предоставляя экспертные заключения субъектам законодательной инициативы, участвуя в рабочих группах и представляя юридические отзывы на проекты нормативных актов.

На мой взгляд, данный механизм обеспечивает оперативное реагирование на актуальные риски в сфере уголовного, уголовно-процессуального, административного и иных отраслей права, а также способствует выработке нормативных решений, адекватных современным технологическим и социальным реалиям.

С точки зрения повышения качества правоприменительной практики прокуратура выполняет координирующую функцию в формировании единых методологических подходов. Проводится анализ решений кассационной и апелляционной инстанций, разрабатываются обобщающие справки, методические рекомендации, информационные письма и практические руководства, направленные на обеспечение единообразия в применении критериев процессуальной необходимости и пропорциональности.

Одновременно активное участие в конституционном судопроизводстве - направление запросов, представление письменных заключений, формирование и аргументация правовых позиций - является одной из приоритетных сфер деятельности современной прокуратуры.

Так, за последние пять лет Генеральной прокуратурой было подготовлено и направлено в Конституционный суд 32 запроса, а также представлено 35 письменных заключений по рассматриваемым делам. По 24 запросам были приняты и опубликованы решения Пленума Конституционного суда: по одному запросу производство было прекращено ввиду учета высказанных правовых позиций без необходимости принятия отдельного решения, а 4 запроса в настоящее время находятся на рассмотрении.

Дополнительно отмечу, что начиная с 2020 года прокуратурой в порядке законодательной инициативы подготовлен и направлен по назначению 121 проект нормативно-правового акта.

– **Какие стратегические приоритеты ставит перед собой Генеральная прокуратура в ближайшей перспективе в деле защиты интересов государства и обеспечения законности?**

– Современные органы прокуратуры, осознавая значимость стоящих перед ними задач, определили в качестве стратегических приоритетов обеспечение высокой эффективности и оперативности во всех направлениях своей деятельности, переход на качественно новый уровень работы в соответствии с актуальными международными и прогрессивными стандартами, а также поддержание гибкости и высокого профессионализма при исполнении служебных обязанностей. Эти приоритеты направлены на надежную защиту интересов государства, укрепление законности и правопорядка, а также на адаптацию органов прокуратуры к вызовам, связанным с быстро меняющимися социальными, технологическими и правовыми реалиями.

Прежде всего в условиях поддержания общественно-политической стабильности в стране, перед прокуратурой стоит задача эффективного противодействия новым негативным тенденциям, организованной и транснациональной преступности в рамках своих функциональных полномочий. В этом контексте одной из приоритетных задач является обеспечение результативной деятельности следственных подразделений прокуратуры по выявлению и предупреждению преступлений, а также по применению предусмотренных законом мер ответственности к лицам, их совершившим.

В соответствии с поручением Президента Азербайджанской Республики господина Ильхама Алиева - «Необходимо вести беспощадную борьбу с коррупцией и взяточничеством, искоренить их причины» - приоритетным направлением остается системная, последовательная и решительная борьба с проявлениями, бросающими тень на масштабные реформы в социально-экономической и политической сферах и вызывающими справедливое недовольство граждан.

Одним из ключевых направлений остается обеспечение высокого профессионализма при поддержании государственного обвинения, анализ практики принесения протестов и требование назначения справедливого наказания виновным лицам.

Наряду с уголовно-процессуальной деятельностью особое внимание уделяется расширению участия прокурора в производствах, не связанных с уголовным

преследованием, в частности - в делах об административных правонарушениях, обеспечению эффективного прокурорского надзора, а также анализу причин и условий, способствующих правонарушениям, не влекущим уголовной ответственности, с целью их устранения.

Среди приоритетов также выделяется повышение качества кадрового потенциала прокуратуры и формирование резерва кадров для продвижения по службе. Особое внимание уделяется обеспечению преемственности между поколениями сотрудников, обновлению кадров за счет молодых специалистов, обладающих высокими морально-этическими качествами, патриотизмом, духом азербайджанства и государственности, способных строго соблюдать и применять принцип верховенства закона. Кадровая политика реализуется с учетом актуальных требований и передового международного опыта на основе принципов справедливости, прозрачности и профессиональной компетентности.

Приоритетное значение придается также научно-теоретическому обеспечению деятельности прокуратуры, развитию юридической науки, повышению уровня теоретических знаний и профессиональной подготовки работников прокуратуры, включая освоение опыта европейской правовой практики.

Одним из важнейших направлений остается развитие международно-правового сотрудничества. В условиях укрепления позиций Азербайджана на международной арене, достижения успехов в двустороннем и региональном взаимодействии особое внимание уделяется расширению международных связей органов прокуратуры, установлению эффективных деловых отношений с прокуратурами зарубежных государств и авторитетными международными организациями.

Вместе с тем среди приоритетов прокуратуры особое значение придается обеспечению удовлетворенности граждан, совершенствованию работы по приему обращений, оперативному рассмотрению поступающих заявлений и жалоб, проведению просветительских мероприятий, а также укреплению общественного доверия к системе прокуратуры.

– **Что лично для вас означает Конституция - как для юриста, генерального прокурора, государственного служащего и гражданина?**

– Для меня Конституция – как для юриста и Генерального прокурора – это источник утверждения верховенства закона, как для государственного служащего, присяга ответственности; а как для гражданина – гарантия свободы и справедливости.

Наша национальная Конституция, определяя ценности и принципы правовой системы, выступает главным источником, формирующим «дух закона».

Одновременно она является правовым манифестом национального самосознания и своеобразным этическим кодексом государства.

Каждое решение, которое мы принимаем, и каждая выдвигаемая нами правовая позиция основываются на требованиях и идеалах этого конституционного манифеста.

– **Какие мероприятия и инициативы реализуются органами прокуратуры Азербайджана в связи с 30-летием Конституции страны?**

– В рамках «Года Конституции и Суверенитета», а также в преддверии профессионального праздника прокуратуры и 107-й годовщины создания органов прокуратуры Азербайджана, был проведена Международная конференция на тему «На страже суверенитета: статус прокуратуры в Конституции» с участием генеральных прокуроров Уганды, Лаоса, Танзании, Кении, а также руководителей прокуратур ряда других государств.

Кроме того, в августе в городе Лачин состоялась Международная конференция на тему «Общенациональный лидер Гейдар Алиев - автор независимой Конституции Азербайджанской Республики» с участием представителей международных организаций, зарубежных делегаций, членов Научно-консультативного совета при Генеральном прокуроре, а также территориальных и военных прокуроров.

В июле текущего года в городе Агдам, при организационной поддержке Генеральной прокуратуры, прошла региональная конференция «Конституция и суверенитет: основа правового государства», в которой приняли участие представители прокуратур примерно десяти регионов, сотрудники, ответственные за взаимодействие со СМИ, представители государственных и неправительственных организаций, средств массовой информации, образовательных учреждений и правоохранительных органов.

С точки зрения просвещения и регионального охвата органы прокуратуры, реализуя последовательные и целенаправленные мероприятия, проводят встречи, семинары и открытые дискуссии, направленные на защиту и пропаганду конституционных ценностей и укрепление устойчивости правовой системы. С этой целью в Генеральной прокуратуре среди примерно 300 студентов и курсантов высших учебных заведений была организована правовая викторина на тему «Конституция Азербайджанской Республики и государственный суверенитет», победители которой были награждены.

В заключение следует отметить, что последовательное и системное изучение Конституции, служащее укреплению верховенства закона, формированию правового сознания и усвоению гражданских ценностей, и впредь будет оставаться одним из приоритетных направлений деятельности органов прокуратуры.

# Prokurorluq orqanları suverenliyin və qanunçuluğun keşiyindədir

## Dövlətimizin parlaq gələcəyinə hesablanmış müstəqil və qətiyyətli siyasət

*Müstəqil və qüdrətli Azərbaycanın memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik ideyalarının davamçısı, böyük zəfərin müəllifi və uğurlu sabahımızın qarantı cənab İlham Əliyevin rəhbərliyi ilə yazılan yeni tarix ölkəmizdə sabitlik və təhlükəsizlik mühitinin daha da möhkəmlənməsini təmin etmişdir.*

*Qalib xalqa yaraşan tam suverenliyi ölkəmizə bəxş edən, milli maraqları bütün dəyərlərdən üstün tutan Müzəffər Ali Baş Komandanın möhkəm iradəsi və fenomenal əzmi sayəsində qlobal arenada söz sahibinə çevrilmiş Azərbaycan çağdaş inkişafının yeni mərhələsinə qədəm qoymaqla intibah dövrünün sağlam bünövrəsinin təməlini atmışdır.*

*Şanlı Zəfərimizin beşilliyi ərəfəsində milli iradəmizi müstəsna vətənpərvərlik ruhu və fitri idarəçilik istedadı ilə dünyaya qəbul etdirən möhtərəm cənab Prezidentin diplomatik şahmat qələbəsi hesab olunan Vaşinqton razılaşması davamlı sülhü və tarixi ədaləti bərqərar etməklə gələcək nəsillər üçün daha sabit, daha firavan Azərbaycanın etibarlı əsasını yaratmışdır.*

*Şərqlə Qərb arasında etibarlı tərəfdaş kimi qəbul edilən, dialoq və etimad körpüsü rolunda unikal mövqeyi ilə seçilən ölkəmizin Zəngəzur dəhlizinin reallaşması milli, tarixi və iqtisadi maraqlarımız təmin edilməklə türk dünyasının daha sıx birləşməsinə rəvac verəcək, bütövlükdə dünyanın nəqliyyat xəritəsi yenidən formalaşacaqdır.*

*Qlobal çağırışlara daim mühüm töhfələr verməklə strateji baxış və ortaq maraqları paylaşan dost və qardaş ölkələrlə əməkdaşlığın daha da gücləndirilməsi diqqət mərkəzində saxlanılmaqla cari il ərzində İğdır-Naxçıvan qaz kəmərinin açılışı, Türk Dövlətləri Təşkilatına üzv dövlətlərlə, həmçinin Türkiyə və Pakistanla keçirilmiş Zirvə görüşləri müttəfiqlik münasibətlərinin geostrateji əhəmiyyətini yeni müstəviyə qaldırmışdır.*

*Genişmiqyaslı və gələcəyə hesablanmış məqsədyönlü hədəflərin uğurla gerçəkləşməsinin nəticəsidir ki, ölkəmiz ötən ilin noyabrında dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a evsahibliyi etmiş, uğurlu siyasi-diplomatik gedişlər orta güc faktoru kimi respublikamızın nüfuzunu daha da artırmış, mövcud münaqişələrin və qarşıdurmaların çözülməsində Azərbaycan vasitəçi rolunda çıxış etmişdir.*

*Regionumuzun siyasi arxitekturasını dizayn edən, gələcəyə hesablanmış tərəqqi modelinin yaradıcısı dövlət başçısı cənab İlham Əliyevin ən yaxın silahdaşı Mehriban xanım Əliyevanın fəal iştirakı ilə milli hədəflər naminə gerçəkləşdirdiyi islahatlar ölkəmizin ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində böyük canlanmaya və xalqımızın rifah halının daha da yaxşılaşmasına zəmin yaratmışdır.*

### Dövlətçilik fəlsəfəsinin əsas sütunları: Konstitusiya və suverenlik

Tarix boyu azadlıq və müstəqillik uğrunda böyük sınaqlardan və məhrumiyyətlərdən keçmiş xalqımız dövlətçilik və suverenlik kimi milli kimlik və milli mövcudluq ideyalarına daim sadiq qalmış, hürr iradəsini əsrlər boyu qoruyub saxlamışdır.

Bu iradənin nəticəsi olaraq Azərbaycan bu gün özünün ərazi bütövlüyünü təmin etmiş tam müstəqil və suveren dövlət kimi beynəlxalq aləmdə layiqli yerini tutur.

Xüsusi vurğulanmalıdır ki, xalqımızın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra tarixin bizə bəxş etdiyi ən böyük azərbaycanlı Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu, mütərəqqi dəyərlərə söykənən ilk milli konstitusiya suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünün təmin edilməsi üçün zəruri olan ilkin şərtləri yaratmışdır.

Görkəmli rəhbərin "Biz elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun" sözləri bir daha göstərdi ki, Heydər Əliyevin dövlətçilik məktəbi bu gün də aktuallığını qoruyub saxlayır və ölkəmizin daha da qüdrətlənməsi işinə öz misilsiz töhfələrini verməkdə davam edir.

Müstəqilliyin qorunub saxlanmasından sonra sosial-iqtisadi inkişafa nail olmaqla yanaşı, dərhal ordu quruculuğuna başlayan qüdrətli lider Heydər Əliyev hələ ilk gündən torpaqlarımızın qan tökülmədən geri qaytarılmasına çalışmış, bölgədə dayanıqlı sülhün təmini üçün konstruktiv addımlar atmışdır.

Ədalətə əsaslanan sülh gündəliyinə sadiq qalan cənab Prezidentin bütün səylərinə baxmayaraq, ölkəmizin 2020-ci ilin sentyabrında Ermənistanın yeni hərbi təxribatına cavab olaraq 44 günlük Vətən müharibəsi, eləcə də antiterror əməliyyatı Azərbaycan Respublikasının Dövlət Suverenliyinin bərpası kimi, onun konstitusiya quruluşunun bərqərar olmasını da təmin etmişdir.

Bu baxımdan hər bir azərbaycanlı üçün tarixi anlam kəsb edən dövlət başçısının sərəncamı ilə elan olunan

"Konstitusiya və Suverenlik İli" ölkəmizin möhtəşəm Zəfər yoluna - tam suverenlik zirvəsinə yüksəlməsinə hərtərəfli nəzər salınması, dövlətçiliyinin əsas sütunlarının bir daha təhlil edilməsi və mənimsənilməsi baxımından böyük əhəmiyyət daşımaqdadır.

**Müasir inkişaf mərhələsində prokurorluğun yeri və rolu**

Bu gün prokurorluq orqanlarının bütün əməkdaşları və veteranlarımız böyük ruh yüksəkliyi ilə milli prokurorluq orqanlarının yaranmasının 107-ci ili və prokurorluq işçilərinin peşə bayramı gününü qeyd edir.

Tarixinin bütün mərhələlərində çətin, eyni zamanda şərəfli bir inkişaf yolu keçən milli prokurorluq orqanları daim millətinə və dövlətçilik ideyalarına sədaqətlə və vicdanla qulluq etmişdir.

Müstəqilliyinin bərpasından sonra fəaliyyətində və inkişafında mürəkkəb dövrlə qarşılaşan Azərbaycan prokurorluğunun qanunun aliliyinin təmin edilməsində və cinayətkarlığa qarşı barışmaz mübarizəsində qətiyyətli mövqeyinin, fəaliyyətinin hərtərəfli təminatı üçün qanunvericilik və maddi-sosial bazanın formalaşdırılması məhz xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə aparılan ardıcıl və məqsədyönlü hüquq islahatları nəticəsində mümkün olmuşdur.

Prokurorluq orqanlarına hər zaman xüsusi qayğı və dəstək göstərən Ulu Öndərin "Respublika prokurorluğu və baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir" sözləri qurumun ictimai-siyasi sabitliyin qorunmasında, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyətinə ali səviyyədə olan diqqət və önəmin bariz nümunəsi hesab edilmişdir.

Təsadüfi deyil ki, müstəqil dövlətçiliyimizin hüquqi əsaslarını yaradan Konstitusiyada prokurorluğa xüsusi maddə həsr edilmiş, səlahiyyətləri və vəzifələri dövrün tələblərinə uyğunlaşdırılmışdır.

Hüquq-mühafizə orqanlarının, xüsusilə də prokurorluğun məsuliyyətlə və peşəkarcasına fəaliyyət göstərməsinin ölkənin dayanıqlı və davamlı inkişafının təminatında mühüm roluna əhəmiyyət verən böyük öndərin "Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram" sözləri hər bir prokurorluq işçisi tərəfindən bu gün də iftixar hissi ilə yad edilir.

Sevindirici haldır ki, prokurorluq orqanlarının daha da təkmilləşdirilməsi, prokurorluq işçilərinin əməyinin fərqləndirilməsi, yeni informasiya texnologiyalarının tətbiqinə başlanılması, əməkdaşların sosial-maddi vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması Heydər Əliyev irsinə layiqli varislik nümunəsini göstərən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çağdaş dövrün tələblərinə uyğun apardığı hüquqi dövlət quruculuğu islahatları nəticəsində davam etdirilmişdir.

Bu baxımdan dövlət başçısının rəhbərliyi ilə innovativ yanaşmanı önə çəkən ardıcıl tədbirlər hüquq sisteminin ən yüksək beynəlxalq standartlara uyğun formalaşdırılmasına və müasir dövrün tələbləri səviyyəsində təkmilləşməsinə zəmin yaradaraq prokurorluq orqanlarının da ardıcıl və müntəzəm inkişafını təmin etmişdir.

Qeyd edilməlidir ki, prokurorluq orqanlarında yeni dövrün tələblərinə uyğun islahatlara təkanın əsasını cənab Prezident İlham Əliyev tərəfindən 2020-ci il mayın 1-də baş prokuror vəzifəsinə təyinatla əlaqədar qəbul zamanı verilən tapşırıq və tövsiyələr təşkil etmişdir.

Dövlət Başçısının "Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq" sözlərinin ruhuna uyğun olaraq bu gün də prokurorluqda işin səmərəliliyinin artırılması və çatışmazlıqların təxirə salınmadan aradan qaldırılması, hesabatlılığın və şəffaflığın təmini, elmi-texniki nailiyyətlərin tətbiqi istiqamətində mütəmadi islahat tədbirləri həyata keçirilməkdədir.

Xüsusi vurğulanmalıdır ki, cənab Prezidentin dəstəyi ilə hüquq sistemində aparıcı rola malik prokurorluğun fəaliyyətində maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, xidməti fəaliyyətinin yaxşılaşdırılması istiqamətində cari il ərzində də mühüm addımlar atılmış, Kürdəmir rayon, Bakı şəhərinin Nəsimi və Pirallahı rayon prokurorluqlarının yeni inzibati binalarının, həmçinin Bakı şəhər prokurorluğunun inzibati binasının yeni korpusunun istifadəyə verilməsi ölkə rəhbərliyinin quruma olan növbəti diqqət və qayğısının təcəssümü kimi qəbul edilmişdir.

Yeni dövrün yeni lideri cənab İlham Əliyevin hüquq-mühafizə, o cümlədən prokurorluq orqanlarının gələcək inkişaf istiqamətlərini müəyyən edən rəhbər göstərişlərindən və müdrik tövsiyələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsi, fəaliyyət istiqamətləri üzrə işin keyfiyyətinin yüksəldilməsi, prokurorluğa ictimai etimadın gücləndirilməsi ilə bağlı tədbirlər daim diqqət mərkəzində saxlanılmaqla bundan sonra da eyni qətiyyətlə davam etdiriləcəkdir.

**Qanunun aliliyinin təmini prokurorluq orqanlarının fəaliyyətinin əsasını təşkil edir**

Ölkəmizin dinamik inkişafının təməlini təşkil edən möhkəm ictimai-siyasi sabitliyin, milli dövlətçiliyin hər cür cinayətkar qəsdlərdən qorunması, kriminogen durumun nəzarətdə saxlanması, qanunun aliliyinin təmin olunmaqla Konstitusiya ilə təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatı dövlətimizin ali məqsədlərindən biri kimi müəyyən edilmişdir.

Bu baxımdan daxili işlər, dövlət təhlükəsizliyi, ədliyyə, gömrük, vergi, dövlət sərhəd və fövqəladə hallar orqanlarının fəaliyyətində məhkəməyədək aparılan təhqiqat, istintaq və əməliyyat-axtarış fəaliyyətinə

Konstitusiya ilə nəzərdə tutulmuş qaydada prosessual rəhbərliyi həyata keçirən prokurorluq orqanları dövlətin və cəmiyyətin qanunla qorunan mənafelərinin müdafiə edilməsində əhəmiyyətli rol oynayır.

Ötən peşə bayramından keçən dövr ərzində ibtidai araşdırma mərhələsində qanunların düzgün icra edilməsinə tam və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə daxili işlər orqanları üzrə 22418, vergi orqanları üzrə 1518, ədliyyə orqanları üzrə 441, sərhəd xidməti üzrə 230, gömrük orqanları üzrə 308, dövlət təhlükəsizliyi orqanları üzrə 157, fövqəladə hallar orqanları üzrə 66 cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik həyata keçirilmişdir.

Həmin işlər üzrə cinayət-prosessual qanunvericiliyin tələblərinin yerinə yetirilməsi ilə əlaqədar zəruri hallarda yazılı göstərişlər verilmiş, ibtidai istintaqı tamamlanmış işlərin müvafiq məhkəmələrə göndərilməsi və digər yekun qərarların qəbul olunması təmin edilmişdir.

**Peşəkar və keyfiyyətli istintaq əsas vəzifələrdəndir**

Prokurorluq orqanları tərəfindən cinayət işləri üzrə tez bir zamanda obyektiv həqiqətin müəyyən edilməsi, təqsirli şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilməsi, dövlətə və vətəndaşlara dəymiş ziyanın ödənilməsi mühüm əhəmiyyət kəsb edir. Ötən peşə bayramından keçən müddət ərzində daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq-mühafizə orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə qeyri-aşkar şəraitdə törədilmiş 25 qəsdən adam öldürmə cinayətinin isti izlərlə, habelə əvvəlki illərdən bağlı qalmış 3 qəsdən adam öldürmə cinayətinin açılması təmin edilmişdir.

Cari il ərzində prokurorluq orqanlarında aparılmış istintaq tədbirləri ilə istintaqı tamamlanmış cinayət işləri və bəraətverici əsaslar olmadan cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edilmiş materiallar üzrə vurulmuş maddi ziyandan 22 milyon 860 min manat, həmçinin qanunvericiliyin tələblərinə əsasən cinayət məsuliyyətindən azad olunmuş şəxslər tərəfindən dövlət büdcəsinə əlavə olaraq 4 milyon 411 min manat vəsaitin ödənilməsinə nail olunmuş, eləcə də 44 milyon 384 min manat dəyərində qiymətləndirilən əmlak üzərinə həbs qoyulmuşdur.

Ötən ilin sonlarında ictimaiyyəti dərindən üzən Rusiya Federasiyasının hava məkanında kənar müdaxiləyə məruz qalması nəticəsində "Azərbaycan Hava Yolları" QSC-yə məxsus təyyarənin Qazaxıstanın Aktau şəhərində qəzaya uğraması ilə bağlı başlanmış cinayət işi üzrə Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən kompleks istintaq-əməliyyat hərəkətləri aparılmaqla təqsirli şəxslərin müəyyən edilməsi istiqamətində ayrı-ayrı xarici ölkələrlə birlikdə zəruri tədbirlər davam etdirilir.

**Korrupsiyaya qarşı kəsərli mübarizə ardıcıl xarakter kəsb edir**

Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi dövlət siyasətinə və strateji inkişaf konsepsiyasına, o cümlədən "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq korrupsiyaya qarşı mübarizəyə xüsusi diqqət yetirilməsi prokurorluqda prioritet fəaliyyət istiqamətlərindən biri kimi müəyyən edilmişdir.

Bu sahədə dövlət siyasətinin formalaşmasında iştirak edən Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə komissiyası tərəfindən dövlət idarəçiliyində səmərəliliyin artırılması və şəffaflığın gücləndirilməsi ilə əlaqədar davamlı tədbirlər həyata keçirilmişdir.

Korrupsiya ilə mübarizədə ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində bu müddətdə vətəndaşların 2676, o cümlədən 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş 5982 müraciətinə baxılaraq, prokuror təsir tədbiri aktlarından istifadə edilməklə aidiyyəti qurumlarla əlaqəli şəkildə qabaqlayıcı tədbirlərin görülməsi, həmçinin cinayət işlərinin başlanması təmin edilmişdir.

Baş İdarənin əməliyyat qurumları tərəfindən həyata keçirilən 16 əməliyyat tədbiri nəticəsində 11 şəxs cinayət başında yaxalanmış, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 86 cinayət işi başlanmışdır.

Qeyd edilən dövrdə cinayət işləri üzrə vurulmuş maddi ziyandan 3 milyon 435 min manatın ödənilməsi, həmçinin 14 milyon 916 min manat məbləğində əmlak üzərinə həbs qoyulmaqla ümumilikdə 18 milyon 351 min manat məbləğində ziyanın bərpası təmin olunmuşdur.

Bundan başqa, icraatına xitam verilmiş işlər üzrə 4 milyon 307 min manat məbləğində maddi ziyan ödənilməklə cinayət məsuliyyətindən azad olunmuş şəxslər tərəfindən dövlət büdcəsinə əlavə olaraq 2 milyon 189 min manat məbləğində pul vəsaiti ödənilmişdir.

**Ədalət mühakiməsinin həyata keçirilməsində dövlət ittihamının rolu**

Sosial ədalətin bərpası, məhkumun islah olunması və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi daşıyan cəza-hüquq siyasətinə uyğun olaraq prokurorluq orqanlarının işinin müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğun təşkil edilməsi prosesi sistemli olaraq davam etdirilir.

Bu baxımdan birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində ədalət mühakiməsi zamanı yalnız prokurorluq orqanları tərəfindən həyata keçirilən

dövlət ittihamının müdafiəsi funksiyası qurumun əsas fəaliyyət istiqamətlərindən olmaqla insan hüquq və azadlıqlarının təminatının mühüm vasitəsidir.

Qanunçuluq, ədalət və əmələ görə məsuliyyət prinsiplərinə əsaslanan cinayətkarlığa qarşı mübarizəyə dair siyasətin həyata keçirilməsində yaxından iştirak edən dövlət ittihamçılarının iştirakı ilə cari il ərzində məhkəmələrdə 16096 şəxs barəsində 14583 cinayət işi və məhkəməyədək sadələşdirilmiş icraat üzrə materiallara baxılaraq yekun qərarlar qəbul edilmiş, ümumilikdə 941 qərardan protest verilmişdir.

Ötən müddətdə Azərbaycan Respublikası və xalqına qarşı törədilən təcavüz aktı, işğal, soyqırım, sülh və insanlıq əleyhinə digər cinayətlər, müharibə cinayətləri, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi və digər çoxsaylı cinayətlərin törədilməsi faktları ilə bağlı Baş Prokurorluğun İstintaq idarəsində ibtidai istintaq yekunlaşdırılmaqla baxılması üçün aidiyyəti üzrə Bakı Hərbi Məhkəməsinə göndərilmişdir.

Hazırda məhkəmə baxışı mərhələsində olan cinayət işləri üzrə 16 erməniəsilli şəxs barəsində dövlət ittihamının müdafiəsi davam etdirilməklə toplanmış sübutlar əsasında təqsirli şəxslərə layiqli cəzanın tələb olunması təmin ediləcəkdir.

### Ekoloji mühitin qorunmasında prokurorluğun iştirakı

Ölkəmizin daxil olduğu yeni tarixi mərhələnin reallıqları fonunda sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri kimi müəyyən edilmiş "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" hədəfinə uyğun olaraq prokurorluq orqanları tərəfindən ekoloji tarazlığın qorunması sahəsində hüquqpozmaların qarşısının alınması, aşkarlanması və araşdırılması istiqamətində aidiyyəti səlahiyyətli qurumlarla birgə fəaliyyət davam etdirilir.

Bu baxımdan ölkəmizin bəşəriyyəti narahat edən ən vacib məsələlərdən biri olan qlobal iqlim siyasətində yeni dönüş nöqtəsini hədəfləyən COP sammitinə evsahibliyi etməsi, o cümlədən həmin tədbirlər çərçivəsində Baş Prokurorluq və Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi (UNODC) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən beynəlxalq təşkilatların, eləcə də xarici ölkələrin prokurorluq orqanlarının rəhbər vəzifəli şəxslərinin, o cümlədən ölkəmizin aidiyyəti dövlət orqanları, aparıcı ali təhsil, elm ocaqları və geniş hüquq ictimaiyyətinin iştirakı ilə "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda təşkil etdiyi yüksəksəviyyəli sessiya mühüm önəmə malik olmuşdur.

Qeyd etməliyəm ki, maarifləndirmə və hüquq-mühafizə tədbirləri yolu ilə ətraf mühitin mühafizəsi sahəsində mütəxəssislərin əlaqələndirilməsi, bu sahədə pozuntuların qarşısının alınması istiqamətində Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bakı Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti və Qarabağ Universiteti tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili"ndə təsis edilməklə birgə həyata keçirilən ECOLEAD platforması da uğurla işini davam etdirir.

Bu layihə çərçivəsində Bakı şəhərində və bölgələrdə ekoloji cinayətlər və inzibati xətalar nəticəsində kəsilmiş ağacların və ya yararsız vəziyyətə salınmış ərazilərin bərpası məqsədilə təsis edilmiş "Eko Park" adlı yaşıllaşdırılmış ərazilərdə 2200-dən çox ağac əkilmişdir.

Ümumilikdə 2020-ci ildən ətraf mühitin mühafizəsi qaydalarının pozulması faktları ilə əlaqədar 237 inzibati xəta haqqında iş üzrə icraat və 644 cinayət işi başlanmaqla təqsirli şəxslər barəsində zəruri məsuliyyət tədbirləri görülmüş, həmçinin 7 milyon 277 min manat məbləğində ziyanın ödənilməsi təmin edilmişdir.

Ətraf mühitin mühafizəsini təmin etmək, təbiəti qorumaq, onun keşiyində durmaq, Prezident cənab İlham Əliyevin "Azərbaycan vətəndaşları təmiz ekoloji şəraitdə yaşayacaqlar" şüarının reallaşdırılması hər bir prokurorluq əməkdaşının həm vəzifə, həm də gələcək nəsillər naminə vətəndaşlıq borcudur və əminəm ki, hər bir prokurorluq əməkdaşı bu istiqamətdə üzərlərinə düşən vəzifələri layiqincə icra edəcəkdir.

### Hərbi prokurorluq orqanlarının fəaliyyəti

Müzəffər Sərkərdə cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin döyüş imkanlarının artırılması, hərbi infrastrukturun müasirləşdirilməsi, ordunun peşəkarlığının artırılması ölkəmizin müdafiə qüdrətinin daha da güclənməsini təmin etmişdir.

Bu baxımdan Silahlı Qüvvələrdə nizam-intizamın, qanunçuluq və hüquq qaydasının daha da möhkəmləndirilməsi istiqamətində əldə olunan müsbət nəticələrdə Hərbi prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər dövlət orqanları arasında yaranmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin böyük əhəmiyyəti olmuşdur.

Qeyd edilməlidir ki, cari il ərzində Hərbi Prokurorluqda aparılmış kadr və struktur islahatları ilə qurumun fəaliyyəti daha da optimallaşdırılmış, səmərəliliyin artırılması və maddi-texniki təminatın yaxşılaşdırılması üçün məqsədyönlü addımlar atılmışdır. Həyata keçirilən tədbirlərin davamı kimi operativliyin təmin edilməsi və vətəndaşların məmnunluq səviyyəsinin yüksəldilməsi, hərbi qulluqçular və onların ailə üzvləri ilə Hərbi Prokurorluq arasındakı etimadın möhkəmləndirilməsi, eləcə də müraciət imkanının asanlaşdırılması istiqamətində ödənişsiz "962" Etimad xətti yaradılmışdır.

### Süni intellekt və rəqəmsal texnologiyalar: səmərəli və çevik fəaliyyətin əsası kimi

Çağdaş Azərbaycan Prokurorluğunun fəaliyyətində qarşıda duran vacib istiqamətlərdən biri də dövrün tələblərinə uyğun olaraq cinayət mühakimə icraatında rəqəmsallaşma prosesinin həyata keçirilməsidir ki, bu

sahədə son dövrlər nəzərəçarpan irəliləyişlər əldə edilmişdir.

Bu baxımdan dövlət başçısının 7 may 2021-ci il tarixli fərmanı ilə yaradılmış "Elektron Prokurorluq" İnformasiya Sisteminin tam şəkildə bütün prokurorluq orqanlarında fəaliyyətə başlaması, sənədlərin elektron formada tərtibi, digər qurumlarla yazışmaların və sənəd mübadiləsinin rəqəmsal inteqrasiya platforması üzərindən aparılması işin operativliyinə olduqca müsbət təsirini göstərmişdir.

Qeyd etməliyəm ki, hazırda prokurorluq orqanlarında icraatda olan bütün cinayət işlərinin və cinayət xarakterli məlumatların araşdırılmasına dair materiallar "Elektron Prokurorluq" İnformasiya Sistemi vasitəsilə "kağızsız" qaydada aparılmaqdadır.

Eyni zamanda "Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" 1 avqust 2023-cü il tarixli fərmanla yaradılmış Rəqəmsal Sənəd Dövriyyəsi altsisteminə ilk qoşulan qurumlardan biri olan Azərbaycan Prokurorluğu tərəfindən cinayət prosesinin rəqəmsallaşdırılması ilə bağlı cinayət-prosessual və digər qanunvericiliklərə dəyişikliklərin edilməsini nəzərdə tutan qanun layihələri hazırlanmaqla razılaşdırılması üçün aidiyyəti qurumların müzakirəsinə təqdim edilmişdir.

Bununla yanaşı, son dövrlər süni intellekt, rəqəmsal və kibermühitlə bağlı texnoloji inkişafa adekvat olaraq törədilən hüquqpozmaların çevik aşkar edilməsi, zəruri qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə Baş Prokurorluqda Kibertəhlükəsizlik şöbəsi yaradılmaqla fəaliyyətə başlamışdır.

### Kadr potensialının artırılması başlıca vəzifələrdəndir

Prokurorluq orqanları tərəfindən ölkəmizin parlaq gələcəyinə hesablanmış gənclər siyasətinə uyğun olaraq prokurorluq orqanlarında işə qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi kadr tərkibinin şəffaf prosedurlar əsasında hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaratmışdır.

Cari il ərzində də mövcud vakant ştat vahidləri nəzərə alınmaqla yüksək nəzəri biliklərə, geniş dünyagörüşünə, xarici dil biliklərinə və sağlam mənəviyyata malik 56 gənc hüquqşünas bu ilin yanvar ayında sayca 26-cı müsabiqənin nəticələri üzrə qulluğa qəbul edilmişlər.

Xüsusi qeyd edilməlidir ki, 2020-ci ildən bəri keçirilən müsabiqələr üzrə uğur qazanmış namizədlərdən 23-ü Vətən müharibəsinin iştirakçısı olmaqla prokurorluq orqanlarında şərəfli xidmətlərini davam etdirirlər.

Ötən müddət ərzində prokurorluq orqanlarının kadr potensialının inkişafı istiqamətində əməkdaşların peşə səviyyələrinin artırılması, tədrisin uğurlu praktikalar əsasında müasirləşdirilməsini təmin etmək məqsədilə aparıcı elm və təhsil müəssisələri, hüquq-mühafizə orqanlarının akademiyaları ilə işgüzar əlaqələr daha da inkişaf etdirilmişdir.

Belə ki, cari ilin mart ayında Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Milli Aviasiya Akademiyası arasında 2020-ci ildə imzalanmış Sazişlə əldə olunan müsbət nəticələr nəzərə alınaraq əlaqələrin daha da genişləndirilməsi məqsədilə əməkdaşlığın inkişafına dair Anlaşma Memorandumu imzalanmışdır.

Bununla yanaşı, Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə Qazaxıstan Respublikası Ali Məhkəmə Şurası yanında Ədalət Akademiyası arasında tədris və elmi-tədqiqat sahəsində əməkdaşlığı nəzərdə tutan memorandum da imzalanmışdır ki, bu da dost və qardaş türk dövlətlərinin müvafiq qurumları ilə əməkdaşlığın genişlənməsinə xidmət edəcəkdir.

### Qanunvericiliyin təkmilləşdirilməsi və vətəndaş məmnunluğunun təmini də diqqət mərkəzindədir

Prokurorluq orqanlarında norma yaratma və hüquq tətbiqetmə fəaliyyətinin həyata keçirilməsi üzrə də cari il ərzində səmərəli işlər görülmüş, Baş Prokurorluq tərəfindən Konstitusiya Məhkəməsinə 5 sorğunun hazırlanaraq göndərilməsi, habelə Konstitusiya Məhkəməsində baxılan işlər üzrə 2 yazılı rəyin verilməsi təmin edilməklə konstitusiya icraatında iştirak edilmişdir.

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq 2025-ci ilin yanvar-sentyabr ayları ərzində Bas Prokurorluqda, eləcə də 22 rayon və şəhərdə ümumilikdə 765 vətəndaş tərəfimdən qəbul edilməklə müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun həlli barədə Bas Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe prokurorlara müvafiq göstərişlər verilmişdir.

### Beynəlxalq əməkdaşlığın genişləndirilməsi və qabaqcıl təcrübə mübadiləsi

Ötən müddətdə cinayətkarlığın yeni formalarının dövlətlərin birgə səyi nəticəsində qarşısının alınması istiqamətində beynəlxalq tərəfdaşlarla əlaqələrin inkişafına mühüm əhəmiyyət verilmiş, ekstradisiya, hüquqi yardım və digər sahələr üzrə əməkdaşlıq diqqətdə saxlanılmışdır.

Qeyd etməliyəm ki, qarşılıqlı münasibətlərin qurulması və inkişafı prokurorluğun insan hüquqlarının müdafiəsi və müstəqil dövlətimizin hüquqi əlaqələrinin möhkəmlənməsinə xidmət edən fəaliyyətinin əsasını təşkil etmişdir.

Həyata keçirilmiş tədbirlərin və prokurorluq orqanlarının beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinin

nəticəsidir ki, ötən il Bakı şəhərində dünya prokurorlarının yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransı və Ümumi Yığıncağı keçirilmişdir.

Müxtəlif ölkələrin baş prokurorları və digər yüksəkvəzifəli şəxsləri də daxil olmaqla, 95 ölkə və 10 beynəlxalq təşkilatdan ümumilikdə 500-dən artıq şəxsin iştirakı ilə baş tutmuş tədbir Azərbaycan Prokurorluğunun inkişaf tarixində ən əlamətdar hadisələrdən biri kimi yadda qalmışdır.

Beynəlxalq tədbirlərin davamı olaraq cari il ərzində də çoxsaylı görüş keçirilmiş, o cümlədən "Konstitusiya və Suverenlik İli" çərçivəsində, həmçinin Azərbaycan Prokurorluğunun peşə bayramı və 107 illik yubileyi ərəfəsində Uqanda, Laos, Tanzaniya, Keniya baş prokurorları və Türkiyə Baş Prokurorluğunun nümayəndələrinin iştirakı ilə "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda konfrans keçirilmişdir.

Bu müddətdə rəhbərlik etdiyim nümayəndə heyətlərinin Avstriya, Türkiyə, Qətər, Özbəkistan, Vyetnam, Sinqapur, Keniyada işgüzar səfərləri ikitərəfli əlaqələrin yeni müstəvidə davam etdirilməsinə rəvac vermişdir.

Milli prokurorluq orqanları tərəfindən  əldə olunan müsbət təcrübələr beynəlxalq təşkilatlarda da qurumun əməkdaşlarının mütəxəssis qismində cəlb olunmasına şərait yaratmış, belə ki, cari ildə Baş Prokurorluğun idarə rəisi Albaniya tərəfindən BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının tətbiqinin qiymətləndirilməsində dəyərləndirici ekspert kimi iştirak etmişdir.

Bununla yanaşı, Baş Prokurorluğun idarə rəisi korrupsiyaya qarşı mübarizə sahəsində nəzəriyyə və praktikada mövcud çatışmazlıqların aradan qaldırılmasına, ixtisasların artırılmasına, təcrübə mübadiləsinə və elmi araşdırmaların aparılmasına istiqamətlənmiş nadir institutlardan olan Beynəlxalq Anti-Korrupsiya Akademiyasının rəhbər qurumu olan İdarəetmə Şurasında fəaliyyətə başlamışdır.

**Korrupsiya ilə mübarizədə qarşılıqlı beynəlxalq təcrübənin önəmi**

Dövrümüzün sosial bəlası hesab edilən korrupsiyaya qarşı mübarizədə beynəlxalq təşkilatların tövsiyələrinin, müvafiq konvensiyaların müddəalarının yerinə yetirilməsi, digər ölkələrin uğurlu təcrübələrinin və əldə olunmuş nailiyyətlərinin öyrənilməsi, ikitərəfli və çoxtərəfli tədbirlərin keçirilməsi, habelə anti-korrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi və ümumilikdə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi prokurorluğun fəaliyyətində daim diqqət mərkəzində olan istiqamətlərdən olmuşdur.

Ölkəmizin korrupsiyaya qarşı mübarizə üzrə təşəbbüslərinə beynəlxalq etimadın növbəti təzahürü olaraq cari ilin may ayında Bakı şəhərində Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi - GlobE Network çərçivəsində 92 ölkəni təmsil edən 120 dövlət qurumunun 300-dən artıq nümayəndəsinin iştirakı ilə Altıncı Plenar İclasın keçirilməsi bu baxımdan müstəsna əhəmiyyət daşımışdır.

Beynəlxalq əməkdaşlığın gücləndirilməsi, qabaqcıl təcrübə mübadiləsi və effektiv yanaşmaların formalaşdırılması baxımından əhəmiyyətli antikorrupsiya platforması hesab olunan GlobE Network-ün iclasında yeni texnologiyaların hüquq-mühafizə orqanlarına təsiri, ekoloji cinayətlərin qarşısının alınması və oğurlanmış aktivlərin bərpası kimi aktual mövzular üzərində müzakirələr aparılmışdır.

Bundan başqa, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin sonuncu plenar iclasında şəbəkənin İstanbul Antikorrupsiya Fəaliyyət Planının V monitorinq mərhələsi çərçivəsində ölkəmiz üzrə daha öncə təqdim edilmiş tövsiyələrin icrası ilə əlaqədar tərəqqi hesabatı müzakirə edilərək qəbul edilmişdir.

Xüsusilə qeyd edilməlidir ki, ölkəmizdə həyata keçirilən korrupsiyaya qarşı mübarizə üzrə dövlət siyasəti ekspertlər tərəfindən olduqca yüksək qiymətləndirilmiş və müvafiq sahədə əldə etdiyi nəticələrə görə Azərbaycan region ölkələri arasında ilk yerlərdən birini tutmuşdur.

"Korrupsiyaya qarşı mübarizədə yeni texnologiyalar və süni intellektin tətbiqi imkanları" mövzusunda keçirilən Plenar İclas çərçivəsində Azərbaycan Respublikası Prokurorluğunun təşəbbüsü ilə "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar, habelə ölkəmizin COP29 sədrliyi ilə bağlı ekoloji hüquqpozmalara qarşı mübarizə ilə bağlı xüsusi sessiya və paralel tədbirlər də keçirilmişdir.

Qeyd etməliyəm ki, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq diqqət mərkəzində saxlanmaqla ölkəmiz 2026-cı ildə İslam Əməkdaşlıq Təşkilatına (İƏT) Üzv Dövlətlərin Korrupsiyaya qarşı Mübarizə aparan Hüquq-mühafizə Orqanlarının Yüksəksəviyyəli Görüşünə evsahibliyi edəcəkdir.

Sonda dövlət başçısını və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bu gün yaranmasının 107-ci ilini qeyd etdiyimiz Azərbaycan Prokurorluğu və onun kollektivi "Konstitusiya və Suverenlik İli" çərçivəsində məsuliyyətini dərindən dərk edərək ölkəmizin yeni inkişafı mərhələsində dövlətçiliyin möhkəmləndirilməsi, ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi naminə üzərlərinə düşən vəzifələri layiqincə icra edəcəklər.

**Kamran ƏLİYEV,**
**Azərbaycan Respublikasının baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri, Beynəlxalq Prokurorlar Assosiasiyasının vitse-prezidenti, hüquq elmləri üzrə fəlsəfə doktoru.**

# Kürdəmir rayon prokurorluğunun yeni inzibati binasının açılış mərasimi keçirilib





2025-ci il fevralın 7-də Kürdəmir rayon prokurorluğunun yeni inzibati binası istifadəyə verilib.

Açılış mərasimində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev iştirak edib.

Baş prokurorluğun rəhbərliyinin də iştirak etdiyi tədbirə, həmçinin digər dövlət və hüquq mühafizə orqanlarının əməkdaşları qatılıb.

Əvvəlcə Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək aziz xatirəsini ehtiramla yad edib.

Daha sonra yeni inzibati binanın foyesində Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyularaq, dahi insanın unudulmaz xatirəsi dərin hörmət və ehtiramla yad edilib.

Digər dövlət və hüquq mühafizə orqanlarının əməkdaşlarının qatıldığı tədbiri giriş sözü ilə açan Baş prokuror Kamran Əliyev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında başlanan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən hüquq islahatları və hərtərəfli dövlət dəstəyi nəticəsində milli prokurorluq orqanlarının bu gün dünya standartlarına uyğun fəaliyyəti təşkil olunub.

Qeyd edilib ki, cəmiyyətdə özünəməxsus yer tutmaqla konstitusion statusa malik prokurorluq orqanları dövlət idarəetməsində mühüm əhəmiyyət daşıyır.

Vurğulanıb ki, “Konstitusiya və Suverenlik İli”-ndə prokurorluq orqanlarının yeni inzibati binasının istifadəyə verilməsi əlamətdar hadisədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi daimi diqqət və qayğıdan bəhs edən Baş prokuror dövlətə və dövlətçiliyə sadiq olan prokurorluq orqanlarının fəaliyyətin-



də qanunçuluğu rəhbər tutduğunu qeyd edib.

Kamran Əliyev prokurorluq orqanlarında aparılan kompleks islahatlar və sağlam iş mühitinin formalaşdırılması məqsədilə görülən məqsədyönlü tədbirlərdən söz açıb.

Yeni binanın istifadəyə verilməsini prokurorluq əməkdaşlarının əməyinə verilən yüksək qiymət kimi dəyərləndirən Baş prokuror Azərbaycan dövlətinin inkişafı naminə bundan sonra da böyük səylə çalışacaqlarını bildirərək kollektivə uğurlar arzu edib.

Tədbir zamanı, həmçinin, Kürdəmir rayon İcra hakimiyyətinin başçısı Elxan İbrahimov çıxış edərək, yeni inzibati binanın təhvil verilməsi münasibətilə prokurorluq əməkdaşlarını təbrik edərək onlara uğurlar arzulayıb.

Kürdəmir rayon prokuroru Tural İbrahimov çıxış edərək, göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə edib, insan hüquq və azadlıqlarının müdafiəsi naminə rayon prokurorluğunun əməkdaşları ilə birgə yorulmaz fəaliyyət göstərəcəklərini qeyd edib.

Daha sonra iştirakçılar Kürdəmir rayon prokurorluğu üçün yeni tikilmiş binada yaradılan şəraitlə tanış olub.

Baş prokuror prokurorluq orqanlarının istifadəsinə verilmiş, müasir standartlara cavab verən və kriminalistik avadanlıqlarla təchiz olunmuş xidməti avtomobillərə baxış keçirib.

Sonda xatirə fotoşəkli çəkilib.









# Baş prokuror Kamran Əliyev Xankəndində keçirilən "Heydər Əliyev və Suveren Azərbaycan" mövzusunda konfransda iştirak etmişdir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə əlaqədar silsilə tədbirlər həyata keçirilmişdir.

Bu çərçivədə, aprelin 14-də Azərbaycan Respublikasının Baş Prokurorluğu və Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı, Qarabağ





Universitetinin tərəfdaşlığı ilə Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində "Heydər Əliyev və Suveren Azərbaycan" mövzusunda konfrans keçirilib.

Konfransda Baş prokuror Kamran Əliyev, Elm və təhsil naziri Emin Əmrullayev, dövlət rəsmiləri, hüquqşünaslar, ali təhsil müəssisələri, qeyri-hökumət təşkilatları və medianın nümayəndələri, eləcə də gənc tədqiqatçılar iştirak etmişdir.

Konfransdan əvvəl Ulu Öndər Heydər Əliyevin büstü ziyarət edilərək önünə gül dəstələri qoyulub, daha sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Konfransı giriş nitqi ilə açan Qarabağ Universitetinin rektoru Şahin Bayramov çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın suverenliyinin tam bərpasından sonra Xankəndidə fəaliyyətə başlayan Qarabağ Universitetinin qarşısında dayanan prioritetlərdən bəhs edib. Rektor çıxışında qeyd edib ki, Qarabağ Universiteti yalnız ali təhsil müəssisəsi kimi deyil, həm də regionun elmi-intellektual mərkəzi kimi formalaşmaq yolundadır.



Şahin Bayramov xüsusilə vurğulayıb ki, Universitetin fəaliyyətində Heydər Əliyev irsinin, dövlətçilik prinsiplərinin və suverenlik dəyərlərinin təbliği əsas istiqamətlərdəndir.

Elm və təhsil naziri Emin Əmrullayev çıxış edərək Heydər Əliyev irsinin təhsil sistemində milli ideologiyanın və dövlətçilik dəyərlərinin formalaşmasındakı rolunu diqqətə çatdırıb. O, qeyd edib ki, gənc nəslin tərbiyəsi mühüm əhəmiyyət kəsb edir, hər bir gəncimiz tariximizə ehtiramla yanaşıb onu



dərindən mənimsəməli, xüsusən xalqımızın qanı bahasına əldə edilmiş suverenliyimizin təminatını özlərinə ən ümdə məqsəd bilməlidirlər.



Nazir, həmçinin, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində – o cümlədən Qarabağda – təhsil infrastrukturunun yenidən qurulmasının və təhsilin keyfiyyətli şəkildə bərpasının dövlət siyasətinin əsas prioritetlərindən olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu ərazilərdə təhsil sistemi yalnız fiziki olaraq deyil, həm də mənəvi və ideoloji cəhətdən tam suveren Azərbaycan modelinə uyğun şəkildə yenidən formalaşdırılır.



Baş prokuror Kamran Əliyev öz çıxışında Ulu Öndər Heydər Əliyevin suveren Azərbaycanın hüquqi əsaslarının formalaşdırılmasında müstəsna tarixi rolunu, Qarabağ bölgəsinə və ümumilikdə ərazi bütövlüyümüzə dair prinsipial mövqeyini qeyd edərək, bu siyasətin günümüzdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib.

Çıxışında Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsinə geniş yer ayıran Kamran Əliyev vurğulayıb ki, müasir Azərbaycanın hüquqi-siyasi dayaqları məhz onun müəyyənləşdirdiyi strateji xəttin nəticəsidir. O qeyd edib ki, 1995-ci il Konstitusiyası və prokurorluq orqanlarının yenidən qurulması bu siyasətin mühüm elementlərindəndir.

Kamran Əliyev tədbirin məhz bu şəhərdə keçirilməsinin xüsusi önəm daşıdığını bildirib. O qeyd edib ki, bu konfrans suverenliyin tam bərpasının, hüquqi dövlət quruculuğunun və qanunun aliliyinin təcəssümüdür.

Baş prokuror bildirib ki, Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizin hüquqi əsaslarını və suverenliyini təmin edən ali sənəddir. O, 1995-ci ildə qəbul edilmiş Konstitusiyanın Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq ölkənin inkişafında dönüş nöqtəsinə çevrildiyini vurğulayıb.

Həmçinin Baş prokuror qeyd edib ki, hüquq-mühafizə orqanları, xüsusilə də prokurorluq, dövlətin suverenliyinin və hüquqi əsaslarının qorunmasında önəmli missiya daşıyır. O bildirib ki, bu orqanların fəaliyyətinin təkmilləşdirilməsi dövlətin dayanıqlığının və vətəndaşların hüquqlarının təminatıdır.







Kamran Əliyev Qarabağ Universitetində hüquq ixtisasının tədrisinin başlanmasını yüksək qiymətləndirərək qeyd edib ki, bu, regionda hüquqi şüurun formalaşdırılmasına və gələcək hüquqşünas kadrların hazırlanmasına xidmət edəcək. O əlavə edib ki, bu təşəbbüs suverenliyin bərpası ilə paralel həyata keçirilən vacib addımdır.

Baş prokuror qeyd edib ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin ayrılmaz hissəsi olan Birinci vitse-prezident Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti dövlətçiliyimizin möhkəmləndirilməsində, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında, təhsilin, elmin, mədəniyyətin və sosial rifahın inkişafında müstəsna rol oynayır. Onun təşəbbüsləri və həyata keçirdiyi genişmiqyaslı layihələr Azərbaycan xalqının rifahına, eyni zamanda beynəlxalq arenada ölkəmizin müsbət imicinin güclənməsinə mühüm töhfə verir.

Kamran Əliyev, xüsusilə vurğulayıb ki, Heydər Əliyev Fondu regionların sosial-iqtisadi inkişafında, işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin dəstəklənməsində və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində əvəzsiz rol oynayır. Bu fəaliyyət Azərbaycan dövlətinin humanist və inklüziv mahiyyətini bariz şəkildə nümayiş etdirir.

Baş prokuror Azərbaycan Respublikasının Konstitusiyasının qəbulunun müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olması ilə yanaşı, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biri olduğunu vurğulayıb.

Həmçinin çıxışda Ali Baş Komandanın rəhbərliyi altında 2020-ci ildə Azərbaycan Ordusunun Ermənistan Respublikasının Silahlı qüvvələrinə qarşı əks-hücum həmləsi ilə başladılmış “44 günlük Vətən” müharibəsi və 19-20 sentyabr 2023-cü ildə Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən həyata keçirilən lokal anti-terror tədbirləri nəticəsində əldə edilmiş tarixi qələbənin 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad edilməsi və dövlətimizin ərazi bütövlüyünün tam bərpa olunması ilə yanaşı milli qürurumuzun bərpası, həm də dünyaya ədalətin gec ya da tez bərqərar olduğuna dair bir mesaj olduğu bildirilib.

Tarixə nəzər salan Baş prokuror, SSRİ Nazirlər Sovetinin 14 oktyabr 1988-ci il tarixli qərarı ilə Xankəndi Pedaqoji İnstitutunun fəaliyyətinin dayandırılmasından illər sonra, Prezident İlham Əliyevin 2023-cü il noyabrın 28-də “Qarabağ Universitetinin yaradılması haqqında” Sərəncam imzalamasını və 2024-cü ilin sentyabr ayının 20-də isə Universitetin təmirindən sonra, açılışında şəxsən iştirak edərək, müəllim və tələbə heyəti ilə görüşməsinin növbəti dəfə tarixi ədalətin bərqərar edilməsi kimi qiymətləndirib.



Tədbirdə həmçinin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov çıxış edib. O, çıxışında Qarabağın suveren Azərbaycan dövləti çərçivəsində inteqrasiyası, dövlət idarəçiliyinin bərpası və bu istiqamətdə həyata keçirilən kompleks tədbirlər barədə məlumat verib, Heydər Əliyev irsinin bu prosesdə yolgöstərici rolunu xüsusi qeyd edib.

Konfrans çərçivəsində “Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti” publik hüquqi şəxsin direktoru Telman Kərimli, Xankəndi şəhər məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü İlkin Abdullayev, Xankəndi şəhər prokuroru Rəşadət Orucov və Qarabağ Universitetinin Humanitar















və sosial elmlər fakültəsinin tarix müəllimi Bilal Dədəyev çıxış edərək Heydər Əliyevin dövlətçilik fəlsəfəsi, hüquqi islahatlara yanaşması və suverenliyin qorunması istiqamətində atdığı addımlardan ətraflı bəhs ediblər.

Məruzəçilər 1995-ci il Konstitusiyasının qəbulu ilə əsaslanan hüquqi bazanın bu gün də ölkənin inkişafına möhkəm zəmin yaratdığını bildiriblər.

Daha sonra Qarabağ Universitetinin "Maarifləndirmə və hüquq mühafizə tədbirləri yolu ilə ətraf mühitin gücləndirilməsi" (ECOLEAD) layihəsinə qoşulmasına dair tərəfdaşlar adından Baş prokurorun müavini Heydər Məmmədovla həmin təhsil müəssisəsinin rektoru Şahin Bayramov arasında memorandum imzalanıb.

Qeyd edilib ki, ilk olaraq 24 may 2024-cü il tarixdə Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Bakı Dövlət Universiteti arasında imzalanmış memoranduma 2024-cü ilin avqust ayının 16-da Naxçıvan Dövlət Universiteti də qoşulmuşdur.

Konfransda Baş Prokurorluq və Azərbaycan Televiziyası QSC ilə birgə ərsəyə gətirilmiş "Azərbaycanın suverenlik yolu" adlı qısametrajlı sənədli film nümayiş etdirilib.

Film ölkəmizin müstəqilliyə gedən yolunu, hüquqi dövlət quruculuğu prosesini və suverenliyin təmin olunmasında hüquq sisteminin rolunu əks etdirir.



# "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda beynəlxalq konfrans




Avqustun 22-də Laçında Baş Prokurorluq tərəfindən təşkil olunan "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransda Baş prokuror Kamran Əliyev, Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının icraçı katibi Yuri Nikolayeviç Jdanov və onun müavini Abduraxmon Xotambekov, Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş Prokurorluğunun prokurorları Ahmet Gökay Aktaş və Mustafa Yakar, eləcə də Gürcüstan Baş Prokurorluğunun əməkdaşı Temur Tsindeliani, Baş Prokurorluğun rəhbər heyəti, Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvləri, ərazi və hərbi prokurorlar, eləcə də digər mötəbər qonaqlar iştirak ediblər.





Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları

tərəfindən bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfrans iştirakçılarını salamlayan Baş prokuror Kamran Əliyev müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbulunun müasir Azərbaycanın memarı, Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd edərək bildirib ki, bu, müstəqillik tariximizin ən mühüm və əlamətdar hadisələrindən biri olmaqla yanaşı, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir.





Prezident İlham Əliyevin rəhbərliyi altında hüquqi islahatların uğurla davam etdirildiyini qeyd edən Baş prokuror dövlət suverenliyinin qorunması və bərpası sahəsində ölkə başçısının fəaliyyətini xüsusi vurğulayıb.

Qeyd edib ki, dövlət başçısı İlham Əliyev və Birinci Vitse-Prezident Mehriban Əliyevanın davamlı diqqət və qayğısı nəticəsində suveren ölkəmizin bütün bölgələrində, xüsusilə işğaldan azad olunmuş ərazilərdə, o cümlədən konfransın keçirildiyi Laçın rayonunda genişmiqyaslı abadlıq və quruculuq işləri görülür, eləcə də Böyük Qayıdış strategiyası uğurla icra olunur.

Baş prokuror həmçinin qeyd edib ki, Konstitusiyada təsbit olunmuş suverenlik prinsipləri prokurorluğun fəaliyyətinin əsasını təşkil edir. Bununla yanaşı, müstəqil Azərbaycan Konstitusiyası ölkəmizdə dövlət hakimiyyətinin yeganə mənbəyinin Azərbaycan xalqı olduğunu müəyyən etməklə yanaşı, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan edib.

Kamran Əliyev bildirib ki, Azərbaycan Konstitusiya layihəsini hazırlamaq üçün Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət Konstitusiya Komissiyası yaradılıb:

"Konstitusiya layihəsi ümumxalq müzakirəsindən sonra, 1995-ci il noyabrın 12-də keçirilən və seçicilərin 86 faizinin iştirak etdiyi 91,9 faiz səs çoxluğu ilə referendumda qəbul edilmiş və 1995-ci il noyabrın 27-də isə qüvvəyə minmişdir.

Baş prokuror qeyd edib ki, 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət müstəqil Azərbaycanın Konstitusiyası









Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyinin Azərbaycan xalqı olduğunu müəyyən etməklə yanaşı insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan edir:

"Hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirir, insan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq qoyur. Şəxsiyyətin toxunulmazlığı, insan həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmin olunması, humanizm prinsipləri Azərbaycan Konstitusiyasının başlıca mahiyyətini təşkil etməklə yanaşı, həmçinin ölkəmizin ümumbəşəri qəbul edilmiş demokratik ideya və prinsiplərə sadiqliyinə dəlalət edir".

Baş prokuror həmçinin bildirib ki, 8 avqust 2025-ci il tarixli Vaşinqton görüşü Cənubi Qafqazda dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunması baxımından tarixi dönüş nöqtəsidir və ABŞ-ın paytaxtı Vaşinqtonda, Ağ Evdə Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin paraflanması bu ilin ən mühüm hadisələrindən biridir:

"Bu hadisə Azərbaycanın beynəlxalq aləmdə suveren hüquqlarının tam şəkildə tanınmasının təsdiqidir. Bu diplomatik uğur ölkəmizin artan nüfuzunun, Prezident cənab İlham Əliyevin qətiyyətli və hərtərəfli siyasətinin nəticəsidir".

Baş prokuror tərəfindən qeyd olunub ki, yeni reallıqlar fonunda strateji əhəmiyyət daşıyan məsələlərdən biri Zəngəzur dəhlizinin açılmasıdır. Bu layihə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqəsini təmin etməklə yanaşı, bütövlükdə regionun nəqliyyat xəritəsini dəyişəcək, iqtisadi və siyasi inteqrasiyaya böyük töhfə verəcək:

"Prezident İlham Əliyevin vurğuladığı kimi, Zəngəzur dəhlizi təkcə Azərbaycanın milli maraqlarını təmin etmir, eyni zamanda beynəlxalq əməkdaşlıq, ticari əlaqələr və qlobal təhlükəsizlik baxımından mühüm əhəmiyyət kəsb edir. Onun açılması suverenliyimizin praktiki gücünün, Azərbaycanın regiondakı lider mövqeyinin daha bir göstəricisi olacaq".

Çıxış edən Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov işğaldan azad edildikdən sonra Laçın rayonunda aparılan geniş bərpa və yenidənqurma işləri barədə iştirakçılara məlumat verib, habelə qeyd edib ki, indiyədək Laçına 936 ailə, ümumilikdə 3516 nəfər köçürülüb.

MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının icraçı katibi Yuri Nikolayeviç Jdanov bildirib ki, Azərbaycan torpağında, MDB-yə üzv dövlətlərin də bir hissəsi olduğu o nəhəng ölkənin rəmzlərinə çevrilən böyük şəxsiyyətləri və nailiyyətləri yada salmamaq mümkün deyil:

"Yaşadığım dövrün bir nümayəndəsi kimi qeyd edə bilərəm ki, böyükmiqyaslı Baykal-Amur magistralının tikintisi layihəsinin uğurla həyata keçirilməsində həmin illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olmuş, ikiqat Sosialist Əməyi Qəhrəmanı Heydər Əliyevin həlledici rolu olub! Bu görkəmli şəxsiyyət yalnız Azərbaycan xalqının qəhrəmanı deyildi! Biz hamımız onu böyük hörmət və minnətdarlıq hissi ilə xatırlayırıq!"

Onun sözlərinə görə, müasir dövr həm cəmiyyətin, həm də prokurorluq orqanlarının qarşısında yeni çağırışlar gətirir. Narkotik vasitələrin qanunsuz dövriyyəsi, qaçaqmalçılıq, mülkiyyət hüquqları sahəsində pozuntular – bütün bunlar dövrün çağırışlarıdır və prokurorluq bu təhlükəli təzahürlərlə mübarizənin ön cəbhəsində dayanır:

"Kiberməkanda baş verən cinayətkarlıqla mübarizənin vacibliyini xüsusilə vurğulamaq istəyirəm. Kibercinayətkarlıq inkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə qədər demək olar ki, bütün dövlətlərin bəlasına çevrilmişdir, vətəndaşlardan – ən zənginindən ən kasıbına qədər, onun hədəfi isə maddi vəziyyətindən asılı olmayan bütün vətəndaşlar, həmçinin korporasiyalar

və hətta bütöv dövlətlərdir! Biz hamımız kibercinayətkarlarla mübarizə sahəsində uğurlu təcrübələrin, məlumatların mübadiləsi, MDB-yə üzv dövlətlərin prokurorluq əməkdaşlarının qarşılıqlı ixtisasartırması istiqamətində səylərimizi birləşdirməliyik.

Cinayətkarlığa qarşı mübarizədə həmkarlarım üçün müxtəlif ölkələrin qanunvericiliklərini və təcrübələrini öyrənmək imkanını verən vahid mərkəzin yaradılması məsələsini qaldırmağı zəruri hesab edirəm".

Beynəlxalq konfransın iştirakçısı Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş Prokurorluğunun prokuroru Ahmet Gökay Aktaş bildirib ki, qanunun aliliyi, əsas hüquq və azadlıqların təminatı, hakimiyyət bölgüsü kimi prinsiplər müasir konstitusiyaların əsasını təşkil edir: "Konstitusiyanın 30 illik yubileyi təkcə Azərbaycan üçün deyil, dost və qardaş ölkələr kimi bizim üçün də mənalı və qürurverici bir hadisədir.

Türkiyə Cümhuriyyəti Prokurorluğu olaraq dost ölkələrin, xüsusilə Azərbaycanın məhkəmə qurumları ilə bilik və təcrübə mübadiləsinə böyük əhəmiyyət veririk. Ortaq hüquq mədəniyyətimiz, oxşar konstitusiya yanaşmalarımız, qarşılıqlı etimad bu əməkdaşlığın daha da möhkəmlənməsinə zəmin yaradır".

Gürcüstan Baş Prokurorluğunun əməkdaşı Temur Tsindeliani deyib ki, konstitusiya olmasaydı, qanunlar öz əsaslarını itirər, dövlət qurumları legitimlikdən məhrum olardı:

"Vətəndaşları özbaşına hakimiyyətdən qoruyan qalxan, hüquqi və siyasi sistemimizi istiqamətləndirən kompasdır. İndi bu konstitusiya çərçivəsində prokurorluq çox xüsusi yer tutur. Onun rolu təkcə hüquqi deyil, həm də konstitusion və sosialdır. Prokurorluq dövlətin qanunları həyata keçirmək vəzifəsi ilə vətəndaşın ədalət mühakiməsi hüququnun kəsişməsində dayanır".







Çıxışlardan sonra konfrans iştirakçıları tərəfindən mövzu ətrafında və qarşılıqlı əməkdaşlıq üzrə faydalı müzakirələr aparılıb.

Tədbirdə "Xalqın adamı" adlı sənədli film nümayiş etdirilib, Ümummilli Lider Heydər Əliyevin konstitusiya quruculuğundakı rolu və müasir suveren dövlətçiliyin formalaşmasındakı xidmətləri bir daha xatırlanıb.

Tədbir çərçivəsində həmçinin, Qarabağ regionunda çalışan, xidməti vəzifələrinin icrasında fərqlənmiş prokurorluq əməkdaşlarına, o cümlədən hərbi prokurorluq əməkdaşlarına Baş prokuror Kamran Əliyev tərəfindən həvəsləndirmə qaydasında mükafatlar təqdim edilib.

Sonda xatirə fotoşəkli çəkilib.



## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Suverenliyin keşiyində: Konstitusiyada prokurorluğun statusu" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına

## M Ü R A C İ Ə T

**Hörmətli tədbir iştirakçıları,**



Sizi "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda keçirilən beynəlxalq konfransda səmimi-qəlbdən salamlayıram.

2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Bu heç də təsadüfi deyildir. Belə ki, bu il biz Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30 illiyini və tarixi Zəfərimizin 5 illiyini qeyd edirik.

Ölkəmiz öz müstəqilliyini 1991-ci ildə bərpa etsə də, o dövrdə hökm sürən ictimai-siyasi vəziyyət, həmçinin Ermənistan Respublikasının hərbi təcavüzü səbəbindən milli konstitusiyamızın qəbulu yalnız 1995-ci ildə mümkün olmuşdur. Müstəqilliyimizi qazanandan sonra 30 ilə yaxın bir dövrdə torpaqlarımızın əhəmiyyətli hissəsi Ermənistanın işğalı altında olmuşdur. Azərbaycan xalqının əzmkarlığı, silahlı qüvvələrimizin rəşadəti sayəsində 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad edilmiş, 2023-cü ildə həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmuşdur. Bununla da Konstitusiyamızın hüquqi qüvvəsi ölkənin bütün ərazisinə şamil edilmişdir.

Tarixi zəfərimizdən dərhal sonra Qarabağ və Şərqi Zəngəzur bölgəsində geniş bərpa və quruculuq işlərinə başlanmış, minlərlə insan öz doğma yurdlarına qayıtmışdır. Baş vermiş bütün faciələrə baxmayaraq, Azərbaycan hər zaman sülh gündəliyinin tərəfdarı olmuş, bu istiqamətdəki səylərimiz cari ilin 8 avqust tarixində Vaşinqtonda sülh sazişinin paraflanması ilə nəticələnmişdir.

**Hörmətli konfrans iştirakçıları,**

Dost ölkələrin milli prokurorluq xidmətlərinin rəhbər şəxslərinin də daxil olduğu nümayəndə heyətlərinin bu tədbirə qatılması dövlətlərarası əməkdaşlığın inkişaf etdirilməsinə verdikləri önəmin təzahürüdür. Milli prokurorluq orqanları cinayətkarlığın bütün təzahürlərinə, o cümlədən dövlətin konstitusiya quruluşunun əsaslarına qəsd edən cinayətlərə qarşı mübarizənin ön sırasında dayanırlar. Bununla da onlar təkcə qanunçuluğun təmin edilməsi vəzifəsini yerinə yetirmir, eyni zamanda konstitusion nizamın və suverenliyin qorunmasına xidmət edirlər. Bu baxımdan prokurorluq orqanları da dövlət suverenliyinin keşikçiləri hesab olunurlar. Sizə bu şərəfli missiyada uğurlar arzu edirəm.

Əminəm ki, hazırkı tədbir prokurorluq fəaliyyəti ilə bağlı qabaqcıl təcrübələrin mübadiləsi, ümumi çağırışların müəyyən edilməsi və onların birgə həlli yollarının müzakirəsi, qarşılıqlı əməkdaşlığın güclənməsi məqsədlərinə töhfə verəcəkdir.

Sizi Azərbaycanda bir daha salamlayır, konfransın işinə müvəffəqiyyətlər diləyirəm.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 19 sentyabr 2025

# Azərbaycan Prokurorluğunun təşkilatçılığı ilə paytaxtda “Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu” mövzusunda beynəlxalq konfrans keçirilib




“Konstitusiya və Suverenlik İli” çərçivəsində, həmçinin, Azərbaycan Prokurorluğunun peşə bayramı və 107 illiyi ərəfəsində Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə Bakıda Heydər Əliyev Mərkəzində sentyabrın 22-də “Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu” mövzusunda





dəyirmi masa formatında beynəlxalq konfrans keçirilib.



Konfransda Uqanda, Laos, Tanzaniya, Keniyanın prokurorluq qurumlarının rəhbərləri və Türkiyə Baş Prokurorluğunun nümayəndələri, habelə Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və digər prokurorluq əməkdaşları iştirak edib.

Konfrandan əvvəl iştirakçılar Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub. Eyni zamanda, Şəhidlər xiyabanı ziyarət olunub, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə çiçəklər düzülüb.

Konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakçılara müraciəti Baş prokuror Kamran Əliyev tərəfindən səsləndirilib.

Daha sonra isə iştirakçılar Azərbaycanda prokurorluq orqanlarının yaranma tarixindən müasir dövrədək keçdiyi inkişaf mərhələlərini, ölkəmizdə qanunun aliliyinin təmin olunması və ədalətin bərqərar edilməsində oynadığı mühüm rolu əhatəli şəkildə əks etdirən, Azərbaycan Prokurorluğunun peşə bayramı və 107 illiyinə həsr olunmuş videoçarxa baxıblar.

Konfransda çıxış edən Baş prokuror Kamran Əliyev Ermənistanın Azərbaycanın suveren ərazilərini işğal etməsi nəticəsində minlərlə insanın həlak olduğunu, mülkiyyətə, iqtisadiyyata, ətraf mühitə, tarix-mədəniyyət abidələrinə külli miqdarda ziyan dəydiyini iştirakçıların diqqətinə çatdırıb.

Baş prokuror, həmçinin xatırladıb ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusu 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsində tarixi qələbə qazanıb. Bundan başqa, 2023-cü il sentyabrın 19-dan 20-dək Azərbaycanın separatçı Qarabağ bölgəsində əməliyyat aparan antiterror əməliyyatları zamanı 30 ilə yaxın işğal altında olan ərazilər azad edildi. Azərbaycanın suverenliyi tam bərpa olundu, Konstitusiya bütün ölkəyə şamil olundu.

Baş prokuror əlavə edib ki, suveren ərazilərimiz işğaldan azad edildikdən dərhal sonra Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəal iştirakı ilə genişmiqyaslı bərpa və quruculuq işlərinə başlanılıb. “Ağıllı” kənd və şəhərlər salındı, yeni iş yerləri, istehsalat, təhsil müəssisələri yaradıldı, o cümlədən Xankəndində Qarabağ Universitetinin əsası qoyuldu.

Xatırladılıb ki, Azərbaycan hətta işğal zamanı da sülh yolu ilə nizamlanmaya nail olmaq üçün səylər göstərib; BMT-nin Azərbaycan torpaqlarının işğalını tanıyan və onların qeyd-şərtsiz azad edilməsini tələb




edən dörd qətnaməsinə baxmayaraq, Ermənistan işğal etdiyi torpaqları qaytarmayıb. "Azərbaycan həmişə olduğu kimi, sülhün tərəfdarı olaraq qalır. Bu il avqustun 8-də Vaşinqtonda, Ağ Evdə Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması bunun bariz nümunəsidir. Bu sənəd təkcə iki dövlət arasında münasibətlərin yeni səhifəsi deyil, həm də Cənubi Qafqazda dayanıqlı sülhün və təhlükəsizliyin, habelə iqtisadiyyatın daha da inkişaf etdirilməsinin təmin olunması baxımından tarixi dönüş nöqtəsidir. Eyni zamanda bu sənəd Azərbaycanın suverenliyinin dünya miqyasında tanınmasıdır" – Baş prokuror vurğulayıb.

Bundan başqa qeyd olunub ki, yeni geosiyasi reallıqlar fonunda Zəngəzur dəhlizinin açılması strateji əhəmiyyətli mövzu olaraq qalır. Bu layihə Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında quru əlaqəsini təmin edəcək, regionun nəqliyyat xəritəsini dəyişdirəcək, iqtisadi və siyasi inteqrasiyaya mühüm töhfə verəcək.

Kamran Əliyev xatırladıb ki, Azərbaycan Prokurorluğu yüz






ildən artıq bir tarixə malikdir. Çətin və mürəkkəb sınaqlarla zəngin bu şərəfli və məsuliyyətli tarixi yolda prokurorluq institutu bir neçə inkişaf mərhələsindən keçib. Müstəqil Azərbaycanın ilk Konstitusiyası milli prokurorluq orqanlarının dövlətin və cəmiyyətin həyatında yeri və roluna da yeni baxış gətirib. Azərbaycan Respublikasının Konstitusiyasının 133-cü maddəsi "Azərbaycan Respublikasının Prokurorluğu" adlandırılmaqla prokurorluq orqanlarının səlahiyyəti, strukturu, habelə onun fəaliyyəti ilə bağlı bir sıra mühüm müddəaları müəyyən etməkdədir. Prokurorluq məhkəmə hakimiyyətinə aid edilsə də, əsas qanun prokurorluğun müstəqilliyini təsbit edib.

Baş prokuror qeyd edib ki, Konstitusiya və sahəvi qanunlarla prokurorluq dövlətin və cəmiyyətin mənafeyini müdafiə edən ali orqan kimi müəyyən edilib: "Əminliklə deyə bilərik ki, Prokurorluğun Azərbaycan Konstitusiyasında müəyyən edilmiş statusu qanunun aliliyinin təmin olunması, insan və vətəndaş hüquqlarının müdafiəsi, dövlətin və cəmiyyətin maraqlarının qorunması sahəsində müstəqil və obyektiv fəaliyyət göstərməsinə təminat verir. Prokurorluq institutu həm hüquqi dövlətin möhkəmlənməsinə, həm də cəmiyyətimizin demokratik inkişafına mühüm xidmət göstərir. İnanıram ki, bu konfrans qarşılıqlı əlaqələrimizin daha da inkişaf etdirilməsinə xidmət edəcək."




Keniya Respublikasının Dövlət Prokurorluğunun Direktoru Renson Mulele İnqonqa çıxışı zamanı vurğulayıb ki, bu gün Azərbaycan və Keniyanı birləşdirən ortaq dəyərlər ədalət, hüququn aliliyi və insan hüquqlarına hörmətdir. Çıxışçı vurğulayıb ki, 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş bu Konstitusiya Azərbaycanın suverenliyinin, birliyinin və hüququn aliliyi əsasında demokratik dövlət qurmaq əzm və iradəsinin canlı ifadəsidir: "O, bərabərlik, insan ləyaqəti və sosial ədalət prinsiplərini təsbit edir və bununla da hər bir vətəndaşın hüquq və azadlıqlarının təmin edildiyi möhkəm bünövrə yaradır. Konstitusiyanın ən mühüm xüsusiyyətlərindən biri dövlət hakimiyyətinin mənbəyi kimi xalqı tanımasıdır. Bu fundamental prinsip idarəetmənin xalqın iradəsindən qaynaqlandığını və onların rifahı naminə həyata keçirildiyini təmin edir. Prokurorlar olaraq bizim vəzifəmiz bu hüquqların yalnız mətnlərdə qalmamasını, vətəndaşların gündəlik həyatında real şəkildə hiss olunmasını təmin etməkdir. Hər bir cinayət işində təqsirsizlik prezumpsiyasını qorumaq, ədalətli məhkəmə təminatını və qurbanların ləyaqətini müdafiə etmək məsuliyyətimizdir".




Laos Xalq Demokratik Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokuroru Saysana Kotputan isə qeyd edib ki, Bakıda keçirilən beynəlxalq konfrans əməkdaşlığın genişlənməsi üçün yeni imkanlar açır. Bu elə bir platformadır ki, burada öz təcrübəmizi bölüşə bilərik. O öz ölkəsində Ali Xalq Prokurorluğunun fəaliyyətindən bəhs edib.

Bildirib ki, Laosda Konstitusiya 1992- ci ildə qəbul olunub və mühüm milli sənədləri özündə əks etdirir: "Laosun Ali Xalq Prokurorluğu Konstitusiyada qanunların düzgün icrasına nəzarət edən, təqsirləndirilən şəxslərin məhkəməyə verilməsi səlahiyyətinə malik olan orqan kimi təsbit edilib. Ali Xalq Prokurorluğu Konstitusiya ilə verilən səlahiyyətləri lazımı şəkildə həyata keçirir. Biz bu səlahiyyətləri layiqli formada xalq qarşısında icra edirik. Vətəndaşların hüquqlarının təşviqinə, xüsusilə, ədliyyə sektorunda böyük önəm verilir. Bu hüquqlar bir sıra qanunlarda aydın şəkildə təsbit edilib. Laos Ali Xalq Prokurorluğu vətəndaşların hüquqlarını təmin edən, xarici müdaxilə olmadan ittiham orqanı kimi öz rolunu icra etməkdədir. Öz vəzifələrini icra edərkən bütün səviyyələrdə xalq prokurorları qanuna əməl etməlidir. Onlar bunu gündəlik fəaliyyətində vacib amil hesab edirlər. Təqsirləndirilən şəxslərin hüquqlarına Xalq Prokurorluğu nəzarət edir. Biz öz ölkəmizdə bununla bağlı müvafiq mexanizmləri yaratmışıq. İctimaiyyət fikirlərini "Qaynar xətt" vasitəsilə bildirə bilər. Prokurorluğun müstəqilliyini qorumaq məqsədilə güclü daxili nəzarət mexanizmi də mövcuddur. Laos Ali Xalq Prokurorluğu hüququn aliliyini möhkəmləndirmək məsuliyyətini öz üzərində daşıyır".




Türkiyə Respublikasının Ali Məhkəməsinin prokuroru Tayfun Gün Türkiyədə konstitusiya prosesinin müxtəlif mərhələləri barədə məlumat verib. O, 1921-ci il Konstitusiyasında prokurorluq institutuna yer verilmədiyini, lakin sonrakı konstitusiyalarda məhkəmələrin müstəqilliyi, hakim və prokurorların təminatı ilə bağlı müddəaların təsbit olunduğunu diqqətə çatdırıb. Tayfun Gün qeyd edib ki, prokurorluq dövlətin suverenliyinin qorunmasında, ictimai qaydanın təmin olunmasında və cinayətlərin qarşısının alınmasında mühüm institut kimi çıxış edir. Onun sözlərinə görə, prokurorlar istintaq mərhələsində araşdırma aparmaqla, məhkəmə mərhələsində isə dövlət ittihamını müdafiə etməklə ədalətin bərqərar olunmasına xidmət edirlər.




Tanzaniya Birləşmiş Respublikasının Dövlət prokurorluğunun direktoru Silvester Antoni Mvakitalu qeyd edib ki, qanunun aliliyinin qorunmasında prokurorluq orqanlarının səmərəli fəaliyyəti üçün milli və beynəlxalq qurumlar arası əməkdaşlıq zəruridir: "Prokurorluq orqanları arasında əməkdaşlıq təcrübə mübadiləsi və birgə təlimlər vasitəsilə bilik mübadiləsi yolu ilə fəaliyyətin təkmilləşdirilməsində mühüm vasitədir. Ölkəm adından Tanzaniya və Azərbaycan Respublikasının prokurorluq orqanları arasında Anlaşma Memorandumunun imzalanacağına sevinirəm. Bu memorandum iki prokurorluq orqanı arasında uzunmüddətli və davamlı əməkdaşlıq çərçivəsini formalaşdıracaq mühüm sənəd olacaqdır".




Uqanda Respublikasının Dövlət prokurorluğunun direktoru Odumbi Ceyms Over vurğulayıb ki, bugünkü dəyirmi masa ölkələrimizin prokurorluq institutlarını birləşdirən ortaq dəyərlərin nümayişidir. Konstitusiya çərçivələrimizlə bağlı fikir mübadiləsi etməklə prokurorluğun müstəqilliyinin müxtəlif istiqamətlərdə necə möhkəmləndirilə biləcəyi barədə anlayışımızı dərinləşdirə, konstitusiyanın inkişafı və qanunun aliliyi ilə bağlı dəyərli perspektivlərə töhfə verə bilərik.

"Bu dialoq bizə həm də birgə araşdırmalar və yaranan təhdidlər üzrə bilik mübadiləsi aparmaq və ya beynəlxalq forumlarda prokurorluq standartlarının uyğunlaşdırılması vasitəsilə praktiki əməkdaşlığı genişləndirmək imkanı verir. Qarşılaşdığımız çağırışlar qlobal xarakter daşıyır, korrupsiya, mütəşəkkil cinayətkarlıq və demokratik təsisatlar üçün təhlükələr sərhədləri aşır. Beləliklə, biz bu görüşdən konstitusiya mandatlarımızın xalqlarımızın suverenliyini qorumaqla bu çağırışlara necə uyğunlaşa biləcəyini müzakirə etmək üçün platforma kimi istifadə edə bilərik. Mən sizin hamınızla səmərəli fikir mübadiləsi aparmaq, təcrübələrinizdən öyrənmək və öz təcrübəmizi daha çox bölüşmək üçün can atıram. Bu müzakirələr təkcə bizim müvafiq institutlarımızı gücləndirməyəcək, həm də ədalətin qlobal çərçivəsinə töhfə verəcək. Bu qeydlərlə bir daha azərbaycanlı həmkarlarımıza tərəfdaşlığa və bu nəcib işlə bağlı göstərilən fədakarlığa görə bütün iştirakçılara dərin minnətdarlığımı bildirirəm", – deyə Odumbi Ceyms Over fikirlərinə yekun vurub.

Çıxışlardan sonra konfrans iştirakçıları mövzu ətrafında geniş və səmərəli müzakirələr aparıblar.

Fikir mübadiləsi zamanı prokurorluq orqanlarının konstitusion statusunun möhkəmləndirilməsinin, onların fəaliyyətinin şəffaf, effektiv və hüquqi dövlət prinsiplərinə uyğun təşkil olunmasının əhəmiyyəti xüsusi vurğulanıb.

Həmçinin beynəlxalq təcrübə və əməkdaşlıq nümunələri müzakirəyə çıxarılaraq, ölkəmizdə prokurorluğun fəaliyyətinin inkişaf etdirilməsi, hüquq mühafizə sisteminin təkmilləşdirilməsi və ədalətin daha da möhkəmləndirilməsi istiqamətində perspektivlər müəyyən edilib.

# *Baş prokuror:* Sülh müqaviləsinin paraflanması Azərbaycanın suverenliyinin dünya miqyasında tanınmasıdır






“Azərbaycan daim sülhün tərəfdarı olub, torpaqlarımızın işğal altında olduğu dövrdə də daim məsələnin sülh yolu ilə həll olunması üçün səylər göstərib”.

Bu sözləri Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə Bakıda Heydər Əliyev Mərkəzində sentyabrın 22-də keçirilən “Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu” mövzusunda beynəlxalq konfransda deyib.

“Lakin BMT-in Azərbaycan torpaqlarının işğalını tanıyan və onların qeyd-şərtsiz azad edilməsini müəyyən edən 4 qətnaməsinin olmasına baxmayaraq, Ermənistan tərəfi işğal etdiyi torpaqları geri qaytarmayıb. Azərbaycan həmişə olduğu kimi bu gün də sülhün tərəfdarıdır”, – Baş prokuror deyib.

O, qeyd edib ki, bu il avqustun 8-də ABŞ-ın paytaxtı Vaşinqtonda, Ağ Evdə Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin paraflanması məhz bunun bariz nümunəsidir:

“Bu sənəd təkcə iki dövlət arasında münasibətlərin yeni səhifəsi deyil, həm də Cənubi Qafqazda dayanıqlı sülhün və təhlükəsizliyin, habelə iqtisadiyyatın daha da inkişaf etdirilməsinin təmin olunması baxımından tarixi dönüş nöqtəsidir. Eyni zamanda bu sənəd Azərbaycanın suverenliyinin dünya miqyasında tanınmasıdır”.

# Prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü münasibətilə tədbir keçirilib









Milli prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü münasibətilə Baş Prokurorluğun rəhbərliyi oktyabrın 1-də Fəxri xiyabana gələrək, Ulu öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyub.

Həmçinin, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva, tanınmış dövlət xadimi Əziz Əliyev və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üzərinə gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn prokurorluğun kollektivi Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinə dərin ehtiramlarını bildirib, “Əbədi məşəl” abidəsini ziyarət ediblər.

Daha sonra Baş Prokurorluğun inzibati binasında 1 oktyabr – Azərbaycan Respublikası Prokurorluğunun yaradılmasının 107-ci ildönümü münasibətilə tədbir keçirilib.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən və Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra Baş prokuror Kamran Əliyev prokurorluq orqanlarında çalışan bütün əməkdaşları, veteranları,












onların ailə üzvlərini peşə bayramı münasibətilə təbrik edib.

Çıxış zamanı Baş prokuror Kamran Əliyev ölkəmizin ictimai-siyasi həyatında son dövrdə baş verən mühüm hadisələrdən bəhs edib. Qeyd olunub ki, dövlət başçısı cənab İlham Əliyevin ABŞ-yə tarixi səfəri çərçivəsində Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin 2025-ci il avqustun 8-də Ağ Evdə paraflanması Azərbaycan Prezidentinin hərbi uğurlarından sonra növbəti siyasi nailiyyəti və qələbəsidir. Həmçinin 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə Amerika Birləşmiş Ştatları Prezidenti tərəfindən Prezident İlham Əliyevlə görüş çərçivəsində sərəncam imzalanması dövlətimizin başçısının diplomatik sahədə əsas uğurlarından biridir

Bundan başqa, vurğulandı ki, Prezident İlham Əliyevin cari il sentyabrın 25-də BMT Baş Assambleyasının 80-ci sessiyasında 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın qarşısında açılan yeni mərhələni və bu mərhələnin regionda yaratdığı siyasi, iqtisadi və təhlükəsizlik reallıqlarını dünya ictimaiyyətinə çatdırdığı tarixi çıxışı, eləcə də ölkə başçısının regional və qlobal əhəmiyyətli təşəbbüsləri Azərbaycanın beynəlxalq nüfuzunun, suverenlik və ərazi bütövlüyünün tam bərqərar edilməsinin bariz göstəricisidir.

Baş prokuror bildirib ki, prokurorluq orqanlarının yaranmasının 107-ci ildönümü Vətən müharibəsində möhtəşəm Zəfərimizin 5 illiyi ilə eyni dövrə təsadüf edir. Məhz Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi, xalq-ordu birliyi nəticəsində dövlətimizin ərazi bütövlüyü bərpa edilib, işğaldan azad olunmuş torpaqlarda geniş bərpa-quruculuq işləri aparılır.

Kamran Əliyev 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilməsinin mühüm tarixi hadisə olduğunu vurğulayaraq, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Konstitusiyanın dövlətimizin müstəqilliyinin, hüquqi və dünyəvi dövlət quruculuğunun möhkəm təməli olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, məhz bu hüquqi əsaslar üzərində prokurorluğun müasir statusu və səlahiyyətləri müəyyən edilib.

Çıxış zamanı ölkəmizin ev sahibliyi etdiyi mötəbər beynəlxalq tədbirlərin təkcə Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmlənməsinə deyil, eyni zamanda regionların sosial-iqtisadi inkişafına verdiyi mühüm töhfələr xüsusi vurğulanıb.

Baş prokuror dövlətimizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın həyata keçirdiyi humanitar təşəbbüslərin, təhsil, mədəniyyət və sosial sahələrdə gördüyü genişmiqyaslı işlərin ölkəmizin beynəlxalq nüfuzunun möhkəmlənməsində mühüm rol oynadığını xüsusi qeyd edərək bu sahədə əldə olunmuş nailiyyətlərdən danışıb, prokurorluq orqanlarının da dünya miqyasında nüfuzlu tərəfdaşlıqlarını daha da möhkəmləndirəcəyini diqqətə çatdırıb.





Baş prokuror prokurorluq orqanlarında son illərdə həyata keçirilmiş struktur dəyişiklikləri, şəffaf kadr siyasəti, maddi-texniki bazanın gücləndirilməsi, “Elektron Prokurorluq” İnformasiya Sisteminin tam şəkildə bütün prokurorluq orqanlarında tətbiqi, işğaldan azad edilmiş ərazilərdə prokurorluq orqanlarının fəaliyyətinin bərpası istiqamətində görülən işlər barədə ətraflı məlumat verib. Qeyd olunub ki, prokurorluq işçilərinin 93 faizdən çoxu məhz müsabiqə yolu ilə seçilmiş gənc, peşəkar kadrlardan ibarətdir.

Çıxışın sonunda əminliklə qeyd olunub ki, hər bir prokurorluq əməkdaşı bundan sonra da fəaliyyətini insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına, ictimai-siyasi sabitliyin təmin edilməsinə və qanunçuluğun möhkəmləndirilməsinə həsr edəcək, dövlət başçısı tərəfindən göstərilən yüksək etimadı doğrultmaq üçün bütün bilik və bacarığını səfərbər edəcəkdir.

Daha sonra xidməti fəaliyyətlərində fərqləndiklərinə görə mükafatlandırılmış prokurorluq əməkdaşlarının təltif olunması, prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü münasibətilə ali təhsil müəssisələrinin tələbə və kursantları arasında təşkil olunmuş interaktiv istintaq kvestinin, “Azərbaycan Respublikasının Konstitusiyası və Dövlət Suverenliyi” mövzusunda keçirilmiş hüquq viktorinasının qaliblərinin, eləcə də prokurorluq əməkdaşları və veteranları arasında keçirilmiş şahmat turnirinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbir zamanı çıxış edən prokurorluğun veteranları Ələmdar Məmmədov və Mircavan Kazımov prokurorluq orqanlarının şərəfli inkişaf yolundan bəhs edərək, dövlətimizin başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə həyata keçirilən genişmiqyaslı islahatların prokurorluq orqanlarının fəaliyyətinə də müsbət təsir göstərdiyini vurğulayıblar. Veteranlar, onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək, bu münasibəti prokurorluq ailəsinə verilən dəyərin bariz nümunəsi kimi qeyd edib, əməkdaşları peşə bayramı münasibətilə təbrik ediblər.

İştirakçılar Azərbaycanda prokurorluq orqanlarının yaranma tarixindən müasir dövrədək keçdiyi inkişaf mərhələlərini, ölkəmizdə qanunun aliliyinin təmin olunması və ədalətin bərqərar edilməsində oynadığı mühüm rolu əhatəli şəkildə əks etdirən, Azərbaycan Prokurorluğunun peşə bayramı və 107 illiyinə həsr olunmuş videoçarxa baxıblar.

Tədbirin yekununda Baş prokuror bir daha əməkdaşları təbrik edərək onlara peşəkar fəaliyyətlərində uğurlar arzu edib.

# Zəngilanda “Zəfərin beş ili: Dövlətçilik və hüququn qələbəsi” mövzusunda konfrans keçirilib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş tarixi Zəfərin beşinci ildönümü münasibətilə 2025-ci il noyabrın 5-də Baş Prokurorluq tərəfindən Zəngilan Konqres Mərkəzində “Zəfərin beş ili: Dövlətçilik və hüququn qələbəsi” mövzusunda konfrans təşkil olunub.

İştirakçılar Ulu Öndər Heydər Əliyevin Zəngilan rayonunun Ağalı kəndində ucaldılmış büstünü və Zəngilan şəhərində yerləşən Şəhidlər Xiyabanını ziyarət edərək gül dəstələri qoyublar, Ulu Öndərin və şəhidlərimizin əziz xatirəsini ehtiramla yad ediblər.

Konfransdan əvvəl Ümummilli Lider Heydər Əliyevin, eləcə də Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılmış mübarizələrdə şəhid olmuş qəhrəman əsgər və zabitlərimizin, mülki vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Baş prokuror Kamran Əliyev tədbiri giriş sözü ilə açaraq Zəfərin beşinci ildönümünün dərin mənəvi və tarixi əhəmiyyətindən danışıb. O, Azərbaycan xalqının bu möhtəşəm Qələbəni Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi milli dövlətçilik kursuna, Prezident İlham Əliyevin müdrik və qətiyyətli siyasətinə, eləcə də xalq–ordu birliyinə borclu olduğunu vurğulayıb. Baş prokuror bildirib ki, 44 günlük Vətən müharibəsi Azərbaycanın dövlətçilik tarixində dönüş nöqtəsi olmaqla, beynəlxalq hüququn və ədalətin qələbəsini təmin edib. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun misilsiz qəhrəmanlığı nəticəsində ərazi bütövlüyümüz bərpa olunub, dövlət suverenliyi tam təmin edilib.

Kamran Əliyev həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Vətən müharibəsi və sonrakı bərpa–quruculuq dövründə göstərdiyi humanitar və mənəvi liderlik fəaliyyətini qeyd edib. O, Birinci vitse-prezidentin qayğısı sayəsində şəhid ailələrinə, qazilərə və müharibədən zərər çəkmiş insanlara göstərilən dəstəyin dövlətimizin sosial ədalət siyasətinin bariz nümunəsi olduğunu bildirib.



Baş prokuror çıxışında işğaldan azad edilmiş ərazilərdə prokurorluq orqanlarının fəaliyyətinin təşkili, hüquqi sistemin bərpası və qanunçuluğun təmin olunması istiqamətində görülən işlərdən danışıb, bu sahədə qarşıda duran prioritet vəzifələri diqqətə çatdırıb.

Zəngilan, Qubadlı və Cəbrayıl rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nüma-



yəndəsi Vahid Hacıyev çıxışında dövlət başçısının rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinin aparıldığını, qısa müddətdə müasir infrastrukturun qurulduğunu qeyd edib. O, Zəngilan rayonunda keçirilən bu kimi tədbirlərin dövlətçiliyimizin möhkəmlənməsinə və Zəfərin ideoloji dəyərinin gənc nəslə ötürülməsinə xidmət etdiyini vurğulayıb.



Azərbaycan Respublikasının Hərbi prokuroru, Baş prokurorun müavini Bəhruz Əhmədov Vətən müharibəsi dövründə və ondan sonrakı mərhələdə hərbi prokurorluq orqanlarının həyata keçirdiyi hüquqi nəzarət tədbirlərindən danışıb, dövlətin müdafiə qabiliyyətinin və hərbi intizamın qorunmasında prokurorluğun mühüm rolunu qeyd edib.



Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Daxili Təhlükəsizlik və Təhqiqat Baş İdarəsinin rəisi Azər İbrahimov hərbi sahədə şəffaflıq və qanunçuluğun təmin edilməsi istiqamətində görülən tədbirləri, həmçinin Baş Prokurorluqla əməkdaşlığın əhəmiyyətini diqqətə çatdırıb.



Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Qubadlı Əlahiddə Sərhəd Diviziyasının komandiri Azad Abdullayev sərhəd təhlükəsizliyinin təminində əldə olunan uğurları, azad edilmiş sərhəd bölgələrində yaradılan yeni infrastruktur və xidmət şəraitini iştirakçılara təqdim edib.



Milli Məclisin deputatı Ceyhun Məmmədov çıxışında Azərbaycan Zəfərinin həm siyasi, həm mənəvi, həm də hüquqi qələbə olduğunu vurğulayıb və ölkəmizin regionda sülhün və sabitliyin təminatçısına çevrildiyini qeyd edib.



Zəngilan rayon prokuroru Qibləli Kərimov isə rayonun azad edilməsindən sonra prokurorluq orqanlarının








fəaliyyətinin təşkili, hüquq-mühafizə strukturları ilə koordinasiya və qanunçuluğun təmin olunması istiqamətində görülən işlər barədə məlumat verib.

Konfrans çərçivəsində Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Nigar Qələndərli tərəfindən “Qarabağ Azərbaycandır!” kitabının II cildinin təqdimatı keçirilib. Təqdimatda iştirakçılara məlumat verilib ki, kitabın yeni nəşri Vətən müharibəsi dövründə və sonrakı bərpa mərhələsində hüquq-mühafizə orqanlarının fəaliyyətini, ədalətin bərpası istiqamətində görülmüş işləri və beynəlxalq hüququn tətbiqi məsələlərini əhatəli şəkildə təqdim edir. Kitabda həmçinin işğaldan azad edilmiş ərazilərdə dövlətçilik, hüquq və təhlükəsizlik sahəsində həyata keçirilmiş tədbirlər, müharibə zamanı və sonrasında prokurorluq orqanlarının həyata keçirdiyi hüquqi nəzarət tədbirləri barədə geniş məlumatlar yer alıb. Təqdimat zamanı tədbir iştirakçılarının bir qisminə kitab nüsxələri hədiyyə olunub və Zəfərin ideoloji və tarixi əhəmiyyəti geniş auditoriyaya çatdırılıb.

Konfrans çərçivəsində Zəfərin beşinci ildönümünə həsr olunmuş videoçarx nümayiş etdirilib, səmərəli müzakirələr aparılıb.

Müzakirələr zamanı Milli Aviasiya Akademiyasının İqtisadiyyat və Hüquq fakültəsinin dekanı, hüquq elmləri doktoru, professor Ayxan Rüstəmzadə, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı, hüquq üzrə fəlsəfə doktoru Zaur Əliyev, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının professoru, hüquq elmləri doktoru Namiq Əliyev, Vəkillər Kollegiyası Tədris Mərkəzinin direktoru, hüquq elmləri doktoru, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ üzrə UNESCO kafedrasının professoru Əmir Əliyev, Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının prorektoru, hüquq üzrə fəlsəfə doktoru Elçin Xələfov, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Fəlsəfə-hüquqi təlimlər və suverenlik şöbəsinin müdiri, hüquq elmləri doktoru, professor Habil Qurbanov, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü İlhamə Həsənova, Daxili İşlər



Nazirliyinin Polis Akademiyasının Cinayət prosesi kafedrasının rəisi, hüquq üzrə fəlsəfə doktoru Səyyad Ağayev, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzinin rəis müavini, iqtisad üzrə fəlsəfə doktoru, hüquq elmləri doktoru Mirəli Kazımov, eləcə də Qarabağ Universitetinin birinci kurs tələbəsi Ayan Əliyeva öz qeydlərini bildirib və konfransın əhəmiyyəti barədə fikirlərini bölüşüblər.

Xatirə fotoşəkli çəkildikdən sonra işğaldan azad edilmiş bölgələrin yenidən qurulması, yaşıl bərpa və davamlı inkişaf istiqamətində həyata keçirilən layihələrə dəstək məqsədilə Zəngilan şəhərində ağacəkmə aksiyası keçirilib.

Aksiya çərçivəsində hər ağacın torpağa əkilməsi Azərbaycanın milli birliyi, müstəqilliyi və tarixi Zəfərin simvolu kimi qiymətləndirilib, həm rəmzi, həm də ekoloji əhəmiyyət daşıyıb.



# "Konstitusiya və suverenlik" ili çərçivəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Qadın iştirakçılığının təbliği" mövzusuna həsr olunan konfrans keçirilib







27 fevral 2025-ci il tarixdə keçirilən konfransı giriş nitqi ilə açan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qeyd edib ki "Azərbaycan hüquq və qanuna, bərabərlik hüququna əməl edərək vətəndaşlarının təhlükəsizliyi və hüquqlarının təminatını beynəlxalq standartlara əməl edərək həyata keçirib. Biz bütün fəaliyyətimizdə xalqımızın istəklərinə, dövlətimizin iradəsinə söykənərək qərar veririk. Bugünkü müstəqil Azərbaycan dövləti Azərbaycan xalqının ən böyük sərvətidir."

Tədbirdə hökumət və dövlət nümayəndələri, millət vəkilləri, vətəndaş cəmiyyəti üzvləri, ictimai-siyasi xadimlər iştirak edərək və müxtəlif mövzularda çıxışlar və panel müzakirələrində fikir mübadilələri aparıblar.

Tədbirdə Baş prokurorluğun nümayəndəsi qismində iştirak edən Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova "Ailə institutu: cəmiyyət və dövləti birləşdirən harmonik münasibətlər sistemi" mövzusunda çıxış edib.

# “Konstitusiya və Suverenlik İli: gənclərin hüquqi dövlət quruculuğunda yeri və rolu” adlı konfrans keçirilib







Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin təşkilatçılığı ilə 2025-ci ilin fevral ayının 12-də keçirilmiş “Konstitusiya və Suverenlik ili: gənclərin hüquqi dövlət quruculuğunda yeri və rolu” adlı konfransda Bakı Dövlət Universiteti, Dövlət İdarəçilik Akademiyası, Milli Aviasiya Akademiyası, ADA Universiteti, Naxçıvan Dövlət Universiteti, Qarabağ Universiteti, Daxili İşlər Nazirliyinin Polis Akademiyası, Daxili Qoşunların Hərbi İnstitutu, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası, Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutu, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Dövlət Gömrük Komitəsinin Akademiyasının tələbə və kursantları, habelə onların müəllim heyətləri iştirak ediblər.



Konfrans Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsinin yad edilməsi, dövlət himninin səsləndirilməsi və xalqımızın Ümummilli Liderinin 1997-ci ildə gənclərə etdiyi müraciəti ilə (video formatda) başlanıb.

Tədbir çərçivəsində prokurorluq işçilərinin, təhsil ocaqlarının nümayəndələrinin, habelə tələbə və kursantların “Heydər Əliyev – müstəqil Azərbaycan Konstitusiyasının müəllifi”, “Dövlətçiliyi qoruyan dəyərlər: demokratik ənənələr və milli birlik”, “Dövlət təhlükəsizliyinin təmin edilməsinin prioritetləri”, “Dövlət suverenliyinin təmin olunması və vətənpərvər Azərbaycan gəncliyi”, “Müharibə dövründə insan hüquqlarının müdafiəsi”, “Suverenliyin qorunmasında diplomatiyanın rolu” və digər mövzularda çıxışları dinlənilib.

Həmçinin konfransda Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən hazırlanmış “Prokurorluq orqanlarında peşə hazırlığı işinin təşkili” adlı metodiki

vəsaitin təqdimatı keçirilib, tədbir iştirakçıları üçün müvafiq məlumat verilərək 2024-cü il ərzində Beynəlxalq Prokurorlar Assosiasiyası, COP29, Türk Ədliyyə Təlim Şəbəkəsi çərçivəsində Bakı şəhərində təşkil edilmiş tədbirlərin, eləcə də Baş Prokurorluğun Elm-Tədris Mərkəzində keçirilmiş İnteraktiv yarışın videoçarxları nümayiş etdirilib.

Tədbirin bədii hissəsində Milli Aviasiya Akademiyasının və Dövlət Gömrük Komitəsi Akademiyasının istedadlı tələbələrinin milli vətənpərvərlik ruhunda şerləri, musiqiləri və mahnıları seyr edilib.










# Nəsimi rayon prokurorluğunda “Hüquq və Suverenlik: Prokurorluğun Yeni Çağırışları” mövzusunda seminar keçirilib

Mayın 23-də Nəsimi rayon prokurorluğunda “Hüquq və Suverenlik: Prokurorluğun Yeni Çağırışları” mövzusunda seminar keçirilib.

Tədbirdə Qarabağ Universitetinin Humanitar və Sosial Elmlər fakültəsinin Hüquqşünaslıq ixtisasında təhsil alan tələbələr və media nümayəndələri iştirak ediblər.

Seminarı giriş sözü ilə açan Nəsimi rayon prokuroru Həsən Hənifəyev Azərbaycan Respublikasının müasir hüquqi sisteminin formalaşmasında, xüsusilə dövlət suverenliyinin qorunması və Konstitusiyanın qəbul olunması prosesində Ümummilli Lider Heydər Əliyevin əvəzsiz rolunu qeyd edib. O, bu istiqamətdə gənclərin hüquqi düşüncəsinin və vətənpərvərlik ruhunun gücləndirilməsinin vacibliyini vurğulayıb.

Daha sonra çıxış edən Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Nigar Qələndərli, Nəsimi rayon prokurorunun müavini Fərid Dadaşov və Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov hüquqi maarifləndirmənin, prokurorluq orqanlarının müasir dövrdə qarşılaşdığı çağırışların və cəmiyyətlə əlaqələrin əhəmiyyətindən danışıblar.







Çıxışlarda həmçinin vurğulanıb ki, 1995-ci ildə qəbul olunan Konstitusiya hüquqi dövlətin əsasını qoymaqla bərabər, xalqın suveren iradəsini əks etdirib və bu proses birbaşa Heydər Əliyevin liderliyi ilə həyata keçirilib.

Seminarın sonunda iştirakçılara Ümummilli Lider Heydər Əliyevin dövlət quruculuğundakı misilsiz xidmətlərini əks etdirən sənədli film nümayiş etdirilib.

Tədbir interaktiv formada davam edib, tələbələr çıxışçılara hüquqi sahədə maraqlandıran suallar ünvanlayaraq cavablar əldə edib.





# “Konstitusiya və Suverenlik İli” çərçivəsində Baş Prokurorluq tərəfindən Qəbələdə regional konfrans keçirilib




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin ölkədə “Konstitusiya və Suverenlik İli” elan olunması ilə əlaqədar, prokurorluq orqanları tərəfindən genişmiqyaslı tədbirlər həyata keçirilir.

Bu tədbirlərin davamı olaraq, mayın 27-də Qəbələ şəhərində Baş Prokurorluğun təşkilatçılığı ilə “Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun rolu” mövzusunda regional konfrans keçirilib.

Tədbirdə 12 regionun prokurorluq orqanlarının media ilə işləməyə məsul əməkdaşları, dövlət və qeyri-hökumət təşkilatları, media qurumları, təhsil müəssisələri və hüquq-mühafizə orqanlarının nümayəndələri iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, onun əziz xatirəsini ehtiramla yad ediblər. Daha sonra Ulu Öndər Heydər Əliyev və Azərbaycanın suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.




Açılış nitqi zamanı Baş Prokurorluğun Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq və əməliyyat-axtarış fəaliyyətində qanunlara nəzarət idarəsinin rəisi Mahir Abbasov milli suverenliyin hüquqi əsasları və təminat mexanizmləri barədə geniş məlumat verib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə milli suverenliyin möhkəmləndirilməsi və hüquqi təminatların gücləndirilməsi istiqamətində əldə olunan böyük nailiyyətləri və bu sahədə dövlət siyasətinin davamlı inkişafını xüsusi vurğulayıb.



Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova rayon səviyyəsində hüquqi maarifləndirmə işlərinin əhəmiyyətini qeyd edib. O, regional təşəbbüslərin vətəndaşların hüquqi biliklərinin artırılmasında mühüm rol oynadığını bildirərək, ümummilli lider Heydər Əliyevin Azərbaycanın konstitusiya quruculuğundakı əvəzsiz rolunu xüsusi vurğulayıb.

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi Elşad Hacıyev çıxışında milli su-



verenliyin hüquqi əsaslarının möhkəmləndirilməsində hüquq-mühafizə orqanlarının funksional roluna diqqət çəkib. O bildirib ki, ictimai asayişin təmin olunması, cinayətkarlıqla mübarizə və vətəndaşların təhlükəsizliyinin qorunması dövlətin suveren hüquqlarının həyata keçirilməsi üçün əsas şərtlərdir.

Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr idarəsinin rəisi - Mətbuat katibi Anar Eyvazov Azərbaycanın dövlət suverenliyinin qorunmasında xalqımızın fədakarlıqlarını vurğulayıb. O, Azərbaycan Ordusunun formalaşması və müasir silahlı qüvvələrin yaradılmasının milli maraqların təminatında həlledici rol oynadığını qeyd edib. Müdafiə Nazirliyinin Kommunikasiya Strategiyasının dövrün tələblərinə uyğun inkişaf etdirildiyini, dövlət-ordu-xalq birliyinin gücləndirilməsinin vacibliyini bildirib. Həmçinin, dezinformasiyalara qarşı mübarizədə effektiv kommunikasiyanın və rəsmi məlumatların ictimailəşdirilməsinin önəmini vurğulayıb.



Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxışında cəmiyyətdə hüquqi şüurun formalaşdırılması, dövlət orqanlarının fəaliyyətinə inamın gücləndirilməsi və milli suverenliyin dayanıqlı şəkildə qorunması üçün hüquqi informasiyanın düzgün və vaxtında çatdırılmasının vacibliyini vurğulayıb. O bildirib ki, bu istiqamətdə prokurorluğun media ilə əlaqələrinin möhkəmləndirilməsi prioritetdir.



Mətbuat Şurasının icraçı katibinin müavini Fəridə Ağazadə medianın hüquqi maarifləndirmədə və ictimai nəzarətin formalaşmasında mühüm rol oynadığını bildirib, jurnalistlərin hüquqi biliklərinin artırılması və onların fəaliyyətinin hüquqi müstəvidə qorunmasının vacibliyini qeyd edib.

Qəbələ Rayon Ağsaqqallar Şurasının üzvü Telman Abdulxalıqov isə milli-mənəvi dəyərlərin qorunması və gənc nəslin hüquqi və vətənpərvərlik ruhunda tərbiyə olunması ilə bağlı maarifləndirmə tədbirlərinin genişləndirilməsinin vacibliyini vurğulayıb.



Tədbir çərçivəsində dövlət qurumları ilə ictimai təşkilatlar arasında əməkdaşlıq, ictimai nəzarət mexanizmlərinin tətbiqi və hüquqi maarifləndirmə strategiyalarının təkmilləşdirilməsi mövzusunda geniş fikir mübadiləsi aparılıb, konkret təkliflər səsləndirilib.

Konfransın sonunda "Suverenlik və hüquqi təminatlar" mövzusunda sənədli film nümayiş olunub və iştirakçılarla xatirə fotoşəkili çəkilib.



# Qəbələ rayon prokurorluğunda “Hüquq və Suverenlik: Prokurorluğun Yeni Çağırışları” mövzusunda seminar keçirilib




Mayın 27-də Qəbələ rayon prokurorluğunda “Hüquq və Suverenlik: Prokurorluğun Yeni Çağırışları” mövzusunda seminar təşkil olunub. Tədbirdə prokurorluq əməkdaşları, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və media nümayəndələri iştirak ediblər.

Seminara giriş sözü ilə başlayan Qəbələ rayon prokuroru Nazim Babayev,Azərbaycan Respublikasının hüquqi sisteminin inkişafında, xüsusilə dövlətin suverenliyinin qorunması və qanunvericiliyin təkmilləşdirilməsi sahəsində prokurorluğun rolunu vurğulayıb. O, həmçinin, prokurorluğun müasir dövrdə qarşılaşdığı yeni çağırışlar və problemlər barədə ətraflı məlumat verərək, prokurorluğun bu sahədəki mövqeyini açıqlayıb. Nazim Babayev, hüquqi təhsil və ictimaiyyətin hüquqi maarifləndirilməsinin əhəmiyyətini qeyd edərək, gənclərin hüquq sahəsindəki biliklərinin artırılmasının vacib olduğunu bildirilib.





Baş Prokurorluğun Mətbuat Xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxışında prokurorluq orqanlarının fəaliyyətində şəffaflığın və ictimaiyyətlə əlaqələrin gücləndirilməsinin vacibliyini önə çəkib. O, prokurorluğun müasir dövrdəki çağırışlarla necə mübarizə apardığını və bu prosesdə cəmiyyətin dəstəyinin əhəmiyyətini diqqətə çatdırıb. Kənan Zeynalov, prokurorluğun strukturu və funksiyalarını izah edərək, hüquqi islahatların gücləndirilməsi və dövlətin hüquqi təminatlarının daha da təkmilləşdirilməsinə yönəldildiyini bildirib.

Seminarda müzakirə olunan mövzularda hüquqi dövlətin möhkəmləndirilməsi və vətəndaşların hüquqlarının müdafiəsi ilə bağlı aktual məsələlərə toxunulub. Çıxışçılar həmçinin müasir dövrün tələblərinə uyğun olaraq, prokurorluğun qarşısında duran vəzifələrə dair məlumatlar veriblər.

Tədbir interaktiv formatda davam edib. İştirakçılar çıxışçılara müxtəlif hüquqi məsələlər üzrə suallar ünvanlayaraq, ətraflı məlumat əldə ediblər.

# Kürdəmir rayon prokurorluğunda “Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun Rolu” mövzusunda seminar keçirilib














2025-ci il iyunun 13-də Kürdəmir şəhərində “Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun Rolu” mövzusunda seminar təşkil olunub. Tədbirdə 12 rayondan prokurorluq əməkdaşları, qeyri-hökumət təşkilatlarının nümayəndələri və media təmsilçiləri iştirak ediblər.

Kürdəmir rayon prokuroru Tural İbrahimov giriş nitqində bildirib ki, Azərbaycan Respublikasının Konstitusiyası dövlət suverenliyinin möhkəmləndirilməsi və hüquq sisteminin inkişafı üçün əsas hüquqi sənəddir. O vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev bu sənədin hazırlanması və qəbulunda böyük rol oynayıb. Prezident İlham Əliyevin rəhbərliyi altında hüquqi islahatların uğurla davam etdirildiyini qeyd edən Tural İbrahimov, dövlət suverenliyinin qorunması və qanunvericiliyin təkmilləşdirilməsi sahəsində prokurorluğun vacib rolunu xüsusi vurğulayıb.

Baş Prokurorluğun Mətbuat Xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxışında bildirib ki, Konstitusiyada təsbit olunmuş suverenlik prinsipləri prokurorluğun fəaliyyətinin əsasını təşkil edir. O, dövlət başçısı İlham Əliyev və Birinci Vitse-Prezident Mehriban Əliyevanın davamlı diqqət və qayğısı nəticəsində suveren ölkəmizin bütün bölgələrində, xüsusilə işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı abadlıq və quruculuq işlərinin həyata keçirildiyini, eləcə də Böyük Qayıdış strategiyasının uğurla icra olunduğunu vurğulayıb.

Seminar zamanı milli suverenliyin və hüquqi təminatların qorunmasında prokurorluğun rolu geniş müzakirə olunub. İştirakçılar prokurorluğun bu sahədə üzərinə düşən vəzifələri və həyata keçirilən tədbirləri ətraflı təhlil ediblər.

Tədbirdə hüquqi dövlətin möhkəmləndirilməsi və vətəndaş hüquqlarının müdafiəsi ilə bağlı aktual məsələlər müzakirə olunub, çıxışçılar prokurorluğun qarşısında duran əsas vəzifələr barədə fikirlərini bölüşüblər.

Seminar interaktiv formatda davam edib, iştirakçılar hüquqi məsələlərə dair suallar verərək geniş cavablar alıblar.

# "Konstitusiya və Suverenlik İli" çərçivəsində Baş Prokurorluq tərəfindən işğaldan azad olunmuş Ağdamda regional konfrans keçirilib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması münasibətilə ölkə üzrə prokurorluq orqanları tərəfindən silsilə tədbirlər həyata keçirilir.

Bu tədbirlərin davamı olaraq, 2025-ci il iyulun 15-də işğaldan azad olunmuş Ağdam şəhərində yerləşən "Aghdam City Hotel"də Baş Prokurorluğun təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik: Hüquqi Dövlətin Təməli" mövzusunda regional konfrans keçirilib.

Konfransda 9 rayon (şəhər) prokurorluqlarının media ilə işləməyə məsul əməkdaşları, dövlət və qeyri-hökumət təşkilatları, media qurumları, təhsil müəssisələri və hüquq-mühafizə orqanlarının nümayəndələri iştirak ediblər.

Tədbirdən öncə konfrans iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Ağdam şəhərində ucaldılmış abidəsini ziyarət edərək, onun əziz xatirəsini ehtiramla yad ediblər. Daha sonra Ulu Öndər Heydər Əliyev və Azərbaycanın suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.





Konfransda çıxış edən Azərbaycan Respublikası Prezidentinin Ağdam, Füzuli və Xocavənd rayonları üzrə xüsusi nümayəndəsi Emin Hüseynov qeyd edib ki, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri yalnız infrastrukturla məhdudlaşmır, burada hüquqi dövlətin və konstitusion prinsiplərin bərqərar olunması istiqamətində də mühüm addımlar atılır. Konstitusiya ilə təsbit olunmuş vətəndaş hüquqlarının təmin edilməsi, qanunun aliliyinin qorunması və ictimai institutların fəal iştirakı bölgənin dayanıqlı inkişafı üçün əsas şərt kimi dəyərləndirilib.

Baş Prokurorluğun İstintaq idarəsinin rəisi Nemət Əvəzov isə çıxışında bildirib ki, hüquqi dövlətin təməl prinsiplərindən biri ədalətli və şəffaf istintaq prosesinin təmin edilməsidir. O qeyd edib ki, Konstitusiya və suverenlik anlayışları hüquq-mühafizə orqanlarının fəaliyyətində əsas meyarlar kimi çıxış edir və bu çərçivədə cinayətlərin obyektiv araşdırılması, insan hüquq və azadlıqlarının qorunması prokurorluq orqanlarının başlıca vəzifələrindəndir. İşğaldan azad olunmuş ərazilərdə hüquqi mühitin formalaşdırılması isə bu bölgələrdə hüquqi dövlət quruculuğuna ciddi töhfə verir.

Daha sonra çıxış edən Ağdam rayon prokuroru Vasif Süleymanov, Baş Prokurorluğun Mətbuat xid-





mətinin böyük prokuroru Kənan Zeynalov, Ədliyyə Akademiyasının kafedra müdiri, hüquq elmləri doktoru Mətanət Əsgərova, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Umud Mirzəyev və Ağdam Dövlət Sosial-İqtisadi Kollecinin nümayəndəsi Neymət Rüstəmli işğaldan azad olunmuş ərazilərdə hüquqi maarifləndirmə, ictimai nəzarət mexanizmləri və hüquqi dövlət quruculuğunda medianın və vətəndaş cəmiyyətinin rolu kimi aktual məsələlər ətrafında çıxış ediblər.

Konfrans çərçivəsində dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və media arasında əməkdaşlığın gücləndirilməsi, ictimai iştirakçılığın genişləndirilməsi və hüquqi maarifləndirmə strategiyalarının təkmilləşdirilməsi mövzusunda fikir mübadiləsi aparılıb. İştirakçılar vətəndaşların hüquqi biliklərinin artırılması və hüquqi informasiyanın operativ və dəqiq şəkildə cəmiyyətə çatdırılmasının vacibliyini xüsusi olaraq vurğulayıblar.

Tədbirin sonunda "Xalqın adamı" adlı sənədli film nümayiş etdirilib, Ümummilli Lider Heydər Əliyevin konstitusiya quruculuğundakı rolu və müasir suveren dövlətçiliyin formalaşmasındakı xidmətləri bir daha xatırlanıb.

Sonda xatirə fotoşəkili çəkilib.







# Baş Prokurorluqda "Azərbaycan Respublikasının Konstitusiyası və Dövlət Suverenliyi" mövzusunda hüquq viktorinası keçirilib

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi, həmçinin "Prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaradılmasının 107-ci ildönümü" ilə əlaqədar olaraq sentyabrın 24-də Baş Prokurorluqda ali təhsil müəssisələrinin tələbə və kursantları arasında "Azərbaycan Respublikasının Konstitusiyası və Dövlət Suverenliyi" mövzusunda hüquq viktorinası təşkil olunub.

Tədbirdə 300-ə yaxın tələbə və kursant iştirak edib, qiymətləndirmə Baş Prokurorluğun əmək-daşlarından ibarət münsiflər heyəti tərəfindən aparılıb. Təhsil müəssisələrinin professor-müəllim heyətinin nümayəndələri də ekspert qismində prosesə cəlb olunub.







Nəticələr:

Komanda mərhələsi üzrə:

I yer – Daxili İşlər Nazirliyinin Polis Akademiyası

II yer – Dövlət Gömrük Komitəsi Akademiyası

III yer – Milli Aviasiya Akademiyası

Kapitan mərhələsi üzrə:

I yer – Mirzəzadə Cavid Ceyhun oğlu (Bakı Dövlət Universiteti), Gülnar Nəsirova ("ADA" Universiteti), İsgəndərli Firidun Səhman oğlu (Milli Aviasiya Akademiyası)

II yer – Quliyev Fuad Anar oğlu (Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası)

III yer – Əsədli Afiq Anar oğlu (Qarabağ Universiteti)

Xüsusi nominasiyalar üzrə:

Naxçıvan Dövlət Universiteti – "Suverenlik və Müdafiə Qalası"

Fövqəladə Hallar Nazirliyi Akademiyası – "Xilasetmə və Dövlətçilik Qoruyucuları"

Heydər Əliyev adına Hərbi İnstitutu – "Dövlətçiliyin Qoruyucuları"

Viktorina çərçivəsində iştirakçılar və azarkeşlər Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası və Heydər Əliyev adına Hərbi İnstitutunun gənclərinin vətənpərvərlik mövzusunda bədii ifalarını dinləyiblər.

Sonda bütün iştirakçılar sertifikatlarla təltif olunub.



# Bakı şəhər prokurorluğunda “Azərbaycan Prokurorluğu: Suverenliyin təminatında rolu” adlı seminar keçirilib









Ölkəmizdə həyata keçirilən hüquqi islahatlar və dövlət suverenliyinin təminatında prokurorluq orqanlarının rolunun maarifləndirilməsi məqsədilə sentyabrın 26-da Bakı şəhər prokurorluğunda “Azərbaycan Prokurorluğu: Suverenliyin təminatında rolu” mövzusunda seminar təşkil olunub.

Tədbirdə Bakı şəhər və tabe rayon prokurorluqlarının əməkdaşları, ali təhsil müəssisələrinin hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri, habelə media nümayəndələri iştirak ediblər. Seminar iştirakçıları prokurorluq fəaliyyətinin müasir tələblərini, vətəndaşlarla qarşılıqlı münasibətlər və hüquqi maarifləndirmə istiqamətlərini ətraflı öyrənmək imkanı əldə ediblər.

Seminarı giriş sözü ilə açan Bakı şəhər prokurorunun müavini Toğrul Muxtarov iştirakçıları salamlayaraq tədbirin əhəmiyyətindən danışıb. O, seminarın əsas məqsədinin hüquqşünaslıq ixtisası üzrə təhsil alan gənclərin peşəkar inkişafına dəstək vermək, prokurorluq orqanlarının fəaliyyəti ilə yaxından tanışlıq yaratmaq və cəmiyyətdə hüquqi maarifləndirməni artırmaq olduğunu vurğulayıb.

Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxış edərək seminar iştirakçılarına hüquqi maarifləndirmənin önəmini, prokurorluq orqanlarının müasir dövrdə qarşılaşdığı çağırışları, həmçinin cəmiyyətlə effektiv əlaqələrin prokurorluğun fəaliyyətindəki rolunu diqqətə çatdırıb.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Nigar Qələndərli “Konstitusiya və Suverenlik İli: Azərbaycan dövlətçilik tarixində yeni mərhələ və Prokurorluğun dövlət suverenliyinin təminində rolu” mövzusunda çıxış edərək seminar iştirakçılarını ətraflı şəkildə məlumatlandırıb. O, çıxışında Konstitusiya və Suverenlik ili çərçivəsində prokurorluğun fəaliyyətinin prioritet istiqamətlərini xüsusi vurğulayıb, dövlət suverenliyinin qorunmasında prokurorluq orqanlarının hüquqi və praktiki funksiyalarını izah edib. Eyni zamanda, hüquqi nəzarət mexanizmlərinin rolu, qanunun aliliyinin təmin olunması üçün prokurorluq tərəfindən tətbiq olunan prosedurlar və istintaq proseslərinin səmərəliliyi barədə iştirakçılara geniş təqdimat verilib.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasının kafedra rəisi, dosent, hüquq üzrə fəlsəfə doktoru Səyyad Ağayev çıxış edərək dövlətçilik ənənələrinin möhkəmləndirilməsində hüquq-mühafizə orqanlarının birgə fəaliyyətinin zəruriliyini, prokurorluğun bu istiqamətdə mühüm rolunu diqqətə çatdırıb.

Seminar interaktiv formatda davam edib. Tələbələr çıxışçılara hüquqi sahədə onları maraqlandıran suallar ünvanlayaraq ətraflı cavablar əldə ediblər. Eyni zamanda, seminar zamanı prokurorluq işinin praktiki nüansları, vətəndaş müraciətlərinə baxılması və ictimaiyyətlə əlaqələrin təşkili sahəsində real təcrübələr təqdim olunub.

# DİN-in Polis Akademiyasında "Konstitusiya və suverenlik ili" çərçivəsində "Polisin inzibati fəaliyyətində hüquqi bilik və bacarıqların rolu" mövzusunda elmi-praktik seminar keçirilib






26 sentyabr 2025-ci il tarixində Daxili İşlər Nazirliyinin Polis Akademiyasında "Polisin inzibati fəaliyyətində hüquqi bilik və bacarıqların rolu" mövzusunda elmi-praktik seminar keçirilib. Tədbirin məqsədi hüquq sahəsində elmi biliklərlə praktiki təcrübənin inteqrasiyası, eyni zamanda daxili işlər orqanlarının əməkdaşlarında və kursantlarda inzibati fəaliyyət sahəsində zəruri hüquqi bilik və bacarıqların inkişaf etdirilməsidir.

Seminarda respublikanın müxtəlif ali təhsil və hüquq qurumlarını təmsil edən tanınmış alim və mütəxəssislər iştirak ediblər. Onların sırasında DİN-in Polis Akademiyası, Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi, Milli Aviasiya Akademiyası, Bakı Dövlət Universiteti, Azərbaycan Hakimlər İttifaqı İctimai Birliyinin İdarə Heyəti, DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin Profilaktiki işin təşkili idarəsi, Vəkillər Kollegiyasının Tədris Mərkəzi, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professor-müəllim heyəti və kursantlar yer alıblar.

Seminarda yeni nəşr olunmuş "İnzibati hüquq" və "İnzibati-prosessual hüquq" dərslikləri, eləcə də "Daxili işlər orqanlarının inzibati fəaliyyətində





sənədləşdirmə" dərs vəsaitinin təqdimatı keçirilib, "Hüquqi maarifləndirmənin vətəndaş-dövlət münasibətlərində rolu", "Dövlət idarəçilik orqanlarının inzibati fəaliyyətinin hüquqi tənzimlənməsi", "İnzibati hüquq kontekstində müasir polisin geosiyasi çağırışları" mövzuları üzrə müzakirələr aparılıb.

Tədbir interaktiv müzakirə formatında davam etdirilib, iştirakçılar öz təcrübələrini bölüşüb, gələcək əməkdaşlıq istiqamətləri üzrə fikir mübadiləsi aparıblar.

Seminarın sonunda çıxış edənlər belə tədbirlərin hüquq təhsilinin keyfiyyətinə və xidmət sahəsində effektivliyin artırılmasına mühüm töhfə verdiyini vurğulayıblar.

# “Konstitusiya və Dövlət Suverenliyi: Hüquqi Aspektlər və Çağırışlar” mövzusunda Baş Prokurorluq tərəfindən regional konfrans Xaçmazda keçirilib







Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin ölkədə “Konstitusiya və Suverenlik İli” elan olunması ilə əlaqədar olaraq, prokurorluq orqanları tərəfindən silsilə tədbirlər həyata keçirilir.

Bu tədbirlərin davamı olaraq, oktyabrın 17-də Xaçmaz şəhərində Azərbaycan Respublikasının Baş Prokurorluğunun təşkilatçılığı ilə “Konstitusiya və Dövlət Suverenliyi: Hüquqi Aspektlər və Çağırışlar” mövzusunda regional konfrans keçirilib.

Tədbirdə dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının, media orqanlarının nümayəndələri, hüquq-mühafizə orqanlarının əməkdaşları iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Xaçmaz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, onun əziz xatirəsini ehtiramla yad ediblər. Daha sonra iştirakçılar Xaçmaz şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən guşə ilə tanış olublar.

Konfrans başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və Azərbaycanın suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi Orxan İsayev açılış nitqi ilə çıxışında konstitusiya prinsiplərinin müdafiəsində prokurorluğun funksional rolunu açıqlayıb. O bildirib ki, hüquqi dövlətin möhkəmləndirilməsi üçün qanunun aliliyinin təmin olunması və dövlət ittihamçılarının obyektiv mövqedə dayanması əsas prioritetlərdəndir.

Xaçmaz rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev çıxışında rayonda hüquqi maarifləndirmə işlərinin davamlı xarakter aldığını vurğulayıb. O, gənclərin hüquqi şüurunun artırılması və konstitusiya dəyərlərinin aşılanmasının vacibliyini qeyd edib.

Xaçmaz rayon prokuroru Rəşad Məmmədov isə çıxışında prokurorluq orqanlarının dövlət suverenliyinin qorunmasında üzərinə düşən vəzifələrdən danışıb. O bildirib ki, müasir dövrdə hüquqi çağırışlara çevik və

adekvat reaksiya vermək üçün prokurorluq orqanlarının peşəkar resursları və institusional imkanları durmadan inkişaf etdirilməlidir.

Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Anar Eyvazov öz çıxışında Azərbaycan Ordusunun dövlət suverenliyinin qorunmasında oynadığı rol, informasiya təhlükəsizliyi sahəsində görülən tədbirlər və dezinformasiyalara qarşı mübarizə mexanizmləri barədə ətraflı məlumat verib.






Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov “Konstitusiya və Suverenlik İli” çərçivəsində həyata keçirilən hüquqi maarifləndirmə tədbirləri və ictimaiyyətlə effektiv ünsiyyətin vacibliyi barədə danışıb. Kənan Zeynalov hüquqi informasiyanın cəmiyyətə düzgün və vaxtında çatdırılmasının dövlətə olan inamın möhkəmləndirilməsində önəmli rol oynadığını qeyd edib.

“Dövlət suverenliyinin və konstitusiya dəyərlərinin qorunmasında medianın rolu” mövzusunda çıxış edən ARB Günəş və ARB Şimal televiziyalarının direktoru Məhsim Məhsimov medianın hüquqi maarifləndirmə və ictimai nəzarət baxımından mühüm vasitə olduğunu qeyd edib. O, jurnalistlərin hüquqi biliklərinin artırılmasının və medianın dövlət orqanları ilə əməkdaşlığının vacibliyini vurğulayıb.

Konfransda I Qarabağ müharibəsi veteranı, Xaçmaz şəhər sakini Sabir Məmmədov da çıxış edərək, 1994-cü il aprelin 9-da Ulu Öndər Heydər Əliyevin Füzuli-Horadiz istiqamətindəki hərbi hissələrdə əsgərlərlə görüşü zamanı onunla şəxsən tanış olduğu unudulmaz xatirələrini bölüşüb. Sabir Məmmədov həmin tarixi görüşlərin Azərbaycan Ordusunun döyüş ruhunun möhkəmlənməsində və torpaqlarımızın müdafiəsi uğrunda mübarizə əzminin daha da yüksəlməsində müstəsna rol oynadığını xüsusi vurğulayıb.

Tədbir çərçivəsində dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və media nümayəndələri arasında hüquqi əməkdaşlıq, ictimai nəzarət mexanizmlərinin təkmilləşdirilməsi və gənclər arasında hüquqi şüurun artırılması istiqamətində geniş fikir mübadiləsi aparılıb, konkret təkliflər səsləndirilib.

Konfransın sonunda “Xalqın adamı” adlı sənədli film nümayiş olunub və tədbir iştirakçıları ilə xatirə fotoşəkili çəkilib.



# Xaçmazda “Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun rolu” mövzusunda seminar keçirilib









2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan olunması ilə əlaqədar həyata keçirilən tədbirlərin davamı olaraq, oktyabrın 17-də Xaçmaz rayon prokurorluğunun inzibati binasında “Milli Suverenlik və Hüquqi Təminatlar: Prokurorluğun rolu” mövzusunda seminar keçirilib.

Tədbirdə prokurorluq əməkdaşları, QHT təmsilçiləri, media nümayəndələri və hüquqşünaslar iştirak ediblər.

Seminarı açan Xaçmaz rayon prokuroru Rəşad Məmmədov, prokurorluğun dövlət suverenliyinin qorunmasında və hüquq sisteminin dayanıqlığının təminində oynadığı rolu vurğulayıb.

Daha sonra çıxış edən Baş Prokurorluğun Mətbuat Xidmətinin böyük prokuroru Kənan Zeynalov cəmiyyətlə açıq ünsiyyətin və şəffaflığın prokurorluğun fəaliyyətində prioritet olduğunu qeyd edib.

Xaçmaz rayon prokurorunun köməkçisi Leyla Babakişiyeva çıxışı zamanı hüquqi maarifləndirmənin, xüsusilə də gənclər arasında hüquqi biliklərin artırılmasının önəmini vurğulayıb.

Seminar interaktiv müzakirələrlə davam edib. İştirakçılar çıxışçılara suallar ünvanlayıb və müzakirələrdə fəal iştirak ediblər.

# Qusar rayon prokurorluğunda "Konstitusiya və Suverenlik ili" çərçivəsində "Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda məşğələ keçirilib

Qusar rayon prokurorluğunda "Konstitusiya və Suverenlik ili" çərçivəsində "Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda məşğələ keçirilib.

Rayon məktəblərinin yuxarı sinif şagirdlərinin də cəlb olunduğu məşğələ Ulu Öndər Heydər Əliyevin və ölkəmizin suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb.

Giriş sözü ilə çıxış edən YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov Ulu Öndər Heydər Əliyevin siyasi irsinin öyrənilməsinin vacibliyinə toxunaraq müstəqil Azərbaycan Respublikasının banisi Heydər Əliyevin Azərbaycan Konstitusiyasının müəllifi olduğunu vurğulayıb. Qeyd edilib ki, Heydər Əliyevin müdrik kəlamlarında deyildiyi kimi, hər bir Azərbaycan vətəndaşı Konstitusiyaya və qanunlara əməl etməli, dövlət və ictimaiyyət qarşısında öhdəliklərini layiqincə yerinə yetirməli, milli-mənəvi dəyərləri qorumalı, ən əsası isə dövlətin quruculuq siyasətində fəal iştirak etməlidir.

Mövzu ətrafında çıxış edən Qusar rayon prokurorluğunun əməkdaşı Gülçöhrə Kazımzadə, Qusar Rayon İcra Hakimiyyətinin hüquq şöbəsinin müdiri Əliyulla Nəcərov, rayon Təhsil sektorunun baş məsləhətçisi Yüzbəy Abuyev, partiya fəalı, Qusar şəhər bələdiyyəsinin üzvü Emin Əlixanov Konstitusiyanın ali qanun olaraq əhatə etdiyi mövzulardan, hüquq və azadlıqlardan bəhs edərək şagirdlərə ətraflı məlumat veriblər. Tədbirdə təhsil və uşaq hüquqları, Konstitusiya və Suverenlik ilə bağlı şagirdlərin fikirləri dinlənilib, diskussiya aparılıb. Heydər Əliyev muzeyi ilə tanışlıqdan sonra "Heydər Əliyev və təhsil" adlı film nümayiş olunub.








# Polis Akademiyasında “Zəfərə aparan yol – Qarabağ Salnaməsi” mövzusunda konfransda Elm-Tədris Mərkəzinin nümayəndələri iştirak edib




Noyabrın 1-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında 8 Noyabr – Zəfər Gününə həsr olunmuş “Zəfərə aparan yol – Qarabağ Salnaməsi” mövzusunda konfransda Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin əməkdaşları ilə yanaşı, Milli Məclisinin, Xəzər Rayon İcra Hakimiyyəti və Rayon Məhkəməsinin, Vəkillər Kollegiyasının, DİN-in Şəxsi Heyətlə İş İdarəsi və Mətbuat Xidmətinin, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının, Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Dövlət Gömrük Komitəsinin Akademiyasının, Milli Aviasiya Akademiyasının, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının, Bakı Dövlət Universitetinin, ADA Universitetinin, DİN-in Daxili Qoşunlarının Hərbi İnstitutunun, Müdafiə Nazirliyinin Heydər Əliyev adına Hərbi İnstitutunun nümayəndələri, kursant və tələbələr, eləcə də Vətən müharibəsinin qəhrəmanları və iştirakçıları qonaq qismində iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Akademiyada Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoyublar. Ardınca konfrans zalında Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra “Zəfər yolu”na həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxışlar zamanı 8 Noyabr Zəfər Gününün xalqımızın milli qürurunun və dövlətçilik iradəsinin təcəssümü, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin əhəmiyyəti, eləcə də Zəfər Günü Azərbaycan xalqının şanlı qəhrəmanlıq salnaməsində xüsusi yer tutması və bu günün humanitar, mənəvi, siyasi və tarixi dəyəri gələcək nəsillərə ən yüksək səviyyədə çatdırması səsləndirilmişdir.









# DİN Daxili Qoşunlarının Hərbi İnstitutunda Zəfər Gününə həsr olunmuş tədbir keçirilib





6 noyabr 2025-ci il tarixində Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Hərbi İnstitutunda "Zəfər tarixi" respublika elmi-nəzəri konfransı keçirilmişdir.

Konfransda Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini Sabuhi Şahverdiyev və Mərkəzin şöbə rəisi, hüquq üzrə fəlsəfə doktoru Nigar Qələndərli iştirak etmişlər.

Tədbir başlamazdan əvvəl Vətən uğrunda canlarından keçmiş Daxili Qoşunların şəhid hərbi qulluqçularının əziz xatirəsinə ucaldılmış xatirə kompleksinin önünə gül dəstələri qoyulmuşdur.

Konfransın ilk anında Ümummilli Lider Heydər Əliyevin, eləcə də Vətənimizin azadlığı və suverenliyi uğrunda şəhid olmuş qəhrəmanlarımızın ruhları bir dəqiqəlik sükutla yad edilmişdir. Daha sonra çıxışlarda vurğulanmışdır ki, 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfər, Azərbaycan xalqının birlik iradəsinin, Ordumuzun igidliyinin və Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin qətiyyətli rəhbərliyinin parlaq təcəssümüdür. Bu Qələbə dövlət müstəqilliyimizin möhkəmlənməsində və milli qürur hissinin daha da güclənməsində müstəsna rol oynamışdır.

Zəfər Azərbaycan xalqının milli əzmini, tarixi ədalətin bərpasını və ölkəmizin ərazi bütövlüyünün təmin olunmasını simvolizə edən möhtəşəm qələbədir. Bu tarixi hadisə dövlətçilik ənənələrimizin möhkəmləndirilməsində və gələcək nəsillərin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm ideoloji dayaqlardan biridir.

# İsmayıllıda Konstitusiya Günü qeyd olunub

12 noyabr – Konstitusiya Günü münasibətilə Heydər Əliyev Mərkəzində "Konstitusiya və Suverenlik ili" çərçivəsində tədbir keçirilib. Tədbir İsmayıllı Rayon İcra Hakimiyyətinin və hüquq-mühafizə orqanlarının təşkilatçılığı ilə baş tutub.

Tədbirdə Rayon İcra Hakimiyyətinin əməkdaşı Nəsimi Teymurov, İsmayıllı rayon prokurorluğunun nümayəndəsi İlkanə Cabbarlı, rayon məhkəməsinin əməkdaşı Vüqar Əhmədov, Təhsil sektorunun müdiri Rəşid Məmmədov, həmçinin şəhid ailələrinin üzvləri, idarə, müəssisə və təşkilat rəhbərləri, idarə əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbir çərçivəsində Konstitusiyaya həsr olunmuş sərgiyə baxış olub. Daha sonra tədbiri açan Nəsimi Teymurov Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsini elan edib. Ardınca şəhidlərin və Konstitusiyanın müəllifi, Ulu Öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Konstitusiyanın qəbuluna həsr olunmuş videoçarx nümayiş etdirilib. Çıxış edən natiqlər ölkə Konstitusiyasının əhəmiyyəti, onun suverenlik, demokratiya və insan hüquqlarının qorunması sahəsində rolu barədə fikirlərini bildiriblər.

Sonda tədbir iştirakçıları Konstitusiyanın Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutduğunu və onun Ulu Öndər Heydər Əliyevin siyasi irsinin ayrılmaz tərkib hissəsi olduğunu qeyd ediblər.









# Konstitusiya və Suverenlik İli çərçivəsində Gəncədə ətraf mühitin mühafizəsinə həsr olunmuş elmi-praktiki konfrans keçirilib





Konstitusiya və Suverenlik İli çərçivəsində ölkəmizdə ekoloji təhlükəsizlik, təbii sərvətlərin mühafizəsi və ətraf mühitə qarşı hüquq pozuntularının qarşısının alınması məqsədilə noyabrın 21-də Gəncə şəhərində "Müasir ekoloji çağırışlar və ətraf mühitin mühafizəsi sahəsində hüquqi tənzimləmənin aktual problemləri" mövzusunda elmi-praktiki konfrans təşkil olunub.

Tədbirdən əvvəl iştirakçılar Gəncə Memorial Kompleksini ziyarət edib, şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq abidənin önünə gül dəstələri qoyub, Gəncə terroru zamanı həlak olanların ruhuna dualar oxuyublar. Ardınca konfrans nümayəndələri görkəmli dövlət xadimi Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq Ulu Öndərin xatirəsinə ehtiramlarını bildiriblər.

Gəncə Dövlət Universitetində keçirilən konfrans Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə açılıb. Daha sonra Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov tədbir iştirakçılarını salamlayıb və konfransın dövlətin ekoloji siyasəti, habelə Konstitusiya və Suverenlik İlinin prioritetləri baxımından xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini Səbuhi Şahverdiyev ekoloji təhlükəsizlik və davamlı inkişaf istiqamətində dövlət siyasətinin aktual məqamları, həmçinin müasir çağırışlar barədə çıxış edib. Mərkəzin şöbə rəisi, hüquq üzrə fəlsəfə doktoru Nigar Qələndərli Konstitusiya və Suverenlik İli çərçivəsində



ətraf mühitin mühafizəsi sahəsində hüquqi tənzimləmənin əsas istiqamətlərini və ekoloji münasibətlərə konstitusion-hüquqi yanaşmalar barədə məlumat verib.

Gəncə şəhər prokurorunun müavini Nicat Şahverdiyev ekoloji hüquq pozuntularının aşkar edilməsi və cinayət təqibi tədbirlərinin təkmilləşdirilməsi üzrə görülən işləri diqqətə çatdırıb.

Elmi-praktiki konfransda çıxış edən Baş Prokurorluğun Mətbuat Xidmətinin böyük prokuroru Kənan Zeynalov Azərbaycan Prokurorluğunun COP29 və COP30 proseslərində iqlim idarəçiliyi üzrə müzakirələrdə fəal iştirak etdiyini vurğulayaraq ekoloji hüquqpozmalara qarşı mübarizənin effektivliyinin güclü kommunikasiya, media və ali təhsil müəssisələri ilə əməkdaşlıq, habelə müasir monitorinq və məlumatlandırma mexanizmlərinin inkişaf etdirilməsi ilə mümkün olduğunu qeyd edib.





Cinayət təqibindən kənar icraatlar idarəsinin böyük prokuroru Şəbnəm Məmmədova ekoloji hüquq pozuntularına dair mövcud tendensiyalar və nəzarət mexanizmlərindən söz açıb.

Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin prokuroru Tural Mürsəlov sağlam ətraf mühitdə yaşamaq hüququnun insan hüquqları sistemində xüsusi yer tutduğunu qeyd edib.

Gəncə Dövlət Universitetinin Ekologiya və təbiəti mühafizə kafedrasının müdiri, professor Sevda Əhmədova, AMEA-nın müxbir üzvü, GDU-nun Botanika kafedrasının müdiri professor Vaqif Novruzov, GDU-nun Ekologiya və təbiəti mühafizə kafedrasının müəllimi Vüsal Musayev konfrans zamanı əhəmiyyətli mövzular üzrə çıxışlar edib.

Konfrans zamanı səmərəli müzakirələr aparılıb, sonda isə xatirə fotoşəkli çəkilib.



# "Konstitusiya və Suverenlik İli" çərçivəsində Lənkəranda ətraf mühitin mühafizəsinə həsr olunmuş elmi-praktiki konfrans keçirilib

"Konstitusiya və Suverenlik İli" çərçivəsində ölkəmizdə ekoloji təhlükəsizlik, təbii sərvətlərin qorunması və ətraf mühitə qarşı hüquq pozuntularının qarşısının alınması mövzusunda maarifləndirmə və hüquqi təbliğat tədbirlərinin genişləndirilməsi məqsədilə prokurorluq orqanları tərəfindən keçirilən tədbirlərin davamı olaraq, noyabrın 21-də Lənkəran Dövlət Universitetində "Müasir ekoloji çağırışlar və ətraf mühitin mühafizəsi sahəsində hüquqi tənzimləmənin aktual problemləri" mövzusunda







elmi-praktiki konfrans təşkil olunub.

Konfrans başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi iştirakçılar tərəfindən bir dəqiqəlik sükutla yad olunub

Daha sonra çıxış edən Lənkəran Dövlət Universitetinin prorektoru Ramiz Şəmmədov tədbir iştirakçılarını salamlayaraq ekoloji təhlükəsizlik sahəsində dövlət siyasətinin dayanıqlı inkişaf strategiyasının əsas tərkib hissəsi olduğunu bildirib, "Konstitusiya və Suverenlik İli"nin hədəfləri çərçivəsində ətraf mühitin mühafizəsi üzrə hüquqi mexanizmlərin möhkəmləndirilməsi və ekoloji mədəniyyətin artırılmasının xüsusi prioritet təşkil etdiyini vurğulayıb.

Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəis müavini İsmayıl Qayıbov çıxışında qlobal və regional ekoloji çağırışlar, iqlim dəyişmələrinin yaratdığı risklər və ekoloji təhlükəsizlik sahəsində dövlətin institusional yanaşması barədə məlumat verərək ətraf mühitin qorunması sahəsində hüquqpozmalara qarşı kompleks prokuror nəzarəti mexanizmlərinin gücləndirilməsinin hazırkı mərhələdə strateji əhəmiyyət daşıdığını qeyd edib.

Cinayət təqibindən kənar icraatlar idarəsinin böyük prokuroru Namiq Əliyev ekoloji hüquq pozuntularının aşkarlanması, təqsirli şəxslərin məsuliyyətə cəlb olunması və bu prosesdə operativ məlumat mübadiləsinin əhəmiyyəti barədə çıxış edərək müasir texnoloji vasitələrdən istifadə cinayət tərkibli ekoloji pozuntuların aşkar olunmasında mühüm rol oynadığını diqqətə çatdırıb.

Elmi-praktiki konfransda çıxış edən Baş Prokurorluğun Mətbuat Xidmətinin prokuroru Əbdülsəməd Əzizli Azərbaycanın COP29 və COP30 proseslərində aktiv iştirakının ölkənin ekoloji diplomatiyasının güclənməsinə töhfə verdiyini bildirərək ekoloji hüquq pozuntularına qarşı mübarizənin effektivliyinin cəmiyyətlə səmərəli kommunikasiya, media, vətəndaş cəmiyyəti və ali təhsil müəssisələri ilə əməkdaşlığın gücləndirilməsindən keçdiyini vurğulayıb.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Elmi-tədqiqat işinin təşkili şöbəsinin prokuroru Sarıtel Əliyeva Konstitusiya və Suverenlik İli çərçivəsində ekoloji münasibətlərin konstitusion-hüquqi əsaslarından danışaraq ətraf mühitin mühafizəsi hüququnun insan hüquqlarının tərkib hissəsi kimi xüsusi yer tutduğunu və bu sahədə normativ-hüquqi islahatların davam etdirildiyini bildirib.

Konfrans zamanı geniş müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb və sonda xatirə foto-şəkli çəkilib.

# Müstəqillik Günü ilə əlaqədar Siyəzəndə konfrans keçirilmişdir

Müstəqillik Günü ilə əlaqədar Siyəzən Gənclər Evi Sosial Xidmət Müəssisəsində konfrans keçirilmişdir. Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri və ictimaiyyət nümayədələri iştirak ediblər. Tədbir iştirakçıları əvvəlcə Siyəzən Gənclər Evi Sosial Xidmət Müəssisəsində yerləşən Dövlətçilik muzeyi ilə tanış olublar. Daha sonra tədbir Müəssisənin akt zalında davam etdirilmişdir.







Tədbiri giriş nitqi ilə açan Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın tarixində mühüm yer tutduğunu, müstəqil dövlətçilik ənənələrinin formalaşmasında böyük rol oynadığını qeyd etmiş və Cümhuriyyətin qısa müddət ərzində həyata keçirdiyi islahatlar, Ulu Öndər Heydər Əliyevin Xalq Cümhuriyyəti irsinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün atdığı addımlar barədə ətraflı məlumat vermişdir.

Daha sonra Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ruhiyyə Hacıyeva, Siyəzən rayon prokuroru İsmayıl Abıyev və Siyəzən şəhər 1 saylı tam orta ümumtəhsil məktəbinin tarix müəllimi Sevinc Mikayılova "Müsəlman şərqində ilk Cümhuriyyət", "Milli müstəqillik və konstitusional dəyərlər: Azərbaycanın hüquqi İnkişaf modeli" və "Milli oyanışın təməl salnaməsi" mövzularında geniş çıxışlar etmişlər.

# BDU-da “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş Respublika elmi konfransının açılış mərasimi





2025-ci il dekabrın 1-də Bakı Dövlət Universitetində (BDU) “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Azərbaycan Respublikasının konstitusiyası – Dövlətçiliyimizin tarixi, hüquqi və siyasi-iqtisadi əsası kimi” mövzusunda Respublika elmi konfransının açılış mərasimi keçirilib.

Tədbirdən əvvəl BDU kollektivi Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib. Ulu Öndərin məzarı önünə gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla yad olunub.

Konfrans BDU-nun akt zalında davam edib. Əvvəlcə Dövlət himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Açılış mərasimində çıxış edən BDU rektoru Elçin Babayev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci il ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan edilib. Bu qərar müasir çağırışlar fonunda dövlətçiliyimizin hüquqi əsaslarının yenidən qiymətləndirilməsi, suverenlik konsepsiyasının daha dərindən öyrənilməsi üçün geniş imkanlar açır. Müstəqil Azərbaycanın Konstitusiyası Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanıb və 1995-ci il 12 noyabr tarixində ümumxalq səsverməsi ilə qəbul edilib. Bu sənəd təkcə hüquqi mətn deyil, həm də müstəqil Azərbaycan dövlətinin qurulması və möhkəmləndirilməsi yolunda dönüş nöqtəsi olub. Konstitusiyamız insan hüquq və azadlıqlarını ali dəyər kimi təsbit, hakimiyyət bölgüsünü, dövlət quruluşunu və cəmiyyətin əsas




prinsiplərini müəyyən edir. XXI əsrin reallıqları suverenlik məfhumuna yeni məzmun gətirib. Bu gün suverenlik siyasi sərhədlərlə yanaşı, iqtisadi, texnoloji və elmi suverenlik, infomasiya və kibermakanda suverenlik, mədəni suverenlik və identiklik kimi sahələri də özündə birləşdiriir. Azərbaycan son illərdə məhz bu istiqamətlər üzrə öz suverenliyini daha da gücləndirib. Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi isə bu prosesin ən mühüm tarixi nəticəsi oldu. 44 günlük Vətən müharibəsində əldə olunan Zəfər və 2023-cü ildə heç bir gün belə çəkməyən lokal antiterror tədbirləri ilə Azərbaycan dövlətinin ərazi bütövlüyü və konstitusion hakimiyyəti tam şəkildə bərpa olundu. Ölkəmizin hər bir qarışında Azərbaycan Respublikasının Konstitusiyasının  tətbiqi təmin olundu.

Rektor diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və onun hazırladığı konstitusion model Azərbaycan dövlətinin siyasi sabitliyinin, hüquqi sisteminin və idarəetmə strukturunun təməlini təşkil edir. Bu gün həmin xətt Prezident İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun şəkildə daha da inkişaf etdirilir. Dövlət idarəçiliyində institusional modernizasiya, hüquqi islahatlar, insan hüquqlarının müdafiəsi və milli maraqlara əsaslanan suveren siyasət bu prosesin davamıdır. Bakı Dövlət Universitetinin bu istiqamətdə rolu da xüsusi qeyd olunmalıdır: “Universitet minlərlə hüquqşünasın, dövlət xadiminin, diplomatın, tarixçinin, iqtisadçının və digər sahələr üzrə tədqiqatçıların yetişdiyi məktəbdir. Burada aparılan elmi araşdırmalar, konstitusiya hüququ üzrə təhlillər, dövlət suverenliyinə dair multidissiplinar layihələr ölkənin elmi-intellektual potensialına mühüm töhfə verir. Konstitusiya və suverenlik kimi mürəkkəb, fundamental və strateji anlayışların müzakirə edildiyi belə tədbirlər məhz gənclərin dünyagörüşünü genişləndirməyə, elmi təfəkkürünü dərinləşdirməyə xidmət edir. Azərbaycan Respublikasının Konstitusiyası dövlətçiliyimizin “yol xəritəsi”, suverenliyimizin hüquqi çərçivəsidir. Bugünkü konfrans bu sənədin mahiyyətini daha dərindən anlamağa, onu elmi və praktik prizmadan yenidən qiymətləndirməyə imkan verəcək”.

Milli Məclis sədrinin müavini, BDU-nun Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının müdiri Ziyafət Əsgərov BDU-da “Konstitusiya və Suverenlik İli”nə həsr  olunmuş konfransın keçirilməsinin Azərbaycanın son 30 il ərzində konstitusion inkişaf yoluna nəzər salınması baxımından mühüm addım olduğunu bildirib. O qeyd edib ki, Azərbaycanda dövlət hüququ anlayışı məhz 1993-cü ildə Ümummilli Liderin hakimiyyətə gəlməsindən sonra və ilk milli Konstitusiyanın qəbulu ilə bərqərar olunmağa başlayıb. Ziyafət Əsgərov diqqətə çatdırıb ki, insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı 2002, 2008 və 2016-cı illərdə Azərbaycan Konstitusiyasına əlavə və dəyişiklər edilməsi üçün referendumlar keçirilib.

Ədliyyə nazirinin müavini Abiddin Hüseynov isə bildirib ki, ölkəmizin suverenliyinin bərpasından sonra Azərbaycan Konstitusiyasının normaları yeni məzmun kəsb etməyə başlayıb: “Konstitusiya prinsipləri dövlət hakimiyyətinin legitim əsasları kimi çıxış edir. Azərbaycan Konstitusiyası insan hüquq və azadlıqlarını, sosial ədalət prinsiplərini qorumaqla yanaşı, beynəlxalq hüquq normalarına, milli dövlətçilik fəlsəfəsinə əsaslanır”.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri Anar İsgəndərov, MM-in Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, BDU-nun Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının müdiri Hicran Hüseynova, Tarix fakültəsinin dekanı İbrahim Zeynalov, Hüquq fakültəsinin dekanı Zaur Əliyev, Məhkəmə-Hüquq Şurasının Aparatının rəhbəri Kərəm Mansurov, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Fazil Həsənəliyev, Vəkillər Kollegiyasının sədr müavini Şahmar Məmmədov, Bakı şəhər prokurorunun müavini Mobil Şəfiyev, Xəzər Rayon Məhkəməsinin sədri Abbas Rzayev çıxışlarında konfansın Konstitusiya quruculuğu və hüquq elminin inkişafına mühüm töhfə verəcəyini bildirib, tədbirin işinə uğurlar arzulayıblar.

# Baş Prokurorluq tərəfindən Mingəçevirdə "Hüquqi Dövlət və Suverenlik: Konstitusion Yanaşma" mövzusunda regional konfrans keçirilib





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması ilə əlaqədar olaraq, prokurorluq orqanları tərəfindən respublikanın müxtəlif bölgələrində silsilə tədbirlər həyata keçirilir.

Bu tədbirlərin davamı olaraq, dekabrın 23-də Mingəçevir şəhərində Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə "Hüquqi Dövlət və Suverenlik: Konstitusion Yanaşma" mövzusunda regional konfrans təşkil olunub.

Konfransda dövlət qurumlarının nümayəndələri, qeyri-hökumət təşkilatlarının təmsilçiləri, media orqanlarının nümayəndələri, hüquq-mühafizə orqanlarının əməkdaşları, elm və təhsil ictimaiyyətinin üzvləri iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Mingəçevir şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, onun əziz xatirəsini ehtiramla yad ediblər.

Mötəbər tədbir başlamazdan əvvəl Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Açılış hissəsində çıxış edən Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova konstitusion hüquqların təmin olunması, insan hüquq və azadlıqlarının müdafiəsi və hüquqi dövlət prinsipinin möhkəmləndirilməsində prokurorluq orqanlarının rolundan bəhs edib. O, hüquqi mexanizmlərin beynəlxalq standartlara uyğunlaşdırılmasının və institusional islahatların əhəmiyyətini vurğulayıb.

Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov çıxışında dövlət suverenliyinin möhkəmləndirilməsində mərkəzi və yerli icra hakimiyyəti orqanları arasında koordinasiyalı fəaliyyətin vacibliyinə diqqət çəkib, regionlarda hüquqi maarifləndirmə işlərinin davamlı xarakter daşıdığını bildirib.

Mingəçevir şəhər prokuroru Pərvin Quliyev çıxışında prokurorluq orqanlarının Konstitusiyanın aliliyinin təmin olunmasında, qanunun düzgün tətbiqində və dövlət maraqlarının qorunmasında üzərinə düşən vəzifələrdən danışıb.

Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Anar Eyvazov öz çıxışında Azərbaycan Ordusunun dövlət suverenliyinin təmin edilməsində oynadığı mühüm roldan, informasiya təhlükəsizliyi sahəsində görülən tədbirlərdən və dezinformasiyalara qarşı mübarizə mexanizmlərindən bəhs edib.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Şimal-Qərb Regional Mərkəzinin rəhbəri Pərviz Məmmədov insan hüquqlarının qorunmasının hüquqi dövlətin əsas sütunlarından biri olduğunu vurğulayaraq, vətəndaş müraciətlərinin araşdırılması, hüquqi maarifləndirmə və ictimai nəzarət mexanizmlərinin əhəmiyyətinə toxunub.

Mingəçevir Dövlət Universitetinin rektoru Anar Eminov çıxışında ali təhsil müəssisələrinin hüquqi dövlət və konstitusion dəyərlərin gənclər arasında təbliğində mühüm rol oynadığını qeyd edib, hüquq sahəsində elmi-tədqiqat işlərinin və akademik–praktik əməkdaşlığın genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

Şəhid Milli Qəhrəman Natiq Qasımovun qardaşı Nofəl Qasımov çıxış edərək, dövlət suverenliyinin şəhidlərin canı və qanı bahasına təmin edildiyini bildirib, şəhid ailələrinə və qazilərə göstərilən yüksək dövlət qayğısının bu dəyərlərə verilən önəmin bariz nümunəsi olduğunu qeyd edib, eyni zamanda bu müqəddəs irsin və suverenlik dəyərlərinin gələcək nəsillərə ötürülməsinin hər bir vətəndaşın mənəvi borcu olduğunu vurğulayıb.

Konfrans çərçivəsində dövlət qurumları, qeyri-hökumət təşkilatları və media nümayəndələri arasında hüquqi əməkdaşlığın gücləndirilməsi, ictimai nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, gənclər arasında hüquqi şüurun artırılması və konstitusion dəyərlərin təbliği istiqamətində geniş fikir mübadiləsi aparılıb, konkret təkliflər səsləndirilib. Eyni zamanda prokurorluq orqanları ilə media və qeyri-hökumət təşkilatları arasında işgüzar əlaqələrin möhkəmləndirilməsi, fəaliyyət istiqamətləri üzrə keyfiyyət və səmərəliliyin daha da artırılması, məlumat mübadiləsi zamanı mövcud qanunvericiliyin tələblərinə əməl olunmasının vacibliyi, eləcə də istintaq sirri təşkil edə biləcək məlumatların ictimailəşdirilməsinin qarşısının alınması məqsədilə jurnalistlərlə ətraflı müzakirələr aparılıb.

Sonda konfrans iştirakçıları ilə xatirə fotoşəkili çəkilib.



# Ordubad rayonunda “Müstəqilliyimiz əbədi, inkişaf isə məqsədimizdir!” mövzusunda tədbir keçirilib

2025-ci il fevralın 3-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının və Naxçıvan Dövlət Universitetinin aidiyyəti əməkdaşları ilə birgə Ordubad rayonunda “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Müstəqilliyimiz əbədi, inkişaf isə məqsədimizdir!” mövzusunda maarifləndirici tədbir keçirilib.



Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, unudulmaz xatirəsini ehtiramla yad ediblər. Tədbir başlamazdan öncə Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu 1 dəqiqəlik sükutla yad edilib.





Tədbiri Ordubad rayon İcra Hakimiyyəti başçısının müavini Elvin Məmmədov giriş sözü ilə açaraq mövzunun əhəmiyyətdən danışıb.

Tədbirdə Muxtar Respublika Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov çıxış edərək bildirmişdir ki, tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmiş, 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının əsas qanunu – ilk Konstitusiya qəbul olunmuşdur. Həmçinin, Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının əməkdaşı Həsən Həsənov, Naxçıvan Dövlət Universitetinin əməkdaşı İsmayıl Qəribli və YAP-ın Ordubad rayon təşkilatının sədiri Etibar Məmmədov mövzu ilə bağlı çıxış ediblər.

Sonda Konstitusiya və Suverenlik İlinə həsr olunmuş "Dövlətin əsasları" filmi nümayiş olunub.

# Naxçıvan Hərbi Kollecində “Konstitusiya və Suverenlik İli” çərçivəsində tədbir keçirilib





2025-ci il fevralın 24-də Naxçıvan Hərbi Kollecinin və Naxçıvan Hərbi Prokurorluğunun birgə təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş “Vətənə sədaqət müqəddəsdir” və “Vətəni müdafiə hər bir vətəndaşın borcudur” mövzularında tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində kursantların tədris şəraiti və dərslərlə, kollecin kitabxanasında təşkil olunmuş kitab və jurnal sərgisi ilə tanış olublar.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra vətənpərvərlik mövzusunda videoçarx nümayiş edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxış edərək bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə bu ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi hər bir vətəndaşın, xüsusilə hərbi qulluqçuların və kursant heyətinin Konstitusiya dəyərlərinə, milli suverenliyə və yüksək vətənpərvərlik ruhuna olan bağlılığını daha da möhkəmləndirəcək.





Kursantlara təhsillərində uğurlar arzulayan Samir Seyidəhmədli onların Naxçıvan Hərbi Kollecinin adını yüksək tutaraq göstərilən etimadı doğruldacaqlarına əminliyini ifadə edərək qeyd edib ki, Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində 2 il davam edən tədris dövründə kursantların qidalanması, təhsili, sosial təminatı və asudə vaxtının səmərəli təşkili üçün hərtərəfli şərait yaradılıb.

Naxçıvan hərbi prokuroru, ədliyyə polkovnik-leytenantı Aqil Axundov dövlət başçısının Sərəncamı ilə 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan olunmasının əhəmiyyətindən danışıb. Qeyd edib ki, Azərbaycan Konstitusiyası ölkənin hüquqi və siyasi sisteminin təməlini təşkil edərək hüquq sisteminin bütövlüyünü və sabitliyini təmin edir.

Naxçıvan Hərbi Kollecinin rəisi, polkovnik-leytenant Yaşar Hüseynov hərbi kollecin qısa zamanda böyük uğurlara imza atdığını vurğulayıb. Bildirib ki, cari tədris ilində muxtar respublikanın bütün dövlət orqanları, eləcə də media nümayəndələri ilə hərbi kollec arasında əlaqələr qurulub, birgə layihələr icra olunaraq tədbirlər keçirilib.

Sonda Ulu Öndər Heydər Əliyevin və Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Konstitusiyamızın qəbulu, suverenliyimizin bərpasına dair tarixi xidmətlərindən bəhs edən qısametrajlı videoçarx nümayiş olunub, xatirə şəkli çəkdirilib.

# Culfa rayonunda “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Müstəqilliyimiz əbədi, inkişaf isə məqsədimizdir!” mövzusunda tədbir keçirilib



2025-ci il martın 13-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası  İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının və Naxçıvan Dövlət Universitetinin aidiyyəti əməkdaşları ilə birgə Kəngərli rayonunda “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir” mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirdə Muxtar Respublika Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov çıxış edərək bildirmişdir ki, tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmiş, 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının əsas qanunu – ilk Konstitusiya qəbul olunmuşdur.

Həmçinin, Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının əməkdaşı Həsən Həsənov, Naxçıvan Dövlət Universitetinin əməkdaşı Əziz Qasımov və YAP-ın Kəngərli rayon təşkilatının sədiri Sevda Quliyeva mövzu ilə bağlı çıxış ediblər.

Sonda Konstitusiya və Suverenlik İlinə həsr olunmuş "Dövlətin əsasları" filmi nümayiş olunub.





Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, unudulmaz xatirəsini ehtiramla yad ediblər.

Tədbir başlamazdan öncə Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri Kəngərli rayon İcra Hakimiyyətinin başçısının müavini Hacıraddin Mehbalıyev  giriş sözü ilə açaraq mövzunun əhəmiyyətdən danışıb.



# Kəngərli rayonunda “Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir” mövzusunda tədbir keçirilib

2025-ci il martın 13-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının və Naxçıvan Dövlət Universitetinin aidiyyəti əməkdaşları ilə birgə Kəngərli rayonunda “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir” mövzusunda maarifləndirici tədbir keçirilib.







Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, unudulmaz xatirəsini ehtiramla yad ediblər.

Tədbir başlamazdan öncə Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri Kəngərli rayon İcra Hakimiyyətinin başçısının müavini Hacırəddin Mehbalıyev giriş sözü ilə açaraq mövzunun əhəmiyyətdən danışıb.

Tədbirdə Muxtar Respublika Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi baş ədliyyə müşaviri Faiq Səfərov çıxış edərək bildirmişdir ki, tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideyalarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmiş, 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının əsas qanunu – ilk Konstitusiya qəbul olunmuşdur.



Həmçinin, Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının əməkdaşı Həsən Həsənov, Naxçıvan Dövlət Universitetinin əməkdaşı Əziz Qasımov və YAP-ın Kəngərli rayon təşkilatının sədri Sevda Quliyeva mövzu ilə bağlı çıxış ediblər.

Sonda Konstitusiya və Suverenlik İlinə həsr olunmuş "Dövlətin əsasları" filmi nümayiş olunub.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən Muxtar Respublikanın mərkəzi və yerli icra hakimiyyəti orqanlarında "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda tədbirlər keçirilib






Azərbaycan Respublikası Konstitusiyasının hüquqi və tarixi əhəmiyyəti və dövlət suverenliyimizin mahiyyətinin izah olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Naxçıvan Dövlət Universiteti ilə birlikdə Naxçıvan Muxtar Respublikasının yerli icra hakimiyyəti orqanlarında, ali və orta-ixtisas təhsili müəssisələrində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda 21.07.2025-ci il tarixdə Sədərək rayon Mədəniyyət evində, 22.09.2025-ci il tarixdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin böyük akt zalında, 03.10.2025-ci il tarixdə isə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyində müvafiq tədbirlər keçirilib.














Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, rayon (şəhər) Mədəniyyət evlərində tədbirləri davam etdirmişlər. Tədbirdə Ulu Öndərin və şəhidlərin xatirəsi yad edilərək Dövlət himni səsləndirilmişdir. Yerli icra hakimiyyətləri başçılarının müavinləri, Yeni Azərbaycan Partiyası rayon (şəhər) təşkilatlarının sədrləri, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Təsisatının əməkdaşları çıxış etmişlər. Şagirdlərin bədii qiraətindən sonra Naxçıvan televiziyasının hazırladığı film nümayiş etdirilib.



2025-ci ilin may-iyun aylarında Azərbaycan Respublikası Konstitusiyasının hüquqi və tarixi əhəmiyyəti və dövlət suverenliyimizin mahiyyətinin izah olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Naxçıvan Dövlət Universiteti ilə birlikdə Naxçıvan Muxtar Respublikasının yerli icra hakimiyyəti orqanlarında, ali və orta-ixtisas təhsili müəssisələrində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda müvafiq maarifləndirmə tədbirləri keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstəsi qoymuşlar. Sonra isə tədbir rayonların mədəniyyət evlərində keçirilib. Əvvəlcə Ulu Öndərin və şəhidlərin xatirəsi yad edilib, sonra isə Dövlət himni səslənib. Rayon (şəhər) icra hakimiyyətləri başçılarının müavinləri, Yeni Azərbaycan Partiyası rayon (şəhər) təşkilatlarının sədrləri, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Təsisatının əməkdaşları çıxış etmişlər. Şagirdlərin bədii qiraətindən sonra Naxçıvan televiziyasının hazırladığı film nümayiş etdirilmiş və tədbir bədii hissə ilə davam etmişdir.

Çıxışlarda əminliklə ifadə olunmuşdur ki, vətəndaşı olduğumuz Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır və dönməzdir! "Konstitusiya və suverenlik İli" ölkəmizin tərəqqisi naminə daha geniş üfüqlər açacaqdır. Azərbaycannın müstəqilliyi və suverenliyi əbədi olacaqdır!





















Azərbaycan Respublikası Konstitusiyasının hüquqi və tarixi əhəmiyyəti və dövlət suverenliyimizin mahiyyətinin izah olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Naxçıvan Dövlət Universiteti ilə birlikdə Naxçıvan Muxtar Respublikasının yerli icra hakimiyyəti orqanlarında, ali və orta-ixtisas təhsili müəssisələrində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda 2025-ci ilin iyul ayında Sədərək rayon Mədəniyyət evində, 2025-ci ilin sentyabr ayında Naxçıvan Şəhər İcra Hakimiyyətində və Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi və Azərbaycan Respublikası Gənclər Fondunun Naxçıvan Muxtar Respublikası Filialında müvafiq maarifləndirmə tədbirləri keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstəsi qoymuşlar. Sonra isə tədbir rayonların mədəniyyət evlərində keçirilib. Əvvəlcə Ulu Öndərin və şəhidlərin xatirəsi yad edilib, sonra isə Dövlət himni səslənib. Rayon (şəhər) icra hakimiyyətləri başçılarının müavinləri, Yeni Azərbaycan Partiyası rayon (şəhər) təşkilatlarının sədrləri, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Təsisatının əməkdaşları çıxış etmişdir. Şagirdlərin bədii qiraətindən sonra Naxçıvan televiziyasının hazırladığı film nümayiş etdirimiş və bədii hissə ilə davam etmişdir.

# Konstitusiya hüququnda suverenlik institutunun müasir inkişaf tendensiyaları

**Annotasiya**

Bu məqalə müasir dövrdə suverenlik hüququna konseptual yanaşmaları araşdıraraq, həm hüquqi və formal, həm də siyasi-nəzəri istiqamətləri təhlil edir. Burada klassik hüquqi meyarlar (ərazi, əhali, hökumət və kommunikasiya) və Birləşmiş Millətlər Təşkilatının prinsipləri kontekstində realist, institusional, konstruktivist və post-müstəmləkə tənqidləri ilə birlikdə nəzərdən keçirilir. Məqalədə göstərilir ki, suverenlik bu gün həm hüquqi status, həm siyasi hakimiyyət, həm də normativ iddia kimi fəaliyyət göstərən çoxşaxəli və dinamik bir institut kimi başa düşülməlidir. Humanitar müdaxilə, "Qoruma məsuliyyəti", transmilli idarəetmə və insan hüquqları normalarının güclənməsi kimi müasir proseslər suverenliyin məzmununu və həyata keçirilmə formasını dəyişdirərək, milli səlahiyyətlərlə beynəlxalq öhdəliklər arasında yeni ziddiyyətlər yaratmaqdadır.

**Açar sözlər:** Suverenlik, dövlətçilik, Montevideo Konvensiyası, BMT Nizamnaməsi, qoruma məsuliyyəti, legitimlik, beynəlxalq hüquq, mütəşəkkil ikiüzlülük, kvazi-dövlətlər, təcrübə kimi suverenlik.

## 1. Giriş

Suverenlik — siyasi icmanın bir ərazi daxilində ali hakimiyyəti həyata keçirmək və beynəlxalq məsələlərdə aktor kimi tanınmaq hüququ — müasir beynəlxalq hüquq və siyasi nəzəriyyənin əsas anlayışlarından biri olaraq qalır. Onun tarixi yaranışı adətən erkən müasir Avropa konvensiyaları (məsələn, Bodin, Vestfaliya), müqavilələr və ənənəvi normalar vasitəsilə hüquqi kodifikasiyası ilə əlaqələndirilir. Lakin müasir dövr davamlı konseptual qeyri-müəyyənlik yaratmışdır. Belə ki, suverenlik geniş milli imtiyazları (müdaxilə etməmək, ərazi və əhali üzərində nəzarət) əsaslandırmaq üçün istifadə olunur və eyni zamanda beynəlxalq öhdəliklərlə (insan hüquqları müqavilələri, kollektiv təhlükəsizlik mandatları) məhdudlaşdırılır. Alimlər uzun müddətdir ki, suverenliyin əsasən hüquqi status, empirik institutlar toplusu, legitimliyə normativ iddia və ya siyasi təcrübə olub-olmadığı barədə mübahisə edirlər. Bu məqalədə əsas konseptual yanaşmalar xəritələşdirilir, əsas müasir transformasiyalar nəzərdən keçirilir və suverenlik hüququnu çoxşaxəli və təcrübəyə yönəlmiş bir fenomen kimi anlamaq üçün inteqrativ çərçivə inkişaf etdirilir.

Nəzəri müzakirəni əsaslandırmaq üçün kanonik hüquqi formullar (xüsusən də Montevideo Konvensiyası meyarlarını və BMT Nizamnaməsinin suveren bərabərlik prinsipini) ümumiləşdirilir, suverenliyi şərti və ya ritorik olaraq yenidən konsepsiyalaşdıran nüfuzlu elmi tənqidləri nəzərdən keçirir (məsələn, Krasnerin "mütəşəkkil ikiüzlülüyü" və Ceksonun "kvazi-dövlətlər" anlayışını), qoruma məsuliyyəti və insan hüquqları tərəfindən yaradılan normativ gərginlikləri araşdırır və həm alimlər, həm də praktiklər üçün faydalı olan sintezləşdirilmiş konseptual model təklif olunur.

Bu məqalədə irəli sürülən əsas hüquqi və siyasi iddialar elmi standartlara cavab vermək və oxuculara sonrakı tədqiqatlar üçün birbaşa istinadlar təmin etmək məqsədilə ilkin mənbələr (müqavilələr, BMT materialları) və tədqiqatlar (monoqrafiyalar və məqalələr) ilə dəstəklənir. Əsas təməl sənədlərə Montevideo Konvensiyası (1933) və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi (1945) daxildir, elmi təhlillər isə Krasnerin, Ceksonun, Frankın əsərlərindən və legitimlik mövzusunda müasir ədəbiyyata istinad edir. Suverenlik institutu həm beynəlxalq hüququn, həm də konstitusiya hüququnun əsas təməl prinsiplərindən biridir. Əgər beynəlxalq hüquqda suverenlik dövlətlərin bərabərliyi və müstəqilliyi kimi xarici münasibətlərdə hüquqi statusu müəyyən edirsə, konstitusiya hüququ bu anlayışı daxili dövlət hakimiyyətinin ali mənbəyi və xalqın iradəsinin hüquqi ifadəsi kimi qəbul edir (Kelsen, 1945). Bu baxımdan suverenlik, konstitusiya sistemində həm hüquqi, həm də siyasi legitimliyin təməl kateqoriyası kimi çıxış edir. Lakin XXI əsrdə baş verən qlobal dəyişikliklər – beynəlxalq inteqrasiya, insan hüquqlarının universallaşması, regional təşkilatların güclənməsi və rəqəmsallaşma prosesi – suverenlik institutunun məzmununu və tətbiq mexanizmlərini köklü şəkildə dəyişmişdir (Grimm, 2015; Habermas, 2001).

## 2. Suverenliyin Konstitusiya hüququndakı ənənəvi modeli

Klassik nəzəriyyələrdə (Bodin, Rousseau, Kelsen) suverenlik bölünməz, mütləq və ali hakimiyyət kimi təsvir edilirdi. Bu konsepsiyaya görə, dövlətin suveren iradəsi onun hüquqi sisteminin yeganə mənbəyidir və heç bir xarici qüvvə bu hakimiyyətə təsir göstərə bilməz (Kelsen, 1945). Konstitusiya hüququ baxımından bu model, dövlətin hüquqi quruluşunu və siyasi hakimiyyətin legitimliyini əsaslandıran baza rolunu

oynayırdı. Lakin demokratik konstitusionalizmin inkişafı ilə birlikdə suverenliyin anlayışı xalqın iştirak hüququ, hakimiyyət bölgüsü və hüquqi məsuliyyət kimi prinsiplərlə uzlaşdırılmışdır (Wheare, 1963).

Müasir konstitusiyalar suverenliyi təkcə dövlətin gücü kimi deyil, həm də xalqın iradəsinin konstitusion forması kimi müəyyən edir. Bu mənada suverenlik artıq sadəcə dövlət hakimiyyətinin mənbəyi deyil, həm də konstitusiya legitimliyinin təzahürü kimi çıxış edir. Qloballaşma və beynəlxalq inteqrasiya prosesləri nəticəsində konstitusiya hüququnda paylaşılan suverenlik anlayışı meydana gəlmişdir. Dövlətlər beynəlxalq təşkilatlara üzv olmaqla və beynəlxalq müqavilələrə qoşulmaqla öz suveren hüquqlarının müəyyən hissəsini könüllü şəkildə məhdudlaşdırırlar (Habermas, 2001). Avropa İttifaqı hüququ bu baxımdan ən bariz nümunədir: Avropa Ədalət Məhkəməsinin qərarları üzv dövlətlərin milli qanunlarından üstün hüquqi qüvvəyə malikdir. Bu, klassik suverenlik konsepsiyasına zidd kimi görünsə də, əslində, suverenliyin funksional transformasiyası kimi dəyərləndirilir (Walker, 2003).

Bu yeni modeldə dövlətlər hüquqi və inzibati səlahiyyətlərini müəyyən sahələrdə (iqtisadiyyat, insan hüquqları, təhlükəsizlik) beynəlxalq və ya regional qurumlarla bölüşürlər. Nəticədə, konstitusiya suverenliyi tək dövlətin sərhədləri ilə məhdudlaşmır, daha çox transmilli hüquqi məkanda paylaşılan məsuliyyət anlayışına çevrilir.

### 3. Rəqəmsal dövrdə və yeni hüquqi reallıqlarda suverenlik

Müasir konstitusiya dövlətlərində suverenlik anlayışı insan hüquqları ilə üzvi şəkildə bağlıdır. Konstitusiyalar insan hüquqlarını ali hüquqi dəyər kimi tanımaqla dövlət hakimiyyətinin hüdudlarını müəyyən edir. Bu fenomen "suverenliyin özünüməhdudiyyəti" (self-limitation of sovereignty) kimi tanınır (Grimm, 2015). Belə ki, dövlətin ali orqanları xalqın iradəsinə əsaslansa da, bu iradə konstitusiyada təsbit olunmuş fundamental dəyərlərlə – insan ləyaqəti, ədalət, bərabərlik prinsipləri ilə – məhdudlaşdırılır.

Avropa konstitusiya məhkəmələrinin təcrübəsi bu prosesi əyani şəkildə nümayiş etdirir. Almaniya Federal Konstitusiya Məhkəməsi "konstitusiya identikliyi" (constitutional identity) doktrinası vasitəsilə Avropa İttifaqı hüququnun milli konstitusiyanın əsas prinsiplərinə zidd tətbiqinə icazə vermir. Bu, suverenliyin yeni bir mərhələsidir: normativ suverenlik, yəni hüquqi və mənəvi dəyərlərlə çərçivələnmiş hakimiyyət.

XXI əsrin ikinci onilliyindən etibarən suverenlik institutunun inkişafında rəqəmsal texnologiyaların və kibərməkanın təsiri xüsusi əhəmiyyət qazanmışdır. Rəqəmsal suverenlik (digital sovereignty) anlayışı dövlətlərin informasiya axınlarını, şəxsi məlumatların qorunmasını və milli kibertəhlükəsizlik siyasətini təmin etmək qabiliyyətini ifadə edir. Bu sahədə konstitusiya hüququ qarşısında yeni çağırışlar yaranır: rəqəmsal məxfilik hüququ, kibermüdafiə, süni intellektin hüquqi statusu və s. kimi məsələlər artıq suverenlik institutunun müasir tərkib hissəsinə çevrilməkdədir.

Beləliklə, konstitusiya suverenliyi təkcə siyasi və hüquqi kateqoriya deyil, həm də texnoloji və etik ölçüləri olan çoxqatlı bir anlayış halına gəlmişdir.

Konstitusiya hüququnda suverenlik həm normativ, həm də empirik səviyyədə təzahür edir. Normativ səviyyədə o, konstitusiyada təsbit edilmiş ali hüquqi prinsip kimi çıxış edir; empirik səviyyədə isə dövlətin faktiki idarəetmə və hüquq yaradıcılığı gücünü ifadə edir. Bu iki səviyyə arasında tarazlıq pozulduqda — məsələn, dövlətin konstitusiya öhdəliklərini yerinə yetirmədiyi, yaxud insan hüquqlarını pozduğu hallarda — suverenliyin legitimliyi zəifləyir (Franck, 1990).

Müasir konstitusiya hüququnda suverenlik institutu bölünməz və mütləq hakimiyyət anlayışından funksional, paylaşılan və legitimliyə əsaslanan suverenlik modelinə doğru inkişaf etmişdir. Dövlət suverenliyi bu gün həm daxili, həm də beynəlxalq hüquqi sistemlərdə qarşılıqlı asılılıq şəraitində fəaliyyət göstərir. Suverenliyin qorunması artıq dövlətin özünü təcrid etməsi ilə deyil, əksinə, konstitusiya prinsiplərinin, insan hüquqlarının və beynəlxalq öhdəliklərin harmonik uzlaşdırılması ilə mümkündür. Bu mənada konstitusiya suverenliyi müasir dünyada dövlətin hüquqi məsuliyyəti, demokratik legitimliyi və beynəlxalq əməkdaşlıq qabiliyyəti ilə ölçülən dinamik bir instituta çevrilmişdir (Habermas, 2001; Grimm, 2015).

### 4. Klassik hüquqi və doktrinal əsaslar

Dövlətçiliyin ənənəvi hüquqi tərifi ən çox istinad edilən tərifini Dövlətlərin Hüquqları və Vəzifələri haqqında Montevideo Konvensiyasında (1933) tapmışdır. Konvensiyada dörd meyar sadalanmışdır: (1) daimi əhali; (2) müəyyən edilmiş ərazi; (3) hökumət; və (4) digər dövlətlərlə münasibətlərə girmək qabiliyyəti. Bu meyarlar beynəlxalq hüquqda əsas hüquqi statusun təsviri kimi geniş şəkildə qəbul edilmişdir: yerinə yetirildikdə, onlar qurumun beynəlxalq hüququn subyekti olmaq iddiasını əsaslandırır. Montevideo tərifi dövlət təcrübəsində və elmi tədqiqatlarda məhək daşı olaraq qalır, baxmayaraq ki, bu, tam hüquqi test deyil və tanınma və üzvlük təcrübəsi ilə tamamlanır. (Montevideo Konvensiyası, 1933)

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi dövlətlər arasında suveren bərabərlik prinsipini təsbit edir və məhdud hallarda (məsələn, özünümüdafiə, BMT Təhlükəsizlik Şurasının səlahiyyəti) istisna olmaqla,

güc tətbiqini qadağan edir. Nizamnamənin 2-ci maddəsi suveren bərabərliyi müasir beynəlxalq münasibətlərin təşkili üçün təməl prinsip kimi müəyyən edir ki, bu da həm BMT qarşısında hüquqi bərabərliyi, həm də müdaxilə etməmək öhdəliklərini nəzərdə tutur. Lakin Nizamnamə eyni zamanda beynəlxalq ictimaiyyətin kollektiv şəkildə hərəkət edə biləcəyi mexanizmlər yaradır. (United Nations, 1945)

### 5. Hüquqi status kimi suverenlik və təcrübə kimi suverenlik

Suverenlik anlayışı müasir mənasında XVI əsrdə dövlətin hüquqi sistem kimi formalaşması ilə əlaqədar meydana çıxmışdır. Hans Kelsen və Michel Troper kimi nəzəriyyəçilər bu prosesi normativ iyerarxiyanın yaranması ilə izah edirlər. Onların fikrincə, dövlət siyasi hakimiyyətin hüquq vasitəsilə həyata keçirildiyi bir struktur kimi formalaşdıqda, suverenlik həmin iyerarxiyanın legitimlik prinsipinə çevrilmişdir. Bu baxımdan, suverenlik yalnız ali hakimiyyət iddiası deyil, həm də hüquq qaydalarının vahid və ardıcıl sistemdə mövcudluğunu təmin edən əsas institusional mexanizmdir (Kelsen, 1928; Troper, 2012).

Akademik müzakirələr suverenliyi tez-tez iki konseptual qütbə bölür: (a) hüquqi status kimi suverenlik — hüquq və vəzifələr verən rəsmi tanınmadır — və (b) təcrübə kimi suverenlik — siyasi institutlar tərəfindən gündəlik hakimiyyətin həyata keçirilməsi, icra məhdudiyyətlərinə və sosial-siyasi legitimliyə tabedir.

Hüquq formalistləri beynəlxalq nizamın qorunması üçün aydın meyarların və tanınma sistemlərinin faydalılığını vurğulayırlar. Montevideo meyarları və BMT-yə üzvlük prosedurları dövlətçilik iddialarını standartlaşdırmaq və proqnozlaşdırıla bilən hüquqi hüquqlar təmin etmək səylərini nümunə göstərir. Bu baxımdan suverenlik nisbətən sabit hüquqi platforma kimi fəaliyyət göstərir: immunitetlər (məsələn, yurisdiksiya müdafiəsi), hüquqlar (məsələn, ərazi bütövlüyü) və vəzifələr (müqavilə öhdəlikləri) verir. Müqavilələrin qayda əsaslı dili və BMT Nizamnaməsinin 2-ci maddəsi bu rəsmi oxunu əsaslandırır.

Bunun əksinə olaraq, Robert H. Cekson kimi alimlər suverenliyin təcrübələr vasitəsilə həyata keçirildiyini vurğulayıblar. Ceksonun "kvazi-dövlətlər" konsepsiyası, rəsmi suverenliyə malik olan, lakin onu tam şəkildə həyata keçirmək üçün effektiv institusional potensiala malik olmayan bir çox yeni müstəqil hökumətləri təsvir edir ki, bu da hüquqi tanınma ilə praktiki səlahiyyət arasında uyğunsuzluğa gətirib çıxarır. Bu perspektiv suverenliyin yalnız hüquqi bir etiket deyil, həm də inzibati qabiliyyət, ərazi üzərində nəzarət və beynəlxalq əlaqələrdən asılı olan empirik bir şərt olduğunu vurğulayır. Bu, dövlətin davamlı kövrəkliyini və dünya miqyasında suveren səlahiyyətlərin qeyri-bərabər tətbiqini izah etməyə kömək edir (Jackson, 1990).

Müasir hüquq nəzəriyyəsində suverenliyin həm məhdud, həm də qaçılmaz anlayış kimi qalması bu ikiliyin (status və təcrübə) arxasında duran əsas paradoksu əks etdirir. Dövlətlər formal olaraq ali səlahiyyətə malik olduqları halda, beynəlxalq öhdəliklər və təbii hüquq prinsipləri onları normativ şəkildə məhdudlaşdırır (Benvenisti, 2013; Theoretical Inquiries in Law, 2015).

### 6. Siyasi nəzəriyyələr: realizm, liberal institusionalizm və konstruktivizm

Realistlər suverenliyə əsasən güc mənbəyi kimi baxırlar: dövlətin öz ərazisini idarə etmək və anarxik beynəlxalq sistemdə yaşamını təmin etmək qabiliyyəti. Bu baxımdan, suverenlik maddi imkanlar və strateji davranış vasitəsilə təsdiqlənir və müdafiə olunur. Realistlər tez-tez suverenliyə normativ müdaxilələrə (məsələn, xarici humanitar müdaxilə) şübhə ilə yanaşırlar və dövlət razılığını və müdaxilə etməməyi sabitləşdirici prinsiplər kimi vurğulayırlar.

Liberal institusionalistlər suveren davranışın formalaşmasında beynəlxalq təşkilatların, qanunun və rejimlərin rolunu vurğulayırlar. Onlar iddia edirlər ki, suverenlik dərin əməkdaşlıq və çoxşaxəli idarəetmə ilə uyğun gəlir: dövlətlər kimliklərini itirmədən suverenliyin aspektlərini birləşdirə bilərlər. BMT Nizamnaməsi və II Dünya Müharibəsindən sonrakı təsisatlar sərhədyanı problemləri həll edərkən nizamı qoruyan məhdud, lakin əməkdaşlıq suverenliyinə imkan verən kimi qəbul edilir.

Konstruktivistlər suverenliyin sosial quruluşuna diqqət yetirirlər: suveren aktor kimi sayılan şey ortaq normalardan, tanınma təcrübələrindən və diskursiv proseslərdən asılıdır. Tomas Frankın legitimlik üzərində işi normativ legitimliyin qavranılmasının dövlətlərin davranışına və beynəlxalq ictimaiyyətin tanınmanı vermək və ya dayandırmaq istəyinə necə dərin təsir etdiyini göstərir. Bu baxımdan, suverenlik həm normativ gözləntilərlə, həm də insan hüquqları və məqbul idarəetmə formaları da daxil olmaqla, məhdudlaşır. (Franck, 1990)

### 7. "Mütəşəkkil ikiüzlülük" tezisi və qanunla təcrübə arasindaki ziddiyyətlər

Stefen Krasner müasir suverenliyi məşhur şəkildə "mütəşəkkil ikiüzlülük" kimi xarakterizə etmişdir: seçmə şəkildə tətbiq olunan norma və prinsiplər toplusu, dövlətlərə suverenliyi ritorik şəkildə tətbiq etməyə imkan verir, eyni zamanda mütəmadi olaraq

onun rəsmi məhdudiyyətlərini pozur və ya onları keçərək. Krasnerin təhlili rəsmi qaydalar (müdaxilə etməmək, ərazi bütövlüyünə hörmət) ilə dövlət praktikasının reallıqları (gizli müdaxilələr, rejim dəyişikliyi, iqtisadi şərtilik) arasındakı uyğunsuzluğu vurğulayır. Bu tezis alimləri hüquqi normaların bəzən hörmət edildiyini, bəzən isə görməzdən gəlindiyini izah edərkən gücə, maraqlara və strateji davranışa diqqət yetirməyə sövq edir. (Krasner, 1999)

### 8. Təzyiq altında suverenlik: insan hüquqları və şərti suverenlik

XX əsrin ortalarından bəri insan hüquqları normaları suveren səlahiyyətləri getdikcə daha çox məhdudlaşdırır. İnsan hüquqları müqavilələri daxili siyasətə təsir edən öhdəliklər yaradır; universal insan hüquqları ritorikası mütləq müdaxilə etməmək iddialarını altüst edir. Bu normativ dəyişiklik suverenliyi praktikada şərti bir hüquqa çevirib: əsas qorumaları kobud şəkildə pozan rejimlər suveren iddialarını mənəvi və siyasi baxımdan zəiflədə bilərlər.

2005-ci il Dünya Zirvə Toplantısında təsdiqlənmiş Qoruma Məsuliyyəti suverenliyi yenidən quran kollektiv bir öhdəliyi ifadə edir: suverenlik əhaliyə qarşı məsuliyyətləri nəzərdə tutur və dövlət öz xalqını soyqırımdan, müharibə cinayətlərindən, etnik təmizləmədən və ya insanlığa qarşı cinayətlərdən açıq şəkildə qorumadığı təqdirdə beynəlxalq ictimaiyyət hərəkət etmək məsuliyyətinə malikdir. qoruma məsuliyyəti suverenliyi avtomatik olaraq silmir, lakin qanuni beynəlxalq fəaliyyət üçün hədlər tətbiq etməklə və insan həyatının qorunmasını əsas məsələ kimi imtiyaz etməklə onu yenidən konfiqurasiya edir. Qoruma məsuliyyəti dövlət suverenliyi ilə humanitar öhdəliklər arasındakı müasir qarşıdurmanı əhatə edir. (United Nations, 2005)

### 9. Suverenlik və qloballaşma: qarşılıqlı asılılıq, transmilli aktorlar və ortaq idarəetmə

Qloballaşma — iqtisadi inteqrasiya, transmilli şəbəkələr, millətlərarası institutlar — suveren muxtariyyətin bəzi praktik aspektlərini aşındırıb. Ticarət rejimləri, qlobal maliyyə, çoxmillətli korporasiyalar və transmilli vətəndaş cəmiyyəti daxili siyasət seçimlərini formalaşdırır və dövlətlər üçün mümkün tədbirlər spektrini məhdudlaşdırır. Bu dinamika səlahiyyətlərin yayılmasına səbəb olur: bir vaxtlar dövlətlər tərəfindən inhisara alınan bəzi funksiyalar indi qeyri-dövlət və transmilli aktorlar tərəfindən paylaşılır və ya həyata keçirilir. Bununla belə, suverenliyin hüquqi əsası güclü olaraq qalır: dövlətlər sərhədlər üzərində nəzarəti, tanınmanı və beynəlxalq hüquqda əsas normativ səlahiyyəti saxlayırlar.

### 10. İnteqrasiya olunmuş konseptual modelə doğru

Yuxarıda təsvir edilən yanaşmaların və təzyiqlərin çoxluğunu nəzərə alaraq, analitik cəhətdən fərqli, lakin qarşılıqlı təsir göstərən üç ölçüdən ibarət çoxlu, laylı suverenlik modelini təklif edirəm:

Hüquqi-institusional suverenlik (status): Rəsmi tanınma, müqavilə öhdəlikləri, beynəlxalq təşkilatlara üzvlük və hüquqi müdafiə (məsələn, ərazi bütövlüyü). Bu ölçü ən çox Montevideo Konvensiyası və BMT Nizamnaməsi kimi sənədlərdə kök salmışdır.

Empirik və ya effektiv suverenlik (tutum): Dövlət qurumlarının əhali və ərazi üzərində hakimiyyəti həyata keçirmək, qanunları tətbiq etmək və əsas ictimai malları təmin etmək üçün praktik qabiliyyəti. Bu, Ceksonun kvazi-dövlət tezisini əks etdirir və dövlət funksionallığındakı dəyişiklikləri izah edir. (Jackson, 1990)

Normativ-legitimlik suverenliyi: Hakimiyyəti legitimləşdirən mənəvi və siyasi qəbul – daxili və beynəlxalq. Bu, Frankın legitimlik təhlillərinə əsaslanır və minimal standartlara cavab verməyən dövlətlərin beynəlxalq normativ qaydada mövqeyini itirməsinin səbəbini izah edir. (Franck, 1990)

Bu ölçülər qarşılıqlı təsir göstərdiyi məqamlara bu yanaşmalar daxildir: hüquqi status effektiv səlahiyyət olmadan mövcud ola bilər (kvazi-dövlətlər); normativ səlahiyyətlərin verilməsi həm hüquqi statusu (sanksiyalar, tanınmanın dayandırılması yolu ilə), həm də empirik qabiliyyəti (yardımın və ya etibarlılığın itirilməsi yolu ilə) sarsıda bilər; beynəlxalq qurumlar yeni normativ öhdəlikləri əks etdirmək (qoruma məsuliyyəti) və ya transmilli idarəetməni (ticarət və maliyyə rejimləri) tətbiq etmək üçün hüquqi qaydaları yenidən formalaşdıra bilər. Krasnerin "mütəşəkkil ikiüzlülüyü" bizi xəbərdar edir ki, təcrübə həmişə normativ öhdəlikləri izləməyə bilər, lakin qanunun, səlahiyyətin və legitimliyin inkişaf edən qarşılıqlı təsiri suverenliyin tək bir anlayışa endirilə bilməyəcəyini göstərir. (Krasner, 1999)

### 11. Normativ təsirlər və praktik tövsiyələr

Yuxarıdakı nəzəri və empirik təhlillərdən bir neçə normativ nəticə və praktik tövsiyə ortaya çıxır:

Ərazi bütövlüyünü və suveren bərabərliyi qoruyan hüquqi çərçivə beynəlxalq nizam üçün vacib olaraq qalır, lakin indi dövlətləri əhalisini qorumaq üçün məsuliyyət daşıyan şərti normalarla birlikdə mövcud olmalıdır.

Suverenliyin qorunmasının bir hissəsi kimi potensialın artırılmasına diqqət yetirilməlidir: Kövrəkliyə qarşı beynəlxalq reaksiyalar yalnız qısamüddətli məcburi tədbirlərdən daha çox uzunmüddətli institut quruculuğuna və idarəetmə dəstəyinə üstünlük verməlidir. Effektiv suverenliyin gücləndirilməsi xarici müdaxilələrə ehtiyacı azaldır.

Qoruma məsuliyyəti çərçivəsində müdaxilə üçün daha aydın hədlər və prosedurlar hazırlanmalıdır: Seçmə tətbiq və "mütəşəkkil ikiüzlülük" anlayışlarını azaltmaq üçün beynəlxalq ictimaiyyət legitimliyi və effektivliyi təmin etmək üçün meyarları, mandat limitlərini və müdaxilə sonrası məsuliyyətləri təkmilləşdirməlidir.

Legitimlik metrikalarını diplomatik təcrübəyə inteqrasiya etmək mümkündür: Tanınma, sanksiyalar və əməkdaşlıq strateji maraqlarla yanaşı normativ legitimliyi (insan hüquqlarına hörmət, qanunun aliliyi) da nəzərə almalıdır.

### 12. Nəticə

Müasir dövrdə suverenlik ən yaxşı şəkildə çoxölçülü, mübahisəli və təcrübəyə yönəlmiş bir hüquq kimi başa düşülür. Montevideo meyarları və BMT Nizamnaməsi həyati hüquqi lövbərlər təmin etməyə davam edir, lakin müasir siyasi reallıqlar – dövlət kövrəkliyi, insan hüquqlarının qloballaşması, qoruma məsuliyyəti, iqtisadi qarşılıqlı asılılıq və post-müstəmləkə tənqidi - suverenliyin məzmununu və həyata keçirilməsini dəyişdirib. Burada təklif olunan üçölçülü model (hüquqi status, empirik qabiliyyət, normativ legitimlik) doktrinal sabitliyi empirik variasiya və normativ dəyişikliklə uzlaşdırmağa kömək edir.

Praktik siyasət suveren bərabərliyə hörməti əhalini qoruyan, idarəetmə qabiliyyətini gücləndirən və legitimliyi gücləndirən mexanizmlərlə balanslaşdırmalıdır. Bunu etmək məcburi və ya uyğunsuz müdaxilələrin hallarını azaldır və daha davamlı və ədalətli beynəlxalq nizamı təşviq edir. Nəticədə, suverenlik beynəlxalq həyatın mərkəzində qalacaq, lakin dövlətlər, qurumlar və cəmiyyətlər insanlar və ərazi üzərində hakimiyyətlə müşayiət olunan hüquq və vəzifələri yenidən müzakirə etdikcə onun mənası inkişaf etməyə davam edəcək.

### References (Ədəbiyyat)


1. Benvenisti, Eyal. Sovereigns as Trustees of Humanity: On the Accountability of States to Foreign Stakeholders. American Journal of International Law, 107(2), 295–333 (2013).
2. Franck, T. M. (1990). The power of legitimacy among nations. Oxford University Press.
3. Grimm, D. (2015). Sovereignty: The origin and future of a political and legal concept. Columbia University Press. https://cup.columbia.edu/book/sovereignty/9780231171160
4. Habermas, J. (2001). The postnational constellation: Political essays. MIT Press. https://mitpress.mit.edu/9780262582044/the-postnational-constellation/
5. Jackson, R. H. (1990). Quasi-states: Sovereignty, international relations and the Third World. Cambridge University Press. https://www.cambridge.org/core/books/quasistates/D7A4579413072EFCA01AE8075669FE57
6. Kelsen, H. (1928). Der soziologische und der juristische Staatsbegriff: kritische Untersuchungen des Verhältnisses von Staat und Recht (The Sociological and the Legal Concept of the State: Critical Investigation on the Relation Between State and Law).
7. Kelsen, H. (1945). General theory of law and state. Harvard University Press. https://archive.org/details/generalofthelaws00kels
8. Krasner, S. D. (1999). Sovereignty: Organized hypocrisy. Princeton University Press. https://dokumen.pub/sovereignty-organized-hypocrisy-core-textbooknbsped-9781400823260.html
9. Montevideo Convention on the Rights and Duties of States. (1933). Seventh International Conference of American States, Montevideo, 26 December 1933. https://www.ilsa.org/Jessup/Jessup15/Montevideo%20Convention.pdf
10. Sovereignty and Natural Law in the Legal Discourse of the Ancien Régime. Theoretical Inquiries in Law, Vol. 16, No. 2 (2015).
11. Troper, M. (2011). Le droit et la nécessité (Law and Necessity), 61–76.
12. United Nations. (1945). Charter of the United Nations. United Nations. https://www.un.org/en/about-us/un-charter/full-text
13. United Nations. (2005). 2005 World Summit Outcome (A/RES/60/1). United Nations General Assembly. https://www.un.org/en/development/desa/population/migration/generalassembly/docs/globalcompact/A_RES_60_1.pdf
14. United Nations. (2009). Implementing the Responsibility to Protect (A/63/677). Report of the Secretary-General.
15. United Nations. (n.d.). Repertory of Practice of United Nations Organs, Supplement No. 7, Vol. I, Article 2(4): Non-use of force. United Nations Office of Legal Affairs. https://legal.un.org/repertory/art2/english/rep_supp7_vol1_art2_4.pdf
16. Walker, N. (2003). Sovereignty and differentiation in the European Union. European Law Journal, 9(4), 355–387. https://doi.org/10.1111/1468-0386.00129
17. Weiss, T. G. (2014). The responsibility to protect: A background briefing. Global Centre for the Responsibility to Protect. https://www.globalQoruma Məsuliyyəti.org/publications/the-responsibility-to-protect-a-background-briefing/
18. Wheare, K. C. (1963). Modern constitutions. Oxford University Press.



**Nigar Qələndərli,**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin rəisi, ədliyyə müşaviri.**

# KİBER TƏHLÜKƏSİZLİK VƏ SUVERENLİYİN QORUNMASI: MİLLİ STRATEGİYALARIN ROLU


**Annotasiya**

Müasir rəqəmsal dövrdə kibertəhlükəsizlik dövlət suverenliyinin qorunmasında əsas strateji amillərdən birinə çevrilmişdir. Qlobal informasiya axınlarının sürətlənməsi, milli infrastrukturun, idarəetmə sistemlərinin və ictimai həyatın rəqəmsal texnologiyalardan asılılığının artması kibermәkanı həm əməkdaşlıq, həm də qarşıdurma mühiti halına gətirmişdir. Bu şəraitdə dövlətlərin informasiya və siyasi müstəqilliyi, kibermәkanda fəaliyyət azadlığı və təhlükəsizlik səviyyəsi ciddi sınaqlarla üzləşir. Məqalədə kibertəhlükəsizlik və suverenliyin qorunması arasındakı qarşılıqlı əlaqə elmi-nəzəri və praktiki aspektlərdə təhlil olunur. Xüsusilə dövlətlərin kiberhücumlar, məlumat sızmaları, kiber müharibə və kibercasusluq kimi təhlükələrə qarşı gördüyü tədbirlər, eləcə də milli strategiyaların bu prosesdəki rolu araşdırılır. Müxtəlif ölkələrin kibertəhlükəsizlik siyasətləri müqayisəli şəkildə təhlil edilərək milli maraqların qorunmasında hüquqi, institusional və texnoloji mexanizmlərin əhəmiyyəti göstərilir.



**Açar sözlər:** kibertəhlükəsizlik, suverenlik, milli təhlükəsizlik, informasiya suverenliyi, kiber-siyasət, rəqəmsal idarəetmə


## 1. Giriş

Müasir dövrdə milli suverenliyin qorunması anlayışı təkcə siyasi və coğrafi sərhədlərlə məhdudlaşmır, həm də rəqəmsal müstəviyə — kibermәkana — şamil olunur. Rəqəmsal texnologiyaların sürətlə inkişafı nəticəsində dövlətlər getdikcə daha çox bir-biri ilə inteqrasiya olunur, iqtisadi, sosial və siyasi həyatın əsas infrastrukturu texnoloji sistemlər üzərində qurulur. Bu vəziyyət, bir tərəfdən, qlobal əməkdaşlıq və inkişaf üçün unikal imkanlar yaradır, digər tərəfdən isə kibertəhlükəsizlik kimi yeni və mürəkkəb çağırışları gündəmə gətirir. Kiberhücumlar, məlumat sızmaları, dezinformasiya kampaniyaları, rəqəmsal vandalizm və "haktivizm" kimi təzahürlər dövlətlərin informasiya müstəqilliyinə, idarəetmə sistemlərinə və ictimai sabitliyinə ciddi təhlükə yaradır. Bu reallıq, hökumətləri suverenliyin klassik konsepsiyasını yenidən nəzərdən keçirməyə və kibermәkanda milli təhlükəsizlik strategiyalarını gücləndirməyə vadar edir.

Kibermәkan qlobal xarakter daşıdığından, onun tam şəkildə bir dövlətin nəzarətində saxlanılması mümkün deyil. Hüquqi yurisdiksiya, hücumların mənşəyinin müəyyənləşdirilməsi və beynəlxalq hüquqi mexanizmlərin zəifliyi bu sahədə əsas problemlərdən biridir. Bununla yanaşı, dövlətlərin informasiya infrastrukturunun mühüm hissəsi özəl sektora məxsus olduğundan, kibertəhlükəsizlik məsələsində məsuliyyət bölgüsü və koordinasiya çətinlikləri yaranır. Bu səbəbdən müasir dövrdə milli kibertəhlükəsizlik strategiyalarının hazırlanması və həyata keçirilməsi dövlət suverenliyinin qorunmasında həlledici rol oynayır. Belə strategiyalar yalnız texnoloji deyil, həm də hüquqi, institusional və siyasi mexanizmlərin inteqrasiyasını tələb edir.

## 2. Kibertəhlükəsizlik və milli suverenlik anlayışları

Milli suverenlik ənənəvi olaraq dövlətin ərazi və siyasi müstəqilliyini ifadə edir. Tarix boyu insanlıq kənd təsərrüfatı, sənaye və informasiya inqilablarını yaşamış və hər bir mərhələ milli suverenliyin mənasını və əhatəsini dəyişdirmişdir. Kənd təsərrüfatı dövründə suverenliyin əsas məğzi ərazi bütövlüyünün qorunması idisə, sənaye dövründə insan fəaliyyətinin məkanı dəniz və səma sahələrinə qədər genişləndiyi üçün suverenlik anlayışı da ona uyğun genişləndi. Müasir informasiya dövründə isə kibermәkan, dövlətlər üçün yeni sərhəd və qlobal idarəçilik sahəsi olaraq suverenliyin yeni kontekstini formalaşdırır (Tsagourias, 2022).

Kibermәkanda milli suverenliyin təzahürü, dövlətlərin kibermәkandakı fəaliyyətlərə nəzarəti və öz hüquqi sahəsini qorumaq qabiliyyəti ilə ölçülür. Kibermәkanın sərhədsiz və qlobal xarakteri dövlətlərin suverenliyinə yeni təhdidlər yaradır. Bu təhdidlərə kiberhücumlar, məlumat sızmaları və rəqəmsal casusluq kimi fəaliyyətlər daxildir (Yadav, 2024).

Kibertəhlükəsizlik, dövlətlərin informasiya infrastrukturunu, iqtisadiyyatını və ictimai həyatını qorumaq məqsədilə qəbul etdikləri hüquqi, institusional və texnoloji tədbirlər toplusudur. Bu tədbirlər dövlətlərin kibermәkanda suverenliyini təmin etmək baxımından mühüm əhəmiyyət kəsb edir, çünki kibermәkanın idarə olunması yalnız dövlətlərin deyil, həm də beynəlxalq təşkilatların və özəl sektorun birgə əməkdaşlığını tələb edir (WIC Internet Governance, 2024). Müxtəlif ölkələr kibertəhlükəsizliyi milli təhlükəsizlik strategiyalarının ayrılmaz hissəsi kimi qəbul edirlər. Məsələn, Çin 2016-cı ildə qəbul etdiyi "Kibertəhlükəsizlik Qanunu" ilə kibermәkan üzərində suverenliyini təmin etməyi hədəfləmişdir. Bu qanun ölkənin daxili şəbəkələrinin və məlumatlarının qorunmasını, eləcə də

xarici təsirlərdən müstəqilliyinin təmin olunmasını nəzərdə tutur (Quinn Emanuel, 2017).

Milli suverenlik və kibertəhlükəsizlik anlayışları yalnız texnoloji tədbirlərlə deyil, beynəlxalq hüquq və normativ çərçivələr daxilində də tənzimlənir. Dövlətlər kibermәkanda öz hüquqlarını qorumaqla yanaşı, beynəlxalq əməkdaşlıq və qarşılıqlı hörmət prinsiplərinə də riayət etməlidirlər. Suverenliyin beynəlxalq hüquqdakı mənası və əhatəsi kibermәkan kontekstində yeni şəkildə təhlil olunur. Ənənəvi olaraq "summa potestas" – yəni ali və bölünməz səlahiyyət – kimi dəyərləndirilən suverenlik, müasir dövrdə dövlətlərin yalnız fiziki əraziləri üzərində deyil, həm də rəqəmsal məkan üzərində nəzarətini ehtiva edir. Beynəlxalq hüquq orqanları, o cümlədən Beynəlxalq Məhkəmə (ICJ), suverenliyin beynəlxalq sistemin əsas prinsipi olduğunu vurğulamış və bu prinsipin kibermәkanla bağlı münasibətlərdə də qorunmasının vacibliyini qeyd etmişdir.

Dövlət suverenliyi həm daxili, həm də xarici aspektlərə malikdir. Daxili aspekt dövlət daxilində ali və bölünməz hakimiyyətin həyata keçirilməsini ifadə edir, xarici aspekt isə digər dövlətlər qarşısında müstəqillik və avtonomiyanı təmin edir. Suverenliyin ərazi ilə əlaqəsi onun tarixi formalaşması ilə sıx əlaqədardır və dövlətlərin siyasi-hüquqi vahid kimi mövcudluğunu təmin edən "Vestfaliya Sülhü" (1648) ilə möhkəmlənmişdir. Bu sülh nəticəsində əvvəlki dövrdə ərazidə üst-üstə düşən hakimiyyət strukturları tənzimlənmiş və hər bir dövlət üçün müəyyən, konsolidasiya olunmuş səlahiyyət sahəsi yaradılmışdır. Ərazi yalnız coğrafi və fiziki anlayış deyil, həm də hüquqi və siyasi konstruksiyadır; o, suverenliyin həyata keçməsi üçün müəyyən edilmiş daxili və xarici sərhədləri müəyyən edir. Lakin ərazi suverenliklə eyniləşdirilə bilməz; suverenlik həm əraziyə bağlı, həm də a-territorial xarakter daşıya bilər. Bu baxımdan ərazi yalnız suverenliyin konteyneri rolunu oynayır, lakin suverenliyin öz səlahiyyət və gücü ərazinin sərhədlərini aşaraq da tətbiq oluna bilər (Tsagourias, 2022).

Kibermәkanda suverenliyin tətbiqi xüsusilə sərhədsizliyi səbəbilə sual doğurur. Bəzi müəlliflər, məsələn "John Perry Barlow", kibermәkanı dövlət suverenliyindən tamamilə azad bir "mənəvi və intellektual məkan" kimi təqdim edir. O, 1996-cı ildə Davosda elan etdiyi "A Declaration of the Independence of Cyberspace" bəyanatında dövlətlərə müraciətlə bildirirdi ki, "siz bizim toplaşdığımız yerdə suveren deyilsiniz" və "kibermәkan sizin sərhədləriniz daxilində deyil". Bu mövqeyə görə, kibermәkan nə hüquqi, nə də fiziki baxımdan dövlətlərin nəzarəti altına düşə bilməz; o, təbiətinə görə sərhədsiz, özünütənzimləyən və qeyrimaddi bir sosial mühitdir (Barlow, 1996).

Johnson və Post da oxşar mövqedən çıxış edərək kibermәkanın öz ayrıca hüquqi sisteminə malik olmasının zəruriliyini qeyd edirlər (Johnson & Post, 1996). Onların arqumenti, kibermәkandakı sərhədsizlik və çoxyurisdiksiyalı struktur üzərində qurulmuşdur. Buna qarşı, Goldsmith suverenliyin kibermәkanda da tətbiq oluna biləcəyini müdafiə edir və dövlətlərin həm ərazi daxilində, həm də xaricində yurisdiksiya həyata keçirmək imkanını vurğulayır (Goldsmith, 1998).

Dövlətlər kibermәkanda suverenliyini birbaşa yollarla göstərdikləri kimi, "dolayı yollarla da tətbiq edə bilərlər". Dolayı nümunə, bir dövlətin qanunlarının "spill over" effekti ilə kibermәkanda digər yurisdiksiyalara təsir göstərməsidir. Məsələn, bir dövlət pornografik və ya terror materiallarına girişin tənzimlənməsini təmin edərək, həmin materialların kibermәkanda yayılmasını çətinləşdirə bilər, baxmayaraq ki, ümumi tənzimləyici rejim olmadıqda bu tam olaraq mümkün olmayacaq. Dövlətlər həmçinin öz qanunlarını qlobal səviyyədə tətbiq edərək təsir göstərə bilərlər.

Bu baxımdan Google və Fransanın "Commission Nationale de l'Informatique et des Libertés (CNIL)" arasında yaranmış "right to be forgotten" (şəxsi məlumatların bağlantılarının silinməsi hüququ) məsələsi nümunə kimi maraqlıdır. Google google.fr saytından materialları silmiş və Avropa istifadəçilərinin həmin bağlantılara daxil olmasının qarşısını almaq üçün "geo-blocking" funksiyasını tətbiq etmişdir. Lakin CNIL dünya üzrə silinməni tələb etmişdir. Google məsələ ilə bağlı Conseil d'État-a müraciət etmiş, oradan iş Avropa İttifaqının Ədalət Məhkəməsinə (CJEU) göndərilmişdir. Google iddia etmişdir ki, CNIL-in bu tələbi beynəlxalq hüququn "hörmət və müdaxilə etməmə prinsiplərini" (sovereignty prinsiplərinin bir hissəsi) nəzərə almır (C-507/17, para 37). Məhkəmə qərar vermişdir ki, Google-un Avropa İttifaqı qanununa dünya üzrə riayət etmək öhdəliyi yoxdur; lakin bu ehtimalı istisna etməmişdir. Əksinə, qərar "milli hakimiyyətlərin kibermәkanda qanun tətbiq etmək səlahiyyətini" tanımışdır (C-507/17, Judgment of 24 September 2019 ECLI:EU:C:2019:772). EU bir suveren dövlət olmasa da, qərar "Ümumi Məlumatların Qorunması Qaydalarına (GDPR)" əsaslanır ki, bu da EU ölkələri tərəfindən milli qanun kimi tətbiq olunur.

Dövlətlər kibermәkanda suverenliyi texnoloji və siyasi tədbirlərlə də təmin edə bilərlər. Çin "cyber sovereignty" prinsipini müdafiə edir və bu prinsipin tətbiqi ilə daxili və xarici suverenliyi qoruyur. Daxili suverenlik texniki, hüquqi və sosial vasitələrlə həyata keçirilir, xarici suverenlik isə beynəlxalq kibermәkanda

iştirakın bərabər və çoxdərəfli olmasına yönəlir (Xi, 2010; International Strategy of Cooperation on Cyberspace, 2017). Digər nümunələrdə isə Şimali Koreya, İran və Rusiya milli internetlərini izolyasiya edərək, milli kiberməkan yaratmaqla suverenliklərini tətbiq edirlər. Bu, qanunvericilik, məlumatların lokallaşdırılması, şifrələmə və digər texniki tədbirlərlə müşayiət olunur (Tsagourias, 2022).

Azərbaycan da kiberməkanda suverenliyini qorumaq üçün bir sıra tədbirlər həyata keçirir. Ölkə milli informasiya məkanının təhlükəsizliyini təmin etmək, vətəndaşların məlumatlarını qorumaq və kibertəhlükəsizlik sahəsində normativ hüquqi bazanı gücləndirmək məqsədilə hüquqi, texnoloji və institusional tədbirlər görür. Bu çərçivədə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 avqust 2023-cü il tarixli, 4060 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiya" təsdiq edilmişdir. Strategiya dövlətin kiberməkandakı suverenliyinin həm daxili, həm də xarici aspektlərini təmin etməyə yönəlir (Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı, 2023).

Kibertəhlükəsizlik və milli suverenlik bir-birini tamamlayan anlayışlardır. Dövlətlər kiberməkanda suverenliklərini qorumaq üçün güclü kibertəhlükəsizlik strategiyaları inkişaf etdirməli, həm texnoloji hazırlığa, həm hüquqi və institusional tədbirlərə, həm də beynəlxalq əməkdaşlıq və normativ prinsiplərə əsaslanmalıdırlar (UNGA, 2015; Leksyutina, 2022; WIC Internet Governance, 2024). Bu yanaşma yalnız dövlətlərin suverenliyini təmin etmir, həm də kiberməkanda sabitlik, təhlükəsizlik və etibarlı idarəçiliyin formalaşmasına xidmət edir. Buna görə də, kibertəhlükəsizlik və milli suverenlik arasındakı qarşılıqlı əlaqə yalnız konseptual deyil, həm də praktik əhəmiyyət kəsb edir. Güclü və inteqrasiya olunmuş kibertəhlükəsizlik strategiyaları dövlətlərin öz suverenliyini qorumasına imkan yaratmaqla yanaşı, beynəlxalq kiberməkanda sabitlik, təhlükəsizlik və etibarlı idarəçilik üçün də əsas şərtdir. Bu baxımdan, dövlətlər həm milli, həm də qlobal səviyyədə koordinasiya olunmuş tədbirlər görməli, texnoloji infrastrukturun inkişafı, hüquqi və institusional mexanizmlərin möhkəmləndirilməsi və beynəlxalq əməkdaşlığın təmin olunmasını prioritet olaraq qəbul etməlidirlər.

### 3. Milli kibertəhlükəsizlik strategiyalarının həyata keçirilməsi və idarəetmə mexanizmləri

Müasir dövrdə kibertəhlükəsizlik strategiyaları dövlətlərin milli təhlükəsizlik konsepsiyasının ayrılmaz hissəsinə çevrilmişdir və rəqəmsal dövrdə suverenliyin qorunmasında əsas vasitə rolunu oynayır. Qloballaşmış informasiya mühiti sərhədsiz axınlar və müxtəlif mənşəli təhdidlər yaradır, bu da dövlətlərin daxili və xarici təhlükəsizlik sistemlərinə birbaşa təsir göstərir (ENISA, 2023). Bu səbəbdən milli kibertəhlükəsizlik strategiyası yalnız texniki tədbirlərdən ibarət deyil; o, institusional, hüquqi və idarəetmə yönümlü mexanizmlərin kompleks sistemini tələb edir.

Milli strategiyaların həyata keçirilməsində idarəetmə mexanizmləri əsas komponentdir. ENISA və ITU-nun birgə araşdırmalarına görə, uğurlu kibertəhlükəsizlik siyasəti üç əsas komponent üzərində qurulmalıdır: a) koordinasiya olunmuş idarəetmə strukturu; b) hüquqi və normativ baza; c) monitorinq və qiymətləndirmə mexanizmləri (ITU, 2022). Dövlətlər, kiberməkan fəaliyyətlərini tənzimləmək və müxtəlif dövlət qurumları arasında əlaqələndirməni təmin etmək üçün mərkəzi icra orqanları və milli kibertəhlükəsizlik şuraları yaradırlar. Məsələn, Estoniya, Finlandiya və Yaponiya təcrübəsi göstərir ki, bu orqanlar yalnız texniki tədbirlərlə deyil, həm də kiberməkanla bağlı hüquqi və diplomatik qərarların qəbulunda mühüm rol oynayır (Dunn Cavelty, 2024).

Milli strategiyanın idarəetmə strukturu adətən iki səviyyədən ibarətdir: qərarverici və icraedici. Qərarverici səviyyə hökumət və ya Prezident Administrasiyası tərəfindən ümumi prioritetləri və milli təhlükəsizlik istiqamətlərini müəyyən edir. İcraedici səviyyə kibertəhlükəsizlik mərkəzləri və dövlət-özəl sektor nümayəndələri vasitəsilə strategiyanın texniki və praktik tətbiqini həyata keçirir. ENISA-nın "National Cybersecurity Strategies – Practical Guide" (2023) sənədində vurğulanır ki, uğurlu strategiyalar yalnız o zaman dayanıqlı olur ki, hökumət strukturları ilə özəl sektor və vətəndaş cəmiyyəti arasında qarşılıqlı əməkdaşlıq mexanizmi qurulmuş olsun.

İctimai-özəl tərəfdaşlıq (Public-Private Partnership, PPP) milli kibertəhlükəsizliyin vacib komponentlərindən biridir. Kritik infrastrukturun (enerji, rabitə, bank, nəqliyyat) böyük hissəsi özəl sektora məxsus olduğundan, dövlətin kiberməkandakı suverenliyini qorumaq üçün özəl sektorun məsuliyyəti və məlumat mübadiləsində iştirakı təmin edilməlidir (UN GGE, 2015). PPP modeli yalnız hücumların aşkarlanması və qarşısının alınmasında deyil, həm də informasiya axınının etibarlılığının qorunmasında effektivdir.

Milli CSIRT (Computer Security Incident Response Team) və digər texniki qurumlar milli strategiyaların əməli səviyyədə həyata keçirilməsində mühüm rol oynayır. 2007-ci ildə Estoniyada dövlət orqanları və banklara qarşı kütləvi kibercinayət hücumları baş

vermişdi; bu hadisə mərkəzləşdirilmiş və koordinasiyalı komandanın vacibliyini nümayiş etdirdi (Tikk, 2011). Beynəlxalq təcrübə göstərir ki, ölkələr öz milli kibertəhlükəsizlik strategiyalarını effektiv həyata keçirmək üçün oxşar texniki struktur və koordinasiya mexanizmlərinə malik olmalıdırlar. Bu baxımdan, Azərbaycan Respublikasında 2013-cü ildə yaradılmış CERT.AZ milli strategiyanın həyata keçirilməsinə texniki dəstək verir və informasiya sistemlərinin təhlükəsizliyini təmin edir.

Milli strategiyanın həyata keçirilməsinin digər mühüm istiqaməti qanunvericilik bazasının gücləndirilməsidir. Hüquqi mexanizmlər kibermənkanda dövlətin suveren səlahiyyətlərini təmin edir, kiberhücumlara cavab tədbirlərinin legitimliyini formalaşdırır və strategiyanın əməli səviyyədə tətbiqini dəstəkləyir (ENISA, 2020). Hüquqi baza eyni zamanda beynəlxalq hüquqa uyğun fəaliyyətin təminatıdır və dövlətlər arasında məlumat mübadiləsi və kiber hadisələrə qarşı birgə reaksiya imkanlarını artırır.

Beynəlxalq təcrübə göstərir ki, kibertəhlükəsizlik strategiyalarının davamlılığı yalnız texniki və hüquqi tədbirlərdən asılı deyil, həm də insan kapitalının inkişafı ilə bağlıdır. ENISA (2024) və CSIS (2022) hesabatlarına görə, ixtisasartırma proqramları və peşəkar təlimlər kibertəhlükəsizliyin idarəetmə mexanizmlərinin ayrılmaz komponentləridir, çünki insan faktoru hələ də kiberhücumların əhəmiyyətli hissəsinə təsir göstərir. Bu yanaşma dövlətlərin kibermənkanda effektiv suverenliyini təmin etməyə imkan yaradır.

### 4. Nəticə

Müasir dövrdə kibertəhlükəsizlik və milli suverenlik bir-birini tamamlayan anlayışlardır. Dövlətlər rəqəmsal dövrdə suverenliyini qorumaq üçün yalnız texnoloji müdafiəyə deyil, həm də hüquqi, institusional və idarəetmə mexanizmlərinə əsaslanan kompleks strategiyalar həyata keçirməlidirlər. Milli kibertəhlükəsizlik strategiyaları koordinasiya olunmuş idarəetmə strukturları, ictimai-özəl tərəfdaşlıq, qanunvericilik bazası, insan kapitalının inkişafı və beynəlxalq əməkdaşlığı birləşdirərək dövlətlərin kibermənkanda həm daxili, həm də xarici suverenliyini təmin edir. Beynəlxalq təcrübə göstərir ki, yalnız mərkəzləşdirilmiş, koordinasiyalı və ölçülə bilən mexanizmlərə malik strategiyalar effektiv olur. Güclü və inteqrasiya olunmuş kibertəhlükəsizlik strategiyaları yalnız milli suverenliyi qorumaqla kifayətlənmir, həm də beynəlxalq kibermənkanda stabillik, təhlükəsizlik və etibarlı idarəçiliyin formalaşmasına xidmət edir. Nəticədə dövlətlər həm milli, həm də qlobal səviyyədə davamlı, koordinasiya olunmuş və strateji yönümlü tədbirlər görməklə kibermənkandakı mövqelərini möhkəmləndirməli və suverenliyini effektiv qorumaq imkanına malik olurlar.

### REFERENCES (ƏDƏBİYYAT)


1. Barlow, J. P. (1996). A Declaration of the Independence of Cyberspace. Retrieved from (https://www.eff.org/cyberspace-independence)
2. CSIS. (2022). Building Cyber Workforce Resilience. Center for Strategic and International Studies.
3. C-507/17, Google Inc v Commission nationale de l'informatique et des libertés (CNIL), Judgment of 24 September 2019, ECLI:EU:C:2019:772.
4. Dunn Cavelty, M. (2024). The Politics of Cyber-Security. 1st Edition. New York: Routledge.
5. International Strategy of Cooperation on Cyberspace. (2017). Beijing: Ministry of Foreign Affairs of the People's Republic of China.
6. Johnson, D. R., & Post, D. G. (1996). Law and borders: The rise of law in cyberspace. Stanford Law Review, 48, 1367.
7. Leksyutina, Y. (2022). Sovereignty and governance in cyberspace. St. Petersburg State University Press.
8. Pelayo, R. I. R. (2023). National cybersecurity frameworks and sovereignty. Universidad Anáhuac México.
9. Quinn Emanuel. (2017, January 1). China's 2016 Cybersecurity Law Will Change the Way Multinational Companies Do Business in China.
10. Singh, S. (2023). Cyber sovereignty in the Global South. Jawaharlal Nehru University Press.
11. Tsagourias, N. (2022). The evolution of sovereignty in cyberspace. University of Sheffield.
12. UNGA. (2015). Group of Governmental Experts on Developments in the Field of Information and Telecommunications in the Context of International Security (UN Doc A/70/174).
13. WIC Internet Governance. (2024, January 16). Sovereignty in Cyberspace: Theory and Practice. Retrieved from (https://www.wicinternet.org/2024-01/16/c_956165.htm)
14. Xi, J. (2010). Cyber Sovereignty in the Information Age. Beijing: People's Publishing House.
15. Yadav, K. (2024). Cybersecurity and national sovereignty: Challenges in the digital age. International Journal of Social Sciences and Research, 1(1), 1–14.
16. Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı №4060, 28 avqust 2023.



**Rauf Abdullayev,**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin prokuroru, ədliyyə müşaviri.**

# Azərbaycan Konstitusiyanın tələblərinə və suveren hüquqlarına əsaslanaraq strateji hədəflərə doğru inamla irəliləyir

**"Konstitusiya Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü təmin edən Konstitusiyadır və əminəm ki, bu, daimi olacaqdır. Xalqımız bu Konstitusiyanın müddəalarından istifadə edərək, Azərbaycanın dövlət müstəqilliyini əbədi edəcəkdir. Yeni Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün əsaslar yaratmış, bütün təminatları vermişdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir".**

**Heydər ƏLİYEV,**
**Ümummilli Lider.**

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Bu mühüm addımı şərtləndirən əsas amil Konstitusiyamızın qəbul edilməsinin 30 və Vətən müharibəsində qələbəmizin 5 ilinin tamam olmasıdır. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunda inamla addımlayır. Təbii ki, Azərbaycanın hər bir uğuru Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunsa da, xalqımız müstəqilliyimizin bərpasının sevincini yalnız 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra yaşamışdır. Ulu öndərin hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas olmuş, sürətli inkişafın möhkəm təməlləri qoyulmuşdur. Ulu öndərin xalqımız və tariximiz qarşısında ən böyük xidmətlərindən biri Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizin parçalanıb yox olmaq təhlükəsindən azad etməsində olmuşdur. Ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunmuş Azərbaycanın ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etmişdir. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığının təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.




Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı tarixi xidmətlərindən biridir. 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət olan bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi bir sənəddir. Konstitusiyada insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi bəyan edilmişdir. Eyni zamanda, Konstitusiya ilə dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipləri əsasında təşkil edilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq müəyyənləşdirilmişdir. Ümummilli Lider Heydər Əliyev bu çağırışı etmişdir ki, hər bir şəxs Konstitusiya və qanunlara dönmədən əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələri layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir. Eyni zamanda, Ulu öndər bildirmişdir ki, əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.

Bu mühüm reallığı xüsusi qeyd etməliyik ki, hər dövrün öz tələbi və çağırışları vardır. Bu çağırışlar daim yeniləşməni və təkmilləşməni bir zərurət kimi qarşıya qoyur. Bu baxımdan qəbul olunan qanunlarımız, eləcə də Konstitusiyamız dəyişməz qəbul edilmir, daim dövrün tələbinə uyğun olaraq əlavə və dəyişikliklər edilməsi ilə diqqətdə olur. Konstitusiyamızın qəbulundan ötən 30

ildə bu ali sənədə üç dəfə əlavə və dəyişikliklərin edilməsi məqsədilə ümumxalq səsverməsi keçirilmiş, bu əlavə və dəyişikliklərin böyük bir hissəsi insan hüquq və azadlıqlarının qorunmasına, yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsinə, həmçinin idarəçilik sistemimizin daha da təkmilləşməsinə xidmət etmişdir. Ölkə ictimaiyyətinin bu dəyişikliyə dəstəyi ümumxalq səsverməsində fəal iştirakında öz aydın ifadəsini tapmışdır. Dövlətin ali məqsədi maddəsinə edilən əlavə və dəyişiklik də təqdirəlayiq qarşılanmışdır. Belə ki, bu dəyişiklik bir daha insan amilinin dövlət siyasətinin əsası olduğunu nümayiş etdirmişdir. Həmin əlavə və dəyişikliyə görə dövlətin ali məqsədi insan hüquq və azadlıqların qorunması ilə yanaşı, vətəndaşların layiqli həyat səviyyəsini təmin etməkdir. Göründüyü kimi, bütün hüquqlarımız dövlət tərəfindən yüksək səviyyədə qorunmaqdadır. Dövlətimizin başçısı İlham Əliyev bildirmişdir: “Bu gün Azərbaycanda bütün azadlıqlar mövcuddur. Ancaq eyni zamanda, qanun-qayda da var. Azərbaycanda Konstitusiyada təsbit olunmuş bütün azadlıqlar, hüquqlar qorunur. Eyni zamanda, hər bir vətəndaş da məsuliyyətini hiss etməlidir. Heç kimə imkan verilməyəcək ki, qanunu pozsun. Heç kimə imkan verilməyəcək ki, hansısa müstəsna güzəştlərə malik olsun. Hamı necə, başqası da elə. Biz hüquqi dövlət qururuq. Qanunun aliliyi bizim üçün başlıca şərtdir və heç kimə, heç bir şəxsə, heç bir qüvvəyə imkan verilməyəcək ki, qayda-qanunu pozsun, qeyri-qanuni hərəkətlər etsin.”

Ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən cənab prezidentimiz İlham Əliyevin 2007-ci ildə imzaladığı Fərmana əsasən 17 iyun ölkəmizdə “İnsan Hüquqları Günü” kimi təsis edilmişdir. Həmçinin, insan hüquqlarının müdafiəsi sahəsində aparılan islahatların davam etdirilməsi məqsədilə prezident İlham Əliyevin Sərəncamı ilə “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı”nın qəbulu da insan amilinə diqqətin bariz nümunəsidir.

Ötən 30 ildə görülən işlərin və atılan addımların uğurlu nəticəsi olaraq Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından 2003-cü ilə qədərki dövrdə 425 qanun, beynəlxalq sənədlərə qoşulmaya dair 419 müvafiq akt, 100 mindən artıq insana şamil edilən 32 əfv sərəncamı və 7 amnistiya aktı qəbul edilmişdir. Əfv sərəncamları, və amnistiya aktları dövlətin insan hüquq və azadlıqlarının qorunmasına diqqətinin ifadəsidir. Dövlət başçısı İlham Əliyevin əlamətdar günlərdə, eləcə də bayramlarda əfv sərəncamları imzalaması Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan humanizm siyasətinin uğurla davam etdirilməsinin təsdiqidir. 2003-cü ildən Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən prezident İlham Əliyev tərəfindən 40-a yaxın əfv Sərəncamı imzalanmışdır.

Göründüyü kimi, dövlətimiz daim vətəndaşının yanında olmaqla, onun hüquq və azadlıqlarının etibarlı təminatçısıdır. Azərbaycan demokratik dəyərlərə sadiqliyini sadəcə sözdə deyil, eyni zamanda əməldə də təsdiqləmişdir. Bütün bu işlərin vəhdətinin qorunması ölkəmizin hərtərəfli inkişafında vacib amildir.

Qeyd olunanlarla yanaşı, bu il 44 günlük İkinci Qarabağ müharibəsində tarixi zəfərimizin beş ili tamam olur. Şanlı Qələbəmiz ölkəmizin Ümummilli liderinin 1993-cü ildə hakimiyyətə qayıdışından başlayaraq bu günədək keçdiyi inkişaf yolunun aydın təzahürünü yaradır. Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri tarixi zəfərə imza atmış, öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur. Həmçinin, 2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə lokal xarakterli antiterror əməliyyatına başlanmış, cəmi 23 saat davam edən və sentyabrın 20-də başa çatan əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirərək növbəti parlaq qələbə nəticəsində Azərbaycan Respublikası öz suverenliyini bütün ərazilərində tam bərpa etmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı zəfər sayəsində bu gün Azərbaycan Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə qürurla dalğalanır. Suverenliyimizin tam bərpası yeni dövrə qədəm qoyan Azərbaycanın qarşısında yeni üfüqlərin açılmasına gətirib çıxarmışdır. Müstəqillik tariximizdə ilk dəfə olaraq bütün ölkə ərazisində prezident, parlament, bələdiyyə seçkilərinin keçirilməsi, dövlət başçısı İlham Əliyevin prezident seçkilərində ailə üzvləri ilə birlikdə Xankəndidə səs verməsi qürurverici hadisələrdən olmuşdur. Bu gün Qarabağımız və Şərqi Zəngəzurumuz yeni reallıqlar fonunda cənnət məkana çevrilməkdədir. Soydaşlarımız Böyük Qayıdış Proqramının uğurlu icrası nəticəsində mərhələ-mərhələ doğma yurd-yuvalarına qayıtmaqdadılar. Tarixi zəfərimizin, suverenliyimizin əbədiləşdirilməsinə yönələn addımlar davamlılığı ilə diqqətdədir. Belə ki, Zəfər Gününün, Dövlət Suverenliyi Gününün, azad edilmiş ərazilərimiz üzrə şəhər günlərinin təsis edilməsi bu məqsədə xidmət edən mühüm addımlar sırasındadır. Bu gün, uğurlarımızın qeyd olunan davamlılığı ölkəmiz üçün yeni hədəfləri şərtləndirir. “Konstitusiya və Suverenlik ili” ilə bağlı Sərəncamda da vurğulandığı kimi, bu gün Azərbaycan xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

**Bəhruz Qədirli,**
**Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuror-metodisti,**
**I dərəcəli hüquqşünas.**

# Dahinin dühasından doğan müasir Azərbaycan

*"...Xalq mənim gücüm, inamım, arxamdır, ömrümün sonuna qədər xalqıma, millətimə, doğma vətənim Azərbaycana sədaqətlə xidmət edəcəyəm...."*

**Heydər Əliyev**
**Azərbaycan xalqının Ümummilli Lideri**

*"...Məhz 1993-2003-cü illərdə qoyulmuş möhkəm təməl, başlanmış islahatlar, irəli sürülmüş təşəbbüslər bugünkü reallığı mümkün edibdir..."*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Müzəffər Ali Baş Komandan**




Hər il olduğu kimi, bu il də Fəxri xiyabanda izdiham müşahidə olunur, prokurorluq, o cümlədən hərbi prokurorluq əməkdaşları da Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Fəxri xiyabanı ziyarət edib, nəhəng tarixi şəxsiyyətin ruhuna ehtiramlarını ifadə etdilər. Bu, əsl xalq sevgisidir və bu sevgi Ümummilli Liderin milləti və dövləti qarşısındakı misilsiz xidmətlərindən yaranmışdır. Müasir Azərbaycan məhz dahi Heydər Əliyevin dühasından doğmuşdur. Belə ki, müstəqilliyimizin ilk illərində siyasi çəkişmələr ölkə həyatını iflic edir, müharibə şəraitində olan, işğala məruz qalan dövlətdə vahid komandanlığa tabe olan ordu olmadığından silahlı qüvvələr ayrı-ayrı şəxslərin əlində alətə çevrilir, iqtisadiyyat tənəzzülə uğrayır, respublikada vətəndaş həmrəyliyi pozulur, hətta ölkədə "qardaş qanı" axıdılır və vəziyyət Azərbaycan Xalq Cümhuriyyətinin acı taleyinin təkrarlanması, ikinci dəfə qazanılan müstəqilliyin də itirilməsi təhlükəsi həddinə çatır. Belə bir olduqca acınacaqlı vəziyyətdə dövlətçilik ənənələrinə böyük önəm verən və nicatın onda olmasına əmin olan xalq, doğru seçim edərək özünün sınanmış rəhbərini – Ümummilli Lider Heydər Əliyevi israrlı tələblə müstəqil Azərbaycanın rəhbərliyinə dəvət edir.

Azərbaycanı və xalqını özündən çox sevən Ulu Öndər bütün təhlükələri gözaltına almaqla, heç birinə məhəl qoymadan xalqın çağırışını qəbul edərək, 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəlir və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilir. Bir müddət sonra Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayan dünyaşöhrətli siyasətçi Heydər Əliyev, 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilir. Hər bir Azərbaycanlı bilir ki, ölkəmizin müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən həmin anda dünyaşöhrətli siyasətçi, böyük tarixi şəxsiyyət hakimiyyətə gəlməsəydi, nəinki bugünkü qüdrətli Azərbaycan olmazdı, ümumiyyətlə onun mövcudluğu sual altında ola bilərdi.

Dahi Lider ölkəni böhran vəziyyətindən, müstəqilliyini itirmək təhlükəsindən xilas etmək üçün müdrik siyasəti ilə qısa müddət ərzində vətəndaş qarşıdurmasının və müharibənin dayandırılmasına nail olmaqla, Azərbaycanda sabitliyin bərpasını təmin edir ki, bu da genişmiqyaslı islahatların başlanmasına rəvac verir. Beləliklə də, ölkəsini olduqca ağır vəziyyətdən yüksək məharətlə çıxarmış Heydər Əliyevin təşəbbüsü və

rəhbərliyi ilə ölkədə bütün sahələrdə hərtərəfli islahatlar həyata keçirilməyə başlanılır. Məlum olduğu kimi, Ulu Öndərin ikinci dəfə respublikamıza rəhbərliyinin ilk illərində ölkəmiz vətəndaş müharibəsindən yenicə qurtulmuş, atəşkəs rejimini təzəcə əldə etmiş ölkə olduğundan, həmin dövrdə investorları Azərbaycana sərmayə qoymaq üçün həvəsləndirmək, onların etimadını qazanmaq həddindən artıq çətin, demək olar ki, mümkünsüz bir məsələ idi. Bununla belə, peşəkar siyasətçi 1994-cü ilin sentyabrında ölkəmizin qüdrətlənməsində mühüm əhəmiyyəti olan, Azərbaycanın Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının istifadə edilməsi barədə "Əsrin müqaviləsi" kimi möhtəşəm bir müqavilənin bağlanılmasına müvəffəq oldu. Sözsüz ki, Azərbaycan neftinin dünya bazarlarına çıxmasında müstəsna rolu olan Bakı-Tibilisi-Ceyhan neft kəmərinin təməlinin qoyulması, Azərbaycanı dünyada böyük qaz potensialına malik olan bir dövlət kimi tanıdan "Şahdəniz" layihəsinin, həmçinin "İpək Yolu" layihəsinin reallaşması da bu dahi şəxsiyyətin xidmətləri idi. Xüsusi vurğulamaq lazımdır ki, türk dünyasının bir-biri ilə, eləcə də bütün dünya ilə birləşdirilməsinə xidmət edən, eyni zamanda, məqsədi Orta Asiya və Qafqaz ölkələrinin dünya iqtisadiyyatına fəal qoşulmasını təmin etməkdən ibarət olan tarixi "İpək Yolu" layihəsinin reallaşdırılmasında Bakı-Tbilisi-Ceyhan boru xəttinin mühüm əhəmiyyətini nəzərə alan aqil Lider, bu səbəbdən əvvəlcə bütün qüvvəsini həmin xətt layihəsinə yönəldib. Tarix onun növbəti uzaqgörənliyini təsdiq etdi və göstərdi ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru xəttinin, Şərq-Qərb nəqliyyat dəhlizinin, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası və qədim "İpək Yolu"nun bərpası Ulu Öndər Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının qüdrətlənməsinə yönələn müdrik siyasəti olmaqla bərabər, həm də türk dünyasının birləşdirilməsinə hesablanıb.



Xalqı və dövləti qarşısında misilsiz xidmətləri olan, müstəqilliyimizin müəllifi və müasir dövlətimizin memarı Ulu Öndər Heydər Əliyevin milləti qarşısındakı ən böyük xidmətlərindən biri də, Azərbaycanın gələcək taleyində müstəsna rolu olan, Vətənin və vətəndaşların maraqlarını hər şeydən uca tutan cənab İlham Əliyev kimi bütün ali insani keyfiyyətlərə malik böyük tarixi şəxsiyyət və müdrik rəhbər hazırlaması olub. Bu ondan irəli gəlirdi ki, Azərbaycanı canından çox sevən uzaqgörən insanı ölkəsinin təkcə özünün rəhbərlik etdiyi dövr üçün deyil, ondan sonrakı taleyi də düşündürürdü. 2003-cü ildə səhhətində ciddi problemlər yaranan vaxtlarda belə öz sağlamlığını deyil, xalqının və Vətəninin firavan gələcəyini fikirləşən böyük qəlbli şəxsiyyət Heydər Əliyev ictimai rəyə və ümumxalq mövqeyinə əsaslanmaqla Azərbaycan xalqına müraciət edərkən cənab İlham Əliyevi ondan sonra Respublikaya rəhbərlik etməyə qadir lider kimi gördüyünü bildirib. Ölkəmizin taleyinin həlledici məqamlarında hər zaman olduğu kimi, yenə də Ulu Öndər Heydər Əliyevin müdrik məsləhətinin intizarında olan xalq məhz sonsuz inam bəslədiyi rəhbərin millətinin və dövlətinin gələcəyini düşünməklə verdiyi çox dəyərli tövsiyəsindən bəhrələnərək düzgün seçim etməklə, bu gün bənzərsiz fəaliyyəti digər dövlət başçılarına örnək olan cənab İlham Əliyevi özünə Prezident seçir. Bundan sonra Ulu Öndərin sürətli iqtisadi inkişaf konsepsiyasını uğurla davam etdirən Prezidentin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilir, həmçinin iqtisadiyyatımızın daha da güclənməsinə xidmət edən digər əhəmiyyətli işlər görülür, tərəqqinin davamlılığı təmin olunur. Belə ki, 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəməri istifadəyə verilib. Bundan başqa, 2018-ci ildə Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində mühüm rol oynayan Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin Bakıda rəsmi açılış mərasimləri keçirilib. Bundan əlavə, 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in müddəti 2017-ci ilin sentyabrın 14-də yeni, ölkəmiz üçün daha əlverişli şərtlərlə 2050-ci ilə

qədər uzadılıb, bu isə Azərbaycanda bundan sonra da uzun illər neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına zəmin yaradıb.

Xüsusi vurğulamaq lazımdır ki, praqmatik Lider İlham Əliyevin yürütdüyü son dərəcə təmkinli və balanslaşdırılmış siyasət sayəsində 12 avqust 2018-ci il tarixdə Qazaxıstanda 5 Xəzəryanı dövlət başçılarının iştirakı ilə imzalanan tarixi Aktau Konvensiyası ilə 1996-cı ildən davam edən Xəzərin hüquqi statusu ilə bağlı 22 illik danışıqlar milli maraqlarımızı qane edən sonluqla bitib və Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi birdəfəlik öz həllini tapıb. 2018-ci il oktyabrın 19-da Azərbaycan-Türkiyə qardaşlığının növbəti təzahürü olaraq birgə səylərlə reallaşdırılan, hər iki dövlətin iqtisadi inkişafına, bütövlükdə regionun tərəqqisinə böyük töhfə olan "Star" neft emalı zavodunun açılışı da neft strategiyasının uğurlarından olub. Azərbaycandan Avropa bazarlarına təbii qazı ixrac etmək üçün ən qısa və birbaşa yol kimi seçilib, Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP layihəsi də yekunlaşdırılıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində də müstəsna əhəmiyyətli işlər görülüb. Belə ki, təməli 2007-ci ildə qoyulmuş Bakı–Tbilisi–Qars dəmir yolunun 2017-ci il oktyabrın 30-da Bakıda rəsmi açılışı olub. 2018-ci il sentyabrın 18-də isə yeni Ələt-Astara-İran İslam Respublikası magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan ərazisində "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin reallaşması üçün işlər başa çatdırılıb. Təbii ki, bu uğurlar iqtisadi islahatların siyasi islahatlarla eyni vaxtda və yüksək peşəkarlıqla aparılması nəticəsində qazanılıb.

Sevindirici və qürurvericidir ki, bütün dünyada baş verən neqativ proseslərə, o cümlədən postpandemiya dövrü olmasına, müharibədən yeni çıxmış dövlət olmağımıza rəğmən, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanın sürətli inkişaf strategiyasını dövrün tələbləri ilə uzlaşdıraraq yüksək məharətlə reallaşdıran Prezident İlham Əliyevin müdrik siyasəti və sarsılmaz Prezident-Xalq birliyinin sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik hökm sürür, mütəmadi həyata keçirilən çoxşaxəli və ardıcıl islahatlar davam etdirilir, regionların tarazlı tərəqqisi təmin olunur, həmçinin qeyri-neft sektorunun inkişafı istiqamətində kompleks stimullaşdırıcı tədbirlər həyata keçirilir və sair böyük işlər görülür. Bir sözlə hər bir istiqamət üzrə ardıcıl uğurlar əldə edilir ki, nəticədə dövlətimiz daha da qüdrətlənir və doğma Azərbaycanımız intibah dövrünü yaşayır. Dövlətimizin hərtərəfli qüdrətlənməsində və əldə olunan ardıcıl uğurlarda, eləcə də beynəlxalq əlaqələrimizin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin bütün dünyaya tanıdılmasında zəngin biliklərə, dərin düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik, hər bir məqamda dövlət başçısının yanında olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Bu gün Respublikamızın digər bölgələrinin sürətli tərəqqisi ilə yanaşı, vaxtilə ermənilər tərəfindən viran qoyulmuş kənd və şəhərlərimizdə sürətli abadlıq-quruculuq işləri aparılır. Həyata keçirdiyi siyasətin prioritet istiqamətlərindən olan bu proses dövlətimizin başçısının şəxsi nəzarəti ilə reallaşdırılır ki, bunun da nəticəsində Vətənin hər bir guşəsi gülüstana çevrilir. Hazırda geniş tikinti-quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzurda dövlətimizin başçısının tapşırıqları və tövsiyələri əsasında "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılması, bütün infrastrukturların yenidən qurulması, avtomobil və dəmir yollarının, elektrik, su və qaz xətlərinin çəkilməsi, hava limanlarının, tunellərin, körpülərin, müasir yaşayış komplekslərinin, məktəblərin, xəstəxanaların, su-elektrik stansiyalarının tikilməsi prosesi müvəffəqiyyətlə həyata keçirilir ki, bu da dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Respublikamızın qüdrətini və iqtisadi gücünü sübut edən növbəti bariz nümunədir. Son dövrlər yüzlərlə azərbaycanlı ailəsinin öz dədə-baba yurdlarına qayıtmasının şahidi oluruq ki, bütün bunlar təbii olaraq hər birimizi iftixarlandırır.

Azərbaycanın taleyinə Günəş kimi bərq vuran vətənpərvər fenomen Heydər Əliyevin uzaqgörənliyi bu gün də millətimizə və dövlətimizə fayda verməkdədir. Hələ sağlığında canlı əfsanəyə çevrilmiş böyük dövlət xadimi Heydər Əliyevin mütərəqqi ideyaları onları hər zaman fəaliyyətində rəhbər tutan Prezident İlham Əliyevin yürütdüyü mükəmməl siyasətdə yaşayır və dövrün tələblərinə uyğun uğurla həyata keçirilir ki, bu da dövlətimizin daha da qüdrətlənməsini və xalqın rifahının hərtərəfli yaxşılaşmasını şərtləndirir.

Bütün bunlar isə qəti əminliklə onu deməyə əsas verir ki, nə qədər Azərbaycan dövləti və milləti var dünya miqyaslı böyük tarixi şəxsiyyət Heydər Əliyevin parlaq siması qədirbilən insanların qəlbində hər zaman yaşayacaq, onun əziz və unudulmaz xatirəsi həmişə yüksək ehtiramla yad ediləcək.

**Firad Əliyev,**
**Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi – Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi, hüquq üzrə magistr.**

# *Konstitusiya və suverenlik ili:* HÜQUQİ DÖVLƏTİN TƏNTƏNƏSİ




Prezident İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması dövlətçilik tariximizin öyrənilməsi, eyni zamanda, postmüharibə dövründə yeni milli ideoloji prioritetlərin böyük əhəmiyyət kəsb etməsi, qüdrətli Azərbaycanın dünya ölkələri sırasında özünə layiqli yer tutması, müstəqilliyimizin dönməz və əbədi olmasında bir çox prinsiplərin həm tarixi əhəmiyyətini, həm də mahiyyətini daha da ön plana çıxarmaq baxımından əvəzsiz rol oynayır. Bu qərar hüquqi dövlətçilik və suverenlik dəyərlərinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Suverenlik və dövlətçilik müstəqil dövlətlərin varlığını və inkişafını təmin edən əsas amillərdir. Bu anlayışlar təkcə dövlətin hüquqi və siyasi əsaslarını deyil, həm də milli kimliyini və birliyini ifadə edir. Azərbaycan Respublikasında suverenlik və dövlətçilik prinsiplərinin möhkəmləndirilməsi müasir dövlət quruculuğu və xalqın rifahı üçün zəmin yaradır. Ölkəmizdə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi isə bu prinsiplərin həm tarixi əhəmiyyətini, həm də gələcəyə yönəlik strateji mahiyyətini daha da ön plana çıxarır.

Azərbaycan xalqı bu gün əsrlər boyu arzusu ilə yaşadığı, mübarizə apardığı müstəqil, suveren, qalib dövlətə sahibdir. Qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına xalqımızın milli sərvəti sayılan ərazi bütövlüyümüz, suverenliyimiz tam bərpa olunub. Bütün ölkə ərazisində konstitusiya quruluşumuz bərqərar edilib. Xalqımız böyük qürur və fəxarət hissi ilə bu il müəllifi ümummilli liderimiz Heydər Əliyev olan Milli Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Prezident, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış tarixi qələbəmizin 5-ci ildönümünü təntənə ilə qeyd edəcək. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 28 dekabr 2024-cü il tarixdə Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında sərəncam imzalayıb. Əminliklə deyə bilərik ki, mühüm tarixi əhəmiyyətə malik olan bu sərəncam tarixi Zəfərimizin regionda və dünya siyasətində yol açdığı yeniliklərin, eyni zamanda, 1995-ci ildə Milli Konstitusiyamızın qəbul edilməsindən ötən dövr ərzində Azərbaycanın hüquqi dövlət kimi möhkəmlənən mövqeyinin təqdimatında əsaslı rol oynayacaq.

Dövlətin suverenliyi, bir xalqın özünüidarəetmə, daxili və xarici siyasətində müstəqil qərar vermək hüququnu ifadə edən mühüm anlayışdır. Azərbaycanın Dövlət Suverenliyi Günü isə bu anlayışın ən mühüm rəmzi günlərindən biri kimi ölkənin tarixində əhəmiyyətli siyasi dönüş nöqtələrindən birini təşkil edir. Azərbaycan 1990-cı illərin əvvəllərində, Sovet İttifaqının dağılmasından sonra öz müstəqilliyini bərpa etmək üçün mühüm addımlar atdı. Bununla yanaşı, Azərbaycan xalqının suverenlik arzusu və müstəqilliyə olan iradəsi, 1918-ci ildə qurulmuş və cəmi iki il davam edən Azərbaycan Xalq Cümhuriyyətindən irəli gələn ənənələrə söykənirdi. Cümhuriyyətin süqutundan sonra 70 ilə yaxın Sovet İttifaqının tərkibində olan Azərbaycan xalqı öz müstəqillik arzularını daim ürəyində yaşatmışdı. 1991-ci il oktyabrın 18-də qəbul edilən Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı ilə Azərbaycan rəsmən müstəqil dövlət statusunu bərpa etdi.

Dövlətimizin müstəqillik tarixinin mühüm hadisələrindən olan əsas qanun məhz Ulu Öndər Heydər Əliyevin gərgin əməyi nəticəsində hazırlanmışdır. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu

ilə Azərbaycan Respublikası Konstitusiyasının qəbulu ölkəmizdə genişmiqyaslı qanunvericilik və məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə yol açmışdır. Əsas qanunda cəmiyyətin inkişaf istiqamətlərini müəyyənləşdirən ideya və dəyərlər geniş şəkildə təsbit edilmişdir. Belə ki, Konstitusiyada dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması, insan şəxsiyyətinə və ləyaqətinə hörmət, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, siyasi sistemdə plüralizmə təminat verilməsi, ümumbəşəri dəyərlərə sadiqlik və digər dəyərlər öz əksini tapmışdır. Ölkənin əsas qanununun milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanan 1 noyabr 1996-cı il tarixli Fərmana əsasən hər il noyabrın 12-si ölkəmizdə "Konstitusiya Günü" kimi qeyd edilir.

Qəbul olunan Konstitusiya ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynadı. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu siyasət uğurla davam etdirilir. İnsan hüquq və azadlıqlarının qorunması, yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi dövlət siyasətinin əsasını təşkil edir. Milli Konstitusiyamızda əksini tapan müddəaların böyük əksəriyyəti də insan hüquqlarının qorunmasına həsr edilib. Konstitusiyamızın qəbulundan ötən dövr ərzində bu ali sənədə 3 dəfə: 2002, 2009 və 2016-cı illərdə əlavə və dəyişikliklərin edilməsi, Prezident İlham Əliyevin Sərəncamı ilə 18 iyun tarixinin ölkəmizdə" İnsan Hüquqları Günü" kimi təsis olunması insan hüquqlarının qorunmasının prioritetliyini təsdiqləyir. 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi də ölkəmizdə bu sahədə atılan növbəti addımların davamıdır.

44 günlük Vətən müharibəsində əldə edilən tarixi Zəfər yalnız hərbi deyil, həm də hüquqi və siyasi baxımdan suverenlik dəyərlərinin möhkəmləndirilməsi anlamına gəlir. Xalqımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyünün, dövlət suverenliyinin və ölkənin bütün ərazilərində Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin tam bərpasının qürurverici təntənəsini yaşayır. Postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma işləri, məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması və iqtisadi inteqrasiya layihələri suveren dövlət anlayışının real təcəssümü olub. 2020-ci il sentyabrın 27-də başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi müasir tariximizin ən parlaq səhifəsi olmaqla Azərbaycan xalqının qürur mənbəyidir. Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin dediyi kimi: "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi... Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyəti, tarixi ədalətə və beynəlxalq hüquqa söykənən siyasəti dövlətimizin zəfərlərinin davamlılığını təmin edir. Otuz ilə yaxın işğal altında qalan əzəli Azərbaycan torpaqlarını geri qaytaran Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin zəfər müjdələri hər bir azərbaycanlını qürurlandırdı, xalqımızın yenilməzliyini bir daha bütün dünyaya nümayiş etdirdi. Prezident İlham Əliyevin 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi Azərbaycanın dövlətçilik ənənələrini daha da möhkəmləndirmək, xalqın hüquq və azadlıqlarının təmin olunmasına dair öhdəlikləri vurğulamaq məqsədi daşıyır. Bu qərar, həmçinin milli suverenliyimizin və hüquqi dəyərlərimizin təbliği baxımından tarixi bir addımdır. Ötən dövrdə olduğu kimi, il ərzində həyata keçiriləcək genişmiqyaslı islahatlar da Azərbaycan xalqının hüquqi dövlət quruculuğu yolunda irəliləməsinə zəmin yaradacaq.

**Azər QASIMOV,**
**Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin prokuroru, ədliyyə polkovnik-leytenantı.**

# Azərbaycan dövlətçiliyinin ideoloji və siyasi təməli




Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması Prezident İlham Əliyevin müdrik dövlətçilik qərarlarından biri kimi tarixə düşür. Bu təşəbbüs, bir tərəfdən, müstəqilliyimizin bərpasından ötən dövrdə qazanılan nailiyyətlərin ümumiləşdirilməsi, digər tərəfdən isə yeni milli ideoloji prioritetlərin formalaşdırılmasına xidmət edir. Burada söhbət heç də hüquqi sənədlərin və tarixi faktların xatırladılmasından deyil, həm də qüdrətli Azərbaycanın möhkəmlənmiş dövlətçilik dayaqlarının, dönməz müstəqillik kursunun və milli kimliyin dünyaya təqdimindən gedir.

Azərbaycan xalqı tarix boyu müstəqillik ideyasını öz varlığının əsas ruhu kimi yaşadıb. 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti cəmi iki il mövcud olsa da, milli dövlətçilik ənənələrinin formalaşmasında mühüm rol oynayıb. Bu dövlət Şərqdə ilk demokratik respublika olaraq, xalqın siyasi iradəsini ifadə edib, müstəqillik ideyasını dövlətçilik reallığına çevirib.

Lakin 1920-ci ildə Cümhuriyyətin süqutu ilə Azərbaycan uzun illər Sovet İttifaqının tərkibində yaşadı. Bu dövr ərzində xalqımız öz müstəqillik arzusunu heç vaxt unutmadı. 1990-cı illərin əvvəllərində, Sovet İttifaqının dağılmasından sonra isə öz müstəqilliyini bərpa etmək üçün mühüm addımlar atdı. Bununla yanaşı, Azərbaycan xalqının suverenlik arzusu və müstəqillik iradəsi 1918-ci ildə qurulmuş və cəmi iki il yaşayan Azərbaycan Xalq Cümhuriyyətindən irəli gələn ənənələrə söykənirdi.

Cümhuriyyətin süqutundan sonra 70 ilə yaxın Sovet İttifaqının tərkibində olan Azərbaycan xalqı öz müstəqillik arzularını daim ürəyində yaşatmışdı. 1991-ci il oktyabrın 18-də qəbul edilən Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı ilə Azərbaycan rəsmən müstəqil dövlət statusunu bərpa etdi. Beləliklə, Azərbaycan xalqı öz dövlətçilik yolunu yenidən təsdiq etdi və beynəlxalq ictimaiyyətin tamhüquqlu üzvü kimi tanındı.

Dövlətimizin müstəqillik tarixinin ən mühüm hadisələrindən olan Əsas Qanun da məhz Ulu öndər Heydər Əliyevin gərgin əməyi nəticəsində hazırlandı. 1995-ci il noyabrın 12-də ümumxalq referendumunda qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasında ölkəmizdə müasir cəmiyyətin əsas inkişaf istiqamətlərini müəyyənləşdirən ideya və dəyərlər geniş şəkildə təsbit edildi. Belə ki, Konstitusiyada dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması, insan şəxsiyyətinə və ləyaqətinə hörmət bəslənilməsi, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin qurulması, siyasi sistemdə plüralizmə təminat verilməsi və ümumbəşəri dəyərlərə sadiqlik göstərilməsi öz əksini tapdı.

Azərbaycanın dövlət müstəqilliyinin hüquqi əsaslarının möhkəmləndirilməsində 1995-ci ildə qəbul edilmiş Konstitusiya xüsusi əhəmiyyət kəsb edir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış bu sənəd ölkəmizin müasir inkişaf yolunu müəyyənləşdirən strateji çərçivədir. Konstitusiyada təsbit edilən dəyərlər – dövlət hakimiyyətinin demokratik formalaşması, insan hüquqlarının qorunması, siyasi plüralizm, dünyəvi dövlət quruculuğu və ümumbəşəri dəyərlərə sadiqlik göstərilməsi Azərbaycanın müstəqil dövlət kimi inkişaf modelinin mahiyyətindən xəbər verir.




Ulu öndər Konstitusiyanın yalnız hüquqi deyil, həm də mənəvi dəyər daşıdığını xüsusi vurğulayaraq deyirdi: “Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır. Hər bir vətəndaşın Konstitusiyasıdır!” Bu fikir Azərbaycan vətəndaşlarının dövlətlə münasibətlərini yeni bir fəlsəfi məna ilə zənginləşdirirdi. Qeyd edim ki, müstəqilliyin bərpası ilə dövlətçilik tariximiz yeni çağırışlarla üz-üzə qaldı. Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın işğalı Azərbaycanın suverenliyini məhdudlaşdırdı. Uzun illər davam edən bu vəziyyət xalqımızın milli kimliyinə, ərazi bütövlüyünə və konstitusion dəyərlərinə qarşı açıq bir təhdid idi. 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun əldə etdiyi tarixi Zəfər isə suverenlik anlayışını tam şəkildə gerçəkləşdirdi. Bu parlaq Qələbə yalnız hərbi nəticə deyildi. Belə bir tarixi uğur, eyni zamanda, hüquqi, siyasi və mənəvi müstəvidə Azərbaycanın öz milli iradəsini təsdiq etməsi idi. Konstitusiyanın hüquqi qüvvəsi bütün ərazilərimizdə bərpa olundu və müstəqilliyimizin dönməzliyi əyani şəkildə sübut edildi.

Müharibədən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma layihələri Azərbaycanın qüdrətli dövlət iradəsinin göstəricisidir. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” çərçivəsində məcburi köçkünlərin doğma yurdlarına qayıdışı, yeni iqtisadi zonaların formalaşması və inteqrasiya layihələri suveren dövlətin praktik gücünü nümayiş etdirir.

Burada diqqətçəkən məqam ondan ibarətdir ki, Azərbaycanın bərpa siyasəti yalnız iqtisadi və sosial layihələrlə məhdudlaşmır, həm də milli ideoloji bazanı möhkəmləndirir. Bu, dövlətin vətəndaş qarşısında məsuliyyətini, eləcə də beynəlxalq müstəvidə mövqelərini gücləndirir.

“Konstitusiya və Suverenlik İli”nin ideoloji missiyasına gəldikdə isə 2025-ci ilin bu adla elan olunması bir neçə istiqamətdə strateji məqsədlərə xidmət edir. Birincisi, bu, tarixi yaddaşı möhkəmləndirir. Azərbaycan xalqının yüzillik müstəqillik arzuları və dövlətçilik ənənələri cəmiyyətə daha dərindən çatdırılır. İkincisi, milli ideologiyanın təbliği önə çəkilir. Konstitusiyanın prinsipləri əsasında müasir Azərbaycan vətəndaşının hüquqi, siyasi və mənəvi dəyərlərə bağlılığı möhkəmlənir. Üçüncüsü, müstəqilliyin dönməzliyi təsdiqlənir. Azərbaycanın əldə etdiyi tarixi zəfərlər fonunda suverenliyin qorunması və inkişafı dövlət siyasətinin prioriteti kimi xüsusi diqqətdə saxlanılır. Bütün bunlarla yanaşı, beynəlxalq müstəvidə mövqelərin gücləndirilməsi də əsas şərtlər sırasında yer alır. Qüdrətli Azərbaycan imici dünya ölkələrinə hüquqi, demokratik və müstəqil dövlət nümunəsi kimi təqdim olunur.

Azərbaycan Respublikasının müstəqillik və dövlətçilik tarixi yalnız siyasi hadisələrin xronologiyası deyil, həm də xalqımızın milli iradəsinin, azadlıq sevgisinin və suverenlik uğrunda mübarizəsinin təcəssümüdür. Prezident İlham Əliyevin qərarı ilə elan edilmiş “Konstitusiya və Suverenlik İli” bu tarixi dəyərlərin yeni mərhələdə təbliğinə, möhkəmlənməsinə və gələcək nəsillərə ötürülməsinə xidmət edir.

Bu il təkcə yubiley xarakterli tədbirlərlə məhdudlaşmayacaq, həm də müstəqil dövlətçiliyimizin mahiyyətini bütün parametrləri ilə ortaya qoyacaq. Azərbaycanın güclü dövlət kimi mövqeyinin daha da möhkəmlənməsi, müstəqilliyimizin əbədi və dönməz olduğunun beynəlxalq aləmdə bir daha təsdiqlənməsi isə bu ideoloji missiyanın ən böyük nəticəsi olacaq.

**Hidayət NURƏLİBƏYOV,**
**Bakı şəhəri Nərimanov rayon prokuroru,**
**ədliyyə müşaviri**

# “Konstitusiya və Suverenlik İli” dövlətçilik tariximizin yeni mərhələsidir




**Prezident İlham Əliyevin 2025-ci ili ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan etməsi Azərbaycanın müasir tarixində həm rəmzi, həm də strateji baxımdan mühüm önəm daşıyan siyasi qərarlardan biridir. Bu təşəbbüs bir tərəfdən, dövlətçiliyimizin hüquqi əsası olan Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30 illiyi ilə bağlıdırsa, digər tərəfdən ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün tam bərpası ilə üst-üstə düşməsi baxımından xüsusi tarixi məna kəsb edir.**

Azərbaycan xalqı on illərlə davam edən işğal, ədalətsizlik və təcavüzlə üz – üzə qaldı. 2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi Zəfər, ardınca 2023-cü ilin sentyabrında ölkə suverenliyinin tam bərpası təkcə hərbi – siyasi qələbə deyildi. Bu, milli iradənin, xalq birliyinin və güclü liderliyin təntənəsi idi. Bu tarixi qələbələr Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirdi, ölkəmizin gələcək inkişaf yolunda yeni mərhələnin əsasını təşkil etdi.

Yeri gəlmişkən, preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi təsbit olunan Konstitusiya 44 günlük Vətən müharibəsində özünün həyatiliyi və gücünü bir daha nümayiş etdirdi. Torpaqlarımız işğaldan azad olunduqdan sonra bu ali hüquqi sənədin qüvvəsi bütün ərazilərimizdə gerçəkləşdirildi. Beləliklə, dövlətimizin ərazi bütövlüyü və suverenliyi hüquqi – siyasi reallıq kimi reallaşdı.

2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi də məhz bu tarixi reallığın davamına və təsdiqinə çevrildi. Bu, xalqımız tərəfindən həm keçmişə hörmət, həm də gələcəyə inam mesajı kimi yüksək dəyərləndirildi. Dövlət başçısının siyasi iradəsi, xalqın milli həmrəyliyi və qətiyyəti nəticəsində əldə edilən bu mərhələ Azərbaycan tarixində yeni bir səhifənin başlanğıcı oldu.

Xatırladım ki, 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilən Azərbaycan Respublikası Konstitusiyası müstəqil dövlətimizin hüquqi əsaslarını müəyyənləşdirdi. Bu sənəd, eyni zamanda, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun təməl daşı oldu. Konstitusiyanın qəbul edildiyi dövr ölkəmizin ən mürəkkəb və təhlükəli bir mərhələsinə təsadüf edirdi. Belə ki, XX əsrin sonlarında müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan separatizm, anarxiya və vətəndaş qarşıdurması ilə üz-üzə qalmışdı. Bu vəziyyətdən çıxış yalnız Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə reallaşdı. Dahi şəxsiyyətin qətiyyətli və uzaqgörən siyasəti ölkəni parçalanma təhlükəsindən xilas etdi, müstəqilliyi qorudu və sabit inkişaf yoluna çıxardı.

O dövrü yaşayan hər bir kəs 1990-cı illərin əvvəllərində Azərbaycanın müstəqilliyini yenidən bərpa etmiş bir dövlət kimi mürəkkəb tarixi şəraitdə yaşadığını yaxşı xatırlayır. Sovet İttifaqından miras qalmış hüquq sistemi və qanunvericilik bazası müstəqil dövlətin tələblərinə cavab vermirdi. Qanunun aliliyinin təminatı zəif idi, insan hüquq və azadlıqları müdafiəsiz qalır, siyasi idarəetmədə xaos hökm sürürdü. Belə bir dövrdə hüquqi dövlət quruculuğu yalnız yeni, müasir və müstəqil bir Konstitusiyanın qəbulunu tələb edirdi.

Bu məsuliyyətli tarixi vəzifəni yerinə yetirmək isə yalnız Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi və dövlətçilik bacarığı ilə mümkün oldu. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev qısa müddətdə ölkədə siyasi sabitliyi təmin etdi, dövlət idarəçiliyində nizam-intizam yaratdı və ən mühüm addımlardan biri kimi yeni Konstitusiya layihəsinin hazırlanmasına başladı.

Siyasi strategiyasında hüquqi dövlət quruculuğu xüsusi yer tutan Ulu Öndər Heydər Əliyevin Milli Konstitusiyanın hazırlanması və qəbulunu diqqətdə saxlaması, bununla da gələcək nəsillər üçün möhkəm hüquqi bazanı yaratması xalqımızın yaddaşında əbədi yaşayır. Bu gün 30 illiyini qeyd etdiyimiz Konstitusiya Azərbaycan cəmiyyətinin siyasi, sosial-iqtisadi inkişafında həlledici rol oynayan taleyüklü tarixi sənəddir.

Qeyd edim ki, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunan Konstitusiya Azərbaycan

tarixində ilk milli əsas qanun kimi mühüm tarixi mərhələ açdı. 1995-ci il noyabrın 27-dən isə qüvvəyə minən bu sənəd dövlətçiliyimizin hüquqi bünövrəsini möhkəmləndirdi, xalqımızın gələcək inkişaf yolunu müəyyənləşdirdi.

Müasir Azərbaycan dövlətçiliyinin ən mühüm dayaqlarından biri olan milli Konstitusiyanın qəbulundan artıq 30 ilə yaxın bir müddət ötür. Referendum yolu ilə qəbul edilmiş bu sənəd Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsinin və müdrik dövlətçilik təfəkkürünün şah əsəri kimi tariximizə yazıldı. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda, insan hüquq və azadlıqlarının təminində mühüm rol oynayan Konstitusiya dövlətimizin hüquqi sisteminin əsasını təşkil edir.

Konstitusiya, ümumiyyətlə, təkcə normativ hüquqi sənəd deyil, həm də siyasi legitimliyin, hüquqi sabitliyin və milli suverenliyin ən möhkəm dayağıdır. Dövlətin idarə olunmasının prinsipləri, hakimiyyətin bölgüsü, vətəndaşların hüquq və azadlıqları, dövlətin daxili və xarici siyasətinin əsasları Konstitusiyada təsbit olunub. Bu baxımdan, Azərbaycan Konstitusiyası həm hüquqi, həm də siyasi sistemdə, belə demək mümkünsə, normativ nüvə rolunu oynayır. Dövlətin əsas orqanlarının fəaliyyəti, qanunvericilik prosesləri, vətəndaş cəmiyyətinin inkişafı məhz Konstitusiyanın müəyyənləşdirdiyi çərçivədə həyata keçirilir.

Ulu Öndərin müəyyənləşdirdiyi kursun məntiqi davamı kimi Prezident İlham Əliyev dövlətçiliyin əsaslarını daha da möhkəmləndirdi. Onun rəhbərliyi ilə Azərbaycan yalnız regionda deyil, həm də beynəlxalq müstəvidə söz sahibi olan bir dövlətə çevrildi. Ərazi bütövlüyünün bərpası, ölkəmizin suverenliyinin təmin edilməsi və milli maraqların qlobal miqyasda qətiyyətlə müdafiə olunması xalqımız tərəfindən bu siyasətin parlaq nəticələri kimi dəyərləndirildi.

Azərbaycanın gücü yalnız hərbi və siyasi sahədə deyil, həm də milli həmrəyliyin möhkəmləndirilməsində özünü göstərdi. 2023-cü ilin sentyabrında ölkə daxilində separatizmin kökünün birdəfəlik kəsilməsi ilə dövlətin suverenliyi tam gerçəkləşdi. Bu, regionda sülhün və təhlükəsizliyin bərqərar olunmasına da mühüm töhfə verdi.

Vurğulamaq istərdim ki, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması təkcə yubiley xarakteri daşımır. Bu qərar dövlətçilik prinsiplərinin möhkəmləndirilməsinə, milli həmrəyliyin gücləndirilməsinə və hüquqi dövlətin inkişafına xidmət edir. Bununla dövlət qurumlarının, ictimai təşkilatların və vətəndaş cəmiyyətinin üzərinə mühüm vəzifələr düşür. Suverenliyin qorunması, dövlətin inkişaf etdirilməsi və milli maraqların müdafiəsi hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Eyni zamanda, hazırda hüquqi dövlət prinsiplərinin daha da dərinləşdirilməsi, demokratik institutların inkişafı və insan hüquqlarının müdafiəsi istiqamətində fəaliyyətlərin gücləndirilməsi xüsusi önəm daşıyır. Konstitusiyanın 30 illiyi həm də yeni islahatlar üçün hüquqi-siyasi zəminin möhkəmləndirilməsi baxımından əlamətdardır.

Azərbaycan tarixinin bu yeni mərhələsi keçmişin dərsləri, eləcə də gələcəyin hədəfləri ilə zəngindir. "Konstitusiya və Suverenlik İli" dövlətçilik ənənələrinin möhkəmlənməsi, milli həmrəyliyin gücləndirilməsi və hüquqi dövlətin inkişafı istiqamətində strateji çağırışdır. Uzun illərin mübarizəsindən sonra öz tarixi hədəflərinə çatan xalqımızın bu gün qarşısında duran əsas vəzifə həmin qələbələri qorumaq, dövləti gücləndirmək və gələcək nəsillərə daha qüdrətli bir Azərbaycan miras qoymaqdır. Dövlət başçısının müvafiq Sərəncamına əsasən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması bu baxımdan böyük tarixi və siyasi əhəmiyyətə malikdir. Bu qərar, ilk növbədə, Azərbaycan dövlətçiliyinin əsaslarını daha dərindən öyrənmək, gələcək nəsillərə ötürmək, Konstitusiyanın mahiyyətini və dəyərlərini geniş ictimaiyyət arasında təbliğ etmək məqsədi daşıyır.

Eyni zamanda, bu il sadəcə tarixi hadisələrin qeyd olunması ilə məhdudlaşmır. Azərbaycanın hüquqi və dövlətçilik inkişafının daha da gücləndirilməsi, vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi, qanunun aliliyinin tam təmin olunması üçün yeni bir imkan açır. Dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, insan hüquq və azadlıqlarının müdafiəsi, məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi məhz bu dövrün mühüm prioritetlərindən biridir.

Azərbaycan Konstitusiyası 30 ilə yaxın bir müddətdə ölkəmizin müstəqilliyinin, hüquqi sabitliyinin və siyasi inkişafının əsas təminatçısı kimi fəaliyyət göstərib. Onun qəbulunu gerçəkləşdirən Ümummilli Lider Heydər Əliyevin dövlətçilik irsinin bu gün də uğurla davam etdirilməsi xalqımızın gələcəyə inamını daha da möhkəmləndirir. Bir sözlə, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması, şübhəsiz ki, həm tarixi dəyərlərin qorunması, həm də hüquqi dövlət quruculuğunun yeni mərhələyə yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu il bir daha sübut edir ki, Konstitusiyamız təkcə hüquqi sənəd deyil, eyni zamanda, müasir, müstəqil Azərbaycanın dövlətçilik fəlsəfəsinin təcəssümüdür.

**Rəşid MAHMUDOV,**
**Bakı şəhəri Suraxanı rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**

# Milli birliyin, qanunun aliliyinin və dövlətcilik düşüncəsinin təntənəsi




Prezident İlham Əliyevin ölkəmizin dövlətçilik tarixində iki böyük hadisənin – Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30 illiyi və dövlət müstəqilliyimizin bərpasının 34-cü ildönümünün qeyd olunması ilə bağlı olan 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tarixi qərarı keçilmiş 30 illik Konstitusiya yoluna nəzər salmaqla bərabər, həm də gələcəyə – daha mütərəqqi, ədalətli və şəffaf idarəçilik sisteminə doğru inamlı addım atmaq mənası daşıyır. Bu təşəbbüs, eyni zamanda, Azərbaycan dövlətçiliyinin təməl prinsipləri olan insan hüquqları və suverenliyin daha da möhkəmləndirilməsini şərtləndirir.

Xatırladım ki, 1991-ci ilin 18 oktyabrında qəbul edilən "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" əsrlərlə xalqımızın qəlbində yaşatdığı azadlıq arzularını reallığa çevirdi. Sovet imperiyasının dağılması nəticəsində bərpa edilən müstəqillik, eyni zamanda, Azərbaycanın dövlətçilik iradəsinin parlaq təntənəsi idi. Lakin o dövrdə mövcud olan xaos, siyasi qeyri-sabitlik və vətəndaş qarşıdurması müstəqilliyin real məzmununun qorunmasını təhlükə altına qoymuşdu.

Məhz belə bir çətin, ağır şəraitdə xalqın çağırışı ilə hakimiyyətə qayıdan Ümummilli lider Heydər Əliyev respublikamızı dağılmaqdan xilas etdi, dövlətçiliyin bərpası və hüquqi sistemin qurulması istiqamətində misilsiz fəaliyyət göstərdi. Dahi şəxsiyyətin rəhbərliyi ilə qəbul edilən 1995-ci il Konstitusiyası dövlət müstəqilliyinin hüquqi təminatı oldu. Beləliklə, müstəqillik ideyası Konstitusiya vasitəsilə daimi və dönməz xarakter aldı.

1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası müstəqil dövlətimizin Əsas qanunu kimi hüquqi sistemin bünövrəsini qoydu. Bu sənəd dövlətin quruluşunu, hakimiyyət bölgüsünü, vətəndaşların hüquq və azadlıqlarını, eləcə də Azərbaycan Respublikasının suverenliyini gerçəkləşdirən fundamental prinsipləri təsbit etdi.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan bu fundamental sənəd Azərbaycan dövlətinin suverenliyini, ərazi bütövlüyünü, insan hüquq və azadlıqlarını təmin edən ali hüquqi akt kimi formalaşdı. Konstitusiya qanunlarla bərabər, həm də cəmiyyətin mənəvi dəyərlərinin, milli kimliyinin və dövlətçilik fəlsəfəsinin ifadəsinə çevrildi. Eyni zamanda, hüquqi dövlət prinsiplərinə əsaslanan, demokratik, dünyəvi və unitar respublika modelini təsdiqlədi. Bu ali sənədin qəbul edilməsi ölkəmizin beynəlxalq aləmdə tanınan, sabit hüquqi sistemə malik dövlət kimi inkişafının başlanğıcı oldu.

Ulu öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev ötən illər ərzində müasir Azərbaycan dövlətçiliyini yeni keyfiyyət mərhələsinə yüksəldib. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində Konstitusiyada bir sıra mühüm dəyişikliklər edilib, dövlət idarəçiliyi daha çevik, şəffaf və xalq yönümlü modelə çevrilib.

2009-cu və 2016-cı illərdə keçirilmiş ümumxalq referendumu nəticəsində qəbul olunan dəyişikliklər insan hüquqlarının müdafiəsini gücləndirib, icra hakimiyyətinin məsuliyyətini və səmərəliyini artırıb, həmçinin dövlətin sosial yönümlü mahiyyətini daha da dərinləşdirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hüquqi dövlət prinsiplərinə əsaslanan,

innovativ idarəçilik mexanizmləri ilə fəaliyyət göstərən müasir ölkəyə çevrilib.

Hüquq və azadlıqlara zəmanət verən bu ali sənədin 147-ci maddəsində bütün qanunverici və icraedici orqanların qəbul etdikləri normativ aktların Konstitusiyaya uyğun olması açıq şəkildə bildirilib. Bu norma ilə Əsas Qanunun aliliyi və hüquqi sabitliyi reallaşdırılıb. Həmin prinsipin qorunması isə birbaşa prokurorluq orqanlarının əsas missiyasına çevrilib.

Bu gün Azərbaycan Respublikasının Prokurorluğu vahid mərkəzləşmiş sistem kimi fəaliyyət göstərir və qanunçuluğun keşiyində dayanır. Konstitusiyanın 133-cü maddəsinə əsasən, prokurorluq orqanları dövlətin və vətəndaşların hüquqlarının müdafiəsini həyata keçirir, cinayətkarlığa qarşı mübarizə aparır, qanunvericiliyin icrasına nəzarət edir. Bu mənada prokurorluq hüquqi qurum olmaqla bərabər, həm də müstəqilliyin hüquqi dayağıdır. Çünki qanunçuluğun zəiflədiyi yerdə dövlət suverenliyi təhlükə altına düşür. Odur ki, prokurorluq orqanlarının fəaliyyəti suverenliyin hüquqi təminatının ayrılmaz hissəsidir.

Qeyd edim ki, qanunçuluğun təminatı hər bir demokratik dövlətin əsas dayağıdır. Ədalət prinsipi isə bu dayağın mənəvi ölçüsüdür. Azərbaycan Respublikasında son illər aparılan islahatlar göstərir ki, hüquqi dövlət konsepsiyası yalnız qanunvericiliklə məhdudlaşmır, o, həm də ədalətin real təcəssümünə xidmət edir. Prokurorluq orqanları bu istiqamətdə preventiv, eləcə də müdafiə xarakterli funksiyalar yerinə yetirir. Hüquq pozuntularının qarşısının alınması, cinayətlərin istintaqı, dövlət maraqlarının qorunması bu funksiyaların ayrılmaz hissəsidir. Bu fəaliyyət nəticəsində cəmiyyətdə hüquq mədəniyyəti formalaşır, qanuna hörmət prinsipi güclənir, vətəndaş-dövlət münasibətlərində etimad möhkəmlənir.

Son illərdə bu sistemdə aparılan islahatlar, elektron idarəetmənin tətbiqi, şəffaflıq və vətəndaş məmnunluğuna yönələn yanaşma prokurorluğu müasir dövrün çağırışlarına uyğunlaşdırıb. Nəticədə dövlətin hüquqi sabitliyi və xalqın dövlətə olan etimadı daha da möhkəmlənib.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu Zəfər, eyni zamanda, Konstitusiyada təsbit edilmiş “Azərbaycan Respublikasının ərazi bütövlüyü və dövlət suverenliyi toxunulmazdır” prinsipinin həyatdakı təcəssümüdür. Məhz bu tarixi hadisədən sonra suverenlik anlayışı dövlət atributu olmaqla bərabər, həm də milli kimlik və vətəndaş qüruru rəmzinə çevrildi.

Azərbaycan bu gün təkcə milli qanunvericilik səviyyəsində deyil, eyni zamanda, beynəlxalq hüquq sistemində də etibarlı tərəfdaş kimi tanınır. İnsan hüquqlarının müdafiəsi, gender bərabərliyi, sosial rifah, ekoloji hüquqlar və vətəndaş cəmiyyəti insitutlarının inkişafı sahəsində atılan addımlar ölkəmizin hüquqi modernləşmə modelini formalaşdırıb.

Onu da vurğulayım ki, 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan olunması yubiley hadisəsi olmaqla yanaşı, həm də Azərbaycan cəmiyyətinin hüquqi düşüncəsinin inkişafı üçün geniş bir ideoloji platformadır. İl ərzində davamlı şəkildə dövlət və cəmiyyətin bütün sahələrində hüquqi maarifçiliyin gücləndirilməsi, dövlətçilik ənənələrinin təbliği və vətəndaş məsuliyyətinin artırılması istiqamətində mühüm təşəbbüslərin həyata keçirilməsi məhz bunun bariz ifadəsidir.

Azərbaycanın dövlətçilik yolu Konstitusiyanın qəbulundan və müstəqilliyin bərpasından ötən onilliklər ərzində göstərdi ki, hüquqi və suveren dövlət anlayışları bir-birindən ayrılmazdır. Ulu öndər Heydər Əliyevin yaratdığı hüquqi dövlət modeli Prezident İlham Əliyevin müasir islahat strategiyası ilə daha da güclənərək milli inkişafın əsas xəttinə çevrilib.

Bu gün Azərbaycan həm regionda, həm də beynəlxalq müstəvidə müstəqil siyasi iradəsi, sabit hüquqi sistemi və güclü dövlət institutları ilə fərqlənir. “Konstitusiya və Suverenlik İli” isə bu inkişafın növbəti mərhələsinin, milli birliyin, qanunun aliliyinin və dövlətçilik düşüncəsinin daha da möhkəmlənməsinin parlaq təntənəsidir.

**Pərviz İbayev,**
**Bakı şəhəri Nizami rayon prokuroru,**
**baş ədliyyə müşaviri**

# Prokurorların ali missiyası



2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması hüquqi dövlət quruculuğu prosesində Konstitusiyanın mühüm yerini, onun cəmiyyətin hərtərəfli inkişafında, dövlət suverenliyinin təminində oynadığı əvəzsiz rolu bir daha gündəliyə gətirmişdir. Konstitusiya – təkcə hüquqi sənəd deyil, həm də xalqın dövlətçilik iradəsini, milli kimliyini və ümumbəşəri dəyərlərə sadiqliyini ifadə edən ali hüquqi aktdır. O, dövlətin hüquqi strukturunun təməlini formalaşdırmaqla bərabər, insan hüquq və azadlıqlarının müdafiəsində bünövrə rolunu oynayır, hüquqi dövlətin təməl sütununu təşkil edir.

**Mən hesab edirəm ki, respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiqli xidmət edir. Buna görə də biz 1995-ci ildə qəbul etdiyimiz ilk Konstitusiyada prokurorluğun yerini, səlahiyyətlərini və vəzifəsini müəyyən etmişik.**

**Heydər Əliyev,**

*Respublikamızın prokurorluq orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda Azərbaycan Prezidenti Heydər Əliyevin nitqindən.*

*Bakı, 28 noyabr 1998-ci il.*

Azərbaycan Respublikasının Konstitusiyası əsasında dövlət hakimiyyəti təşkil olunur, vətəndaşların hüquq və azadlıqları təmin edilir, ictimai münasibətlərin inkişaf trayektoriyası müəyyənləşdirilir. Hüquqi mexanizmlərin tətbiqi sahəsində Konstitusiyanın tənzimləyici rolu bütün dövlət strukturları üçün istiqamətverici çərçivə rolunu oynayır. Bu baxımdan Konstitusiya yalnız hüquq sisteminin deyil, bütövlükdə cəmiyyətin siyasi, iqtisadi, sosial və mənəvi həyatının tənzimlənməsinin mənbəyidir.

Müasir dövrün çağırışları prokurorluq orqanlarının da fəaliyyətində institusional yanaşmaların təkmilləşdirilməsini, qanunçuluğun təminində və insan hüquqlarının qorunmasında daha çevik və şəffaf mexanizmlərin tətbiqini zəruri edir. Bu xüsusda Azərbaycan Respublikası Prokurorluğunun son illərdə keçdiyi inkişaf yolu, həyata keçirilən struktur və funksional islahatlar, rəqəmsallaşma və innovativ texnologiyaların tətbiqi

nəticəsində daha çevik və vətəndaş yönümlü idarəetmə modelinin formalaşdırılması ilə səciyyələnir. Xüsusilə qeyd edilməlidir ki, bu islahatlar prosesində hüquqi maarifləndirmə fəaliyyətinin gücləndirilməsi, vətəndaşların hüquqi biliklərinin artırılması prokurorluq orqanlarının fəaliyyətində əsas strateji istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Bu kontekstdə şəhər və rayon prokurorluqları tərəfindən həyata keçirilən maarifləndirici tədbirlər xüsusilə əhəmiyyətlidir. Belə ki, Prokurorluq əməkdaşlarının tədbirlərdə iştirak edərək Konstitusiyanın hüquq sistemimiz üçün fundamental əsas yaratması, onun müddəalarının hüquqi şüurun formalaşmasında və hüquq mədəniyyətinin inkişafında əhəmiyyətinə dair ətraflı məlumat verirlər. Bu istiqamətdə sistemli fəaliyyət hüquqi savadlılığın artmasına və konstitusion hüquqların daha effektiv müdafiəsinə xidmət edir.

Azərbaycan Respublikasının hüquq sisteminin əsasında insan və vətəndaş amili dayanır. Dövlətin ali məqsədi kimi vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi, onların ləyaqətli həyat şəraitinin təmin olunması və hüquqi təhlükəsizliyinin qorunması əsas prioritetlərdən biri kimi müəyyən edilmişdir. Konstitusiya və digər normativ hüquqi aktlar ilə təsbit olunmuş bu vəzifə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas təməl daşı hesab edilir. Prokurorluq sistemində aparılan islahatlar və müasir dövrün tələblərinə uyğun olaraq tətbiq edilən yeniliklər də prokurorluğun hüquqi dövlətin möhkəmlənməsi və insan hüquq və azadlıqlarının təminində artan rolunu şərtləndirmişdir. Bunun nəticəsi olaraq, prokurorluq orqanları ictimai etimadın yüksəldiyi, qanunçuluğun və ədalətin təminində mühüm dayaqlardan birinə çevrilmişdir.

Əhəmiyyətli məqamlardan biri də odur ki, prokurorluq əməkdaşları ictimai tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin Konstitusiyanın hazırlanması və qəbul olunması prosesindəki müstəsna xidmətləri barədə ətraflı məlumat verirlər. Qeyd olunur ki, Ana Qanunumuz bütövlükdə Ümummilli Liderin dövlətçilik fəlsəfəsini, azərbaycançılıq ideologiyasını və milli mənəvi dəyərləri əks etdirən təməl sənəddir. Təsadüfi deyil ki, Ümummilli Liderin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə hazırlanaraq 12 noyabr 1995-ci il tarixdə keçirilmiş Referendumla qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında prokurorluğa xüsusi maddə həsr edilərək dövlət idarəetmə sistemində bu təsisatın yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyənləşdirilməklə prokurorluq orqanlarına ilk dəfə olaraq konstitusion status verilmişdir.

Prokurorluq, insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm hüquqi institut kimi çıxış edir. O, yalnız cinayət təqibi və qanunvericiliyə nəzarət funksiyalarını yerinə yetirən orqan deyil, eyni zamanda hüquq-mühafizə sistemində insan ləyaqətinin, konstitusion hüquqların və ədalətli münasibətin təminatçısı rolunda çıxış edir. Prokurorluğun fəaliyyəti hüquqi dövlət prinsiplərinə əsaslanaraq, hər bir fərdin qanun qarşısında bərabərliyinin və hüquqlarının effektiv müdafiəsini təmin etməyə yönəlmişdir.

Digər mühüm fəaliyyət istiqaməti isə ətraf mühitin qorunması sahəsində prokurorluğun rolu ilə bağlıdır. Bu istiqamətdə Azərbaycan Respublikası Prezidenti, cənab İlham Əliyevin tapşırıqları, ətraf mühitlə bağlı milli prioritetlər, inkişaf proqramlarının tələbləri əsas götürülür.

**Qlobal iqlim dəyişikliyi və ekoloji təhlükələrin artması fonunda bu məsələ müasir dövrün mühüm çağırışlarından birinə çevrilmişdir.**

Prokurorluq orqanları tərəfindən ətraf mühitin mühafizəsinə yönəlik hüquq pozuntularının qarşısının alınması, ekoloji cinayətlərin ifşası və ictimai ekoloji şüurun artırılması istiqamətində mühüm tədbirlər görülür. Ətraf mühitə ziyan vuran fəaliyyətlərin aşkarlanması və qanun pozuntularına görə hüquqi məsuliyyətə cəlb olunması təbiətin və insanların sağlam həyat mühitinin qorunması baxımından mühüm əhəmiyyət daşıyır. Ekoloji qanunvericiliyə əməl olunmasına nəzarətin gücləndirilməsi ekoloji mühitə zərər vuran amillərlə daha effektiv mübarizə aparmağa kömək edir və iqlim dəyişikliyi ilə mübarizə və biomüxtəlifliyin qorunması üzrə milli səylərdə əsas rol oynayır.

Eyni zamanda, Prokurorluq orqanları Konstitusiyada əks olunan ali hüquqi prinsiplərə sadiq qalaraq, dövlət başçısı cənab İlham Əliyevin qanunçuluğun və vətəndaş məmnunluğunun təmin edilməsi, hüquq siyasətinin milli prioritetlərinin həyata keçirilməsində qarşıya qoyduğu vəzifələrdən irəli gələrək hüquqi maarifləndirmənin təşkili, ətraf mühitin qorunmasında mühüm funksional missiyasını uğurla yerinə yetirir. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması bu missiyanın əhəmiyyətini bir daha ön plana çəkir və dövlətçilik ənənələrinin daha da möhkəmləndirilməsinə xidmət edir.

**Mədinə Paşayeva,**
**Bakı şəhəri, Qaradağ rayon prokurorunun köməkçisi**
**I dərəcəli hüquqşünas.**

# Müstəqilliyin bərpası və suverenliyin təmin edilməsi tarixi uğurdur




**Tarixi taleyini müstəqil müəyyən etmək, öz ərazisinə, sərvətlərinə sahib olmaq, milli-mənəvi dəyərlərini qoruyub yaşatmaq xalqımızın ən böyük arzusu olmuşdur. Azərbaycanın bərpa edilmiş dövlət müstəqilliyi və suverenliyi bu baxımdan xalqımızın milli mənlik şüurunun, ictimai-siyasi iradəsinin təntənəsidir.**

Əsrlər boyu xarici müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin əvvəllərində dirçəldib itirdiyi dövlət müstəqilliyini 70 il sonra bərpa etmişdir. 1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında ölkənin yeni Əsas Qanununun hazırlanması nəzərdə tutulsa da, həmin dövrdə daxili siyasi çəkişmələr, iqtisadi böhran və Ermənistanın hərbi təcavüzü buna imkan verməmişdir.

Müstəqilliyin ilk dövründə ölkə idarəolunmaz vəziyyətdə idi. Ermənistanın genişlənən işğalçı siyasəti nəticəsində torpaqlarımız davamlı olaraq itirilirdi. 1992-ci ilin mayında Şuşa və Laçının, 1993-cü ilin aprelində Kəlbəcərin işğalı nəticəsində, demək olar ki, Dağlıq Qarabağ ilə Ermənistan arasında birbaşa əlaqə yarandı. Belə bir vəziyyətdə Azərbaycan xalqı öz nicatını ölkəmizdən ayrı düşmüş Naxçıvanda xilaskarlıq və milli dövlət quruculuğunu uğurla gerçəkləşdirən ümummilli lider Heydər Əliyevi ölkədə hakimiyyətə dəvət etdi. Xalq öz xilasını və təminatlı gələcəyini yalnız dünya miqyaslı siyasət və dövlət xadimi Heydər Əliyevin dərin zəkasında və yenilməz iradəsində görürdü.

Məhz belə bir şəraitdə, 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış ümummilli lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı.

Ulu öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynadı.

Yeni Konstitusiyada dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması, insan şəxsiyyətinə və ləyaqətinə hörmət, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, siyasi sistemdə plüralizmə təminat verilməsi, ümumbəşəri dəyərlərə sadiqlik və digər dəyərlər öz əksini tapıb. Ölkənin Əsas Qanununun milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Prezident Heydər Əliyevin 1 noyabr 1996-cı il tarixli fərmanı ilə hər il noyabrın 12-sinin ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilməsi qərara alındı.

Ulu öndər Heydər Əliyev tərəfindən həyata keçirilən müdrik və uzaqgörən siyasət nəticəsində sonrakı dövrdə milli dövlətçilik ideyası sürətlə gerçəkləşdirildi, müstəqil Azərbaycan dövləti möhkəmləndirildi. Dövlətimiz dahi liderinin rəhbərliyi ilə yeni yüksək inkişaf mərhələsinə qədəm qoydu. Dövlət və cəmiyyət həyatının bir çox sahələrini əhatə edən irimiqyaslı islahatlar həyata keçirildi.

Ümummilli lider Heydər Əliyev ölkə daxilində siyasi sabitliyin təmin edilməsi, sosial-iqtisadi quruculuq sahəsində prioritetlərin müəyyənləşdirilməsi, kompleks xarakterli islahatların həyata keçirilməsinə əsas yaradan qanunvericilik bazasının yenidən hazırlanması və digər bir sıra mühüm vəzifələrin öhdəsindən məharətlə gəldi.

Ulu öndər yaxşı bilirdi ki, istənilən dövlətin mövcudluğu və inkişafı dövlət hakimiyyətinin təşkilinə dair əsas konstitusiya prinsiplərinin mövcudluğu ilə şərtlənir. Hüquqi dövlətin Konstitusiyası bu təməl prinsipləri müəyyən edərək insan hüquqları və azad-

lıqlarının müdafiəsi, hakimiyyətlərin bölgüsü və digər bir sıra mühüm hüquqi başlanğıcları özündə ehtiva edir. Odur ki, böyük rəhbər xalqımıza tövsiyə edirdi: “Hər bir şəxs Konstitusiyaya və qanunlara əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələrini layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir. Məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir. Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır. Hər bir vətəndaşın Konstitusiyasıdır!”.




Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur.

Torpaqlarımızın işğaldan azad edilməsi və suverenliyimizin tam təmin olunması nəticəsində Əsas Qanunda ehtiva edilən Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyəti də tam reallaşıb. Konstitusiyanın 11-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Dövlət başçısı cənab İlham Əliyevin uzaqgörən və uğurlu siyasəti nəticəsində bu müddətdə təsbit edilən prinsiplər tam şəkildə təmin olunub.

Azərbaycanda hüquq sistemi, insan hüquqlarının təminatı və dövlət idarəetməsinin müasirləşdirilməsi sahəsində ciddi nailiyyətlər əldə edilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu nailiyyətlərin davam etdirilməsi və konstitusiya prinsiplərinin dərinləşdirilməsi üçün ardıcıl islahatlar həyata keçirilib. Ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində, 2009-cu il martın 18-də isə 25 maddəyə əlavə və dəyişikliklər edilib. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının gücləndirilməsi, həmçinin vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən irəli gəlir.

Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya üçüncü dəfə əlavə və dəyişikliklər edilib. Konstitusiyanın 29 maddəsinə edilən əlavə və dəyişikliklər müxtəlif sahələri əhatə etməklə, ali dövlət, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə yönəlib. Beləliklə, Əsas Qanunumuz daha da təkmilləşdirilməklə yeni dövrün tələblərinə uyğunlaşdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir. Prezident İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli sərəncamı ilə 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan olunması dövlətçilik tariximizin öyrənilməsi, eyni zamanda, postmüharibə dövründə yeni milli ideoloji prioritetlərin böyük əhəmiyyət kəsb etməsi,




qüdrətli Azərbaycanın dünya ölkələri sırasında özünə layiqli yer tutması, müstəqilliyimizin dönməz və əbədi olmasında bir çox prinsiplərin həm tarixi əhəmiyyətini, həm də mahiyyətini daha da ön plana çıxarmaq baxımından əvəzsiz rol oynayır.

2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan etməsi Azərbaycanın dövlətçilik ənənələrini daha da möhkəmləndirmək, xalqın hüquq və azadlıqlarının təmin olunmasına dair öhdəlikləri vurğulamaq məqsədi daşıyır. Bu qərar, həmçinin milli suverenliyimizin və hüquqi dəyərlərimizin təbliği baxımından tarixi bir addımdır. Ötən dövrdə olduğu kimi, il ərzində həyata keçiriləcək genişmiqyaslı islahatlar da Azərbaycan xalqının hüquqi dövlət quruculuğu yolunda irəliləməsinə zəmin yaradacaq.

Müstəqil Azərbaycan Prokurorluğunun hüquqi əsasları da məhz 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyada təsbit olunmuşdur. Ulu öndər Heydər Əliyevin Azərbaycan Prokurorluğunun formalaşmasında rolu əvəzedilməz olmuşdur. Məhz Ulu öndərin təşəbbüsü ilə prokurorluq orqanlarının fəaliyyətini tənzimləyən norma Konstitusiyaya daxil edilməklə prokurorluq orqanlarının dövlət təsisatları içərisində yeri müəyyənləşdirilib.

Ulu öndərin tapşırıqlarına müvafiq olaraq 2002-ci ildə Konstitusiyaya edilmiş əlavə və dəyişikliklərə əsasən prokurorluq orqanlarına qanunvericilik təşəbbüsü hüququ verilmiş, məhz onun rəhbərlik etdiyi dövrdə prokurorluğun beynəlxalq və milli standartları özündə əks etdirən bir qurum kimi formalaşması üçün bir sıra qanunvericilik aktları qəbul edilmişdir. Qəbul edilmiş qanunvericilik aktlarında prokurorluq orqanlarının əsas fəaliyyət istiqaməti və prinsipləri ətraflı şəkildə təsbit edilmişdir.

Dövlət müstəqilliyimizin qorunub saxlanılmasında və daha da möhkəmləndirilməsində digər dövlət orqanları ilə yanaşı, prokurorluğun da xüsusi rolu olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət təsisatı və SSRİ Prokurorluğunun tərkib hissəsi kimi uzunmüddətli və mürəkkəb bir inkişaf yolu keçən Azərbaycanın milli prokurorluq orqanları yalnız ölkəmiz öz dövlət müstəqilliyini qazandıqdan sonra ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə həyata keçirilən möhtəşəm və hərtərəfli islahatlar nəticəsində tamamilə yenidən qurulmuş, normal fəaliyyəti üçün mütərəqqi normativ-hüquqi bazası, demokratik məzmunlu fəaliyyət prinsipləri və iş metodları olan sivil təsisata çevrilmişdir.

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi həm də hüquqi islahatların daha sistemli həyata keçirilməsi və vətəndaşların hüquqi biliklərinin artırılması məqsədi daşıyır. Bu təşəbbüs hüquqi təhsil və maarifləndirməni gücləndirməklə vətəndaşların konstitusiya hüquqları ilə bağlı məlumatlılığını artırır. Hüquqi maarifləndirmə cəmiyyətin hüquqi şüurunun formalaşmasında mühüm rol oynayır. Konstitusiya dəyərlərinin təbliği hüquq dövlətinin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

"Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən tədbirlər hüquqi biliklərin genişlənməsinə və qanunun aliliyinin möhkəmləndirilməsinə xidmət edir. "Konstitusiya və Suverenlik İli"nin elan edilməsi gələcək hüquqi islahatların planlaşdırılması və həyata keçirilməsi üçün mühüm zəmin yaradır. Dövlət suverenliyinin qorunması və hüquq sisteminin modernləşdirilməsi Azərbaycan dövlətinin inkişaf strategiyasının əsas istiqamətlərindən biri olaraq qalmalıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə suveren və bütöv Azərbaycanı yeni dövrdə inkişafının mühüm mərhələsi gözləyir. Dövlətimiz və xalqımız tarixi nailiyyətlərə imza atmaqda davam edəcək.

**Günel BAYRAMOVA,**
**Bakı şəhəri Nizami rayon prokurorunun böyük köməkçisi, II dərəcəli hüquqşünas.**

# Konstitusiya və Suverenlik

**Azərbaycanın dövlət müstəqilliyi və suverenliyi, xalqımızın tarixi iradəsi və milli mənlik şüurunun təntənəsidir. Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində xarici müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.**

1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, həmin dövrdə Azərbaycan, daxili siyasi çəkişmələr, iqtisadi böhran və xarici təhdidlərlə üz-üzə qalmışdır. Belə ki, qeyd edilən dövrdə ölkə idarəolunmaz vəziyyətdə idi. Ölkədə iqtisadi, siyasi və hərbi böhran hökm sürürdü. Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti nəticəsində torpaqlarımız əldən gedirdi. 1992-ci ilin mayında Şuşa və Laçının, 1993-cü ilin aprelində Kəlbəcərin işğalı nəticəsində demək olar ki, Dağlıq Qarabağ ilə Ermənistan arasında bir bağlantı əldə edilmişdir. Belə bir vəziyyətdə – 1993-cü ildə ölkədə vəziyyət dözülməz həddə çatandan sonra Azərbaycan xalqı Heydər Əliyevə müraciət etmişdir. Azərbaycan xalqı öz xilasını, öz gələcəyini ancaq Heydər Əliyevdə görürdü. Məhz belə bir şəraitdə, 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır. Konstitusiyada dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması, insan şəxsiyyətinə və ləyaqətinə hörmət, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, siyasi sistemdə plüralizmə təminat verilməsi, ümumbəşəri dəyərlərə sadiqlik və digər dəyərlər öz əksini tapıb. Ölkənin Əsas Qanununun milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanmış 1996-cı il 1 noyabr tarixli Fərmana əsasən, hər il noyabrın 12-si ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilir.

Ulu öndər Heydər Əliyev tərəfindən həyata keçirilən müdrik və uzaqgörən siyasət nəticəsində milli dövlətçilik ideyası realizə olundu, müasir müstəqil Azərbaycan dövləti möhkəmləndi. Dövlətimiz dahi liderinin rəhbərliyi ilə tamamilə yeni inkişaf mərhələsinə qədəm qoydu. Dövlət və cəmiyyət həyatının bir çox sahələrini əhatə edən irimiqyaslı islahatların həyata keçirilməsinə başlandı. Ümummilli lider Heydər Əliyev ölkə daxilində siyasi sabitliyin təmin edilməsi, sosial-iqtisadi quruculuq sahəsində




prioritetlərin müəyyən edilməsi, kompleks xarakterli islahatların həyata keçirilməsinə əsas yaradan qanunvericilik bazasının yenidən hazırlanması və digər bir sıra mühüm vəzifələrin öhdəsindən məharətlə gəldi. Qeyd edilməlidir ki, istənilən dövlətin mövcudluğu və inkişafı dövlət hakimiyyətinin təşkilinə dair əsas konstitusiya prinsiplərinin mövcudluğu ilə şərtlənir. Belə ki, hər bir hüquqi dövlətin Konstitusiyası bu təməl prinsipləri müəyyən edərək insan hüquqları və azadlıqlarının müdafiəsi, hakimiyyətlərin bölgüsü və digər bir sıra mühüm hüquqi başlanğıcları özündə ehtiva edir.

Ulu Öndərin hər birimizə tövsiyəsidir: *"Hər bir şəxs Konstitusiyaya və qanunlara əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələrini layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir"; "Məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir. Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır. Hər bir vətəndaşın Konstitusiyasıdır!".*

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəti-

cəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir. 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur.

Torpaqlarımızın işğaldan azad edilməsi və suverenliyimizin tam təmin olunması nəticəsində Əsas Qanunda ehtiva edilən Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyəti də tam reallaşıb. Belə ki, Konstitusiyanın 11-ci maddəsinə əsasən Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Dövlət başçısı cənab İlham Əliyevin uzaqgörən və uğurlu siyasəti nəticəsində bu müddətdə təsbit edilən prinsiplər tam şəkildə təmin olunub.

Azərbaycanda hüquq sistemi, insan hüquqlarının təminatı və dövlət idarəetməsinin müasirləşdirilməsi sahəsində ciddi nailiyyətlər əldə edilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu nailiyyətlərin davam etdirilməsi və konstitusiya prinsiplərinin dərinləşdirilməsi üçün ardıcıl islahatlar həyata keçirilib. Ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində, 2009-cu il martın 18-də isə 25 maddəyə əlavə və dəyişikliklər edilib. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının gücləndirilməsi, həmçinin vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən irəli gəlir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya üçüncü dəfə əlavə və dəyişikliklər edilib. Konstitusiyanın 29 maddəsinə edilən əlavə və dəyişikliklər müxtəlif sahələri əhatə etməklə, ali dövlət, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə yönəlib. Beləliklə, Əsas Qanunumuz daha da təkmilləşdirilməklə yeni dövrün tələblərinə uyğunlaşdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir. Prezident İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan olunması dövlətçilik tariximizin öyrənilməsi, eyni zamanda, postmüharibə dövründə yeni milli ideoloji prioritetlərin böyük əhəmiyyət kəsb etməsi, qüdrətli Azərbaycanın dünya ölkələri sırasında özünə layiqli yer tutması, müstəqilliyimizin dönməz və əbədi olmasında bir çox prinsiplərin həm tarixi əhəmiyyətini, həm də mahiyyətini daha da ön plana çıxarmaq baxımından əvəzsiz rol oynayır.

Prezident İlham Əliyevin 2025-ci ili “Konstitusiya və Suverenlik İli” elan etməsi Azərbaycanın dövlətçilik ənənələrini daha da möhkəmləndirmək, xalqın hüquq və azadlıqlarının təmin olunmasına dair öhdəlikləri vurğulamaq məqsədi daşıyır. Bu qərar, həmçinin milli suverenliyimizin və hüquqi dəyərlərimizin təbliği baxımından tarixi bir addımdır. Ötən dövrdə olduğu kimi, il ərzində həyata keçiriləcək genişmiqyaslı islahatlar da Azərbaycan xalqının hüquqi dövlət quruculuğu yolunda irəliləməsinə zəmin yaradacaq.

Dövlətin suverenliyi üçün ilk növbədə hüquqi-siyasi, sosial-iqtisadi fundament formalaşdırılmalıdır. Azərbaycana münasibətdə qeyd edilməlidir ki, 1969-cu ildə ümummilli lider Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə ölkənin intibah dövrünə qədəm qoyması belə fundament rolunu oynadı. Ötən əsrin 60-cı illərinin sonunda ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə yaradılmış iqtisadi potensial müstəqillik illərində Azərbaycan üçün çox mühüm rol oynadı. Dahi şəxsiyyət Heydər Əliyevin həyata keçirdiyi düşünülmüş daxili siyasət sayəsində ölkəmizdə milli özünüdərk, vətənpərvərliyin gücləndirilməsi istiqamətində də vacib addımlar atıldı. O dövrdə müxtəlif sahələrdə yerli kadrların yetişdirilməsi, həmçinin milli şüurun inkişaf etdirilməsi, milli ruhun yüksəldilməsi sahəsində bir çox mühüm işlər həyata keçirildi.

Ulu öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Azərbaycan Konstitusiyasının inkişafı və cəmiyyətimizdəki rolunu şərh edərkən qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyası müasir dövlət quruculuğunun əsasını təşkil edən fundamental hüquqi sənəddir. Bu konstitusiya dövlət hakimiyyətinin bölünməsi prinsipini təsbit etməklə icra, qanunvericilik və məhkəmə hakimiyyətləri arasında səlahiyyət bölgüsünü müəyyənləşdirmişdir. Konstitusiyanın qəbulu demokratik dövlət quruculuğuna mühüm töhfə vermişdir. Konstitusiya hüququ dövlətin idarəetmə formasını, vətəndaşların hüquq və azadlıqlarını və dövlətin

əsas institutlarını müəyyən edən hüquq sahəsidir. Demokratik cəmiyyətlərdə konstitusiya hüququ cəmiyyətin inkişafına və hüquqi dövlətin formalaşmasına təkan verən əsas mexanizmlərdən biridir. Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya qanunvericilik sisteminin əsasında durur, eyni zamanda ölkədə hüquqi və siyasi sabitliyin təminatı qismində çıxış edir. Həmçinin dövlət suverenliyinin əsas təminatçısı olmaqla, Konstitusiya normaları ictimai münasibətlərin inkişafında müəyyənlik amili qismində çıxış edir. Ölkə Konstitusiyası dövlət quruluşunun əsaslarını, hakimiyyətlərin bölünməsi prinsipini, hakimiyyət orqanlarının təşkili, səlahiyyətləri və fəaliyyət qaydalarını, şəxsiyyət, cəmiyyət və dövlət arasındakı münasibətlərin hüquqi çərçivələrini müəyyən edir, insan hüquqları və azadlıqlarının müdafiəsi və təminatı ilə bağlı mexanizmləri tənzim edir. Azərbaycanın konstitusiya hüququnun inkişafı qanunvericiliyin təkmilləşdirilməsi və insan hüquqlarının qorunması ilə sıx bağlıdır.

Məlum olduğu kimi, konstitusiyaların hüquqi əlamətlərindən biri onların stabilliyidir. Konstitusiyanın stabilliyi ölkədə qanunçuluğun, dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsinin, şəxs, dövlət və cəmiyyət arasındakı münasibətlərin əsas şərtlərindən biridir. Konstitusiya uzunmüddətli fəaliyyət üçün nəzərdə tutulan normativ-hüquqi aktdır. Bununla belə, konstitusiyaların qəbulu zamanı onların tənzimetmə predmetini təşkil edən ictimai münasibətlər və bu münasibətlərin tərkib hissəsi olan hüquqi, siyasi, sosial və iqtisadi vəziyyət dəyişir, cəmiyyət elmin və texnologiyaların inkişafı baxımından keyfiyyətcə yeni dövrə qədəm qoyur.

Azərbaycanda həyata keçirilən konstitusiya islahatları ölkənin dövlət idarəçiliyinin modernləşdirilməsinə yönəlmişdir. Xüsusilə 2002, 2009 və 2016-cı illərdə aparılan konstitusiya dəyişiklikləri dövlət hakimiyyətinin səmərəli fəaliyyətini təmin etmək məqsədini daşıyırdı. Bu dəyişikliklər idarəetmə sisteminin çevikliyini artırmaqla bərabər, hüquq sisteminin daha da təkmilləşdirilməsinə şərait yaratmışdır.

44 günlük Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri nəticəsində parlaq Qələbənin əldə edilməsi Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, dövlət başçısı cənab İlham Əliyevin yenilməz siyasi iradəsi və qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində mümkün oldu. Dövlətimiz ildən-ilə güclənərək inkişafının yüksək tərəqqi ilə xarakterizə olunan keyfiyyətcə yeni dövrünü yaşayır. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən həyata keçirilən effektiv dövlət idarəçiliyi, həmçinin təhlükəsizlik və sabitliyin gücləndirilməsi istiqamətində görülən tədbirlər, ümumilikdə, müstəqilliyimizin daha da möhkəmləndirilməsini təmin edib. Ölkəmizin bilavasitə təşəbbüsü və iştirakı ilə uğurla həyata keçirilən bir sıra irimiqyaslı layihələr Azərbaycanın, eyni zamanda ümumilikdə, regionun təhlükəsizliyinə və iqtisadi inkişafına mühüm və əvəzsiz töhfəsini verir.

Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ölkəmizin hüquqi inkişafında mühüm mərhələ kimi qiymətləndirilir. Bu qərar hüquqi sistemin təkmilləşdirilməsi, vətəndaşların hüquqi biliklərinin artırılması və konstitusiya əsaslarının möhkəmləndirilməsi məqsədlərinə xidmət edir. Bu sərəncam dövlətçilik tariximizin daha da dərindən öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən imzalanan sərəncam ölkəmizin keçmişi, bu günü və gələcəyi üçün xüsusi məna ifadə edərək hüquqi dövlətçilik və suverenlik dəyərlərinin yeni qlobal çağırışlar əsasında formalaşdırılması üçün bir fürsət kimi dəyərləndirilə bilər. Sərəncamda qeyd edilmişdir: "*Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir*".

"Konstitusiya və Suverenlik İli" dövlətin hüquqi əsaslarının möhkəmləndirilməsi, dövlət suverenliyinin daha da gücləndirilməsi məqsədi daşıyır. İstənilən xalq üçün müstəqil, suveren dövlətini yaratmaq və onu inkişaf etdirmək ən böyük nailiyyətdir. Ərazi, əhali və siyasi hakimiyyət kimi əsas atributları özündə ehtiva edən hər hansı siyasi varlığın dövlət olması üçün suverenlik, müstəqillik xüsusiyyətinə malik olması vacib şərtdir. Suverenlik istənilən dövlətin mövcudluğunun və davamlı inkişafının ilkin və əsas şərti qismində çıxış edir.

Suverenlik və onun hüquqi əsaslarından bəhs edərkən qeyd etmək lazımdır ki, suverenlik anlayışı siyasi elmin və beynəlxalq hüququn əsas anlayışlarından biri olub, dövlətin daxili və xarici siyasətində müstəqilliyini müəyyən edir. Orta əsrlərdə formalaşan və dövlətlərin müstəqilliyini vurğulayan suverenlik anlayışı, xüsusilə Vestfal Sülhü (1648) ilə hüquqi müstəvidə güclənmişdir. Beynəlxalq hüquqda suverenlik prinsipi Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsi ilə qorunur. Xüsusilə BMT-nin Nizamnaməsinin 2-ci maddəsi dövlətlərin daxili işlərinə müdaxilə olunmamasını təsbit edir. Bununla yanaşı, qloballaşma və beynəlxalq təşkilatların artan rolu dövlət suverenliyinin yeni çağırışlarla üzləşməsinə səbəb olmuşdur. Azərbaycan Respublikasının suverenliyi 18 oktyabr 1991-ci il tarixində qəbul edilən "Müstəqillik haqqında Konstitusiya Aktı" ilə hüquqi əsas qazanmışdır. 1995-ci ildə qəbul edilən Konstitusiya isə bu suverenliyi daha da möhkəmləndirmiş, dövlət idarəetmə sisteminin təməlini qoymuşdur. Konstitusiyanın 1-ci maddəsində dövlətin müstəqilliyi və bölünməzliyi təsbit edilir ki, bu da hüquqi suverenliyin əsas göstəricisidir.

Müstəqil Azərbaycan Prokurorluğunun hüquqi əsasları da məhz 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyada təsbit olunmuşdur. Ulu öndər Heydər Əliyevin Azərbaycan Prokurorluğunun formalaşmasında rolu əvəzedilməz olmuşdur. Məhz Ulu öndərin təşəbbüsü ilə prokurorluq orqanlarının fəaliyyətini tənzimləyən norma Konstitusiyaya daxil edilməklə prokurorluq orqanlarının dövlət təsisatları içərisində yeri müəyyənləşdirilib. Ulu öndərin tapşırıqlarına müvafiq olaraq 2002-ci ildə Konstitusiyaya edilmiş əlavə və dəyişikliklərə əsasən prokurorluq orqanlarına qanunvericilik təşəbbüsü hüququ verilmiş, məhz onun rəhbərlik etdiyi dövrdə prokurorluğun beynəlxalq və milli standartları özündə əks etdirən bir qurum kimi formalaşması üçün bir sıra qanunvericilik aktları qəbul edilmişdir. Qəbul edilmiş qanunvericilik aktlarında prokurorluq orqanlarının əsas fəaliyyət istiqaməti və prinsipləri ətraflı şəkildə təsbit edilmişdir.

Dövlət müstəqilliyimizin qorunub saxlanılmasında və daha da möhkəmləndirilməsində digər dövlət orqanları ilə yanaşı, prokurorluğun da xüsusi rolu olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət təsisatı və SSRİ Prokurorluğunun tərkib hissəsi kimi uzunmüddətli və mürəkkəb bir inkişaf yolu keçən Azərbaycanın milli prokurorluq orqanları yalnız ölkəmiz öz dövlət müstəqilliyini qazandıqdan sonra ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə həyata keçirilən möhtəşəm və hərtərəfli islahatlar nəticəsində tamamilə yenidən qurulmuş, normal fəaliyyəti üçün mütərəqqi normativ-hüquqi bazası, demokratik məzmunlu fəaliyyət prinsipləri və iş metodları olan sivil təsisata çevrilmişdir.

Prokurorluq orqanlarının ölkədə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, qanunçuluğun təmini, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyətini daim yüksək qiymətləndirən Ulu Öndərin “Respublika prokurorluğu və Baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir” sözləri prokurorluğa ali səviyyədə olan diqqət və önəmin bariz nümunəsi hesab edilmişdir.

Ulu öndərin prokurorluğa olan diqqət və qayğısının davamı hesab edilən 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə oktyabr ayının 1-i Respublikamızda prokurorluq işçilərinin peşə bayramı günü elan olunmuş, eyni zamanda onun şəxsi təşəbbüsü və rəhbərliyi altında Azərbaycan Respublikasında Prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir. Həmin təntənəli yığıncaqda Ulu Öndərin “Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram” şüarı bu gün də hər bir prokurorluq işçisi tərəfindən iftixar hissi ilə yad edilir.

Ulu Öndərin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən cinayətkarlığa, korrupsiyaya və kriminal xarakterli bütün mənfi təzahürlərə qarşı mübarizənin yeni müstəviyə qaldırılması, bu sahədə işin təşkilinə məsul olan hüquq mühafizə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətində səmərəliliyin artırılması, maddi-texniki təminatın yaxşılaşdırılması və əməkdaşların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması üçün məqsədyönlü addımlar atılmışdır.

Ölkə Başçısının 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə “Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi milli prokurorluq orqanlarının müasirləşməsi baxımından xüsusi önəmə malik bir addım olmuşdur.

Bu gün Dövlət Başçısının dəstəyi ilə prokurorluqda yeni müstəvidə müasir məzmunlu islahat tədbirləri davam etdirilməklə şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları təxirə salınmadan aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizminin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilməkdədir.

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi hüquqi islahatların daha sistemli həyata keçirilməsi və vətəndaşların hüquqi biliklərinin artırılması məqsədini daşıyır. Bu təşəbbüs hüquqi təhsil və maarifləndirməni gücləndirməklə vətəndaşların konstitusiya hüquqları ilə bağlı məlumatlılığını artırır. Hüquqi maarifləndirmə cəmiyyətin hüquqi şüurunun formalaşmasında mühüm rol oynayır. Konstitusiya dəyərlərinin təbliği hüquq dövlətinin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir. "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən tədbirlər hüquqi biliklərin genişlənməsinə və qanunun aliliyinin möhkəmləndirilməsinə xidmət edir. "Konstitusiya və Suverenlik İli"nin elan edilməsi gələcək hüquqi islahatların planlaşdırılması və həyata keçirilməsi üçün mühüm zəmin yaradır. Dövlət suverenliyinin qorunması və hüquq sisteminin modernləşdirilməsi Azərbaycan dövlətinin inkişaf strategiyasının əsas istiqamətlərindən biri olaraq qalmalıdır. Suverenlik və konstitusiya hüququ müasir dövlətçiliyin fundamental prinsipləridir. Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli"nin elan edilməsi hüquqi islahatların gücləndirilməsi və dövlət quruculuğunun inkişafı baxımından mühüm addımdır. Bu çərçivədə konstitusiya dəyərlərinin qorunması və hüquqi sistemin təkmilləşdirilməsi istiqamətində aparılan işlər dövlətin gələcək inkişafını müəyyən edəcəkdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə suveren və bütöv Azərbaycanı yeni dövrdə inkişafının mühüm mərhələsi gözləyir. Dövlətimiz və xalqımız tarixi nailiyyətlərə imza atmaqda davam edəcək.

**Günel Bayramova,**
**Bakı şəhəri Nizami rayon**
**prokurorunun böyük köməkçisi,**
**II dərəcəli hüquqşünas.**

# Suverenliyin hüquqi bünövrəsi Azərbaycan Konstitusiyasıdır




**Hər bir dövlətin mövcudluğunun və inkişafının hüquqi dayağı onun Konstitusiyasıdır. Konstitusiya milli dövlətçilik ideyasının, xalq iradəsinin və siyasi mədəniyyətin dayağıdır. Bu baxımdan Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilmiş Konstitusiyası ölkənin tarixində dönüş nöqtəsi olmuş, müstəqil Azərbaycan dövlətinin siyasi və hüquqi əsaslarını formalaşdırmışdır.**

Konstitusiya hüquqi iyerarxiyanın ən yüksək pilləsində dayanan əsas qanundur. O, dövlət quruluşunu, hakimiyyətin bölünməsi prinsipini, vətəndaşların hüquq və azadlıqlarını, dövlət orqanlarının fəaliyyət mexanizmini müəyyənləşdirir. Qanunvericilik sistemində Konstitusiyanın üstün mövqeyi onun tənzimlədiyi ictimai münasibətlərin dərinliyi və əhəmiyyətlilik dərəcəsi ilə izah olunur. Müasir demokratik dövlətlərdə Konstitusiya insan və vətəndaş hüquqlarının təminatçısı kimi çıxış edir. Azərbaycan Respublikasının Konstitusiyası da bu prinsipə əsaslanaraq, hüquqi dövlət quruculuğunun, vətəndaş cəmiyyətinin inkişafının və sosial ədalətin təmin olunmasının əsas hüquqi bazasına çevrilmişdir.

Azərbaycanın konstitusiya tarixinin başlanğıcı XX əsrin əvvəllərinə gedib çıxır. 1921-ci il mayın 19-da qəbul edilmiş ilk Azərbaycan SSR Konstitusiyası Sovet ideologiyasına uyğun şəkildə hazırlanmış, 1925 və 1978-ci illərdə yenilənmişdi. Lakin bu sənədlər suveren dövlət prinsiplərini əks etdirmirdi, mərkəzləşdirilmiş sovet idarəçiliyi sisteminə tabe idi. 1991-ci ildə müstəqilliyin bərpasından sonra ölkənin qarşısında əsas vəzifə milli dövlətçiliyin hüquqi-siyasi əsaslarını yaratmaq idi. Dövlətin idarəçilik mexanizmləri zəif idi, iqtisadi və siyasi sabitlik pozulmuşdu. 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkəni parçalanmaq təhlükəsindən xilas etdi, müstəqil, hüquqi və demokratik dövlət quruculuğuna yönəlmiş islahatların müəllifinə çevrildi. Məhz Ümummilli liderin rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi – referendum yolu ilə Azərbaycanın ilk müstəqil dövlət Konstitusiyası qəbul olundu. Bu sənəd xalqın iradəsinin birbaşa ifadəsi idi və hüquqi baxımdan Azərbaycan Respublikasının yeni tarixi mərhələyə keçidini rəsmiləşdirirdi. Ulu Öndər Heydər Əliyev bu barədə deyirdi: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü – ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".

1995-ci il Konstitusiyası qəbul edildikdən sonra Azərbaycanın hüquq sistemi və dövlət institutları ardıcıl şəkildə bu sənədin prinsiplərinə uyğunlaşdırıldı. Müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılması, dövlət idarəçiliyinin institusional strukturunun modernləşdirilməsi, yerli özünüidarə orqanlarının yaradılması kimi mühüm proseslər məhz bu Konstitusiyanın nəticəsində həyata keçirildi.

Azərbaycan Respublikası Konstitusiyasının 1-ci maddəsi hakimiyyətin mənbəyini müəyyənləşdirir. I bənddə deyilir: Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. II. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir; bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir."

Bu norma xalq hakimiyyətinin təməl sütunudur. Burada "xalq" anlayışı etnik, dini və sosial mənsubiyyətindən asılı olmayaraq Azərbaycan dövlətinə və onun qanunlarına tabe olan bütün vətəndaşların birliyini ifadə edir. Deyilir ki, xalq dövlətin suveren iradəsinin formalaşdırıcısı olmalıdır, yəni dövlət hakimiyyətinin legitimliyi yalnız xalqın razılığı və iştirakı




ilə mümkündür. Dövlət orqanlarının səlahiyyətlərinin xalq tərəfindən dolayı (seçki yolu ilə) və ya bilavasitə (referendum vasitəsilə) verildiyini göstərir. Bu bənd həm də beynəlxalq hüququn prinsipləri ilə uzlaşır. Konstitusiyanın 1-ci maddəsinin ikinci bəndində "bu, beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir" ifadəsi dövlətin beynəlxalq hüquq subyekti kimi qəbul etdiyi öhdəliklərə hörmət prinsipini təsdiq edir. Bu, Azərbaycanın həm daxili suverenliyini, həm də beynəlxalq hüquqi sistemdə legitimliyini qoruyur.

Maddə 2. Xalqın suverenliyi I bənddə deyilir ki, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. II. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi – referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Burada "sərbəst və müstəqil öz müqəddəratını həll etmək" ifadəsi dövlətin daxili və xarici siyasətinin ən ali hüquqi prinsipi kimi çıxış edir. Bu norma həm də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində təsbit olunmuş öz müqəddəratını təyinetmə hüququ prinsipi ilə səsləşir. Azərbaycan xalqının suveren hüququ iki formada həyata keçirilir, birbaşa demokratiya forması – ümumxalq səsverməsi (referendum) vasitəsilə, dolyaylı demokratiya forması – ümumi, bərabər və birbaşa seçki hüququ əsasında seçilmiş nümayəndələr vasitəsilə.

Bu mexanizmlər xalqın iradəsinin həm birbaşa, həm də nümayəndəlik yolu ilə ifadə olunmasına şərait yaradır. Beləliklə, xalqın suverenliyi hüquqi reallıq kimi təsbit edilir. Azərbaycan dövlətinin idarəetmə forması olan demokratik respublika məhz bu maddədən qaynaqlanır.

Beləliklə, Azərbaycan Respublikası Konstitusiyasının 1 və 2-ci maddələrinin mahiyyəti, dövlətin demokratik legitimliyini, yəni xalqın iradəsinə əsaslanmasını təmin edir.

Ulu Öndər Heydər Əliyev demişdir: "Bizim Konstitusiyamız Azərbaycan Respublikasının tarixi ənənələrini, xüsusiyyətlərini əks etdirir. O, Azərbaycan Respublikasında demokratik hüquqi dövlətin qurulmasını, ölkəmizdə olan bütün vətəndaşların hüquq və azadlıqlarını təmin edəcəkdir. Bu bizim özümüzün Konstitusiyamızdır, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır.

Yeni Konstitusiya Azərbaycanda demokratik hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün bütün əsaslar yaradıbdır, bütün təminatları veribdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir".

1995-ci ilin oktyabrında ümumxalq müzakirəsinə təqdim olunan Konstitusiya xalqın dövlət quruculuğu prosesində bilavasitə iştirakının real ifadəsi idi. Müzakirələr zamanı Konstitusiya layihəsinə minlərlə təklif daxil oldu və onların böyük hissəsi sənəddə əksini tapdı. Beləliklə, Konstitusiyanın qəbulu prosesi həm hüquqi, həm də ictimai baxımdan xalq iradəsinə əsaslanan demokratik mərhələ kimi tarixə düşdü. Eyni ildə noyabrın 12-də Azərbaycanın tarixində ilk dəfə müstəqil dövlət Konstitusiyası ümumxalq səsverməsinə çıxarıldı. Referendumda seçicilərin 86 faizi iştirak etdi və onların 91,9 faizi Konstitusiyanın qəbul edilməsinin lehinə səs verdi. Yeni Konstitusiya 1995-ci il noyabrın 27-də hüquqi qüvvəyə mindi.

Azərbaycanın milli dövlətçilik tarixində bu hadisənin əhəmiyyəti nəzərə alınaraq, 1996-cı il 1 noyabr tarixli Fərmanla hər il noyabrın 12-si Konstitusiya Günü qeyd edilməyə başlandı. Hüquqi dövlətin əsas prinsiplərindən biri onların aliliyinin təmin edilməsidir. Məhz bu məqsədlə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Konstitusiya sisteminin vacib tərkib hissəsi olan Konstitusiya Məhkəməsi yaradıldı. 1997-ci il oktyabrın 21-də "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu qanun müstəqil məhkəmə orqanının hüquqi statusunu, səlahiyyətlərini və təşkilati strukturunu müəyyənləşdirdi.

1998-ci il iyulun 14-də Milli Məclisin qərarı ilə Konstitusiya Məhkəməsinə 7 hakim təyin olundu, iyulun 18-də də Ulu Öndər Heydər Əliyev Konstitusiya Məhkəməsinin müstəqilliyini və hakimlərinin hüquqi təminatını təmin edən xüsusi Fərman imzaladı. Bununla da, Azərbaycan hüquq sistemində ali ədalət mühakiməsinin yeni bir qolu formalaşdı.

Dövlət idarəetməsi və ictimai münasibətlər sistemi daim dinamik inkişafda olduğundan, Konstitusiyanın da dövrün tələblərinə uyğun təkmilləşdirilməsi zərurətə çevrildi. Bu baxımdan, 2002-ci il avqustun 24-də keçirilmiş referendum mühüm dönüş mərhələsi kimi dəyərləndirilir. Həmin referendum nəticəsində 24 maddədə 29 dəyişiklik qəbul olundu. Bu dəyişikliklər, ilk növbədə, dövlətin sosial-iqtisadi bazasının gücləndirilməsinə, vətəndaş cəmiyyətinin formalaşmasına, insan hüquqlarının müdafiəsinə yönəldi. Demokratik idarəetmənin institusional əsaslarının möhkəmləndirilməsi və yerli özünüidarəetmənin hüquqi mexanizmlərinin genişləndirilməsi həmin dəyişikliklərin əsas məzmununu təşkil edirdi. 2009-cu il martın 18-də keçirilmiş növbəti referendumda 25 maddəyə 30-dan artıq əlavə və dəyişiklik edilərək, Azərbaycan dövlətinin konstitusion modelində daha çevik, müasir idarəetmə mexanizmləri formalaşdırıldı. Dövlət başçısı, Prezident İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya 29 maddə üzrə 41 əlavə və dəyişiklik edildi. Bu islahatlar çərçivəsində vitse-prezident institutunun yaradılması, vətəndaş cəmiyyətinin inkişafına dəstək verən hüquqi bazanın formalaşması və dövlət orqanlarının məsuliyyətinin artırılması müasir idarəçilik modelinin mühüm elementlərinə çevrildi.

2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi, Azərbaycan xalqının suveren iradəsinin, milli birliyinin və dövlətçilik idealına sədaqətinin parlaq təcəssümü oldu. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi ədaləti bərpa etdi, torpaqlarımızı işğaldan azad etdi və Azərbaycan dövlətçiliyinin suverenliyi real məzmunda bərpa olundu. Müzəffər Ali Baş Komandanın 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Bayrağını qaldırarkən dediyi sözlər yüzilliklər boyu azərbaycanlı qanı daşıyan hər kəsin dillər əzbəri olacaq: "Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Bu Qələbə xalq-iqtidar birliyinin konstitusion prinsiplər səviyyəsində gerçəkləşməsi idi. Xalq öz suveren hüququnu müdafiə etmək üçün bir amal ətrafında birləşdi, milli həmrəyliyin ən yüksək səviyyəsini nümayiş etdirdi. 10 noyabr 2020-ci ildə imzalanmış kapitulyasiya aktı ilə Ermənistan təslim oldu, Azərbaycan isə XXI əsrdə Zəfər paradı keçirən ilk dövlət kimi dünya siyasi tarixinə adını yazdırdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamı ilə 20 sentyabr Dövlət Suverenliyi Günü, 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə də 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi, hüquqi dövlət quruculuğu prosesində yeni strateji mərhələnin başlanğıcını simvolizə edir.

Bu qərar Konstitusiyanın qəbul edilməsinin 30 illiyi və 44 günlük Vətən müharibəsində Qələbənin 5 illiyi ilə səsləşən dərin siyasi və ideoloji məzmun daşıyır. Azərbaycan Respublikası Konstitusiyasının inkişaf mərhələləri göstərir ki, hər bir dəyişiklik və əlavə dövlətin müstəqilliyinin, suverenliyinin və xalqın rifahının təmin olunmasına yönəlib. Azərbaycan dövləti artıq postmüharibə dövründə suverenlik və hüquqi idarəetməni sintez edən yeni model qurur.

Müasir mərhələdə xalqın suverenliyi, dövlətin hüquqi ali rolu və liderlik institutu bir-birini tamamlayan strateji sütuna çevrilib. Prezident İlham Əliyevin siyasi iradəsi və konstitusion islahatlar nəticəsində Azərbaycan hüquqi dövlət, milli həmrəylik və suverenlik prinsipləri əsasında dayanıqlı inkişaf yolunu davam etdirir. Ölkə başçısı, Prezident İlham Əliyev qeyd etmişdir: "Dövlətlər zəif olmur, onların rəhbərləri zəif olur. Qələbə qazanmaq bacarığı isə yalnız güclü lideri olan dövlətlərə və xalqlara nəsib ola bilər".

**Yunis Qurbanov,**
**Sumqayıt şəhər prokurorunun**
**böyük köməkçisi, kiçik ədliyyə müşaviri.**

# Hüquqi dövlət quruculuğunda prokurorluğun rolu

**Dövlətin möhkəm təməlləri yalnız iqtisadi və hərbi güclə deyil, onun hüquqi əsaslarının sabitliyi və ideoloji dayaqlarının möhkəmliyi ilə formalaşır. Azərbaycan Respublikasının Konstitusiyası bu mənada xalqın azad iradəsinin və müstəqil dövlətçiliyinin ali ifadəsi, eyni zamanda, milli suverenliyin hüquqi təminatıdır.**

Azərbaycanın yeni Konstitusiyası ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasi zəkası və dövlətçilik fəlsəfəsi nəticəsində hazırlanaraq 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul olundu. Bu sənəd müasir dövlət quruculuğunun hüquqi bünövrəsini qoydu, demokratik idarəçiliyin və vətəndaş cəmiyyətinin əsas prinsiplərini müəyyənləşdirdi. Ümummilli lider Heydər Əliyev Konstitusiyanı sadəcə hüquqi akt kimi deyil, Azərbaycan xalqının müstəqil iradəsinin və əbədi suverenliyinin manifesti kimi formalaşdırdı.

Prezident İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması, həm bu tarixi sənədin əhəmiyyətini bir daha vurğulamaq, həm də Ümummilli liderin müəyyən etdiyi dövlətçilik kursunun müasir dövrdə davam etdirilməsini simvolizə edir. Bu il, eyni zamanda, Azərbaycan Respublikasının Konstitusiyasının ruhunda yaşayan suverenlik ideyalarının XXI əsrdə tam reallığa çevrilməsini göstərən bir mərhələdir.

Azərbaycan xalqının azadlıq, müstəqillik və dövlətçilik uğrunda yüzillik arzuları 1995-ci ildə qəbul olunmuş Konstitusiyada hüquqi ifadəsini tapdı. Onun preambulasında "Azərbaycan xalqı öz suveren hüququna əsaslanaraq bu Konstitusiyanı qəbul edir" ifadəsi yer alır – bu, həm tarixi iradənin, həm də hüquqi suverenliyin rəmzidir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilən bu sənəd, müstəqil Azərbaycan dövlətinin idarəetmə modelini, insan və vətəndaş hüquqlarının təminatını və qanunun aliliyini təsbit etdi.

Konstitusiya qəbul olunduğu gündən etibarən, Azərbaycanın beynəlxalq aləmdə hüquqi cəhətdən tanınmış, müstəqil və bərabərhüquqlu dövlət kimi mövqeyinin möhkəmlənməsində əsas sənəd oldu. Bu, dövlət suverenliyinin yalnız siyasi deyil, həm də hüquqi və mənəvi aspektlərini formalaşdırdı. Beləliklə, hüquqi dövlətin təməli məhz Heydər Əliyevin uzaqgörən liderliyi ilə qoyuldu.

Suverenliyin davamlılığı isə müasir mərhələdə Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni məzmun və dinamika qazandı. XXI əsrdə dövlətin daxili və xarici siyasəti Konstitusiyanın prinsiplərinə söykənərək, Azərbaycanın müstəqil qərarvermə hüququnu və milli maraqlarını qorumaq istiqamətində həyata keçirildi. Bu siyasətin ən parlaq təzahürü 2020-ci ildə baş vermiş Vətən müharibəsi oldu. Məhz Prezident İlham Əliyevin qətiyyəti və strateji iradəsi sayəsində Azərbaycan Ordusu tarixi Qələbə qazandı, dövlətin konstitusion hüququ olan ərazi bütövlüyü və suverenliyi bərpa olundu. 2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində isə Azərbaycan öz torpaqları üzərində tam suveren hakimiyyətini təmin etdi. Beləliklə, 1995-ci ildə Heydər Əliyevin hüquqi əsaslarını qoyduğu suveren dövlətçilik ideyası, Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrdə tam gerçəkliyə çevrildi.

Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyətinin bütün qollarının fəaliyyətini hüquq çərçivəsində tənzimləyir və onların qarşılıqlı balansını təmin edir. Bu sistemdə prokurorluq orqanları xüsusi əhəmiyyətə malikdir. Konstitusiyanın 133-cü maddəsinə əsasən Azərbaycan Respublikasının Prokurorluğu vahid mərkəzləşdirilmiş orqandır və dövlətin hüquqi sabitliyini, qanunun aliliyini və konstitusion prinsiplərin qorunmasını təmin edir.

Prokurorluq orqanlarını yalnız ədalətin bərpası funksiyasını deyil, həm də dövlət suverenliyinin hüquqi təminatını öz üzərinə götürür. Azərbaycanın müstəqillik tarixində prokurorluq orqanları ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik modelinə sadiq qalaraq, hüquqi dövlətin qurulmasına, qanunun aliliyinin möhkəmlənməsinə mühüm töhfələr vermişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sistem müasir çağırışlara uyğun modernləşdirilmiş, fəaliyyətində peşəkarlıq, şəffaflıq və vətəndaş məmnunluğu kimi prinsipləri əsas tutmuşdur. Prokurorluq bu gün Azərbaycanın hüquqi suverenliyinin qorunmasında, dövlətin hüquqi dayaqlarının möhkəmləndirilməsində və cəmiyyətin ədalətə inamının təmin olunmasında mühüm rol oynayır. Bu fəaliyyət Konstitusiyanın aliliyinə sadiqliyin, dövlətçilik məsuliyyətinin və milli maraqlara xidmətin parlaq nümunəsidir.

Azərbaycan Respublikasının Konstitusiyası, dövlət suverenliyi və hüquqi sistem – bir-birini tamamlayan və qarşılıqlı şəkildə möhkəmləndirən üç sütundur. Bu sütunların əsasında ümummilli lider Heydər Əliyevin dövlətçilik irsi, onun müəyyən etdiyi hüquqi və ideoloji prinsiplər dayanır. Müasir mərhələdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin prinsiplər praktik reallığa çevrilmiş, Azərbaycanın tam suverenliyi bərpa olunmuş və hüquqi dövlətçilik daha da güclənmişdir.

Bu prosesdə prokurorluq orqanları qanunun aliliyinin qoruyucusu və hüquqi suverenliyin təminatçısı kimi mühüm funksiyanı yerinə yetirir. 2025-ci il "Konstitusiya və Suverenlik İli" bu tarixi ardıcıllığın, hüquqi dövlət quruculuğu ilə milli suverenliyin vəhdətinin, həm də ədalət və qanunçuluğun təntənəsinin simvoludur.

Konstitusiya – qanunun aliliyi və ədalətin səsi, Suverenlik – azad iradənin və milli ruhun əbədiyyətidir, Prokurorluq isə bu dəyərlərin hüquqi qoruyucusudur.

**Ləman DADAŞZADƏ,**
**Sumqayıt şəhər prokurorunun köməkçisi,**
**I dərəcəli hüquqşünas.**

# Dövlətçilik tariximizin şanlı səhifəsi




**Azərbaycan xalqının taleyində böyük əhəmiyyəti olan və tariximizə qızıl hərflərlə yazılan Milli Qurtuluş Günü otuz iki ildir ki, qeyd olunur. Bu tarixi yaradan isə dahi şəxsiyyət Heydər Əliyevdir. Ulu Öndərin 1993-cü il iyunun 15-də ikinci dəfə hakimiyyətə qayıdışı ilə respublikamız dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, ölkəmizin müstəqillik yolunda inkişafının sarsılmaz təməlləri qoyuldu.**

Dövlətimizin gələcəyi üçün böyük fədakarlıq göstərən Ulu Öndər Heydər Əliyev on illik hakimiyyəti dövründə fəaliyyətini bütövlükdə respublikamızın çiçəklənməsinə, insanların güzəranının yaxşılaşmasına sərf etdi. Sözsüz ki, Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq müstəqil bir dövlət kimi formalaşması məhz Ulu Öndərimizin uğurlu siyasətinin bəhrəsidir.

Ulu Öndərimizin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Dahi liderin məcburi köçkünlərlə görüşlərinin birində böyük inamla və özünə xas uzaqgörənliklə söylədiyi bu sözlər yada düşür: “Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin bulaqları, Kəlbəcərin o isti suyu – biz onlarsız yaşaya bilmərik”.

Uzaqgörən Liderimizin arzuları 28 ildən sonra reallaşdı, Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Bu gün o müqəddəs yerlərdə, eləcə də Xankəndidə, Ağdərə, Xocalıda üçrəngli bayrağımız əzəmətlə dalğalanır.

Müstəqilliyimizin ilk illərində baş verən hadisələr, silahlı qarşıdurma, vətəndaş müharibəsi təhlükəsi məmləkətimizi olum, ya ölüm dilemması qarşısında qoymuşdu. Belə bir vaxtda xalqın qəhrəman və dahi oğlu Heydər Əliyev böyük xilaskarlıq missiyasının bütün ağırlıqlarını və çətinliklərini öz üzərinə götürdü, ömrünün qalan hissəsini də Azərbaycana, doğma millətinə həsr etməyə hazır olduğunu bildirdi. Bu mənada, Ulu Öndərin xalqın təkidli tələbi və çağırışı ilə yenidən hakimiyyətə gəlişini mübaliğəsiz olaraq “Böyük xilaskarlıq qayıdışı” adlandırmaq olar. Dahi şəxsiyyət Heydər Əliyev ömrünün sonunadək bu vədə sadiq qaldı, Azərbaycanın müstəqilliyinin dönməzliyini təmin etmək üçün miqayisəyə gəlməz işlər gördü.

Ümummilli Liderimizin rəhbərliyi altında respublikamızda hakimiyyət böhranı qısa müddətdə tam

aradan qaldırıldı, xalqı fəlakətə sürükləyən silahlı dəstələr, dövlətçiliyə qəsd etmək istəyən cinayətkar və xəyanətkar ünsürlər zərərsizləşdirildi. Bu da bütün sahələrdə sabitlik yaranmasına, ardıcıl və sistemli şəkildə hüquqi dövlət quruculuğuna, vətəndaş cəmiyyətinin formalaşmasına, insan hüquq və azadlıqlarının bərqərar olmasına, respublikamızın dünya birliyi ölkələri arasında layiqli yer tutmasına imkan verdi.

Onu da vurğulamaq lazımdır ki, Ulu Öndərimiz hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə genişmiqyaslı layihələrin hazırlanmasına və reallaşmasına təşəbbüs göstərdi. 1994-cü il sentyabrın 20-də dünyanın aparıcı şirkətlərinin iştirakı ilə Bakıda neft sazişi imzalandı. Tarixə "Əsrin müqaviləsi" kimi düşən bu layihə respublikamızın iqtisadi qüdrətinin yüksəlməsinə, dünya ölkələri arasında nüfuzunun artmasına gətirib çıxarmışdır. Bakıda belə bir müqavilənin bağlanması, eləcə də "Azəri-Çıraq-Günəşli" neft və qaz yataqlarının istifadəyə verilməsi, "Bakı-Tbilisi-Ərzurum" qaz kəmərinin reallaşması da məhz Heydər Əliyevin strategiyasının təntənəsidir.

Otuz bir il əvvəl Ulu Öndərin uzaqgörən siyasəti və dəmir iradəsi sayəsində imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın inkişafında dönüş nöqtəsi oldu, ölkəmiz beynəlxalq enerji layihələrinin fəal iştirakçısına çevrildi. Xarici tərəfdaşlarla birlikdə reallaşdırılan iri layihələr enerji xəritəsində ölkəyə strateji mövqe qazandırmaqla yanaşı, dünya enerji təchizatının sabitliyinə də töhfə verdi.

Prezident İlham Əliyevin söylədiyi kimi, Ümummilli Lider bu böyük layihəni həyata keçirməklə Azərbaycanın gələcək nəsillərinə iqtisadi müstəqillik və davamlı inkişaf mirası qoydu. Ötən 30 ildə ölkə iqtisadiyyatı gücləndi, Azərbaycanın regional və qlobal səviyyədə mövqeyi möhkəmləndi. Ölkəmizə iri xarici sərmayələr cəlb olundu, infrastruktur müasirləşdi, yeni iş yerləri yaradıldı və əhalinin həyat şəraiti əhəmiyyətli dərəcədə yaxşılaşdı.

Müstəqil Azərbaycanın bütün uğurları, dünyada sabit, demokratik, hüquqi dövlət kimi tanınması dahi öndərin böyük əməyi, məqsədyönlü fəaliyyəti, uzaqgörənliyi və müdrikliyi sayəsində mümkün oldu. Dünya şöhrətli bu siyasi xadimin dövlətçiliyimiz qarşısında tarixi xidmətlərindən biri, ən başlıcası dövlət quruculuğunun hüquqi bazasını yaratmaq oldu. Onun rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası respublikamızın dövlət quruculuğunun əsaslarını formalaşdırmaqla, ölkəmizdə dövlət quruculuğunun bütün istiqamətlərində islahatlar aparılmasının əsasını qoydu. İnsan haqları və azadlıqlarının qorunması prinsiplərinin həyata keçirilməsinə şərait yaratdı.

Məlumdur ki, prokurorluğun fəaliyyətinin əsasları müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyasında müəyyən edilmişdir.

Xüsusi olaraq vurğulanmalıdır ki, Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan Prokurorluğunun formalaşmasında rolu əvəzolunmazdır. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Konstitusiyaya prokurorluğun fəaliyyətini tənzimləyən ayrıca 133-cü maddə daxil edilməklə, prokurorluq orqanlarının dövlət təsisatları sırasında və ümumilikdə cəmiyyətimizdə olan yeri müəyyənləşdirilərək dövlət səviyyəsində göstərilən hərtərəfli dəstək və qayğı nümayiş etdirilib. Ulu Öndərin tövsiyə və tapşırıqlarına uyğun olaraq, prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilib, bu qurumun fəaliyyəti ilə bağlı beynəlxalq, demokratik və sivil standartları əks etdirən qanunvericilik aktları hazırlanaraq qəbul edilib, yeni nəsil kadr siyasətinin, müsabiqə yolu ilə işə qəbulun istiqamətləri müəyyən olunub, prokurorluğun gələcək intellektual bazasının yaradılması üçün işə qəbul qaydaları dəyişdirilib, prokurorluq işçilərinin maddi-texniki təminatının yaxşılaşdırılması istiqamətində diqqət və qayğı artırılmaqla, peşə bayramı günü təsis edilib.

Müstəqilliyimizin bərpasından sonrakı müddət ərzində Azərbaycan Prokurorluğu qanunun aliliyinə, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun qorunmasına xidmət edən orqana çevrilməklə demokratik inkişaf yolu keçmişdir. Qəbul olunan çoxsaylı qanun və məcəllələr, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyası, "Məhkəmələr və hakimlər haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunlar və bir sıra digər mühüm normativ-hüquqi aktlar bütövlükdə demokratik cəmiyyətdə prokurorluğun yeri və rolunu müəyyən etmişdir.

Ulu Öndərin 2000-ci il aprelin 26-da prokurorluq orqanlarının rəhbər işçiləri ilə keçirdiyi tarixi görüşdən sonra Azərbaycan Prokurorluğunda bütün sahələri əhatə edən islahatlar aparıldı və zəruri normativ hüquqi baza yaradıldı. "Prokurorluq haqqında" Qanun qəbul edildi və peşəkar kadr korpusu formalaşdırıldı. Prokurorluğa qanunvericilik təşəbbüsü hüququ da xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təklifi ilə 2002-ci ildə "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən verildi. Bu, prokurorluğun hüquq sistemindəki əhəmiyyətini bir qədər də artırdı.

Dahi rəhbərimizin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları

haqqında Əsasnamə"nin icrası istiqamətində atılan addımlar isə reallıqlardan xəbər verir. Prokurorluq orqanlarına müasir dünyagörüşlü, bilikli və dövlətçilik ideyalarına sadiq gənc hüquqşünasların qəbulu bu qurumun fəaliyyətinin təkmilləşdirilməsinə təkan vermişdir.

Ulu Öndərin siyasi kursuna sadiqliyini bütün sahələrdə öz fəaliyyəti ilə nümayiş etdirən Prezident İlham Əliyev qanunun aliliyinin təmin olunmasını prioritet vəzifə kimi qarşıya qoydu. Dövlət başçısı bu sahədə həyata keçirilən islahatları yüksək dəyərləndirib və deyib ki, prokurorluq orqanlarında həyata keçirilən hüquqi islahatlar nəticəsində Azərbaycan Prokurorluğu milli maraqların və qanunun aliliyinin təmin olunmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edən müasir dövlət təsisatına çevrilmişdir. Öndərimizin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında ölkəmizin misilsiz inkişafını görmək, dərk etmək və qiymətləndirmək bir o qədər vacibdir. Xalqımız xoşbəxtdir ki, Heydər Əliyev dövlətçilik siyasətini müasir şəraitdə çox uğurla davam etdirən, bütün sahələr üzrə respublikamızın inkişafını təmin edə bilən İlham Əliyev kimi rəhbəri var.

Qeyd olunmalıdır ki, Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin otuz ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Hazırda azad olunmuş ərazilərdə dövlətimiz tərəfindən bərpa və yenidənqurma işləri həyata keçirilir, keçmiş məcburi köçkünlərin öz evlərinə təhlükəsiz dönüşünü, bu torpaqların reinteqrasiyasını təmin etmək üçün ardıcıl addımlar atılır.

Bu il həm də Konstitusiyamızın otuz, Suverenliyimizin isə beş ili tamam olur. Bununla əlaqədar Prezident İlham Əliyevin imzaladığı Sərəncamla 2025-ci il “Konstitusiya və Suverenlik ili” elan edilmişdir. Sözügedən sənəddə deyilir: “Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir”.

2025-ci ilin ölkədə “Konstitusiya və Suverenlik İli” elan olunması ilə əlaqədar prokurorluq orqanları tərəfindən də genişmiqyaslı tədbirlər təşkil edilir.

Təmsil etdiyim qurum Milli Qurtuluşun otuz ikinci ildönümünü layiqincə qarşılayır. Tarixi günlərimizlə əlaqədar rəhbərlik və əməkdaşlarımız tərəfindən tədbirlər keçirilir. Çıxışlarda Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən, eləcə də, Milli Qurtuluşun, Konstitusiya və Suverenliyin tarixi əhəmiyyətindən söz açılır. Tədbirlərdə Prezident, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, uzaqgörən siyasəti, dəmir yumruğu sayəsində qazandığı tarixi Qələbəmizdən bəhs olunan sənədli filmlər seyr edilir.

Beş ildir ki, bu günü qalib xalq kimi daha yüksək əhval-ruhiyyə, milli qürur hissi və qələbə ovqatı ilə qeyd edirik. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu Vətən müharibəsində parlaq qələbə qazanaraq işğal altındakı torpaqlarımızı azad etdi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. Möhtəşəm Zəfər və digər uğurlar öz başlanğıcını məhz Milli Qurtuluş Günündən götürür.

Əminliklə deyə bilərik ki, Ulu Öndərimizin şah əsəri olan müstəqil Azərbaycan dövlətinin dövlətçiliyimizin qorunmasında, cəmiyyətimizin cinayətkar qəsdlərdən mühafizə olunması yolunda həyata keçirdikləri çətin, lakin şərəfli yolu bundan sonra da uğurla davam etdirəcəyik.

**Yusif Məmmədov,**
**Sumqayıt şəhər prokurorluğunun müstəntiqi,**
**II dərəcəli hüquqşünas.**

# MİLLİ KİMLİYİN TƏMƏLİ

**Azərbaycan xalqının dövlətçilik yaddaşında elə hadisələr vardır ki, onlar yalnız bir dövrün deyil, bütöv bir millətin gələcək taleyinin hüquqi və siyasi təməlini müəyyən edir. 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhz belə bir hadisədir. Bu sənəd müasir müstəqil dövlətçiliyimizin əsasını təşkil etməklə, milli suverenliyin hüquqi manifestinə çevrilmişdir. Elə buna görə də 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması yalnız tarixi yaddaşın təzələnməsi deyil, həm də dövlətçilik ideallarımızın yenidən dərinləşdirilməsi baxımından əvəzsiz əhəmiyyət daşıyır.**




Ulu Öndər Heydər Əliyev Konstitusiyanın qəbulunu milli iradənin təntənəsi kimi qiymətləndirərək qeyd edirdi: "Azərbaycan Respublikasının Konstitusiyası xalqımızın azadlıq və müstəqillik yolunda apardığı mübarizənin bəhrəsidir." Bu fikir bir daha göstərir ki, Konstitusiya yalnız hüquqi sənəd deyil, həm də xalqın tarixi yaddaşının, müstəqillik iradəsinin, milli özünüdərk prosesinin ən ali ifadəsidir.

1991-ci il 18 oktyabrda qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" xalqımızın əsrlər boyu arzuladığı azadlıq ideallarını reallığa çevirdi. Lakin müstəqil dövlətin qurulması təkcə siyasi bəyanatla məhdudlaşa bilməzdi. Dövlətin təməl sütunu – hüquqi dayaqları, idarəçilik institutları və vətəndaş cəmiyyətinin prinsipləri möhkəm əsas üzərində qurulmalı idi. Bu zərurət xalqın ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasi iradəsi ilə Azərbaycanı müasir dövlətçilik yoluna çıxardı.

Əslində, Konstitusiyanın qəbul olunması prosesi sadəcə hüquqi akt deyil, tarixi zərurətin məhsulu idi. 70 illik sovet totalitarizmi dövründə Azərbaycan xalqı formal konstitusiyalarla idarə olunsa da, bu sənədlər əsl mənada milli suverenliyin ifadəsi deyildi. Müstəqillik illərində yaranmış mürəkkəb tarixi şərait, daxili siyasi böhran və xarici təzyiqlər dövlətin hüquqi bazasının təcili olaraq möhkəmləndirilməsini tələb edirdi. Belə bir zamanda ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Konstitusiya Komissiyası yaradıldı və geniş ictimai müzakirələrdən sonra, 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı ümumxalq səsverməsi – referendum yolu ilə müstəqil dövlətinin ilk Milli Konstitusiyasını qəbul etdi.

Konstitusiyanın ən mühüm prinsiplərindən biri Azərbaycanın suveren dövlət kimi tanınmasıdır. Suverenlik – yalnız hüquqi anlayış deyil, həm də millətin öz taleyini sərbəst müəyyən etmək iradəsinin ifadəsidir. Azərbaycan Respublikasının Konstitusiyası suverenliyi həm daxili, həm də xarici müstəvidə təsbit edir: xalqın hakimiyyətin yeganə mənbəyi olması, dövlətin müstəqil daxili siyasət yürütməsi, eləcə də beynəlxalq münasibətlərdə bərabərhüquqlu subyekt kimi çıxış etməsi. Ulu Öndərin məşhur sözlərini xatırlamaq yerinə düşər: "Müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən də çətindir." Konstitusiya və ondan irəli gələn qanunvericilik mexanizmləri məhz bu çətin, amma şərəfli missiyanın həyata keçirilməsi üçün etibarlı zəmin formalaşdırıb.

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması bir tərəfdən milli yaddaşımızı təzələyir, digər tərəfdən isə müasir çağırışlara adekvat hüquqi islahatların həyata keçirilməsini zəruri edir. Konstitusiya yalnız qəbul olunduğu tarixi dövrün tələblərinə cavab vermir, həm də dinamik inkişaf edən cəmiyyətin ehtiyaclarına uyğun olaraq dəyişdirilir və təkmilləşdirilir. Son illərdə həyata keçirilən konstitusion islahatlar dövlət idarəçiliyinin çevikliyini artırmış, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə daha geniş imkanlar açmışdır.

Konstitusiya ilə dövlətin ali prinsipləri təsbit olundu: demokratiklik, hüquqilik, dünyəvilik və xalq suverenliyi. Xüsusilə insan hüquq və azadlıqlarının toxunulmazlığı və hakimiyyətin bölgüsü prinsipi dövlət idarəçiliyinin əsası kimi müəyyən edildi. Lakin dövlətin yalnız qanunverici və icra hakimiyyəti ilə deyil, həm də ədalət mühakiməsi və nəzarət institutları ilə bütöv işləməsi tələb olunurdu. Bu zərurət Konstitusiyanın 133-cü maddəsində öz əksini tapdı. Azərbaycan Respublikasının Konstitusiyasının 133-cü maddəsinə əsasən, prokurorluq orqanları qanunların icrasına nəzarəti həyata keçirir, cinayət təqibini aparır, dövlət ittihamını müdafiə edir və məhkəmə aktlarının icrasına nəzarət edir. Bu, dövlətin hüquqi suverenliyinin mühüm təminatlarından biridir. Başqa sözlə, dövlətin müstəqilliyi yalnız siyasi bəyanat və ya diplomatik münasibətlərlə deyil, hüququn aliliyinin qorunması ilə gerçək mənada möhkəmlənir. Prokurorluq orqanlarının konstitusion statusu




Azərbaycan dövlətçiliyi üçün strateji əhəmiyyət daşıyır. Çünki müstəqillik dövrünün ilk illərində baş verən daxili qarşıdurmalar, cinayətkarlığın artması və dövlətçiliyə yönələn təhdidlər hüquqi nəzarət mexanizmlərinin gücləndirilməsini tələb edirdi. Konstitusiyanın 133-cü maddəsi məhz bu tarixi reallıqdan doğaraq dövlətin hüquqi dayaqlarını möhkəmləndirdi və prokurorluq orqanlarını suverenliyin keşiyində duran institutlardan birinə çevirdi. Bu gün “Konstitusiya və Suverenlik ili”ndə Konstitusiyanın 133-cü maddəsinin mahiyyətinə qayıtmaq həm nəzəri, həm də praktik baxımdan vacibdir. Çünki müstəqil dövlətin yaşaması yalnız siyasi iradə ilə deyil, həm də hüquqla təmin edilir. Qanunun aliliyini qoruyan prokurorluq orqanları isə suverenliyin hüquqi təminatçısıdır.

“Konstitusiya və Suverenlik İli” ərzində prokurorluq orqanlarının fəaliyyəti bir neçə mühüm istiqamətdə təzahür etdi. İlk növbədə, qanunçuluğun təmin edilməsi və dövlətin konstitusion quruluşunu sarsıtmağa yönəlmiş cinayətlərə qarşı barışmaz mübarizə aparıldı. Bununla yanaşı, ictimaiyyətin hüquqi maarifləndirilməsi, gənclərin hüquq təfəkkürünün inkişafı, vətəndaşlarla birbaşa ünsiyyətin gücləndirilməsi kimi tədbirlər xüsusi yer tutdu. Bu, təsadüfi deyil, çünki hüquqi dövlət yalnız normativ aktlarla deyil, həm də cəmiyyətin hüquqi şüur səviyyəsi ilə möhkəmlənir. Azərbaycan Respublikasının Baş Prokurorluğu və yerli prokurorluq orqanları bu il ərzində həyata keçirdikləri tədbirlərlə göstərdilər ki, qanunun aliliyinin qorunması suverenliyin ən mühüm dayağıdır. Hüquq-mühafizə orqanlarının şəffaf, vətəndaşlara açıq və ictimaiyyətlə əməkdaşlıq ruhunda fəaliyyəti milli hüquqi sistemin möhkəmlənməsinə və dövlətin suveren iradəsinin təmin olunmasına xidmət etdi. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu il ərzində keçirilən seminarlar, konfranslar, maarifləndirici görüşlər yalnız hüquqşünaslar üçün deyil, həm də gənclər, tələbələr, ictimaiyyət nümayəndələri üçün açıq idi. İşğaldan azad olunmuş Ağdam şəhərində Baş Prokurorluq tərəfindən təşkil edilən “Konstitusiya və suverenlik: Hüquqi dövlətin təməli” və Laçın şəhərində Baş Prokurorluq tərəfindən təşkil edilən “Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir” mövzularında regional konfranslar dövlətin bərpa olunan ərazilərində hüquq sisteminin inkişafı baxımından xüsusi simvolik məna kəsb edib. Tədbirdə prokurorluq nümayəndələri, hüquqşünaslar və ictimaiyyət iştirak edərək, Konstitusiyanın dövlət müstəqilliyinin hüquqi təminatı kimi rolu ətrafında müzakirələr aparmışlar. Baş prokuror çıxışında qeyd etmişdir: “Azərbaycan Respublikasının Konstitusiyası yalnız dövlətimizin ali hüquqi sənədi deyil, həm də suverenliyimizin toxunulmazlığını təmin edən, milli birliyimizi möhkəmləndirən başlıca təminatdır.”

Azərbaycan Respublikasının Konstitusiyası – hüquqi dövlətin təməli, milli suverenliyin rəmzi, gələcəyə ünvanlanan siyasi-hüquqi manifestdir. 2025-ci il bu mənada yalnız xatırlatma ili deyil, həm də hər birimiz üçün milli məsuliyyət ilidir. Çünki Konstitusiyanın aliliyini qorumaq, suverenliyi möhkəmləndirmək və hüquqi dövlət quruculuğunu davam etdirmək hər bir vətəndaşın, hər bir dövlət qurumunun, xüsusilə də hüquq mühafizə orqanlarının şərəfli borcudur. Ulu Öndərin kəlamı ilə desək: “Konstitusiya Azərbaycan xalqının dövlətçilik iradəsinin ən ali ifadəsidir.” Bu iradəni qorumaq isə bu günümüzün və gələcəyimizin ən ali vəzifəsidir.

**Zaur Əliyev,**
**Zərdab rayon prokuroru**
**baş ədliyyə müaşviri.**

# MÜSTƏQİLLİK UĞRUNDA QAZANILMIŞ DƏYƏRLƏR

**Azərbaycan xalqı tarix boyunca azad yaşamaq, öz taleyinə sahib çıxmaq, milli dəyərlərini qoruyaraq inkişaf etmək arzusu ilə yaşamışdır. Bu əzəli və əbədi istək 20-ci əsrin sonlarında xalqımızın böyük iradəsi nəticəsində reallığa çevrildi. 1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildi və bununla da xalqımızın tarixində yeni bir mərhələ başlandı. Lakin müstəqilliyi elan etmək kifayət deyildi – onu qorumaq, möhkəmləndirmək və gələcək nəsillərə ötürmək ən çətin və məsuliyyətli vəzifə idi. Bu vəzifəni layiqincə yerinə yetirən tarixi şəxsiyyətlər və güclü dövlət institutları sayəsində bu gün Azərbaycan regionun lider dövlətlərindən birinə çevrilmişdir.**




Azərbaycanın müstəqilliyinin qorunmasında və suverenliyinin təmin olunmasında ümummilli lider Heydər Əliyevin misilsiz rolu vardır. XX əsrin 90-cı illərinin əvvəllərində ölkəmiz siyasi, iqtisadi və hərbi baxımdan dərin böhran içində idi. Müstəqillik formal olsa da, dövlətçiliyin əsasları sarsılmışdı. Daxili çəkişmələr, idarəolunmazlıq və Ermənistanın işğalçılıq siyasəti ölkəni parçalanmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Məhz belə bir həssas məqamda xalqın təkidi ilə 1993-cü ildə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycan dövlətçiliyinin xilaskarı oldu. Onun uzaqgörənliyi, siyasi qətiyyəti və təcrübəsi sayəsində dövlətin dayaqları möhkəmləndirildi, sabitlik bərpa olundu və müstəqillik real məzmuna çevrildi.

Heydər Əliyev üçün müstəqillik yalnız siyasi şüar deyildi – bu, milli ideologiyanın əsası, xalqın kimliyinin ifadəsi idi. O, dəfələrlə bildirirdi ki, “Bizim ən böyük sərvətimiz müstəqilliyimizdir”. Bu fikir təkcə bir dövrün deyil, bütövlükdə dövlətçilik fəlsəfəsinin təməl daşı kimi qəbul olunmalıdır. Ulu öndərin təşəbbüsü ilə qəbul edilən yeni Konstitusiya hüquqi dövlətin əsasını qoydu. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası ölkənin siyasi-hüquqi sisteminin bünövrəsini təşkil etdi. Bu sənəd müstəqil Azərbaycanın idarəçilik modelini, vətəndaş hüquq və azadlıqlarını, dövlətin əsas prinsiplərini müəyyənləşdirən ali hüquqi aktdır. Konstitusiyada dövlətin suverenliyi, ərazi bütövlüyü və xalqın suveren iradəsi ali dəyər kimi təsbit olunmuşdur.

Azərbaycan Konstitusiyası müstəqilliyin hüquqi təminatçısı olmaqla yanaşı, ölkədə insan hüquqlarının qorunması, qanunun aliliyinin təmin olunması və hüquq-mühafizə orqanlarının fəaliyyətində şəffaflığın artırılması istiqamətində mühüm baza funksiyasını da yerinə yetirir. Bu baxımdan, prokurorluq orqanlarının rolu xüsusilə qeyd olunmalıdır. Azərbaycan Respublikasının prokurorluğu dövlətçiliyin dayaqlarından biri kimi müstəqillik və suverenlik prinsiplərinin qorunmasında mühüm rol oynayır. Prokurorluq yalnız cinayətkarlığa qarşı mübarizə aparmaqla kifayətlənmir, həm də konstitusion hüquq və azadlıqların müdafiəsində, qanunların icrasına nəzarətdə, dövlət maraqlarının qorunmasında fəal iştirak edir.

Müstəqillik əldə edildikdən sonra Azərbaycan Respublikası Prokurorluğunun inkişaf etdirilməsi, hüquqi islahatların aparılması və bu mühüm orqanın dövlətçilik sistemində möhkəmləndirilməsi ümummilli lider Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Dövlətçiliyin əsas dayaqlarından biri olan prokurorluq orqanlarının gücləndirilməsi Ulu Öndərin hüquqi dövlət quruculuğuna verdiyi böyük önəmin bariz nümunəsidir.

Heydər Əliyev prokurorluğun cəmiyyət üçün əhəmiyyətini xüsusi vurğulayaraq bildirirdi ki, bu orqan yalnız qanunların aliliyini təmin edən qurum deyil, həm də vətəndaşların hüquq və azadlıqlarının

qorunmasında mühüm rol oynayır. Onun rəhbərliyi ilə prokurorluq orqanlarının strukturunda və fəaliyyətində əsaslı islahatlara start verildi. Peşəkar kadr potensialının formalaşdırılması, prokurorluq əməkdaşlarının sosial təminatının yaxşılaşdırılması, tədris və təlim mexanizmlərinin gücləndirilməsi bu sahədə atılmış əsas addımlar sırasında idi.

1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında prokurorluğun statusu ayrıca təsbit edildi və onun fəaliyyət prinsipləri dəqiq şəkildə müəyyənləşdirildi. Bununla yanaşı, Ulu Öndər prokurorluğun ictimaiyyətlə əlaqələrinin genişləndirilməsinə, onun cəmiyyətə açıq və şəffaf qurum kimi fəaliyyət göstərməsinə xüsusi önəm verirdi.

Heydər Əliyevin bu sahəyə göstərdiyi diqqət nəticəsində prokurorluq orqanları müasir, effektiv və hüquqi cəhətdən əsaslı fəaliyyət mexanizminə malik olan, dövlət suverenliyinin və hüquq qaydasının təminində mühüm rola sahib bir struktura çevrildi. Bu möhkəm təməl bu gün də Azərbaycan prokurorluğunun fəaliyyətinin əsasını təşkil edir.

Azərbaycan dövlət müstəqilliyinin möhkəmləndirilməsi və suveren hüquqların tam bərpası istiqamətində mühüm tarixi mərhələ 2003-cü ildən sonra – Prezident İlham Əliyevin rəhbərliyi dövründə yaşandı. Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi illər ərzində ulu öndərin siyasi kursunu uğurla davam etdirərək onu yeni çağırışlara uyğun inkişaf etdirdi. Onun rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi islahatlar, xarici siyasətdəki prinsipial mövqe, müasir ordu quruculuğu və milli maraqlara əsaslanan strateji yanaşma Azərbaycanın müstəqilliyini daha da gücləndirdi.

Xüsusilə 2020-ci ildə əldə olunan Zəfər bu istiqamətdə dönüş nöqtəsi oldu. Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və uzaqgörən rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində düşmənin təcavüzkar siyasətinə son qoydu və ölkənin ərazi bütövlüyü bərpa olundu. Bu Zəfər yalnız torpaqların azad edilməsi ilə deyil, həm də milli qürurun, suveren hüquqların və dövlət müstəqilliyinin tam bərqərar olması ilə tarixə düşdü. Bu gün Azərbaycan bütün dünya tərəfindən ərazi bütövlüyü tam tanınmış və suveren hüquqları təmin olunmuş bir dövlət kimi qəbul edilir.

Müstəqilliyin qorunması yalnız siyasi və hərbi amillərlə deyil, həm də hüquqi, institusional və mənəvi amillərlə mümkün olur. Bu mənada, hər bir Azərbaycan vətəndaşının Konstitusiyaya hörmətlə yanaşması, qanunlara riayət etməsi, dövlət atributlarına sadiq olması mühüm əhəmiyyət daşıyır. Bu gün ölkəmizdə həyata keçirilən hüquqi islahatlar, ictimai institutların gücləndirilməsi, şəffaf idarəetmə və hesabatlılıq prinsiplərinin tətbiqi həm də müstəqilliyimizin davamlılığını təmin edən əsas faktorlardandır. Prezident İlham Əliyevin iradəsi ilə həyata keçirilən "elektron hökumət", məhkəmə-hüquq islahatları, prokurorluq orqanlarının müasir texnologiyalarla təmin olunması və peşəkar kadr potensialının artırılması bu istiqamətdə aparılan işlərin bariz nümunəsidir.

Eyni zamanda qeyd etmək lazımdır ki, müstəqillik təkcə siyasi termin deyil – bu, bir millətin özünüifadə formasıdır. Dilin, mədəniyyətin, milli adət-ənənələrin qorunması və inkişaf etdirilməsi, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması da dövlət müstəqilliyinin əsas sütunlarındandır. Dövlətimizin apardığı siyasət nəticəsində bu sahədə də böyük nailiyyətlər əldə olunub. Azərbaycanın müstəqilliyi artıq geri dönüşü olmayan bir yol kimi bərqərar olmuşdur.

2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan olunması təsadüfi deyil. Bu qərar bir daha göstərir ki, dövlət başçısı Azərbaycan xalqının əldə etdiyi tarixi nailiyyətlərin dərin mənasını və gələcək nəsillər üçün əhəmiyyətini dərk edir və onları daim diqqətdə saxlayır. Bu təşəbbüs həm də cəmiyyətin bütün təbəqələrini dövlətçilik dəyərlərinə daha dərindən yanaşmağa, hüquqi savadlılığın artırılmasına və milli kimliyimizin qorunmasına təşviq edir.

Azərbaycanın bu günə qədər əldə etdiyi müstəqillik dəyərləri asanlıqla qazanılmamışdır. Bu dəyərlərin hər biri xalqımızın qanı, canı və iradəsi bahasına əldə edilmişdir. Müstəqillik təkcə bayram günlərində xatırlanacaq bir anlayış deyil – o, hər gün yaşadığımız bir gerçəklikdir. Dövlətimizin varlığı, suveren hüquqlarımızın tanınması, beynəlxalq aləmdə söz sahibinə çevrilməyimiz, sabit və təhlükəsiz bir cəmiyyətin qurulması – bütün bunlar müstəqilliyimizin uğurlarıdır.

Bu gün biz müstəqilliyin bəhrəsini görür, onun üzərində qurulmuş güclü və modern Azərbaycanla qürur duyuruq. Bu müstəqilliyin qorunması və möhkəmləndirilməsi isə hər birimizin borcudur. Dövlətimizə, bayrağımıza, dilimizə və qanunlarımıza olan sevgi və sadiqlik, bu müqəddəs dəyərlərin gələcək nəsillərə ötürülməsində ən güclü zəmanət olacaqdır.

**Camal Bağırov,**
**Balakən rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**

# “Konstitusiya və Suverenlik İli" strateji hədəflərə doğru uğurları şərtləndirir



**2025-ci il Prezident İlham Əliyev tərəfindən imzalanan 28 dekabr 2024-cü il tarixli sərəncamla ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Məhz bu il 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının Əsas Qanunu olan ilk Konstitusiyasının qəbul edilməsinin 30 illiyi və Vətən müharibəsində tarixi Zəfərin 5-ci, dövlətimizin beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyinin tam bərpa edilməsinin 2-ci ildönümüdür.**

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror tədbirləri nəticəsində Qarabağdakı qanunsuz separatçı rejimin mövcudluğuna son qoyularaq dövlətimizin beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli Sərəncamına əsasən sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir. Dövlətçilik tariximizin daha da dərindən öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edən bu sərəncam ölkəmizin keçmişi, bu günü və gələcəyi üçün xüsusi məna ifadə edərək hüquqi dövlətçilik və suverenlik dəyərlərinin yeni qlobal çağırışlar əsasında formalaşdırılması üçün bir fürsət kimi dəyərləndirilə bilər.

İstənilən xalq üçün müstəqil, suveren dövlət yaratmaq və onu inkişaf etdirmək ən böyük nailiyyətdir. Ərazi, əhali və siyasi hakimiyyət kimi əsas atributları ehtiva edən hər hansı siyasi varlığın dövlət olması üçün suverenlik, müstəqillik vacib şərtdir. Suverenlik dövlətin mövcudluğunun və davamlı inkişafının ilkin və əsas şərti qismində çıxış edir. Dövlətin suverenliyi üçün zəruri olan hüquqi-siyasi, sosial-iqtisadi təməllər 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmiş Ümummilli lider Heydər Əliyev tərəfindən atılmış, ölkənin gələcək müstəqilliyinə etibarlı bünövrə formalaşdırılmışdır. Dahi şəxsiyyət Heydər Əliyevin düşünülmüş daxili siyasət sayəsində ölkəmizdə milli özünüdərkin, vətənpərvərliyin gücləndirilməsi istiqamətində də vacib addımlar atılmış, müxtəlif sahələrdə yerli kadrların yetişdirilməsi, həmçinin milli şüurun inkişaf etdirilməsi, milli ruhun yüksəldilməsi sahəsində mühüm işlər həyata keçirilmişdir.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 29 sentyabr 2022-ci il tarixli Sərəncamında bununla bağlı qeyd edilmişdir: "Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir".

1990-cı illərin əvvəllərindən Ermənistanın hərbi təcavüzü ilə üzləşən ölkəmizin beynəlxalq ictimaiyyət tərəfindən tanınan ərazilərinin iyirmi faizi işğal edilmiş, Ermənistanda və işğal olunmuş torpaqlarımızda azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, sülh və insanlıq əleyhinə hərbi cinayətlər törədilmiş, təbii resurslar talan edilmiş, hakimiyyəti zəbt etmiş səriştəsiz siyasi qüvvələrin özbaşınalığı, anarxiya, xaos, hərcmərclik ölkə daxilində vətəndaş qarşıdurmasının yaranmasına səbəb olmuş, ən əsası isə ölkənin müstəqilliyi üçün təhdidlər meydana çıxmışdır.




Məhz belə çətin və ağır vəziyyətdə xalqın təkidli tələbi ilə 15 iyun 1993-cü il tarixdə yenidən hakimiyyətə qayıtmış Ümummilli lider Heydər Əliyev Azərbaycanı xilas etmək naminə misilsiz fədakarlıq göstərmiş, ölkəmizi ictimai-siyasi pərakəndəlik və anarxiyadan xilas etmişdir. Bununla da ictimai siyasi həyatın bütün sahələrində müşahidə olunan dərin tənəzzülün qarşısı alınmış, dövlətin dayanıqlı və davamlı inkişaf yolu müəyyən edilmişdir.

Ulu öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində ölkə daxilində siyasi sabitlik təmin edilmiş, kompleks islahatların həyata keçirilməsinə əsas yaradan qanunvericilik bazası hazırlanmış, dövlətimiz tamamilə yeni inkişaf mərhələsinə qədəm qoymuş, dövlət və cəmiyyət həyatının bir çox sahələrini əhatə edən irimiqyaslı islahatlar reallaşdırılmışdır.

Qeyd edilməlidir ki, istənilən dövlətin mövcudluğu və inkişafı dövlət hakimiyyətinin təşkilinə dair Konstitusiya prinsiplərinin mövcudluğu ilə şərtlənir. Belə ki, hər bir hüquqi dövlətin Konstitusiyası bu təməl prinsipləri müəyyən edərək insan hüquq və azadlıqlarının müdafiəsi, hakimiyyətlərin bölgüsü və digər bir sıra mühüm hüquqi başlanğıcları ehtiva edir.

1990-cı illərin əvvəllərində SSRİ-dən miras qalmış hüquq sistemi və qanunvericilik bazası hüquqi dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə lazımi təminat vermirdi. Bu nöqteyi-nəzərdən Azərbaycanda dövlət müstəqilliyi bərpa edildikdən sonra hüquqi dövlət quruculuğu ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi və ilk növbədə ölkənin yeni Konstitusiyasının qəbul edilməsi mütləq idi. 1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991-1993-cü illərdə mövcud xaos və ziddiyyətli proseslər, siyasi qeyri-sabitlik, eyni zamanda vahid siyasi iradənin olmaması, dövlət müstəqilliyi üçün təhdidlər bu mühüm vəzifənin həyata keçirilməsini qeyri-mümkün etmişdir. Yalnız Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Konstitusiyanın qəbulu mümkün oldu.

Beləliklə, Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 2 may tarixli qərarı və Ulu öndər Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın 34 nəfər üzvdən ibarət tərkibi təsdiq olundu. Komissiyanın tərkibinə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının nümayəndələri ilə yanaşı, tanınmış ictimai-siyasi və elm xadimləri, görkəmli hüquqşünaslar, tarixçilər, dilçilər də daxil edilmişdi. Ümummilli lider Heydər Əliyev Konstitusiya Komissiyasının fəaliyyəti zamanı Əsas Qanunun layihəsinə dair dəyərli tövsiyələr vermiş, Konstitusiyanın müddəalarını şəxsən nəzərdən keçirmiş, bu ali sənədin layihəsinin açıq müzakirələrini təşkil etməklə onun ən yetkin formada qəbul edilməsi üçün gərgin əmək sərf etmişdir.

1995-ci il iyunun 5-də yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın ilk iclası keçirilmişdir. İclasda geniş nitq ilə çıxış edən Ulu Öndər Heydər Əliyev dövlətimizin Konstitusiya quruculuğu tarixinə toxunmuş və qeyd etmişdir ki, müstəqil dövlətimizin ilk Konstitusiya layihəsinin hazırlanması tarixi nöqteyi-nəzərdən olduqca mühüm hadisədir. Həmin çıxışında Ümummilli lider qeyd etmişdir: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Ona görə də mən dedim ki, üzərimizə düşən vəzifə həm şərəflidir, həm də çox məsuliyyətlidir".

Komissiyanın 1995-ci il oktyabrın 3-də keçirilən iclasında Ulu Öndər Heydər Əliyev demişdir: "Bizim

yeni konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir".

Ulu öndər Heydər Əliyevin çıxışlarında qeyd edilən bu vacib konseptual məqamlar mahiyyət etibarilə hüquqi dövlət quruculuğu prosesində ilkin təməl rolunu oynamış və müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edilmiş, 1995-ci il noyabrın 27-də isə qüvvəyə minmişdir. Konstitusiyanın qəbul edilməsinin milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Ulu öndər Heydər Əliyev tərəfindən imzalanan 1996-cı il 1 noyabr tarixli fərmanla hər il noyabrın 12-si ölkəmizdə "Konstitusiya Günü" elan edilmişdir. 12 noyabr - Konstitusiya Günü münasibətilə Azərbaycan xalqına təbrikində Ümummilli lider Heydər Əliyev qeyd etmişdir: "Bu Konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir".

Azərbaycan Respublikasında hüquqi qüvvəyə malik olan Konstitusiya qanunvericilik sisteminin əsasında dayanır, eyni zamanda ölkədə hüquqi və siyasi sabitliyin təminatı qismində çıxış edir. Ölkə Konstitusiyası dövlət quruluşunun əsaslarını, hakimiyyətin bölünməsi prinsipini, hakimiyyət orqanlarının təşkili, səlahiyyətləri və fəaliyyət qaydalarını, şəxsiyyət, cəmiyyət və dövlət arasındakı münasibətlərin hüquqi çərçivələrini müəyyən edir, insan hüquq və azadlıqlarının müdafiəsi və təminatı ilə bağlı mexanizmləri tənzim edir.

Əsas Qanunun Preambulasında Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq qalaraq dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq




və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi ülvi niyyətlər bəyan edilmişdir. Bu isə Konstitusiyanın mütərəqqi dəyərlərini əks etdirir.

1995-ci il Konstitusiyası bir sıra təməl başlanğıcları ehtiva edir: dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması; insan şəxsiyyətinə və ləyaqətinə hörmət; insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu; sosial ədalətə nail olmaq; ümumbəşəri dəyərlərə sadiqlik.

Əsas Qanun Konstitusiya quruluşunun mühüm başlanğıcı kimi xalq hakimiyyətini bəyan edir, ölkəmizdə dövlət hakimiyyətinin yeganə mənbəyi kimi xalqı elan edir, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etməyi Azərbaycan xalqının suveren hüququ kimi təsbit edir. Həmçinin, Əsas Qanun Azərbaycan dövlətini demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edir,

dövlət hakimiyyətinin daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşdığını bəyan edir.

Əsas Qanun sosial-iqtisadi, ictimai-siyasi sistemlərin əsasını təşkil edir, vətəndaş hüquq və azadlıqlarına əsaslı təminat yaradır. Konstitusiyada insan hüquqları və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olaraq müəyyən edilməsi, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumağın qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsi olmasının nəzərdə tutulması vacib əhəmiyyət kəsb edir. Bu, insana, onun hüquq və azadlıqlarına dövlət tərəfindən verilən dəyərin bariz göstəricisidir.

Xüsusi vurğulanmalıdır ki, Əsas Qanunda insan və vətəndaş hüquq və azadlıqları, onların reallaşdırılmasının ümumi mexanizmləri geniş şəkildə öz əksini tapıb. Konstitusiyada bu hüquq və azadlıqlar xüsusi imtiyaz olaraq deyil, məhz hər kəsin doğulduğu andan malik olduğu toxunulmaz, pozulmaz və ayrılmaz ali dəyərlər kimi ifadə edilir. İnsan hüquqlarına etibarlı və davamlı təminat yaradan Konstitusiyanın ən böyük fəslində hüquqi dövlətdə hüquq və azadlıqlar, onların həyata keçirilməsi mexanizmləri, habelə ayrı-ayrı hüquqların beynəlxalq standartlara müvafiq olaraq qanuni məhdudlaşdırılmasının yol verilən hədləri nəzərdə tutulmuşdur.

Məlum olduğu kimi, konstitusiyaların hüquqi əlamətlərindən biri onların stabilliyidir. Konstitusiyanın stabilliyi ölkədə qanunçuluğun, dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsinin, şəxs, dövlət və cəmiyyət arasındakı münasibətlərin əsas şərtlərindən biridir. Konstitusiya uzunmüddətli fəaliyyət üçün nəzərdə tutulan normativ hüquqi aktdır. Bununla belə, konstitusiyaların qəbulu zamanı onların tənzimetmə predmetini təşkil edən ictimai münasibətlər və bu münasibətlərin tərkib hissəsi olan hüquqi, siyasi, sosial və iqtisadi vəziyyət dəyişir, cəmiyyət elmin və texnologiyaların inkişafı baxımından keyfiyyətcə yeni dövrə qədəm qoyur.

Bu cür zərurətdən irəli gələrək 2002-ci il 24 avqust, 2009-cu il 18 mart və 2016-cı il 26 sentyabr tarixlərində keçirilmiş referendumlar nəticəsində ölkə Konstitusiyasına bir sıra mühüm əlavələr və dəyişikliklər edilmişdir. Dövrün çağırışlarını özündə ehtiva edən bu islahatlar hüquqi dövlət dəyərlərinin daha da möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı və səmərəli müdafiəsi məqsədlərinə xidmət edir.

İlk dəfə 2002-ci ildə konstitusiya dəyişikliklərinə yaranan ehtiyac bir çox sahələrdə nəzərə çarpan sürətli inkişafdan irəli gəlirdi. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə keçirilən referendumun nəticəsi kimi Konstitusiyaya dövrün obyektiv reallıqlarından irəli gələn bir sıra mütərəqqi əlavə və dəyişikliklər edilib. Əsas Qanunun mətninə 2002-ci il 24 avqust tarixli referendumla edilmiş əlavə və dəyişikliklər ölkənin hüquq sisteminin təkmilləşdirilməsinə xidmət etmiş, eyni zamanda bu ali sənədi mühüm əhəmiyyətə malik yeni müddəalarla zənginləşdirmişdir.

2002-ci ildən keçən yeddi il ərzində cəmiyyət həyatının bir çox sahələrində əldə edilən yeni nailiyyətlər, sosial-iqtisadi islahatların dərinləşməsi, vətəndaş cəmiyyəti institutlarının inkişafı, beynəlxalq inteqrasiyanın genişlənməsi və digər bir sıra mühüm yeniliklər Konstitusiyada da bir sıra əlavə və dəyişikliklərin edilməsini gündəmə gətirdi. 2009-cu il martın 18-də keçirilən ümumxalq səsverməsi nəticəsində edilən əlavə və dəyişikliklər mahiyyətcə Əsas Qanunun daha da təkmilləşməsinə, xüsusilə insan hüquq və azadlıqları ilə bağlı əhəmiyyətli müddəaların daha dolğun şəkildə ehtiva edilməsinə xidmət göstərib.

2009-cu il 18 mart referendumundan ötən illər ərzində ölkə iqtisadiyyatının dinamik inkişafı və digər bir sıra vacib amillər siyasi idarəetmə sisteminin daha da müasirləşdirilməsini, həmçinin vətəndaşların hüquq və azadlıqlarının daha səmərəli şəkildə müdafiə olunmasını, bunlar isə öz növbəsində konstitusiya islahatlarının həyata keçirilməsini şərtləndirmişdir. Bununla da, 2016-cı il sentyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə keçirilmiş ümumxalq səsverməsi - referendum yolu ilə Əsas Qanuna mühüm əlavələr və dəyişikliklər edilmişdir.

Əminliklə bildirmək olar ki, ölkə Konstitusiyasına edilmiş əlavə və dəyişikliklər hüquqi dövlətin prinsip və dəyərlərinin bərqərar olmasının, insan hüquq və azadlıqlarının müdafiəsi və təminatına ən yüksək səviyyədə göstərilən diqqətin bariz təzahürüdür.

Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2024-cü il tarixli Sərəncamında qeyd olunduğu kimi "Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir

**Emil Kərimov,**
**Qubadlı rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**

# Konstitusiya və Suverenlik ili: Azərbaycanın hüquqi və dövlətçilik inkişafı

Azərbaycan Respublikasının Konstitusiyası 12 noyabr 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmişdir. Bu, ölkənin ilk müstəqil Konstitusiyası olmaqla, onun demokratik, hüquqi və dünyəvi dövlət kimi formalaşmasını təmin edən əsas qanundur. Azərbaycan Respublikasının Konstitusiyası – dövlətin əsas qanunu olaraq – hüquqi sistemin təməlini təşkil edir. Belə ki, Konstitusiyada qanunun aliliyi, insan və vətəndaş hüquq və azadlıqları, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü kimi əsas prinsipləri təsbit edilir. Bu sənəd ölkədə hüquq sisteminin təməlini qoymuş və Azərbaycanın beynəlxalq hüquq normalarına uyğun inkişafını təmin etmişdir. "Konstitusiya və Suverenlik ili" Azərbaycan dövlətçiliyinin əsaslarını möhkəmləndirmək, hüquqi sistemin daha da təkmilləşdirilməsi və ölkənin müstəqillik yolunda qazandığı uğurları vurğulamaq məqsədini daşıyır.



**Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Sərəncam imzalamışdır. Bu qərar Azərbaycanın dövlətçilik tarixində mühüm əhəmiyyətə malik olan iki əsas hadisə - Azərbaycan Respublikasının Konstitusiyanın qəbul edilməsinin 30 illiyi və dövlət müstəqilliyinin bərpasının 34-cü ildönümü ilə bağlıdır.**

Konstitusiyanın hüquq sistemində ali hüquqi qüvvəyə malik olması, onun digər normativ hüquqi aktlar üzərində üstünlüyünü təmin edir. Azərbaycan Respublikası Konstitusiyasının 147-ci maddəsinə əsasən, qanunvericilik və icra hakimiyyəti orqanlarının qəbul etdiyi bütün normativ hüquqi aktlar Konstitusiyaya uyğun olmalıdır. Bu prinsip hüquqi sabitliyin və normativ sistemin daxili harmoniyasının əsas təminatıdır. Konstitusiya yalnız hüquqi çərçivə yaratmaqla kifayətlənmir, o, həm də normativ legitimlik və qanunvericilik iyerarxiyasının müəyyənləşdirilməsi funksiyasını yerinə yetirir. Azərbaycan Respublikasının Konstitusiyası insan hüquq və azadlıqlarını tanımaqla kifayətlənmir, eyni zamanda onların təminat sistemini də müəyyənləşdirir. Konstitusiyanın III fəsli bu hüquq və azadlıqların geniş aspektini ehtiva edir. Onların reallaşdırılması üçün Konstitusiya hüquqi müstəvidə dövlətin pozitiv öhdəliklərini müəyyən edir. Bu da onu göstərir ki, Konstitusiya yalnız nomativ çərçivə deyil, həm də hüquqi müdafiənin fəal vasitəsi olmaqla, eyni zamanda beynəlxalq hüquq normalarının milli hüquq sisteminə inteqrasiyasını təmin edən vasitə kimi çıxış edir. Bu, Azərbaycanın hüquqi sistemində insan hüquqlarının universal və regional standartlara uzlaşdırılmasına şərait yaradır. Ümummilli lider Heydər Əliyev öz çıxışında qeyd etmişdir ki, Konstitusiya dövlətlə, hakimiyyətlə, xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü qanunvericilik, ali icra, məhkəmə hakimiyyətləri – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir.

Azərbaycanın dövlət müstəqilliyi xalqımızın ən böyük tarixi nailiyyətlərindən biridir. 18 oktyabr 1991-ci ildə qəbul edilən "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" ilə Azərbaycan öz suverenliyini bərpa etdi. Bu müstəqillik xalqın iradəsinə, milli kimliyinə və tarixi ədalətə əsaslanır.

Ermənistan Respublikası 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirilmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparmış, insanlıq əleyhinə cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir. Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Er-




mənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur. 2023-cü il sentyabrın 19-da Ermənistan qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlamışdır. Bu antiterror əməliyyatı cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir.

Bu gün Azərbaycan regional və qlobal səviyyədə söz sahibi olan bir dövlətdir. 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə edilən zəfər “Dəmir Yumruğa” çevrildi. Həmin tarixi qələbə müstəqilliyimizin möhkəm əsaslara söykəndiyini bir daha sübut etdi. Dövlətimizin güclü ordusu, müstəqil siyasəti və xalqının birliyi Azərbaycanın suverenliyinin dönməz olduğunu təsdiqləyir.

Prezident İlham Əliyevin də qeyd etdiyi kimi: “Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Biz var gücümüzlə müstəqilliyimizi qoruyuruq və qoruyacağıq”. Azərbaycanın müstəqilliyi əbədidir, çünki onun arxasında xalqın iradəsi, qanı, canı bahasına qorunan torpaqlar və güclü dövlətçilik ənənəsi dayanır.

19 sentyabr 2024-cü il tarixində Prezident İlham Əliyev “Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında” Sərəncam imzalamaqla hər il sentyabrın 20-si Dövlət Suverenliyi Günü kimi qeyd ediləcəkdir. Bu addımla Azərbaycanın müasir tarixində daha bir şərəfli günün qeyd olunmasına səbəb olmuşdur. Suverenlik dövlətin daxili və xarici işlərdə müstəqilliyini və tam səlahiyyətə malik olmasını təmin edən fundamental prinsipdir. Azərbaycan xalqının tarixi mübarizəsi nəticəsində suverenliyi bərpa edərək müstəqil dövlət qurulmuşdur. Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra Konstitusiya bu suverenliyi möhkəmləndirmiş və hüquqi əsaslar yaratmışdır. 2025-ci ilin “Konstitusiya və Suverenlik ili” elan olunması Azərbaycan dövlətçiliyinin əsaslarını daha dərindən dərk etmək və gələcək nəsillərə ötürmək üçün əhəmiyyətli bir addımdır. Bu il ərzində dövlət suverenliyinin qorunması və inkişaf strategiyasının hazırlanması, Azərbaycan dövlətçiliyinin və müstəqilliyinin əhəmiyyətini vurğulayan maarifləndirmə tədbirləri təşkil ediləcəkdir. Bu il təkcə tarixi hadisələrin qeyd olunması üçün deyil, eyni zamanda Azərbaycanın hüquqi və dövlətçilik inkişafının daha da gücləndirilməsi üçün bir fürsətdir.

Konstitusiya hər bir müasir dövlətin hüquqi strukturunda normativ nüvəni təşkil edir. Azərbaycanın dövlət quruculuğu prosesində Konstitusiya yalnız hüquqi sənəd deyil, həm də siyasi legitimliyin, hüquqi sabitliyin və milli suverenliyin əsas sütunu kimi çıxış edir. “Konstitusiya və Suverenlik İli” çərçivəsində bu sənədin hüquqi, siyasi və sosial aspektlərinin yenidən dəyərləndirilməsi, konstitusional düşüncənin dərinləşdirilməsi baxımından mühüm imkanlar yaradır. Bu baxımdan, Konstitusiyanın elmi tədqiqi və tətbiqinin təkmilləşdirilməsi hüquqi dövlətin davamlı inkişafına xidmət edən əsas şərtlərdən biri kimi çıxış edir.

2024-cü ilin Azərbaycanda “Konstitusiya və Suverenlik İli” elan edilməsi ölkənin hüquqi əsaslarının, milli dövlətçiliyin və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsində mühüm mərhələ oldu. Bu il Konstitusiyanın dövlət idarəçiliyindəki rolunun daha dərindən təhlil olunması və ictimai şüurda onun yerinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyyət daşıyır.

Konstitusiya və suverenlik Azərbaycan dövlətinin dayaqlarıdır və bu dəyərlərin qorunması ölkənin gələcək inkişafı üçün mühüm rol oynayır. Hər bir vətəndaş konstitusiyanı öyrənməli, onun prinsiplərinə hörmət etməli və dövlətin suverenliyini qorumaq üçün çalışmalıdır. “Konstitusiya və Suverenlik ili” bu dəyərlərin daha da möhkəmlənməsinə və gələcək nəsillərə ötürülməsinə mühüm töhvə verəcəkdir.

**Taleh Osmanov,**
**Xocavənd rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**

# Milli dövlətçilik modelinin konseptual əsasları

*Konstitusiya – suveren idarəçiliyin və müasir dövlətçilik fəlsəfəsinin əsasıdır*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən cari ilin "Konstitusiya və Suverenlik İli" elan olunması strateji məna daşıyan tarixi qərardır. Bu addım Azərbaycan dövlətçiliyinin ən mühüm iki sütununun – 1995-ci ildə qəbul olunmuş Konstitusiyanın 30 illiyinin və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümününün qeyd edilməsi ilə bağlıdır. Hər iki hadisə ölkəmizin siyasi, hüquqi və ideoloji əsaslarının formalaşmasında həlledici rol oynamışdır.**

Azərbaycan Respublikasının müstəqilliyinin qorunması və suverenliyinin təmin olunmasında Ümummilli Lider Heydər Əliyevin rolu müasir tariximizin ən mühüm mərhələlərindən biridir. XX əsrin 90-cı illərinin əvvəllərində dövlətçiliyimiz həssas mərhələdən keçirdi, siyasi sabitlik, iqtisadi idarəçilik və hərbi təhlükəsizlik tamamilə sarsılmış vəziyyətdə idi.

1991-ci ildə müstəqilliyin bərpa olunmasından sonra daxili-siyasi çəkişmələr, hakimiyyət böhranı, iqtisadi iflic vəziyyəti, vətəndaş müharibəsi təhlükəsi ölkəni parçalanma həddinə gətirmişdi. Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan torpaqlarının böyük bir hissəsi işğal edilmiş, əhali fəlakətlə üz-üzə qalmışdı. Məhz belə bir mürəkkəb şəraitdə xalqın təkidli tələbi ilə 1993-cü ilin iyununda Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycan tarixində dönüş nöqtəsinə çevrildi. Ulu Öndərin qətiyyəti, siyasi müdrikliyi və idarəçilik təcrübəsi sayəsində dövlət dağılmaqdan xilas edildi, ölkədə sabitlik təmin olundu və dövlətçiliyin təməli möhkəmləndirildi. Heydər Əliyev üçün müstəqillik anlayışı milli ideologiyanın əsası, xalqın kimliyinin təməl ifadəsi idi. Ulu öndərin "Bizim ən böyük sərvətimiz müstəqilliyimizdir" fikri həm onun şəxsi siyasi fəlsəfəsini, həm də Azərbaycan dövlətçiliyinin strateji yol xəritəsini ifadə edirdi. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev 1995-ci il mayın 27-də Respublika Günü münasibətilə keçirilən təntənəli yığıncaqda demişdir: "Ən böyük nailiyyət, tariximizə yazılmış qızıl səhifə ondan ibarətdir ki, çoxəsrlik tariximizdə ilk dəfə Azərbaycan xalqı dövlət müstəqilliyini əldə edə bilmişdir, müstəqillik əhvali-ruhiyyəsini hiss edə, dərk edə bilmişdir, müstəqil yaşamaq, öz taleyinin sahibi olmaq duyğularını dərk edə bilmişdir".

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyası Heydər Əliyevin təşəbbüsü ilə hazırlanmış və ölkənin gələcək inkişafının hüquqi bazasını formalaşdırmışdır. Hələ 1995-ci il iyunun 5-də yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın ilk iclasında çıxış edən Ulu Öndər demişdir: "Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü qanunvericilik, ali icra, məhkəmə hakimiyyətləri - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir". Qəbul olunan Konstitusiya dövlətin suverenliyini və ərazi bütövlüyünü, xalqın suveren iradəsini ali siyasi dəyər kimi qəbul etdi, insan və vətəndaş hüquq və azadlıqlarını ən yüksək səviyyədə təminat altına aldı, hakimiyyət bölgüsü, qanunun aliliyi prinsiplərini möhkəmləndirdi, müasir idarəçilik modelini müəyyənləşdirdi.

Heydər Əliyev dövründə müstəqillik anlayışı real siyasi məzmunla zənginləşdi. Azərbaycanın beynəlxalq münasibətlər sisteminə inteqrasiyası sürətləndi, ölkə böyük transmilli layihələrin mərkəzinə çevrildi. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" iqtisadi müstəqilliyin təmin olunmasında dönüş nöqtəsi oldu. Paralel olaraq, ordunun gücləndirilməsi, hüquqi islahatlar, diplomatik əlaqələrin genişləndirilməsi Azərbaycanın suverenliyini möhkəmləndirdi. Ümummilli liderin müəyyən etdiyi müstəqillik fəlsəfəsi bu gün də Azərbaycan dövlətinin ideoloji dayaqlarını təşkil edir.

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyası ölkənin siyasi və hüquqi həyatında dönüş nöqtəsi oldu. Konstitusiya milli dövlətçiliyin hüquqi əsaslarını müəyyənləşdirərək insan və vətəndaş hüquq və azadlıqlarını ən ali dəyər kimi təsbit etdi. Əsas Qanun həm də hakimiyyət bölgüsü, qanunun aliliyi, demokratik idarəçilik prinsiplərinin möhkəmləndirilməsi baxımından müasir dövlət quruculuğu üçün etibarlı zəmin yaratdı. Azərbaycan Respublikasının Konstitusiyasının I maddəsində qeyd olunur ki, dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Bu prinsip demokratik dövlət quruculuğunun təməl sütunudur. Hakimiyyətin xalqdan qaynaqlanması Azərbaycan dövlətçiliyinin bütün siyasi-hüquqi institutlarının fəaliyyətinə istiqamət verir. Əsas Qanunun II maddəsi isə xalqın öz müqəddəratını sərbəst və müstəqil şəkildə həll etmək, dövlət

idarəetmə formasını müəyyən etmək hüququnu təsbit edir. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində isə yazılmışdır: "I. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.

II. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir".




Konstitusiyada "insan" anlayışı universal məna daşıyır, yəni Azərbaycan dövlətinin ərazisində yaşayan, hansı vətəndaşlığa mənsub olmasından asılı olmayaraq, hər bir insanın hüquq və azadlıqlarının qorunması təmin edilir. Bu, dövlətin humanist dəyərlərə əsaslandığını və öz hüquqi sistemini ümumbəşəri prinsiplərlə uzlaşdırdığını göstərir. "Vətəndaş" anlayışı isə konkret olaraq Azərbaycan Respublikasının hüquqi-siyasi sisteminə bağlı olan şəxsi nəzərdə tutur. Burada artıq insanın dövlətlə qarşılıqlı hüquq və öhdəlikləri hüquqi müstəviyə daşınır. Beləliklə, insan hüquqlarının universallığı və vətəndaş hüquqlarının spesifikliyi birlikdə dövlətin həm daxili, həm də xarici siyasətində mühüm prinsipial baza yaradır.

Azərbaycan Respublikasının daxili suverenliyi vətəndaş-hakimiyyət münasibətlərinin hüquqi əsasda tənzimlənməsinə söykənir. Dövlət öz vətəndaşlarının hüquq və azadlıqlarını qorumaqla cəmiyyətin milli-mənəvi dəyərlər sistemini möhkəmləndirir. Vətəndaşın hüquq və azadlıqları dövlətin legitimliyinin mühüm meyarıdır. Bu baxımdan Konstitusiyada hüquq və azadlıqların əsas vəzifə kimi təsbit olunması hüquqi dövlət quruculuğunun zəruri şərtidir. İnsan hüquq və azadlıqlarına təminat vermək də Azərbaycanın xarici suverenliyinin mühüm elementlərindəndir. Burada dövlətin beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyi ön plana çıxır. İnsan hüquqlarına hörmət Azərbaycanın beynəlxalq aləmdə müasir, humanist və demokratik dövlət imicinin möhkəmlənməsinə xidmət edir. Bu, həm də Azərbaycanın BMT, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlarla əməkdaşlığında fundamental prinsiplərdən biridir. Bu barədə Ulu Öndər deyirdi: "Azərbaycanın tarixi keçmişi, bugünkü reallıqlarını və gələcək perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir. Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda, ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi naliyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik"!.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı il fevralın 6-da imzalanmış Sərəncama əsasən, noyabrın 12-si Azərbaycanda Konstitusiya Günü elan olundu. Bu tarixi qərar Konstitusiyanın dövlət və cəmiyyət həyatındakı əvəzolunmaz rolunun təsdiqi idi. Hər il noyabrın 12-də qeyd edilən Konstitusiya Günü vətəndaşlarımız üçün hüquqi dövlətçilik ənənələrinin təbliği, konstitusion mədəniyyətin gücləndirilməsi və milli müstəqillik ideyalarının möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Son 30 ildə isə Azərbaycan yalnız müstəqilliyini qorumaqla kifayətlənməmiş, həm də regionun lider dövlətlərindən birinə çevrilmişdir. Cari ilin "Konstitusiya və Suverenlik İli" elan olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında qeyd edilmişdir: "Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir".

Azərbaycan Respublikasının müasir tarixi XX əsrin sonlarından başlayaraq milli azadlıq mübarizəsinin, dövlət müstəqilliyinin bərpasının və suverenliyin qorunması uğrunda aparılan mücadilələrin ardıcıl mərhələləri ilə zəngindir. Xalqımızın çoxəsrlik arzusu olan torpaqlarımızın işğaldan azad olunması, dövlət sərhədlərimizin birmənalı şəkildə təsbit edilməsi və Konstitusiyamızın bütün ərazilərdə bərqərar olması isə yalnız 2020–2023-cü illərdə həyata keçirilən uğurlu hərbi-siyasi addımlar nəticəsində mümkün olmuşdur. 2020-ci il sentyabrın 27-də Ermənistanın törətdiyi növbəti təxribatlara cavab olaraq Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əks-hücum əməliyyatlarına başlandı. 44 gün



davam edən Vətən müharibəsi müasir hərb tarixində analoqu az rast gəlinən əməliyyatlar silsiləsi idi. Azərbaycan Ordusu yüksək peşəkarlıq, texnoloji üstünlük və milli birlik sayəsində düşmənin illərlə möhkəmləndirdiyi müdafiə xətlərini yararaq əzəli torpaqlarımızı azad etdi.

Bu müharibə regionda yeni geosiyasi reallıq yaratdı. Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələnən 2020-ci il 9 noyabr üçtərəfli Bəyanatı beynəlxalq hüququn prinsiplərinə əsaslanan yeni status-kvonun hüquqi-siyasi təməlini qoydu. Lakin ölkəmizin suverenliyi üzərində hələ də müəyyən məhdudiyyətlər qalmaqda idi. Qarabağın bir hissəsində Ermənistan silahlı birləşmələrinin mövcudluğu, separatçı rejimin hərbi ünsürlərinin fəaliyyəti və Ermənistanda revanşist qüvvələrin güclənməsi yeni təhdidlər formalaşdırırdı. Ali Baş Komandan belə şəraitdə milli təhlükəsizliyi təmin etmək üçün qabaqlayıcı tədbirlər görməli idi. Bu məqsədlə 2023-cü il sentyabrın 19–20-də həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində ölkəmizin ərazisindəki bütün qanunsuz hərbi mövcudluğa son qoyuldu, separatçı rejim birdəfəlik ləğv edildi və Azərbaycanın suverenliyi tam bərpa olundu.

Antiterror əməliyyatlarının uğurlu nəticəsi ilə Azərbaycan Respublikasının Konstitusiyası bütün ərazilərdə tam hüquqi qüvvəyə mindi. Bununla ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində dövlət suverenliyi birmənalı olaraq təmin olundu. Bu, ölkə tarixində yeni mərhələnin başlanğıcı idi – müstəqillikdən sonra ilk dəfə olaraq dövlətin tam suveren idarəçiliyi ölkənin bütün ərazilərində bərqərar edildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli Sərəncamı ilə sentyabrın 20-si Dövlət Suverenliyi Günü elan edildi. Bu qərar xalqımızın əsrlərlə davam edən mübarizəsinin məntiqi nəticəsinin dövlət bayramı statusunda təsdiqi oldu. Dövlət Suverenliyi Günü Azərbaycanın müstəqil dövlət kimi tam formalaşmasının və gələcək inkişaf strategiyasının əsas ideoloji dayaqlarından birinə çevrildi.

2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyevin Xankəndidə xalqa müraciəti və Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldaraq ölkənin tam ərazi suverenliyini elan etməsi milli dövlətçilik tariximizin dönüş nöqtəsi olmuşdur. Bu addım yalnız siyasi-ideoloji mahiyyət daşımır, eyni zamanda konstitusion suverenliyin bütövlükdə ölkə ərazisində bərpa olunduğunu hüquqi-siyasi müstəvidə təsdiq edir. Azərbaycan Respublikasının Konstitusiyası ölkə ərazisinin vahidliyini, dövlət hakimiyyətinin isə bölünməzliyini təsbit edir. Uzun illər işğal altında olan ərazilərdə hüquqi qüvvənin tam tətbiqi mümkün deyildi. Xankəndidə Dövlət Bayrağının ucaldılması göstərdi ki, Konstitusiyanın hüquqi qüvvəsi artıq bütün ərazilərdə bərpa edilmişdir. Bu, dövlətin yalnız siyasi deyil, həm də hüquqi müstəvidə tam suverenliyinin təsdiqi deməkdir.

İşğaldan azad olunmuş ərazilərdə seçki institutunun bərpası Azərbaycan dövlətçiliyinin ən mühüm nailiyyətlərindən biridir. 2024-cü il prezident seçkilərində dövlət başçısı İlham Əliyevin ailəsi ilə birlikdə məhz Xankəndidə səs verməsi suverenliyin ən yüksək təzahürü kimi qiymətləndirilir. Çünki seçkilər konstitusion hüququn icrasıdır.

2025-ci il isə Azərbaycan tarixində xüsusi əhəmiyyətə malikdir. Bu il həm müasir dövlətçiliyimizin hüquqi əsası olan Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümü, həm də Vətən müharibəsində parlaq Qələbəmizin 5-ci ildönümü ilə səciyyələnir. Bu iki mühüm hadisənin vəhdəti milli inkişaf yolumuzun konseptual mahiyyətini aydın göstərir. "Azərbaycan Respublikasında 2025-ci ilin 'Konstitusiya və Suverenlik İli' elan edilməsi haqqında" Prezidentin Sərəncamı dövlətçilik ənənələrimizin, milli maraqlarımızın və strateji hədəflərimizin sintezini ifadə edir. Bu sərəncam Konstitusiyamızın 30 il ərzində formalaşdırdığı hüquqi və siyasi təməlin dəyərləndirilməsi, suveren dövlət olaraq gələcəyə baxışımızın konseptual ifadəsidir.

**Şahin İmanov,**
**Daşkəsən rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**

# *Suverenlik və Konstitusiya:* Hüquqi normativ iyerarxiyanın ali mərhələsi və suverenlik




**Cari ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması müasir Azərbaycan dövlətçiliyinin formalaşma mərhələlərinin elmi-siyasi baxımdan dəyərləndirilməsi üçün geniş imkan yaradır. Bu təşəbbüs dövlətçilik ənənələrinin qorunması, suverenlik konsepsiyasının dərinləşdirilməsi və milli kimlik ideyasının möhkəmləndirilməsi üçün strateji əhəmiyyət daşıyır.**

Əvvəla, 2025-ci ildə qeyd ediləcək iki mühüm tarixi hadisə – Konstitusiyanın qəbulunun 30 illiyi və dövlət müstəqilliyinin bərpasının 34-cü ildönümü – Azərbaycan cəmiyyətində siyasi və hüquqi mədəniyyətin inkişafının təməl göstəriciləridir. Konstitusiya hər bir müstəqil dövlətin "yol xəritəsi" olmaqla, hüquqi dövlət və vətəndaş cəmiyyətinin bünövrəsini müəyyən edir. 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası isə ölkənin demokratik inkişaf yolunu müəyyənləşdirən, siyasi sistemin legitimliyini təsdiqləyən fundamental aktdır. Bu sənədin 30 illik tarixi göstərir ki, Azərbaycan dövlətçiliyi dinamik inkişaf etmiş, həm siyasi institutların formalaşması, həm də milli maraqların müdafiəsi baxımından mühüm nəticələr əldə olunmuşdur.

Digər tərəfdən, 2020-ci ildə xalqımızın Vətən müharibəsində qazandığı tarixi qələbə suverenliyin hüquqi və siyasi, həm də praktiki müstəvidə bərpa olunmasını təmin etdi. Suverenliyin qorunması dövlətin ərazi bütövlüyü və milli iradəsinin təsdiqi ilə bilavasitə bağlıdır. Bu mənada "Konstitusiya və Suverenlik İli" həm hüquqi dövlətin möhkəmlənməsi, həm də milli suverenliyin real zəmin üzərində bərqərar olması arasında üzvi bağlılığı nümayiş etdirir. Azərbaycan xalqı bu tarixi mərhələyə ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasi kursunun davamı, Prezident İlham Əliyevin qətiyyətli liderliyi və müzəffər Ordumuzun qəhrəmanlığı sayəsində nail olmuşdur.

Elmi-siyasi baxımdan bu qərarın əhəmiyyəti ondan ibarətdir ki, o, Azərbaycan dövlətçiliyinin inkişaf trayektoriyasını üç əsas xətt üzrə dəyərləndirməyə imkan verir: Hüquqi əsasların möhkəmləndirilməsi, yəni Konstitusiya ilə müəyyən olunan prinsiplərin qorunması və daim yenilənən çağırışlara uyğun təkmilləşdirilməsi, dövlətin beynəlxalq hüquqda tanınmış sərhədlərinin toxunulmazlığının bərpası və gücləndirilməsi, xalqın siyasi şüurunda müstəqilliyin əvəzolunmaz dəyər kimi möhkəmlənməsi.

Azərbaycan Konstitusiyası müstəqilliyini yenidən bərpa etmiş dövlətin hüquqi-siyasi çərçivəsini müəyyənləşdirərək, xalqın çoxəsrlik dövlətçilik ənənələrinə əsaslandı. Ənənələrin bu sənəddə ifadəsini tapması təsadüfi deyildi: Azərbaycan Xalq Cümhuriyyətinin iki il ərzində formalaşdırdığı zəngin dövlət quruculuğu təcrübəsi və respublika ideyası yeni müstəqillik dövründə müasir siyasi sistemin təməl daşına çevrildi. Bununla yanaşı, ötən əsrin 60–70-ci illərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış iqtisadi və institusional baza, hüquqi dövlət quruculuğu prosesinə etibarlı dayaq oldu. Konstitusiyanın qəbul olunması ümumxalq səsverməsi – referendum yolu ilə həyata keçirildi ki, bu da sənədin xalqın birbaşa iradəsinə söykəndiyini göstərir. Ulu Öndərin bu barədə demişdir: "Hər bir şəxs Konstitusiyaya və qanunlara əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələrini layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir"; "Məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir. Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır. Hər bir vətəndaşın Konstitusiyasıdır!".

Hüquq nəzəriyyəsində xüsusi olaraq vurğulanır ki, konstitusiyaların giriş hissəsi, yəni preambula, həmin dövlətin tarixi yaddaşını və gələcək yol xəritəsini ifadə edir. Azərbaycan Respublikasının Konstitusiyasının

preambulasında xalqın çoxəsrlik dövlətçilik ənənələrinə sadiqliyi, müstəqil və demokratik dövlət qurmaq əzmi, vətəndaş cəmiyyətini inkişaf etdirmək niyyəti açıq şəkildə ifadə olunmuşdur. Bu, həm də milli birliyi, ortaq kimliyi və ümumi ali məqsədləri cəmiyyət miqyasında legitimləşdirən ideoloji çərçivə rolunu oynayır.

Azərbaycan Respublikasının Konstitusiyası hüquq sistemində ali qüvvəyə malikdir. Əsas Qanunun 147-ci maddəsi qanunvericilik, icra və digər normativ aktların məhz Konstitusiyaya uyğunluğunu tələb edir. Bu prinsip hüquqi sabitliyin qorunması, dövlət idarəçiliyində normativ iyerarxiyanın təmin edilməsi və hüquqi harmoniyanın saxlanılması baxımından fundamental əhəmiyyət daşıyır.

Azərbaycanda hüquq sistemi, insan hüquqlarının təminatı və dövlət idarəetməsinin müasirləşdirilməsi sahəsində əldə edilən nailiyyətlər dövlətin inkişaf trayektoriyasının mühüm göstəricilərindəndir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlar Konstitusiyanın prinsiplərinin dərinləşdirilməsinə, hüquqi sabitliyin möhkəmləndirilməsinə və vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminatın yaradılmasına xidmət edir.

Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunduğu gündən dəyişən dövrün tələblərinə uyğunlaşdırılmışdır. İlk olaraq 2002-ci il avqustun 24-də keçirilən referendum nəticəsində 24 maddəyə, 2009-cu il martın 18-də isə 25 maddəyə edilən əlavə və dəyişikliklərlə reallaşdırıldı. Bu islahatlar əsasən dövlətin sosial-iqtisadi bazasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinin gücləndirilməsi və idarəetmədə çevikliyin artırılması məqsədini daşıyırdı.

2016-cı il sentyabrın 26-da keçirilmiş referendum isə dövlət quruculuğu tarixində mühüm mərhələ oldu. Konstitusiyanın 29 maddəsinə edilən əlavə və dəyişikliklər ali dövlət hakimiyyəti orqanlarının, məhkəmə sisteminin və bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmişdi. Bu dəyişikliklər nəticəsində idarəetmə strukturlarının funksional imkanları genişləndi, insan hüquq və azadlıqlarının təminat mexanizmləri daha da gücləndirildi. Beləliklə, Əsas Qanun müasir çağırışlara cavab verən və davamlı inkişafı təmin edən hüquqi çərçivəyə çevrildi.

Suverenliyimizin ən böyük təminatlarından olan 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər təkcə hərbi-siyasi qələbə kimi deyil, həm də suverenlik və konstitusiya prinsiplərinin tam bərpası kimi qiymətləndirilməlidir. Azərbaycan xalqı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarda dövlət suverenliyinin bərqərar olunmasına, Əsas Qanunun hüquqi qüvvəsinin bütün ölkə ərazisində təmin edilməsinə nail oldu. Bu, həm hüquqi, həm də ideoloji baxımdan suveren dövlət anlayışının möhkəmlənməsi demək idi. Bu barədə Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında qeyd edilir: “Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır”.

Hər xalqın tarixi yaddaşında dövlətçilik ənənələri onun siyasi kimliyinin və milli özünüdərkinin əsas sütunlarından birini təşkil edir. Öz taleyini yazmaq, müstəqil dövlət qurmaq və onu inkişaf etdirmək milli varlığın ən yüksək təzahür formasıdır. Azərbaycan xalqı üçün bu prinsip yalnız siyasi müstəvidə deyil, həm də tarixi-fəlsəfi anlamda strateji dəyər kəsb edir.

Tarixin müxtəlif mərhələlərində ölkəmiz işğallara, yadelli təsirlərə, siyasi təzyiqlərə və iqtisadi məhrumiyyətlərə məruz qalsa da, heç bir qüvvə xalqımızın müstəqillik iradəsini və dövlətçilik ənənələrinə sadiqliyini məhv edə bilməmişdir. Bu məqam, əslində, siyasi elmdə “xalq iradəsinin davamlılığı” (continuity of popular sovereignty) kimi dəyərləndirilir.

Dövlətçilik tariximiz göstərir ki, xalqın azadlıq iradəsi hərbi-siyasi güclə tamamlanmadıqca davamlılıq qazana bilməz. Bu baxımdan, Azərbaycanın müasir dövründə əldə etdiyi ərazi bütövlüyü, suverenliyin tam bərpası yalnız diplomatik uğur deyil, həm də milli mübarizənin hərbi-siyasi zirvəsidir.

Müstəqil Azərbaycan dövləti bu gün regionun geosiyasi arxitekturasında mühüm aktordur. Ərazi bütövlüyünü bərpa etmiş, beynəlxalq müstəvidə artan nüfuz qazanan Azərbaycan xalqı öz milli sərvətini dövlət müstəqilliyini strateji şəkildə qorumağa və inkişaf etdirməyə davam edir. Bu proses milli kimliyin möhkəmləndirilməsi, dövlətçilik fəlsəfəsinin dərinləşməsi kimi qiymətləndirilməlidir.

**Maarif Hüseynov,**
**Tovuz rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**

# Suveren dövlətçiliyin hüquqi təməli

**Hər bir dövlətin varlığı və dayanıqlığı onun suverenliyinin, hüquqi əsaslarının və milli iradəsinin bərabər balansda qorunmasından asılıdır. Dövlətin hüquqi çərçivəsi, onun siyasi sabitliyinin və ictimai rifahının təminatçısı kimi çıxış edir. Müasir dövrdə Azərbaycan Respublikası bu prinsipin parlaq nümunəsini nümayiş etdirərək, suveren dövlətçilik ideyasını reallığa çevirib. Bu uğurun təməlində isə Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi və Prezident İlham Əliyev tərəfindən müasir reallıqlara uyğun şəkildə davam etdirilən ardıcıl siyasi xətt dayanır. Azərbaycan xalqının əsrlərlə formalaşmış milli kimliyi və dövlətçilik ənənəsi bu gün müstəqil respublikanın ideoloji dayaqlarını təşkil edir.**

Azərbaycanın inkişaf konsepsiyası hüquqi dövlət və sosial rifah ideyasının qarşılıqlı vəhdətinə əsaslanır. Hüquqi dövlət təkcə qanunların mövcudluğu deyil, həm də onların ədalətli və effektiv tətbiqini nəzərdə tutur. Bu baxımdan Azərbaycan Respublikasında aparılan institusional islahatlar — məhkəmə sisteminin müasirləşdirilməsi, idarəetmədə şəffaflıq və hesabatlılığın artırılması, korrupsiyaya qarşı kompleks tədbirlər hüquqi sistemin sabit inkişafını təmin edən mühüm faktorlardandır. Belə ki, 1998-ci il 1 dekabr tarixində qəbul edilmiş “Məhkəmələr və hakimlər haqqında” Qanun ölkədə üçpilləli məhkəmə sisteminin formalaşmasına hüquqi əsas yaratdı. Bu islahat nəticəsində Azərbaycanın hüquq sistemi sovet dövründən miras qalan köhnə strukturlardan tamamilə uzaqlaşdırılaraq demokratik prinsiplər üzərində yenidən quruldu. Məhkəmə-hüquq sahəsində aparılan dərin dəyişikliklər nəticəsində Konstitusiya Məhkəməsi təsis olundu, 2000-ci ildən etibarən isə müstəqil və şəffaf fəaliyyət prinsiplərinə əsaslanan yeni üçpilləli məhkəmə sistemi tətbiq edilməyə başladı. Bu model əvvəlki məhkəmə mexanizmlərindən kəskin surətdə fərqlənərək, insan hüquq və azadlıqlarının qorunmasına daha güclü təminat gətirdi. Bu da ölkənin beynəlxalq imicini qanunun aliliyinə əsaslanan müasir dövlət kimi möhkəmləndirir.

Ulu öndər 2003-cü il oktyabrın 1-də Prezident seçkiləri ərəfəsində xalqa müraciəti zamanı demişdi: “İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

2020-ci ildəki Vətən müharibəsində qazanılmış tarixi Qələbə və 2023-cü ildə həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu.

Azərbaycanın müstəqillik tarixi göstərir ki, dövlətin möhkəm dayaqlarını təmin edən üç sütun olan, ordunun formalaşdırılması, hüquqi dövlətin qurulması və milli ideologiyanın bərpası prosesləri məhz Heydər Əliyev dövründə strateji prioritet kimi müəyyən olunub. Ulu öndərin ordu quruculuğu sahəsində həyata keçirdiyi islahatlar həm də milli ruhun yenidən oyanışı idi. Ümummilli liderin təşəbbüsü ilə yaradılan ali hərbi məktəblər, gənc zabitlərin xaricdə təhsil




alması üçün geniş imkanların yaradılması, orduya milli ideya və vətənpərvərlik ruhunun aşılanması bu günün qalib Azərbaycan Ordusunun əsasını təşkil edir. Bu baxımdan 2020-ci ilin Vətən müharibəsində əldə olunan tarixi Qələbə Heydər Əliyevin illər əvvəl təməlini qoyduğu güclü, intizamlı və yüksək döyüş qabiliyyətinə malik ordunun nəticəsidir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə “dəmir yumruq” əməliyyatı da Ulu öndərin “Azərbaycan müstəqil dövlət kimi əbədi yaşayacaq” ifadəsinin reallaşması idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi dövlətçilik tariximizdə həm simvolik, həm də strateji addımdır. Bu qərar iki fundamental hadisənin – Konstitusiyanın qəbulunun 30 illiyi və Vətən müharibəsində Qələbənin 5 illiyinin vəhdətini təcəssüm etdirir.

Azərbaycanın həqiqi milli Konstitusiyası yalnız müstəqillik əldə olunduqdan sonra mümkün oldu. 1991-ci il oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" gələcək dövlət quruculuğunun hüquqi əsasını qoydu. Lakin 1991-1993-cü illərdəki siyasi qeyri-sabitlik, idarəetmədə xaos və hakimiyyət böhranı ölkədə yeni Konstitusiyanın qəbulunu mümkünsüz etmişdi. Bu vəziyyətin dəyişməsi Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə baş verdi. 1995-ci il mayın 2-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi təsdiq edildi. Komissiyanın tərkibinə tanınmış ictimai-siyasi xadimlər, alimlər, peşəkar hüquqşünaslar qatıldı. Sədr isə Ulu öndər Heydər Əliyev seçildi. İlk növbədə siyasi sabitlik, hüquqi nizam və dövlət institutlarının bərpası istiqamətində addımlar atdı. Ümummilli lider deyirdi: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun". Yaradılmış komissiya tərəfindən çox qısa bir müddətdə inkişaf etmiş demokratik ölkələrin konstitusion quruculuq təcrübəsi öyrənildi, təhlil olundu, Azərbaycan Respublikasının Konstitusiyasının layihəsi hazırlanıb 1995-ci il oktyabrın 15-də ictimai müzakirəyə təqdim olundu, 1995-ci il noyabrın 12-də keçirilən ümumxalq səsverməsi ilə Azərbaycanın müstəqillik dövründə ilk milli Konstitusiyası 94,5 faiz səs çoxluğu ilə qəbul edildi.

Konstitusiyada BMT-nin 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 1966-cı il Beynəlxalq Mülki və Siyasi Hüquqlar Paktı və digər beynəlxalq sənədlərin prinsipləri əks olunmaqla, Azərbaycan hüquqi sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması təmin edildi. Bu, həmçinin ölkəmizin demokratiya və insan hüquqları sahəsində qlobal öhdəliklərə sadiqliyinin göstəricisidir.

Azərbaycan Konstitusiyasına sonrakı illərdə üç dəfə 2002, 2009 və 2016-cı illərdə – ümumxalq səsverməsi (referendum) yolu ilə mühüm dəyişikliklər edilib. Bu dəyişikliklər cəmiyyətin sosial-siyasi inkişaf dinamikasına uyğun olaraq dövlət idarəetməsinin çevikliyini artırmağa yönəlmişdi. 2002-ci il referendumunda əsas məqsəd dövlət hakimiyyəti orqanları arasında səlahiyyət bölgüsünün təkmilləşdirilməsi və idarəetmənin effektivliyinin artırılması idi. 2009-cu ildə edilən dəyişikliklər insan və vətəndaş hüquq və azadlıqlarının təminatını genişləndirdi, medianın və ictimai iştirakçılığın hüquqi bazasını möhkəmləndirdi. 2016-cı il referendumunda isə konstitusion idarəetmədə institusional modernizasiya həyata keçirildi: vitse-prezidentlik institutu təsis olundu, icra hakimiyyəti sisteminin struktur çevikliyi təmin edildi, gənclərin və ailə institutunun dövlət siyasətində rolu konstitusion status qazandı.

Azərbaycan Respublikasının Konstitusiyası milli suverenliyin ideoloji rəmzi kimi çıxış edir. Konstitusiyada əksini tapan "Azərbaycan Respublikasının ərazi bütövlüyü, dövlət müstəqilliyi və konstitusiya quruluşu" prinsipləri bu gün də dövlətin daxili və xarici siyasətinin əsas istiqamətini müəyyən edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi dövlətin hüquqi və ideoloji inkişafının məntiqi davamı kimi çıxış edir. Bu təşəbbüs Konstitusiyanın 30 illiyinə verilən ən yüksək siyasi qiymət olmaqla yanaşı, hüquqi dövlətçilik prinsipinin daha da möhkəmləndirilməsi məqsədini daşıyır.

2023-cü ilin noyabrında Xankəndidə keçirilən Zəfər paradı Azərbaycan dövlətçiliyinin və hərbi gücünün siyasi manifestinə çevrildi. Bu hadisə Ulu öndərin "Qarabağ Azərbaycandır və nida" prinsipinin əyani təsdiqi olmaqla yanaşı, həm də dövlətin suverenlik atributlarının tam bərpa olunduğunu dünyaya nümayiş etdirdi. Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində açıqladı: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik".

Bu gün Azərbaycanın siyasi sistemi, ordu quruculuğu və hüquqi islahatları bir-biri ilə sıx şəkildə bağlı olan vahid dövlətçilik mexanizmini təşkil edir. Bu mexanizmin ideoloji nüvəsini Heydər Əliyev irsi, onun "hüquq və ədalət üzərində qurulan dövlət" fəlsəfəsi formalaşdırır. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu fəlsəfə Azərbaycanı Cənubi Qafqazın ən güclü, müstəqil və hüquqa əsaslanan dövlətinə çevirib.

"Konstitusiya və Suverenlik İli" isə bunun davamı kimi, həm ulu öndərin dövlətçilik irsinə ehtiramın, həm də gələcəyə yönəlik strateji baxışın ifadəsidir. Bu il təkcə tarixə qayıdış deyil, həm də hüquqi və mənəvi qələbənin siyasi təntənəsidir.

**Elnur RÜSTƏMOV,**
**Saatlı rayon prokuroru,**
**ədliyyə müşaviri.**

# Konstitusion legitimlik və müasir, suveren dövlət idarəçiliyi modeli




*Ölkə başçımız İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə cari ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi milli dövlətçiliyimizin inkişaf mərhələsində strateji məna daşıyan hadisədir. Prezidentin Konstitusiyanın 109-cu maddəsinin 32-ci bəndinə əsaslanaraq qəbul etdiyi bu qərar həm tarixi keçmişin dərindən dəyərləndirilməsi, həm də gələcəyə yönəlmiş siyasi mesajdır. Bu barədə Sərəncamda qeyd edilir:* ***"Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir".***

Konstitusiya hər bir müasir dövlətin hüquqi-siyasi sütunudur. Bu baxımdan 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası da müstəqil dövlətçiliyimizin hüquqi bünövrəsini formalaşdırır. Sənəd azərbaycançılıq ideologiyasının, milli birliyin və müstəqil dövlətin inkişaf fəlsəfəsinin daşıyıcısıdır. 1991-ci il oktyabrın 18-də Azərbaycanın müstəqilliyi bərpa edildikdən sonra konstitusiyada, insan haqları və digər məsələlər barədə insanların rifahı və gələcəyi naminə, həm də etik norma və dəyərlərə daha çox yer verildi. Ulu Öndər Konstitusiyanın yaranmasında tarixi keçmişimizlə yanaşı, həm də dünya dövlətlərinin demokratik və hüquqi prinsiplərinə diqqətlə yanaşmağı, yeri gələndə ondan bəhrələnməyi təkidlə bildirirdi: "Azərbaycanın tarixi keçmişi, bugünkü reallıqlarını və gələcək perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir. Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda, ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi naliyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik".

Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə hər il sentyabrın 20-nin Dövlət Suverenliyi günü, həmçinin Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhər günləri kimi qeyd olunması isə suverenliyin yalnız hüquqi deyil, həm də milli yaddaş və coğrafi bütövlüklə bağlılığını vurğulayır. Ötən il sentyabrın 19-da imzalanan Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında qeyd edilir: "Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir".

Azərbaycan xalqı XX əsrdə iki dəfə müstəqillik qazanmış, 1991-ci ildən etibarən bu azadlığı qoruyub saxlamağı bacarmışdır. 1991–1993-cü illərdəki mürəkkəb siyasi böhran, hakimiyyət boşluqları və xarici təsirlər dövlət suverenliyimizi təhlükə altına salmışdı. Ancaq Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi nəticəsində ölkəmiz müstəqilliyini möhkəmləndirdi, konstitusion dövlət quruculuğu yoluna qədəm qoydu. Bu kursun davamı olaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə Azərbaycan dövləti beynəlxalq aləmdə bərabərhüquqlu tərəfdaş kimi mövqeyini möhkəmləndirdi.

2020-ci ilin 44 günlük Vətən müharibəsi Azərbaycanın tarixi inkişafında dönüş nöqtəsi oldu. Bu

qələbə nəticəsində ölkəmiz beynəlxalq hüquqa əsaslanan ərazi bütövlüyünü təmin etdi və dövlət suverenliyini faktiki olaraq tam şəkildə bərpa etdi. Cari ildə Şanlı Zəfərin 5 illiyi qeyd olunacaq.

Tarixə nəzər salsaq, 1990-cı illərin əvvəllərində Ermənistanın hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ və ətraf rayonlarımız işğal altına düşmüş, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə salınmışdı. 30 ilə yaxın davam edən işğal beynəlxalq hüququn prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və regionda sülhün əsas şərtlərinə zidd idi.

Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsində qazandığı tarixi qələbə bu ədalətsiz vəziyyətə son qoydu. Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi, xalqın dəmir iradəsi və ordumuzun yüksək döyüş qabiliyyəti sayəsində torpaqlarımız azad edildi. Bu müharibə Azərbaycan tarixində yalnız hərbi əməliyyat deyil, həm də milli birliyin, dövlətçilik ideyalarının və müasir idarəetmə modelinin təntənəsi oldu.

**“Azərbaycan iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır”.**

**Heydər ƏLİYEV**



2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri Azərbaycanın suverenliyini tam şəkildə bərpa etməsinə gətirib çıxardı. Separatçı qurumun qalıqları məhv edildi, qanunsuz silahlı birləşmələr təslim oldu. Xankəndi, Əsgəran, Ağdərə və Xocavənd şəhərlərinin nəzarətə götürülməsi ilə Qarabağda dövlət hakimiyyəti bərpa edildi.

Əli Azərbaycan xalqının qanına batmış separatçı və terrorçu “liderlər”in məhkəmə qarşısına çıxarılması həm hüquqi, həm də siyasi baxımdan mühüm əhəmiyyət daşıyır. Bu, göstərir ki, Azərbaycan yalnız hərbi gücü ilə deyil, həm də hüquqi dövlət prinsipləri əsasında ədaləti təmin edir.

2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyevin işğaldan azad edilmiş Ağdərə, Xocalı, Xocavənd və Xankəndiyə səfəri Azərbaycan dövlətçiliyinin rəmzi qələbəsi kimi tarixə düşdü. Dövlət bayrağının bu şəhərlərdə ucaldılması milli suverenliyin faktiki təcəssümü idi. Bu hadisə həm də Azərbaycanın gələcək inkişafında Qarabağın mərkəzi rolunu təsdiqlədi. Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan bayrağını ucaltdıqdan sonra dövlət başçımız xalqa müraciətində demişdir: "Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm".

Bütün bunların nəticəsində Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və yenidənqurma işlərinin aparılması Azərbaycanın strateji hədəflərinin bir hissəsidir. Prezident İlham Əliyevin təşəbbüsü ilə bu bölgələrdə “Böyük Qayıdış” proqramı həyata keçirilir, müasir infrastruktur qurulur, şəhərlər və kəndlər yenidən salınır.

Bu proses iqtisadi inkişaf, milli suverenliyin sosial və mədəni müstəvidə bərpasıdır. Qarabağ artıq yalnız azad edilmiş torpaq deyil, həm də gələcək nəsillər üçün güc, birlik və müstəqillik simvoludur.

Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı tarixdə qələbə qazanan, gələcəyini azad, müstəqil və qüdrətli şəkildə quran xalq kimi özünü təsdiqlədi. Qalib Lider və Qalib Sərkərdə anlayışı Azərbaycan dövlətçilik ənənələrinin ayrılmaz parçasına çevrildi.

**Rəşad Məmmədov,**
**Xaçmaz rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**

# Milli Suverenlik və Hüquqi təminatlar konteksində Prokurorluğun rolu




**Məlum olduğu kimi Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2024-cü il tarixli 432 nömrəli müvafiq sərəncamına əsasən 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilmişdir.**

**2025-ci il Azərbaycan Respublikası Konstitusiyanın qəbul edilməsinin 30-cu, eyni zamanda Vətən müharibəsində qələbənin, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunmasının 5-ci il dönümünə təsadüf etmişdir.**

Konstitusiya hüququ və Suverenlik müasir dövlətçiliyin fundamental prinsipləri olmaqla, hər bir dövlətin müstəqil siyasət yürütmək, daxili və xarici işlərini sərbəst şəkildə həyata keçirmək hüququnu ifadə edir, dövlətin mövcudluğunun, onun davamlı inkişafının ilkin və əsas şərti qismində çıxış edir.

Cənab Prezidentin müvafiq Sərəncamda qeyd edilmişdir: "Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir".

"Konstitusiya və Suverenlik İli" dövlətin hüquqi əsaslarının möhkəmləndirilməsi, dövlət suverenliyinin daha da gücləndirilməsi məqsədi daşıyır. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən imzalanan sərəncam dövlətçilik tariximizin daha da dərindən öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşımaqla yanaşı, ölkəmizin keçmişi, bu günü və gələcəyi üçün xüsusi məna ifadə edir, hüquqi dövlətçilik və suverenlik dəyərlərinin yeni qlobal çağırışlar əsasında formalaşdırılması hədəflərini müəyyən edir.

Azərbaycanın suverenlik yolu heç də asan olmamışdır. Belə ki, 1990-cı illər Azərbaycanın tarixinə ağır faciələrin yaşandığı bir dövr kimi daxil olmuşdur. Həmin vaxt Sovetlər birliyi dağılnda 15 ittifaq respublikası arasında Azərbaycan yeganə ölkə olmuşdur ki, ərazisinin 20 faizi işğal edilmiş, Ermənistanda və işğal olunmuş torpaqlarımızda azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə hərbi cinayətlər törədilmiş, təbii resurslarımız talan edilmiş, şəhər və kəndlərimiz viran edilmiş, minlərlə insanlarımız həlak olmuş, 1 milyona yaxın soydaşlarımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Lakin ərazilərimiz otuz ilə yaxın müddət ərzində işğal altında qalsa da, hər zaman suveren Azərbaycan əraziləri olaraq tanınmışdır. Bu dövrdə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli lider Heydər Əliyev tərəfindən həyata keçirilən müdrik və uzaqgörən siyasət nəticəsində milli dövlətçilik ideyası realizə olunmuş, müasir müstəqil Azərbaycan dövləti möhkəmlənmiş və tamamilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bir çox sahələrini əhatə edən irimiqyaslı islahatların həyata keçirilməsinə, müasir ordu quruculuğuna başlanmış, ölkə daxilində siyasi sabitliyin təmin edilməsi, sosial-iqtisadi quruculuq sahəsində prioritetlərin müəyyən edilməsi, kompleks xarakterli islahatların həyata keçirilməsinə əsas yaradan qanunvericilik bazasının yenidən hazırlanması təmin edilmişdir.

12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi – referendum yolu ilə Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan, özündə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, tarixi, milli ənənələri və demokratik prinsipləri əks etdirən Yeni Konstitusiyamız qəbul edilmişdir.

Bu gün Azərbaycan Respublikasının Konstitusiyası qanunvericilik sisteminin əsasında durmaqla yanaşı dövlət quruluşunun əsaslarını, hakimiyyətlərin bölünməsi prinsipini, hakimiyyət orqanlarının təşkilini,

şəxsiyyət, cəmiyyət və dövlət arasındakı münasibətlərin hüquqi çərçivələrini müəyyən edir, insan hüquqları və azadlıqlarının müdafiəsi və təminatı ilə bağlı mexanizmləri tənzim edir.

Konstitusiyamızda yer alan əsas məqsədlərdən biri də Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasıdır. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, dövlət başçısı cənab İlham Əliyevin yenilməz siyasi, hərbi iradə və qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-si tarixdərində həyata keçirilmiş uğurlu antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Konstitusiyanın hüquqi qüvvəsi Azərbaycanın bütün ərazisində bərqərar olmuşdur.

Artıq 5 ildir ki, xalqımız əzəli torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyünün, dövlət suverenliyinin və ölkənin bütün ərazilərində Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin tam bərpasının qürurunu yaşayır.

Son beş il ərzində Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma və bərpa işləri, məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması və iqtisadi inteqrasiya layihələrinin gerçəkləşdirilməsi suveren dövlət anlayışının real təcəssümü olmuşdur. Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hüquqi dövlət quruculuğu və strateji inkişaf konsepsiyasına uyğun olaraq həyata keçirilən ardıcıl və sistemli islahatlar, səmərəli dövlət idarəçiliyi, təhlükəsizliyin və sabitliyin gücləndirilməsi ilə bağlı görülən tədbirlər ölkənin müstəqilliyinin daha da möhkəmləndirilməsinə, onun davamlı və dayanıqlı inkişafının təmin olunmasına, dövlətimizin qüdrətinin artmasına, xalqımızın rifah halının, vətəndaş həmrəyliyinin yüksəlməsinə zəmin yaratmışdır.

Respublikamızın davamlı tərəqqisi digər dövlət təsisatları, hüquq-mühafizə orqanları kimi, dövlətçiliyinin əsas sütunlarından biri olan prokurorluq orqanlarının da ardıcıl və müntəzəm inkişafını təmin etmişdir.

1995-ci ildə qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında prokurorluğa xüsusi maddə həsr edilərək dövlət idarəetmə sistemində bu təsisatın yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyənləşdirilməklə prokurorluq orqanlarına ilk dəfə olaraq konstitusion status verilmişdir.

Son illər Azərbaycan Respublikasında həyata keçirilən genişmiqyaslı hüquqi islahatlar fonunda prokurorluq orqanlarının fəaliyyəti yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Respublikamızda uğurla reallaşdırılan məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi siyasəti çərçivəsində Prokurorluğun icra etdiyi tədbirlər sırasında Elektron prokurorluq informasiya sisteminin tətbiqi, vətəndaşların müraciət imkanlarının artması və informasiya əlçatanlığı təmin olunmuş, prokurorluq orqanlarında kadr siyasətinin təkmilləşdirilməsi və gənc kadrların işə cəlb edilməsi prosesi şəffaf və sistemli şəkildə həyata keçirilmiş, prokurorluğun müxtəlif beynəlxalq qurumlarla əlaqələrin genişlənməsi həyata keçirilmiş, prokurorluq orqanlarının maddi- texniki bazası gücləndirilmiş, prokurorluq əməkdaşlarının səmərəli fəaliyyəti üçün Bakı şəhərində və bir sıra rayonlarda prokurorluq orqanlarının zəruri texniki informasiya və kommunikasiya avadanlıqdarı ilə təchiz olunmuş yeni və müasir inzibati binaları tikilib istifadəyə verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, Baş prokuror Kamran Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar nəticəsində strukturun daxili idarəetmə modeli optimallaşdırılmış, vətəndaş məmnunluğuna yönəlik elektron sistemlər, ictimai əlaqələr və müasir informasiya vasitələrindən istifadə gücləndirilmişdir.

Son beş ilə ərzində Azərbaycan prokurorluğunun nümayəndələri müxtəlif bexnəlxaq təbdbirlərdə fəal iştirak etmiş, qlobal hüquqi məsələlərin həllində töhfələrini nümayiş etdirmişlər. 2024-cü ilin sentyabrında Bakı şəhəri, Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29-cu İllik Konfransı və Ümumi Yığıncağına ev sahibliyi etmiş, Azərbaycanın hüquq sistemində ilk dəfə keçirilmiş bu tipli geniş miqyaslı beynəlxalq forum ərəfəsində 95 ölkədən 500-ə yaxın prokurorluq və ədliyyə əməkdaşının iştirakı ilə konfrans baş tutmuşdur.

Beynəlxalq tərəfdaşlarla səmərəli əməkdaşlıq çərçivəsində sonuncu dəfə Azərbaycan Prokurorluğu və BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan Hüquq Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE Network) birgə təşkilatçılığı ilə 19–23 may tarixlərində Bakı şəhərində sözügedən beynəlxalq təşkilatın Altıncı Plenar İclası və İdarəetmə Komitəsinin Onuncu Görüşü baş tutmuşdur.

Prokurorluğun əməkdaşları bundan sonra da öz fəaliyyətini ölkə başçısının qarşıya qoyduğu müasir tələblər səviyyəsində quraraq bütün səylərini dövlətimizin suverenliyinin və müstəqilliyinin, ictimai-siyasi sabitliyin və təhlükəsizliyin cinayətkar qəsdlərdən qorunmasına, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin edilməsinə yönəldəcək.

**Nazim Babayev,**
**Qəbələ rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**

# Ümummilli lider Heydər Əliyevin dövlətçilik kursunda ətraf mühitin mühafizəsi



**Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin inkişafına misilsiz töhfələr verərək, ölkədə ekoloji mühitin qorunmasını və sağlamlaşdırılmasını daim dövlət siyasətinin prioritet məsələlərindən biri kimi diqqətdə saxlamışdır. O, Azərbaycan təbiətinin – flora və faunasının qoruyucusu və himayəçisi olmuş, torpaq, hava və landşaftın qorunması, zənginləşdirilməsi və gələcək nəsillərə çatdırılması məsələlərinə xüsusi önəm vermişdir. Ümummilli Lider ətraf mühitin mühafizəsinə, ekoloji vəziyyətin yaxşılaşdırılmasına və təbii sərvətlərdən səmərəli istifadəyə ciddi diqqət göstərmiş, yaşıllıq zolaqlarının genişləndirilməsi və ekoloji problemlərin həlli istiqamətində dövlət tədbirlərini daim dəstəkləmişdir. Hər sahədə olduğu kimi, Azərbaycanda ekoloji mühitin sağlamlaşdırılması və ekoloji siyasətin inkişafı sahəsində də ilk addımlar Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Həm sovet dövründə, həm də 1993-cü ildən sonra apardığı ekoloji islahatlar nəticəsində ölkədə yeni institutlar yaradılmış və ekoloji problemlərin həlli istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.**

Müstəqillik dövründə ekoloji siyasət dövlət prioritetinə çevrildi. Heydər Əliyev "ekologiya və təbii sərvətlərin qorunması" məsələsini milli təhlükəsizliklə əlaqələndirirdi. 1996-cı ildə "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair Dövlət Proqramı" qəbul olundu. Meşələrin qorunması və bərpası üçün layihələr həyata keçirildi, yeni ağacəkmə kampaniyaları başlandı. Xəzər dənizinin ekoloji problemlərinə xüsusi diqqət ayrıldı. Neft çıxarılması və tullantıların təmizlənməsi ilə bağlı beynəlxalq əməkdaşlıq gücləndirildi. Qanunvericilik bazası formalaşdırıldı – "Ətraf mühitin mühafizəsi haqqında" və digər ekoloji qanunlar qəbul olundu.

Ekoloji amillərin əhəmiyyəti dövlətin həm xarici, həm də daxili siyasətində öz əksini tapmışdır. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan BMT-nin İqlim Dəyişmələri Çərçivə Konvensiyası, "Bioloji Müxtəliflik haqqında" Konvensiya və digər beynəlxalq ekoloji konvensiyalara üzv olmuşdur. Heydər Əliyevin siyasətində ekoloji təhlükəsizlik həm təbii sərvətlərin qorunması, həm də gələcək nəsillərə sağlam mühitin ötürülməsi kimi strateji məsələ hesab olunurdu. O deyirdi ki, iqtisadi inkişaf ancaq sağlam mühitlə mümkündür. Ona görə də, ekologiyanı milli təhlükəsizlik məsələsi kimi qəbul edirdi. Onun dövründə bir neçə mühüm qanunlar qəbul olunmuşdur. Bunlardan "Ətraf mühitin mühafizəsi haqqında" və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanunlarını nümunə göstərmək olar. Bundan əlavə, ekologiya üzrə dövlət proqramları da məhz onun təşəbbüsü ilə təsdiqlənmişdi. Heydər Əliyev beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək, Xəzər dənizinin qorunması ilə bağlı layihələrə qoşulmuşdu. Onun təşəbbüsü ilə ölkədə geniş ağacəkmə işləri aparılırdı. Şəhərlərdə yaşıllıqların artırılması da diqqətdə idi.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik xətti və strateji inkişaf kursu davam etdirilir. Ulu öndərin siyasi irqini yaradıcı şəkildə davam etdirən Prezident İlham Əliyev tərəfindən ekoloji siyasət ardıcıl və məqsədyönlü şəkildə inkişaf etdirilmiş, ətraf mühitin mühafizəsi, təbii ehtiyatların səmərəli istifadəsi və ekoloji təhlükəsizliyin təmin olunması dövlət siyasətinin priotet istiqamətlərindən birinə çevrilmişdir. Onun rəhbərliyi ilə qəbul edilən dövlət proqramları, beynəlxalq ekoloji təşəbbüslərə qoşulma və

yaşıllaşdırma layihələri ölkəmizdə ekoloji tarazlığın qorunmasına mühüm töhfə vermişdir. Belə ki, 2001-ci ildə yaradılmış Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun prezidentliyi dövründə fəaliyyətini daha da genişləndirdi.

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü olaraq, iqlim dəyişmələrinin fəsadlarının azaldılması istiqamətində mühüm addımlar atır və bu prosesə fəal töhfə verir. Ölkənin 2030-cu ilə qədər sosial-iqtisadi inkişaf strategiyasında müəyyən edilmiş beş milli prioritetdən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" olmuşdur. Həmin prioritet çərçivəsində:

- ✓ ətraf mühitin mühafizəsi və sağlamlaşdırılması,
- ✓ yaşıllıqların bərpası və genişləndirilməsi,
- ✓ su ehtiyatlarından səmərəli istifadə,
- ✓ dayanıqlı enerji mənbələrinin tətbiqi istiqamətində tədbirlər həyata keçirilir.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji zonası" elan edilmişdir. Azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma tədbirlərində ekoloji tarazlığın qorunması əsas istiqamətlərdən biridir. Bu ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları tətbiq edilir, ekosistemlərin bərpasına xüsusi diqqət yetirilir. Eyni zamanda, Azərbaycanın enerji siyasətinin prioritetlərindən birini yaşıl enerjinin yaradılması və beynəlxalq bazarlara ixracı təşkil edir. 2030-cu ilə qədər ölkənin elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 30 faizə çatdırılması nəzərdə tutulur. İqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən 25 dekabr 2025-ci il tarixdə Azərbaycan Respublikasında "2024-cü ilin Yaşıl Dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Sərəncam imzalanmışdır.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir. Konfransın əsas mövzusu iqlim maliyyələşməsi olmuşdur. Əldə edilmiş razılığa əsasən, inkişaf etmiş ölkələr 2035-ci ilə qədər inkişaf etməkdə olan dövlətlərə hər il 300 milyard ABŞ dolları iqlim dəstəyi göstərməyi öhdələrinə götürdülər. Bundan əlavə, ümumi maliyyə həcminin 2035-ci ilə qədər 1,3 trilyon dollara çatdırılması razılaşdırıldı. COP 29 ölkələri istixana qazı emissiyalarını azaltmaq, milli iqlim planlarını (NDC) daha iddialı hədəflərlə yeniləmək barədə öhdəlik götürməyə çağırdı. Neft və qazdan asılılığın azaldılması, bərpa olunan enerji mənbələrinin inkişafı vacib məsələlərdən biri kimi vurğulandı. İqlim dəyişikliyi səbəbindən artan daşqınlar, quraqlıqlar və ekstremal hava şəraiti "loss and damage" adlanan zərər və itkilər problemini gündəmə gətirdi. Bu sahədə maliyyələşmənin artırılması barədə prinsipial razılıq əldə olunsa da, konkret mexanizmlər hələ tam formalaşmayıb.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi ekoloji siyasət çərçivəsində ölkəmizdə təmiz ətraf mühitin qorunması, təbii sərvətlərin səmərəli istifadəsi dövlətin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Bu prosesdə da üzərinə mühüm vəzifələr düşür. Belə ki, hüquq-mühafizə orqanları ekologiya sahəsində qanunların icrasına nəzarət edir, ətraf mühitin mühafizəsi ilə bağlı hüquq pozuntularının qarşısını almaq və təqsirkar şəxsləri məsuliyyətə cəlb etmək istiqamətində ardıcıl tədbirlər həyata keçirir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinə əlavə edilmiş ekosid cinayəti ekologiyanın qorunması sahəsində qanunvericiliyin möhkəmləndirilməsi istiqamətində atılmış mühüm addımdır. Rəsmi açıqlamalara görə, bu dəyişikliklə məqsəd təbii mühitə qarşı ciddi, genişmiqyaslı zərəri vurmuş şəxsin və ya şəxslərin dairəsinin müəyyən edilərək məsuliyyətə cəlb olunması, ekoloji sabitliyin qorunması və təbii resursların səmərəli istifadəsinin təmin edilməsi olmuşdur.

Prokurorluq bu halda rolunu həm cinayətlərin aşkarlanması, həm də təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində göstərir.

**Rəşad Məmmədov,**
**Xaçmaz rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**

# 2025-ci il – Konstitusiya və suverenlik ili




**Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 1918-1920-ci illərdə dövlətin əsas Qanunu qəbul edilə bilmədiyindən, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun tarixi əsasən SSRİ-nin tərkibində olduğu dövrə düşür.**

**Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni Konstitusiyanın hazırlanması zərurəti yaranmışdır. Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 2 may tarixli 1048 saylı qərarı və Ulu öndər Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın 34 nəfər üzvdən ibarət tərkibi təsdiq olundu. Bu Konstitusiya Komissiyasının tərkibinə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının nümayəndələri ilə yanaşı, tanınmış ictimai-siyasi və elm xadimləri, görkəmli hüquqşünaslar, tarixçilər, dilçilər daxil edilmişdi. Ümummilli lider Heydər Əliyev Konstitusiya Komissiyasının fəaliyyəti zamanı Əsas Qanunun layihəsinə dair öz dəyərli tövsiyələrini vermiş, Konstitusiyanın müddəalarını şəxsən nəzərdən keçirmiş, bu ali sənədin layihəsinin açıq müzakirələrini təşkil etməklə onun ən yetkin formada qəbul edilməsini təmin etmək üçün gərgin əmək sərf etmişdir.**

1995-ci il iyunun 5-də yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın ilk iclası keçirilmişdir. Həmin iclasda geniş nitq ilə çıxış edən Ulu Öndər Heydər Əliyev dövlətimizin konstitusiya quruculuğu tarixinə geniş şəkildə toxunmuş və qeyd etmişdir ki, müstəqil dövlətimizin ilk Konstitusiya layihəsinin hazırlanması tarixi nöqteyi-nəzərdən olduqca böyük və mühüm bir hadisədir. Həmin çıxışında Ümummilli lider qeyd etmişdir: “Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Ona görə də mən dedim ki, üzərimizə düşən vəzifə həm şərəflidir, həm də çox məsuliyyətlidir”.

Eyni zamanda, həmin çıxışında Ulu Öndər Heydər Əliyev qəbul ediləcək yeni Konstitusiyanın məqsədləri, qaynaqları və mahiyyətinə aydınlıq gətirərək ölkə Konstitusiyası barədə belə söyləmişdir: “Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericilik, məhkəmə hakimiyyətləri – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır”.

Konstitusiya layihəsini hazırlayan Komissiyanın 1995-ci il oktyabrın 3-də keçirilən iclasında Komissiyanın sədri Heydər Əliyev qeyd etmişdir: “Bizim yeni konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir”.

Ulu öndər Heydər Əliyevin çıxışlarında qeyd edilən bu vacib konseptual məqamlar mahiyyət etibarilə hüquqi dövlət quruculuğu prosesində ilkin təməl rolunu oynadı.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası preambula, 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət olmaqla 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edilmiş, 1995-ci il noyabrın 27-də isə qüvvəyə minmişdir.

Konstitusiyalı quruluşun əsaslarını möhkəmləndirərək, Azərbaycan Respublikası Konstitusiyası Azərbaycanı — respublika idarəetmə formasına malik, unitar, demokratik, hüquqi, dünyəvi dövlət kimi mü-

əyyən edir. Konstitusiya özündə ümumbəşəri dəyərləri təsbit etməklə aşağıdakı prinsipləri müəyyən etmişdir:

– İnsan, onun hüquq və azadlıqları ali dəyərlərdir (insan və vətəndaşın hüquq və azadlıqlarının tanınması, riayət olunması və müdafiəsi dövlətin vəzifəsidir);
– Suverenliyin daşıyıcısı və hakimiyyətin yeganə mənbəyi Azərbaycan xalqıdır;
– Sosial siyasət insanın layiqli həyatını və sərbəst inkişafını təmin edən şəraitin yaranmasına istiqamətlənib;
– Dövlət, xüsusi və bələdiyyə mülkiyyət formaları eyni qaydada tanınır və müdafiə olunur;
– Dövlət hakimiyyəti qanunverici, icraedici və məhkəmə hakimiyyəti bölgüsü əsasında həyata keçirilir;
– Yerli özünüidarəetmə demokratik hüquqi dövlətin əsas elementlərindən biri kimi tanınır və ona təminat verilir;
– İdeoloji və siyasi müxtəliflik, çoxpartiyalılıq tanınır. Heç bir ideologiya dövlət və ya məcburi xarakterli ola bilməz;
– Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normaları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr onun qanunvericilik sisteminin tərkib hissəsidir. Azərbaycan Respublikasının Konstitusiyası ali hüquqi qüvvəyə, birbaşa təsirə malikdir və Azərbaycan Respublikasının bütün ərazisində tətbiq olunur. Azərbaycan Respublikasında qəbul olunan qanunlar və qanun qüvvəli aktlar Azərbaycan Respublikası Konstitusiyasına zidd olmamalıdır.

2025-ci il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan 28 dekabr 2024-cü il tarixli sərəncam ilə Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” elan edilib. Məhz bu il 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının Əsas Qanunu olan ilk Konstitusiyasının qəbul edilməsinin 30 illiyi və 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi Zəfərin 5-ci ildönümüdür.

Bu sərəncam dövlətçilik tariximizin daha da dərindən öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən imzalanan sərəncam ölkəmizin keçmişi, bu günü və gələcəyi üçün xüsusi məna ifadə edərək, hüquqi dövlətçilik və suverenlik dəyərlərinin yeni qlobal çağırışlar əsasında formalaşdırılması üçün bir fürsət kimi dəyərləndirilə bilər.

“Konstitusiya və Suverenlik İli” dövlətin hüquqi əsaslarının möhkəmləndirilməsi, dövlət suverenliyinin daha da gücləndirilməsi məqsədi daşıyır. İstənilən xalq üçün müstəqil, suveren dövlətini yaratmaq və onu inkişaf etdirmək ən böyük nailiyyətdir. Ərazi, əhali və siyasi hakimiyyət kimi əsas atributları özündə ehtiva edən hər hansı siyasi varlığın dövlət olması üçün suverenlik, müstəqillik xüsusiyyətinə malik olması vacib şərtdir. Suverenlik istənilən dövlətin mövcudluğunun və davamlı inkişafının ilkin və əsas şərti qismində çıxış edir.

Məlum olduğu kimi, 1990-cı illərin əvvəllərindən hərbi təcavüz ilə üzləşən ölkəmiz beynəlxalq ictimaiyyət tərəfindən tanınan ərazilərinin 20 %-nin işğal edilməsi ilə qarşı-qarşıya qaldı. Ermənistanda və işğal olunmuş torpaqlarımızda azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə və hərbi cinayətlər törədilmiş, təbii resurslar talan edilmiş, şəhər və kəndlərimiz viran edilmişdir. Lakin bu ərazilər otuz ilə yaxın müddət ərzində işğal altında qalsa da, hər zaman suveren Azərbaycan əraziləri olaraq tanınırdı.

Bu dövrdə Azərbaycanın daxilində cərəyan edən mürəkkəb proseslər, vətəndaş qarşıdurmasının güclənməsi, anarxiya mühitinin dərinləşməsi, ən əsası isə ölkənin müstəqilliyi üçün təhdidlərin meydana çıxması onu göstərdi ki, ölkəni yaranmış ağır vəziyyətdən yalnız Ulu öndər Heydər Əliyev kimi güclü, prinsipial və iradəli lider xilas edə bilər. Xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli lider Heydər Əliyev Azərbaycanın fəlakətlərlə üz-üzə qaldığı bir dövrdə xalqımızın tarixinə milli dövlətçiliyin xilaskarı kimi daxil oldu.

Xalqımız və dövlətimiz üçün belə bir ağır zamanda Ulu öndər Heydər Əliyev doğma Azərbaycanı xilas etmək naminə misilsiz fədakarlıq göstərmiş, ölkəmizi ictimai-siyasi pərakəndəlik və anarxiyadan xilas etmişdir. Bununla da, ictimai və siyasi həyatın bir çox sahələrində müşahidə olunan dərin tənəzzülün qarşısı alınmış, dövlətin dayanıqlı və davamlı inkişaf yolu müəyyən edilmişdir.

Ulu öndər Heydər Əliyev tərəfindən həyata keçirilən müdrik və uzaqgörən siyasət nəticəsində milli dövlətçilik ideyası realizə olundu, müasir müstəqil Azərbaycan dövləti möhkəmləndi. Dövlətimiz dahi liderinin rəhbərliyi altında tamamilə yeni inkişaf mərhələsinə qədəm qoydu. Dövlət və cəmiyyət həyatının bir çox sahələrini əhatə edən irimiqyaslı islahatların həyata keçirilməsinə başlandı. Ümummilli lider Heydər Əliyev ölkə daxilində siyasi sabitliyin təmin edilməsi, sosial-iqtisadi quruculuq sahəsində prioritetlərin müəyyən edilməsi, kompleks xarakterli islahatların həyata keçirilməsinə əsas yaradan qanunvericilik bazasının yenidən hazırlanması və digər bir sıra mühüm vəzifələrin öhdəsindən məharətlə gəldi.

Qeyd edilməlidir ki, istənilən dövlətin mövcudluğu və inkişafı dövlət hakimiyyətinin təşkilinə dair əsas konstitusiya prinsiplərinin mövcudluğu ilə şərtlənir. Belə ki, hər bir hüquqi dövlətin Konstitusiyası bu təməl prinsipləri müəyyən edərək, insan hüquqları və azadlıqlarının müdafiəsi, hakimiyyətlərin bölgüsü və digər bir sıra mühüm hüquqi başlanğıcları özündə ehtiva edir.

1990-cı illərin əvvəllərində SSRİ-dən miras qalmış hüquq sistemi və qanunvericilik bazası hüquqi dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının səmərəli şəkildə müdafiəsinə lazımi təminat vermirdi. Bu nöqteyi-nəzərdən Azərbaycanda dövlət müstəqilliyi bərpa edildikdən sonra hüquqi dövlət quruculuğu ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi və ilk növbədə ölkənin yeni Konstitusiyasının qəbul edilməsi artıq mütləq idi. 1991-ci il oktyabrın 18-də qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991–1993-cü illərdə mövcud olan xaos və ziddiyyətli proseslər, siyasi qeyri-sabitlik, eyni zamanda vahid siyasi iradənin olmaması, dövlət müstəqilliyi üçün təhdidlərin mövcud olması bu mühüm vəzifənin həyata keçirilməsini qeyri-mümkün etmişdir. Yalnız Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Konstitusiyanın qəbulu mümkün oldu.

Konstitusiyanın qəbul edilməsinin milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Ulu öndər Heydər Əliyev tərəfindən imzalanan 1996-cı il 1 noyabr tarixli fərmana əsasən hər il noyabrın 12-si ölkəmizdə Konstitusiya Günü kimi qeyd edilməyə başlandı.

1995-ci ildə ölkənin Əsas Qanununun qəbul edilməsi müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olaraq, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi baxımından çox mühüm ictimai-siyasi hadisə idi. Yeni Konstitusiyanın qəbulu eyni zamanda, ölkəmizin inkişafının tamamilə yeni mərhələyə qədəm qoymasının göstəricisi olmaqla, müstəqillik illərində əldə olunan nailiyyətlərin hüquqi əsası qismində çıxış edir.

12 noyabr – Konstitusiya Günü münasibətilə Azərbaycan xalqına təbrikində Ümummilli lider Heydər Əliyev qeyd etmişdir: “Bu Konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir”.

Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya qanunvericilik sisteminin əsasında durur, eyni zamanda ölkədə hüquqi və siyasi sabitliyin təminatı qismində çıxış edir. Həmçinin dövlət suverenliyinin əsas təminatçısı olmaqla, Konstitusiya normaları ictimai münasibətlərin inkişafında müəyyənlik amili qismində çıxış edir. Ölkə Konstitusiyası dövlət quruluşunun əsaslarını, hakimiyyətlərin bölünməsi prinsipini, hakimiyyət orqanlarının təşkili, səlahiyyətləri və fəaliyyət qaydalarını, şəxsiyyət, cəmiyyət və dövlət arasındakı münasibətlərin hüquqi çərçivələrini müəyyən edir, insan hüquqları və azadlıqlarının müdafiəsi və təminatı ilə bağlı mexanizmləri tənzim edir.

Əsas Qanunun Preambulasında Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi ülvi niyyətlər bəyan edilmişdir. Bu ülvi niyyətlər ümumilikdə Konstitusiyanın mütərəqqi dəyərlərini əks etdirir.

1995-ci il Konstitusiyası bir sıra təməl başlanğıcları özündə ehtiva edir: dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması; insan şəxsiyyətinə və ləyaqətinə hörmət; insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu; sosial ədalətə nail olmaq; ümumbəşəri dəyərlərə sadiqlik və digərləri.

Əsas Qanun Konstitusiya quruluşunun ən mühüm başlanğıcı kimi xalq hakimiyyətini bəyan edir, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi kimi Azərbaycan xalqını elan edir, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etməyi Azərbaycan xalqının suveren hüququ kimi təsbit edir. Həmçinin Əsas Qanun Azərbaycan dövlətini demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edir, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşdığını bəyan edir.

Əsas Qanun sosial-iqtisadi, ictimai-siyasi sistemlərin əsasını təşkil edir, insan və vətəndaş hüquq və azad-

lıqlarına əsaslı təminat yaradır. Konstitusiyada insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olaraq müəyyən edilməsi, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumağın qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsi olmasının nəzərdə tutulması vacib əhəmiyyət kəsb edir. Bu, insana, onun hüquqları və azadlıqlarına dövlət tərəfindən verilən dəyərin bariz göstəricisidir.

Xüsusilə vurğulanmalıdır ki, Əsas Qanunda insan və vətəndaş hüquq və azadlıqları, onların reallaşdırılmasının ümumi mexanizmləri olduqca geniş şəkildə öz əksini tapıb. Konstitusiyada bu hüquq və azadlıqlar xüsusi imtiyaz olaraq deyil, məhz hər kəsin doğulduğu andan malik olduğu toxunulmaz, pozulmaz və ayrılmaz ali dəyərlər kimi ifadə edilir.

İnsan hüquqlarına etibarlı və davamlı təminat yaradan Konstitusiyanın ən böyük fəslində hüquqi dövlətdə təmin edilməsi zəruri olan hüquq və azadlıqlar, onların həyata keçirilməsi mexanizmləri, habelə ayrı-ayrı hüquqların beynəlxalq standartlara müvafiq olaraq, qanuni məhdudlaşdırılmasının yol verilən hədləri nəzərdə tutulmuşdur.

Məlum olduğu kimi, konstitusiyaların hüquqi əlamətlərindən biri onların stabilliyidir. Konstitusiyanın stabilliyi ölkədə qanunçuluğun, dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsinin, şəxs, dövlət və cəmiyyət arasındakı münasibətlərin əsas şərtlərindən biridir. Konstitusiya uzunmüddətli fəaliyyət üçün nəzərdə tutulan normativ hüquqi aktdır. Bununla belə, konstitusiyaların qəbulu zamanı onların tənzimetmə predmetini təşkil edən ictimai münasibətlər və bu münasibətlərin tərkib hissəsi olan hüquqi, siyasi, sosial və iqtisadi vəziyyət dəyişir, cəmiyyət elmin və texnologiyaların inkişafı baxımından keyfiyyətcə yeni dövrə qədəm qoyur.

Bu cür zərurətdən irəli gələrək 24 avqust 2002-ci ildə Konstitusiyanın 22 maddəsinə ümumilikdə 31, 18 mart 2009-cu ildə keçirilən referendumla Azərbaycan Respublikası Konstitusiyasının 29 maddəsinə ümumilikdə 41 əlavə və dəyişiklik, 26 sentyabr 2016-cı ildə keçirilmiş referendumla Konstitusiyanın 23 maddəsinə əlavə və düzəlişlər, habelə yeni 6 maddə əlavə edilmişdir.

Dövrün çağırışlarını özündə ehtiva edən bu islahatlar hüquqi dövlət dəyərlərinin daha da möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı və səmərəli müdafiəsi məqsədlərinə xidmət edib.

İlk dəfə 2002-ci ildə konstitusiya dəyişikliklərinə yaranan ehtiyac bir çox sahələrdə nəzərə çarpan sürətli inkişafdan irəli gəlirdi. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə keçirilən referendumun nəticəsi kimi Konstitusiyaya dövrün obyektiv reallıqlarından irəli gələn bir sıra mütərəqqi əlavə və dəyişikliklər edilib. Əsas Qanunun mətninə 2002-ci il 24 avqust tarixli referendumla edilmiş əlavə və dəyişikliklər ölkənin hüquq sisteminin təkmilləşdirilməsinə xidmət etmiş, eyni zamanda bu ali sənədin mühüm əhəmiyyətə malik yeni müddəalarla zənginləşməsi ilə nəticələnmişdir.

2002-ci ildən keçən yeddi il ərzində cəmiyyət həyatının bir çox sahələrində əldə edilən yeni nailiyyətlər, sosial-iqtisadi islahatların dərinləşməsi, vətəndaş cəmiyyəti institutlarının inkişafı, beynəlxalq inteqrasiyanın genişlənməsi və digər bir sıra mühüm yeniliklər Konstitusiyada da bir sıra əlavə və dəyişikliklərin edilməsi məsələsini gündəmə gətirdi. 2009-cu il martın 18-də keçirilən ümumxalq səsverməsi nəticəsində edilən əlavə və dəyişikliklər mahiyyətcə Əsas Qanunun daha da təkmilləşməsinə, xüsusilə insan hüquq və azadlıqları ilə bağlı əhəmiyyətli müddəaların Əsas Qanunda daha dolğun şəkildə ehtiva edilməsinə xidmət edib.

2009-cu il 18 mart referendumundan ötən illər ərzində ölkə iqtisadiyyatının dinamik inkişafı və digər bir sıra vacib amillər ölkənin siyasi idarəetmə sisteminin daha da müasirləşdirilməsini, həmçinin vətəndaşların hüquqlarının və azadlıqlarının daha səmərəli şəkildə müdafiə olunmasını, bunlar isə öz növbəsində konstitusiya islahatlarının həyata keçirilməsini şərtləndirmişdir. Bununla da, 2016-cı il sentyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə keçirilmiş ümumxalq səsverməsi – referendum yolu ilə Əsas Qanuna mühüm əlavələr və dəyişikliklər edilmişdir.

Ölkə Konstitusiyasına edilmiş bu əlavə və dəyişikliklər hüquqi dövlət prinsip və dəyərlərinin bərqərar olmasının, insan hüquq və azadlıqlarının müdafiəsi və təminatına ən yüksək səviyyədə göstərilən diqqətin bariz təzahürüdür.

Müstəqil Azərbaycan Respublikasının mövcud olması və ərazi bütövlüyünün bərpa olunması, suverenliyinin bərqərar olması Ulu Öndər Heydər Əliyev dühasının və onun siyasi kursunun layiqli davamçısı Müzəffər Ali Baş Komandan İlham Əliyevin apardığı uzaqgörən, uğurlu siyasətinin nəticəsində mümkün olmuşdur. Min illər keçəcək, Azərbaycan xalqı qəlbində daim Heydər Əliyev və İlham Əliyev şəxsiyyətlərini sevgi ilə yaşadacaqdır.

**Babək Paşayev,**
**Goranboy rayon prokurorunun**
**müavini, ədliyyə müşaviri.**

# Konstitusiya – dövlət müstəqilliyinin və suverenliyinin təminatçısı

**Müasir dövrdə dövlət idarəçiliyinin təməl prinsipləri sırasında hüquqi dövlət anlayışı önəmli yer tutur. Hüquqi dövlət- cəmiyyətin hüquqa əsaslanan qaydalarla idarə olunduğu, insan hüquq və azadlıqlarının təmin edildiyi, qanunların ali hüquqi qüvvəyə malik olduğu bir modeldir. Belə dövlətin qurulması və fəaliyyətinin təmin olunması isə ilk növbədə sabit konstitusiya bazasına və təmin olunmuş dövlət suverenliyinə söykənir. Konstitusiya hər bir hüquqi dövlətin hüquqi sütunu kimi çıxış edir, suverenlik isə onun siyasi dayağını təşkil edir. Azərbaycan Respublikasının hüquqi dövlət quruculuğu prosesində bu prinsiplər xüsusi əhəmiyyət daşıyır və dövlətin bütün institutlarının fəaliyyətinin əsasını təşkil edir.**

**Bu gün ən mühüm vəzifə konstitusiyanı dərindən mənimsəmək və onun verdiyi təminatlardan bəhrələnməkdən ibarətdir.**

**Heydər Əliyev**

**Azərbaycan Respublikası Konstitusiyasının inkişaf mərhələləri.** Azərbaycan Respublikası Konstitusiyasının inkişaf mərhələləri ölkənin sosial və dövlət quruluşunda baş verən köklü dəyişikliklərlə sıx bağlıdır. Hər bir mərhələ siyasi ideologiyadakı, idarəetmə sistemindəki və sosial-iqtisadi münasibətlərdəki əsaslı dəyişiklikləri əks etdirir. Sovet dövründə qəbul edilmiş konstitusion sənədlər dövlət, hüquq, iqtisadi və sosial siyasət, eləcə də "sovet insanı" anlayışı ilə bağlı hakim ideologiyanın izlərini daşıyırdı. Müstəqillik əldə edildikdən sonra, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının hazırkı Konstitusiyası ölkədə baş verən dərin ictimai-siyasi və iqtisadi dəyişiklikləri hüquqi cəhətdən təsbit etmək zərurətindən irəli gəlirdi. Konstitusiya ölkənin ali hüquqi qüvvəyə malik, birbaşa tətbiq olunan və bütün ölkə ərazisində qüvvədə olan əsas qanunudur. Azərbaycan Respublikasında qəbul edilmiş qanun və hüquqi aktlar Konstitusiyaya zidd olmamalıdır. Azərbaycan Respublikasının Konstitusiyası yalnız dövlətin təşkilati quruluşunu deyil, həm də qeyri-dövlət sahələrini – sosial-iqtisadi sistemin əsaslarını, cəmiyyətin mədəni həyatını, insan və vətəndaşın hüquq, azadlıq və vəzifələrini də tənzimləyir. Onun normativ tənzimləmə rolu dövlət orqanlarının bütün fəaliyyət sahələrini əhatə edir. Azərbaycan Respublikasının Konstitusiyası ölkədə hüquqi nizamın möhkəmləndirilməsində, demokratik idarəçiliyin təmin olunmasında və vətəndaşların hüquq və azadlıqlarının qorunmasında həlledici rol oynayır. Sovet dövrü konstitusiyalarında dövlət və hüquq anlayışı sovet ideologiyasına əsaslanırdı. Əsas prinsip "sovet insanı", kollektivçilik və dövlət nəzarəti hesab olunurdu. Hüquqlar formal şəkildə tanınsa da, faktiki olaraq dövlət iradəsinə tabe idi. 1991-ci ildə müstəqillik əldə edildikdən sonra yeni siyasi və iqtisadi sistemə keçid başladı. Yeni Konstitusiya qəbulunun əsas məqsədi bu dəyişiklikləri hüquqi cəhətdən təsbit etmək idi. Belə ki, 12 noyabr 1995-ci il tarixdə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası hüquqi dövlətin bünövrəsini təşkil edir, demokratik idarəetməni təmin edir və vətəndaşların hüquq və azadlıqlarını qoruyan əsas sənəddir.

**Azərbaycan Respublikası Konstitusiyasının tarixi.** Azərbaycan Respublikası Konstitusiyasının tarixi ölkənin dövlət müstəqilliyi, hüquqi dövlət quruculuğu və demokratik inkişaf yolunda atdığı ən mühüm addımlardan biridir. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti (AXC) yaradıldı. Bu, müsəlman Şərqində ilk parlamentli respublika idi. AXC dövründə konstitusiya qəbul edilməsə də, "Azərbaycan Xalq Cümhuriyyətinin Təşkilatı Haqqında Əsas Qanun Layihəsi" hazırlanmışdı. Layihədə dövlət quruluşunu, vətəndaş hüquqlarını və hakimiyyət bölgüsünü tənzimləyən müddəalar nəzərdə tutulurdu. Lakin 1920-ci ildə AXC-nin süqutu səbəbindən bu layihə qüvvəyə minmədi. Azərbaycan Sovet Sosialist Respublikası dövründə SSRİ konstitusiyaları ilə paralel olaraq Azərbaycan Respublikasının da konstitusiyaları qəbul olunmuşdur. 1921-ci il Konstitusiyası – Azərbaycan SSRİ tərkibində suveren respublika kimi tanınsa da, əslində mərkəzi sovet hakimiyyətindən asılı idi. 1937-ci il Konstitusiyası – SSRİ Konstitusiyasına uyğunlaşdırılmışdı, sovet ideologiyasına əsaslanırdı. 1978-ci il Konstitusiyası – bu sənəd Azərbaycanın müstəqilliyə qədər qüvvədə olan son sovet konstitusiyası idi. Azərbaycan 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra sovet dövrünə aid konstitusiyanın istifadəsi hüquqi ziddiyyətlər yaradırdı. Hüquqi dövlət quruculuğu və demokratik təsisatların formalaşdırılması üçün yeni konstitusiyanın hazırlanması zərurəti yarandı.

**Ümumilli lider Heydər Əliyev və Konstitusiya quruculuğunda tarixi missiya.** Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qurucularından biri olaraq

ölkənin hüquqi və siyasi sisteminin formalaşmasında əvəzsiz rol oynamışdır. Onun rəhbərliyi dövründə qəbul edilən və həyata keçirilən hüquqi islahatlar, xüsusilə 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası, müasir müstəqil Azərbaycanın hüquqi bazasının əsasını təşkil edir. 1991-ci ildə dövlət müstəqilliyi bərpa olunsa da, ölkə hələ də Sovet dövrünün hüquqi sistemindən tam azad olmamışdı. Bu səbəbdən Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının hazırlanmasını prioritet məsələ kimi gündəmə gətirdi. 1994-cü ildə Prezident Heydər Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının Konstitusiya Komissiyası yaradıldı. Komissiyaya şəxsən özü sədrlik edirdi. Konstitusiyanın hazırlanması prosesinə hüquqşünaslar, alimlər, ekspertlər və ictimaiyyətin nümayəndələri cəlb olundu. 12 noyabr 1995-ci ildə ümumxalq referendumu ilə qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyası Heydər Əliyevin siyasi iradəsi və rəhbərliyi ilə hazırlanmışdı. Bu, Azərbaycanın tarixində xalqın səsverməsi ilə qəbul edilən ilk Konstitusiyadır. Konstitusiya dövlətin əsas prinsiplərini, insan hüquq və azadlıqlarını, hakimiyyət bölgüsünü və hüquqi dövlətin əsaslarını müəyyən etdi. Azərbaycan Respublikası Konstitusiyası Azərbaycanın müstəqil dövlətçiliyinin hüquqi əsasını təşkil edir, hüquqi dövlət quruculuğunda, qanunvericiliyin inkişafında, vətəndaş hüquqlarının qorunmasında və beynəlxalq hüquq sisteminə inteqrasiyada mühüm rol oynayır. Bu sənəd Azərbaycanın suveren, demokratik və hüquqi dövlət olduğunu bəyan etdi. İnsan hüquq və azadlıqlarını ali dəyər kimi tanıdı və onların təminatını dövlətin əsas vəzifəsi elan etdi. Hər il 12 noyabr – Konstitusiya Günü kimi rəsmi şəkildə qeyd olunur. Ümumilli lider Heydər Əliyev yalnız Konstitusiyanın qəbulu ilə kifayətlənməmiş, onun praktiki tətbiqi və davamlı təkmilləşdirilməsi üçün addımlar atmışdır. Onun dövründə yeni qanunvericilik bazası yaradıldı. Hüquqi dövlətin əsas prinsipləri möhkəmləndirildi. Məhkəmə islahatları həyata keçirildi. Heydər Əliyev hesab edirdi ki, hüquqi dövlətin qurulması yalnız qanunlarla deyil, həm də cəmiyyətdə hüquqi şüurun formalaşması ilə mümkündür. Bu məqsədlə hüquq təhsili və hüquqi maarifləndirmə genişləndirildi, hüquq-mühafizə orqanlarının fəaliyyəti müasirləşdirildi, vətəndaşların Konstitusiya ilə təmin olunmuş hüquqlarından istifadə etməsi təşviq edildi. Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilən 1995-ci il Konstitusiyası Azərbaycanın müstəqil hüquq sisteminin təməl daşı olmuşdur. Onun hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu sahəsində gördüyü işlər bu gün də öz aktuallığını qoruyur. Konstitusiya sahəsində atdığı addımlar onun siyasi irsinin mühüm hissəsini təşkil edir.

**Suveren dövlət – güclü hüquqi təməl.** Azərbaycan Respublikasının Konstitusiyası xalqın suverenliyinə əsaslanır və bu suverenliyin həyata keçirilməsinin hüquqi çərçivəsini müəyyən edir. Azərbaycan Respublikası Konstitusiyasının 1-ci maddəsində deyilir: "Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır." Bu, xalqın öz taleyini sərbəst müəyyən etməsi hüququnun – suverenliyin – əsas ifadəsidir. Məhz bu baxımdan, suverenlik anlayışı Konstitusiyanın mahiyyətini və ruhunu təşkil edir. Suverenlik – bu, bir dövlətin öz daxilində sərbəst və müstəqil şəkildə idarə olunması, başqa heç bir ölkədən və ya xarici gücdən asılı olmadan qərarlar qəbul etməsi deməkdir. Sadə dildə desək, suverenlik o deməkdir ki, bir ölkə özü-özünü idarə edir, öz qanunlarını qəbul edir, daxili və xarici siyasətini özü müəyyənləşdirir. Heç kim — nə başqa dövlət, nə də beynəlxalq təşkilat – onun yerinə qərar verə bilməz. Suverenlik həm də xalqın iradəsinə əsaslanır. Yəni dövlətin əsas sahibi xalqdır və xalq öz müqəddəratını seçkilər, referendumla suverenlik hüququ əsasında həyata keçirir. Azərbaycan suverenliyini bərpa etdikdən sonra ərazi bütövlüyünə qarşı ciddi təhdidlərlə üzləşmişdir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan öz suverenliyini faktiki olaraq bərpa etmiş və işğal altındakı ərazilərinə nəzarəti təmin etmişdir. Bu, suverenliyin təkcə hüquqi deyil, praktik olaraq da təmin olunması deməkdir. Azərbaycan Respublikasının suverenliyi onun milli varlığının əsasıdır. Hüquqi, siyasi və hərbi baxımdan suverenliyin qorunması dövlətin prioritet istiqamətlərindən biridir. Suverenlik xalqın iradəsinə əsaslanır və xalqın milli maraqları ilə birbaşa bağlıdır. Bu prinsip əsasında Azərbaycan öz inkişaf yolunu müəyyən edir və beynəlxalq aləmdə layiqli yer tutur.

**Prezident İlham Əliyev – Suverenliyin möhkəmləndirilməsinin memarı.** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2003-cü ildən etibarən ölkənin hüquqi, siyasi və institusional inkişafına mühüm töhfələr vermişdir. Onun dövründə Konstitusiyanın təkmilləşdirilməsi istiqamətində ciddi addımlar atılmış, insan hüquq və azadlıqlarının qorunması, hüquqi islahatların dərinləşdirilməsi istiqamətində çoxsaylı təşəbbüslər həyata keçirilmişdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Konstitusiyasına bir neçə dəfə dəyişikliklər edilmişdir. Bu dəyişikliklər demokratik idarəetmənin təkmilləşdirilməsinə, insan hüquqlarının genişləndirilməsinə və hüquqi sabitliyin möhkəmlənməsinə yönəlmişdir. İlham Əliyev Konstitusiyaya əsaslanaraq ölkədə müasir hüquqi dövlət institutlarını inkişaf etdirməyə yönəlmiş genişmiqyaslı islahatlara start vermişdir. Prezident İlham Əliyev Konstitusiya əsasında dövlətin dünyəvi, unitar və hüquqi xarakterinin qorunmasını təmin etmişdir, milli maraqlara əsaslanan suverenlik

siyasətini davam etdirmişdir, Konstitusiya ilə müəyyən edilmiş hakimiyyət bölgüsü prinsipini qorumuşdur. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasının Konstitusiyası zamanın tələblərinə uyğun olaraq inkişaf etdirilmiş, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində mühüm addımlar atılmışdır. Onun təşəbbüsləri ilə hüquqi sistem daha şəffaf, səmərəli və insan mərkəzli xarakter almışdır. Bu da ölkənin davamlı inkişafına hüquqi zəmin yaratmışdır.




**Konstitusiya və Suverenlik ili.** Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilmiş Konstitusiyası dövlətin ərazi bütövlüyünü və suverenliyini qorumağı dövlətin konstitusion vəzifəsi kimi müəyyən edir. Lakin 1990-cı illərdə ölkənin bir hissəsi – Qarabağ və ətraf rayonlar – işğal altında olduğu üçün, həmin dövrdə Konstitusiyanın bu müddəalarının faktiki tətbiqi mümkün deyildi. 2020-ci ilin sentyabrın 27-də başlayan və noyabrın 10-da başa çatan 44 günlük Vətən Müharibəsi nəticəsində Azərbaycanın ərazi bütövlüyü, dövlət suverenliyi bərpa olundu və konstitusion quruluşun ölkənin böyük bir hissəsində faktiki tətbiqinə şərait yarandı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyi münasibətilə, ölkənin dövlət suverenliyinin və ərazi bütövlüyünün tam bərpası fonunda 2025-ci ilin Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik ili” elan edilməsi haqqında 28 dekabr 2024-cü il tarixdə Sərəncam imzalamışdır. Bu sərəncam dövlətçilik tarixində yeni mərhələyə keçidin-yəni hüquqi dövlət və faktiki suverenliyin sintezi kimi çıxış edir.

**Konstitusiya və Suverenliyin qorunmasında Azərbaycan Respublikası Prokurorluğunun rolu.** Hər bir müstəqil və suveren dövlətin dayağı onun Konstitusiyası və bu Konstitusiyanın qorunmasını təmin edən hüquqi institutlardır. Azərbaycan Respublikasında bu funksiyanı yerinə yetirən əsas orqanlardan biri də Azərbaycan Respublikası Prokurorluğudur. Prokurorluq orqanları dövlətin hüquqi sisteminin tərkib hissəsi olmaqla yanaşı, həm də Konstitusiyanın aliliyinin təminatçısı və suverenlik prinsiplərinin qoruyucusudur. Prokurorluğun fəaliyyəti təkcə cinayət təqibi ilə məhdudlaşmır, eyni zamanda, qanunvericiliyin icrasına nəzarət, hüquq və azadlıqların müdafiəsi və dövlətin daxili sabitliyinin qorunması ilə sıx bağlıdır. Prokurorluğun konstitusion rolu ilk növbədə onun qanunların icrasına ümumi nəzarət funksiyası ilə özünü göstərir. Beləliklə, Konstitusiyanın tələblərinin pozulması hallarının qarşısı vaxtında alınır və dövlətin hüquqi dayaqları möhkəmləndirilir. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, dövlətin suverenliyi xalqın iradəsinə əsaslanır və bu iradənin həyata keçirilməsi üçün hüquqi mexanizmlər formalaşdırılmışdır. Prokurorluq məhz bu mexanizmlərdən biri olmaqla, dövlət hakimiyyətinin vahidliyini, hüquqi sistemin bütövlüyünü və ictimai sabitliyi qoruyur. Dövlətin suveren iradəsinin təcəssümü olan qanunların pozulması yalnız fərdi hüquqların deyil, bütövlükdə hüquqi dövlətin prinsiplərinin pozulması deməkdir. Bu səbəbdən prokurorluğun qanunçuluğa nəzarət funksiyası həm də dövlətin suverenliyinin qorunmasına yönəlmişdir. Prokurorluq dövlətin Konstitusiyasının və suverenliyinin qorunmasında mühüm rol oynayan, hüquqi sabitliyi və qanunların aliliyini təmin edən əsas institutlardan biridir. Onun fəaliyyəti sayəsində hüquqi dövlət prinsipləri real məzmun kəsb edir, qanunvericiliyin icrası üzərində sistemli nəzarət təmin olunur, ictimai və dövlət maraqları müdafiə olunur. Prokurorluğun bu funksiyaları, təkcə hüquq-mühafizə mexanizmi kimi deyil, həm də dövlətçiliyin qoruyucusu kimi mühüm əhəmiyyət daşıyır. Bu baxımdan prokurorluq suveren və demokratik dövlət quruculuğunun ayrılmaz hissəsidir.

**Leyla Babakişiyeva,**
**Xaçmaz rayon prokurorunun köməkçisi,**
**III dərəcəli hüquqşünas.**

# KONSTİTUSİYANIN YARANMASINDAN 30 İL KEÇİR

**Azərbaycan Respublikasının hüquqi və siyasi əsaslarının formalaşmasında Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Onun rəhbərliyi dövründə Azərbaycanın ilk milli Konstitusiyası hazırlanmış və qəbul edilmişdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin qurucusu kimi ölkənin hüquqi əsaslarını möhkəmləndirən, demokratik və hüquqi dövlətin formalaşmasına yönəlmiş bir çox mühüm islahatlara imza atmışdır. Bu islahatların ən mühüm nəticələrindən biri isə 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi olmuşdur. Bu konstitusiya müstəqil Azərbaycanın ilk əsas qanunu kimi tarixə düşmüşdür.**

1991-ci ildə Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ölkənin qarşısında duran əsas vəzifələrdən biri də müasir, milli və müstəqil konstitusiyanın hazırlanması idi. Çünki sovet dövrünün Konstitusiyası artıq müstəqil Azərbaycanın reallıqlarına uyğun gəlmirdi.

1993-cü ildə xalqın təkidi və tələbi ilə Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra ölkədə sabitlik bərqərar oldu və hüquqi islahatlara başlanıldı. Ulu Öndər yaxşı bilirdi ki, demokratik və hüquqi dövlət qurmaq üçün əsaslı konstitusiya hazırlanmalıdır. Azərbaycan Konstitusiyasının dövlət müstəqilliyinin bərpasından sonra ölkə qarşısında duran əsas vəzifələrdən biri hüquqi dövlətin qurulması və bu məqsədlə yeni müasir Konstitusiyasının qəbulu idi. Bu baxımdan Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti Azərbaycan hüquqi və demokratik dövlət kimi formalaşmasında mühüm yer tutur. Məhz Ulu Öndərin siyasi iradəsi, uzaqgörənliyi və dövlətçilik təcrübəsi ilə Azərbaycanın ilk müstəqil Konstitusiyası qəbul olundu və bu sənəd ölkənin gələcək inkişafının hüquqi əsasını təşkil etdi.

1995-ci ildə Prezident Heydər Əliyevin təşəbbüsü ilə Konstitusiya layihəsinin hazırlanması məqsədilə xüsusi Konstitusiya Komissiyası yaradıldı və Azərbaycanın dövlətçilik ənənələrini, Beynəlxalq Hüquq normalarını, insan hüquqları və demokratiya prinsiplərini nəzərə alaraq layihə hazırlandı. Bu layihə 12 noyabr 1995-ci ildə ümumxalq referendumu vasitəsilə qəbul edildi. Mühüm hadisə ölkənin hüquqi və siyasi tarixində dönüş nöqtəsi oldu. Yeni Konstitusiya ilk dəfə olaraq Azərbaycanın müstəqil dövlət kimi hüquqi əsaslarını müəyyənləşdirdi və dövlət hakimiyyətinin mənbəyi kimi xalq iradəsini təsbit etdi.

Konstitusiya 1995-ci il noyabrın 27-də rəsmi dərc olunaraq qüvvəyə mindi və Müstəqil Azərbaycan Respublikasının ilk əsas qanunu kimi tarixə düşdü. Azad, demokratik və müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyası 5 fəsildən, 12 bölmədən və 158 maddədən ibarətdir. Konstitusiya Azərbaycan Dövlətinin suverenliyi, demokratik və hüquqi dövlət prinsipləri əsasında qurulmasını təsbit edir və vətəndaşların hüquq və azadlıqlarını geniş şəkildə müəyyənləşdirir.

İndiyədək konstitusiyaya 3 dəfə – 2002, 2009 və 2016-cı illərdə referendum yolu ilə dəyişikliklər edilmişdir. Bu dəyişikliklər icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, insan hüquqlarını, dövlətin idarəetmə formasını və s. aspektləri təkmilləşdirmək məqsədi daşıyırdı.

> **“Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir”.**
>
> **İlham Əliyev.**

Konstitusiya hər bir dövlətin hüquqi əsaslarını müəyyən edən, ali hüquqi qüvvəyə malik olan əsas qanundur. O, xalqın iradəsini, dövlətin quruluşunu və vətəndaşların hüquq və vəzifələrini əks etdirir. Konstitusiya sadəcə hüquqi sənəd deyil, o həm də cəmiyyətin sabitliyini və inkişafını təmin edən təməl daşıdır. Konstitusiya ölkəmizin hüquqi xəritəsini müəyyən edən əsas sənəddir. Hər bir vətəndaş Konstitusiyanı bilməli, onun müddəalarına hörmət etməli və hüquqlarından məsuliyyətlə istifadə etməlidir. Hüquqi cəmiyyətin əsas dayağı məhz Konstitusiyadır.

Konstitusiya – konstitusiyanın müddəalarından, hüquqi təməlindən və ideyalarından irəli gələn qanunlar cəmiyyətin hüquqi nizamının əsasıdır. Bu qanunlar dövlətin fəaliyyətini tənzimləyir, insan hüquqlarının qorunmasını təmin edir və vətəndaşlarla dövlət arasında hüquqi körpü rolunu oynayır. Hüquqi dövlətin inkişafı üçün konstitusiya normalarına hörmətlə yanaşmaq və qanunlara riayət etmək hər bir vətəndaşın borcudur. Qanunların işləkliyi və ədalətli

tətbiqi isə dövlətin ədalət prinsiplərinə nə dərəcədə sadiq olduğunu göstərən meyardır.

Heydər Əliyevin siyasi düşüncə və idarəetmə fəlsəfəsində insan hüquqları yalnız siyasi bəyanatlarla məhdudlaşmırdı. Onun rəhbərliyi ilə həyata keçirilən hüquqi islahatlar insan hüquqlarının real təminatına yönəlmişdi və bu, Azərbaycanın beynəlxalq imicinə də müsbət təsir göstərmişdir.

Konstitusiya – dövlətin əsas qanunu olaraq, onun hüquqi-siyasi əsaslarını müəyyən edən sənəddir. Konstitusiya bir dövlətin idarəetmə formasını, hakimiyyətin təşkili və bölünməsi prinsipləri, vətəndaşların əsas hüquq və azadlıqlarının, eləcə də dövlət orqanlarının və vətəndaşların qarşılıqlı münasibətlərini tənzimləyir.




Konstitusiya hüquqi sistemin əsasını təşkil etdiyi üçün bütün qanunlar və digər normativ hüquqi aktlar Konstitusiyaya uyğun olmalıdır. Konstitusiya dövlət hakimiyyətinin bölgüsünü və onların funksiyalarını müəyyən edir. Konstitusiyada vətəndaş hüquqları, insan və vətəndaş hüquq və azadlıqları, onların təminat yolları təsbit olunur.

Konstitusiya dövlətin ali hüquqi sənədi olaraq, yalnız idarəçilik prinsiplərini deyil, həmçinin hüquq-mühafizə orqanlarının, o cümlədən prokurorluğun səlahiyyətlərini, funksiyalarını və hüquqi statusunu da müəyyən edir. Prokurorluq orqanları hüquqi dövlətdə qanunçuluğun təminatçılarından biridir və onların fəaliyyəti birbaşa Konstitusiya ilə tənzimlənir.

Konstitusiya bizim dövlətimizin hüquqi bünövrəsi, xalq iradəsinin təcəssümü və ədalətli idarəçiliyin təminatıdır. Hüquqi sistemimizin əsas dayaqlarından biri də prokurorluq orqanlarıdır. Konstitusiyanın 133-cü maddəsində qeyd olunmuşdur ki, prokurorluq qanunvericiliyin icrasına nəzarət edir. Ulu Öndər Heydər Əliyevin bu sistemin düzgün, şəffaf və demokratik prinsiplərlə fəaliyyət göstərməsi üçün prokurorluq orqanlarının əsaslı şəkildə yenidən qurulmasına xüsusi önəm verirdi. 1999-cu ildə qəbul olunmuş «Prokurorluq haqqında» Qanun bu sahədə mühüm əhəmiyyət kəsb etdi.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən kadr islahatları nəticəsində prokurorluq orqanlarında peşəkar, vətənpərvər və hüquq prinsiplərinə sadiq mütəxəssislər formalaşdı. Prokurorluq orqanlarının fəaliyyət istiqamətlərinin hüquqi əsasları 1995-ci il Konstitusiyasının 133-cü maddəsi ilə və «Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində öz əksini tapmışdır.

2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş «Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında» referendum aktına əsasən prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Bütün qeyd etdiklərimizi ümumi şəkildə belə ifadə etmək olar ki, prokurorluq orqanlarının mövcudluğu, fəaliyyət dövrü və ictimai maraqların təmin edilməsi, hüquqi dövlət quruculuğu, qanunvericiliyin möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi baxımından olduqca əhəmiyyətlidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2025-ci il «Konstitusiya və Suverenlik ili» elan olunub. Məhz vətəndaş hüquqlarının və azadlığının müdafiəsi kimi müəyyənləşdirilməsi müstəsna əhəmiyyət kəsb edir. Konstitusiyamız dövlətin, vətəndaşların mənafeyinə xidmət etdiyini ən yüksək səviyyədə bəyan edir. Bu gün Azərbaycan prokurorluğu hüquqi dövlətin əsas dayaqlarından biri olaraq qanunun aliliyini, vətəndaşların hüquq və azadlıqlarını qorumaq, cinayətkarlığa qarşı mübarizə aparmaq kimi mühüm funksiyaları icra edir. Bütün bu uğurların əsasında isə Ulu Öndər, dahi şəxsiyyət Heydər Əliyevin yaratdığı möhkəm hüquqi və konstitusion baza dayanır.

**Zəhraxanım Şamilova,**
**Gədəbəy rayon prokurorunun köməkçisi,**
**II dərəcəli hüquqşünas.**

# *2025-ci il – Konstitusiya və Suverenlik İli:* Dövlətçiliyimizin təntənəsi və Zəngilanın tarixi rolu




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixli, 294 nömrəli Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi dövlətçiliyimizin müasir mərhələdə əldə etdiyi tarixi nailiyyətlərin dərin hüquqi və siyasi qiymətləndirilməsinin bariz nümunəsidir.

Bu əlamətdar qərar, ilk növbədə, Azərbaycan Respublikasının Konstitusiyasının qəbulunun 30 illiyinin və Vətən müharibəsində qazanılmış qələbənin 5 illiyinin qeyd edildiyi bir dövrə təsadüf etməklə, ölkəmizin müstəqil hüquqi dövlət kimi formalaşmasının və ərazi bütövlüyünün bərpasının təntənəsidir. Bu kontekstdə Zəngilan rayonunun timsalında Azərbaycan xalqının suverenlik uğrunda apardığı mübarizənin nəticələri xüsusi əhəmiyyət kəsb edir.

1993-cü ilin oktyabr ayında Ermənistan Silahlı Qüvvələrinin təcavüzü nəticəsində işğal edilən Zəngilan rayonu, Azərbaycan Respublikasının suveren hüquqlarının kobud şəkildə pozulduğu bölgələrdən biri olmuşdur. Müvafiq dövrdə beynəlxalq hüquq normalarına zidd olaraq həyata keçirilmiş işğal faktı, eyni zamanda Azərbaycan Konstitusiyasının 11-ci maddəsində təsbit olunmuş ərazi toxunulmazlığı prinsipinə zidd idi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-də başlanmış və 44 gün davam etmiş Vətən müharibəsi nəticəsində ölkəmizin ərazi bütövlüyü təmin edilmişdir. Məhz 2020-ci il oktyabrın 18-də başlanmış Zəngilan döyüşləri nəticəsində rayonun inzibati mərkəzi olan Zəngilan şəhəri və ətraf yaşayış məntəqələri qısa müddətdə Azərbaycan Silahlı Qüvvələrinin əməliyyatları ilə işğaldan azad olunmuşdur. Bu tarixi hadisə təkcə ərazi azadlığı deyil, həm də Konstitusiya hüquqlarımızın faktiki bərpası kimi qiymətləndirilməlidir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının hüquqi qüvvəsi artıq Zəngilan da daxil olmaqla bütün azad edilmiş ərazilərdə tam tətbiq olunur.

2023-cü il sentyabrın 19–20-də keçirilmiş lokal antiterror əməliyyatı ilə ölkəmizin suverenliyi tam bərpa olunmuş, dövlət idarəçiliyi və hüquq mühafizə institutları bu ərazilərdə fəaliyyətə başlamışdır. Zəngilan rayonunda postmünaqişə dövründə həyata keçirilən bərpa-quruculuq tədbirləri, "Böyük Qayıdış" proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı, konstitusion hüquqların real təminatı, vətəndaşların təhlükəsiz və ləyaqətli həyat şəraitinin yaradılması istiqamətində atılan ardıcıl addımlar dövlətimizin əsas prioritetlərindən biridir. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi bu baxımdan yalnız hüquqi əhəmiyyət daşımır, eyni zamanda bütün bölgələrdə, o cümlədən Zəngilanda dövlətçiliyin rəmzi, suverenliyin və qanunun aliliyinin təcəssümü kimi xüsusi mahiyyət kəsb edir. Zəngilan torpağı bu gün öz tarixi kimliyinə və hüquqi statusuna qovuşaraq, Azərbaycan dövlətçiliyinin parlaq təcəssümünə çevrilmişdir. Konstitusiya və Suverenlik İli çərçivəsində bu reallığın möhkəmləndirilməsi və gələcək nəsillərə ötürülməsi hər birimizin borcudur.

**Anar Mahmudov,**
**Zəngilan rayon prokurorunun köməkçisi,**
**III dərəcəli hüquqşünas.**

# Konstitusiya və suverenlik ili: dövlətçiliyin təməl prinsipləri

**Konstitusiya dövlətin bir fenomen kimi mahiyyətini açıqlayan, qanunvericilik, icra və məhkəmə orqanlarının funksiyalarını əks etdirən, cəmiyyət, şəxsiyyət və dövlət arasındakı qarşılıqlı münasibətləri müəyyən edən ən yüksək hüquqi qüvvəyə malik olan ali qanunvericilik aktıdır. Hər bir dövlətin inkişafı və idarə olunması üçün əsas hüquqi sənəd – Konstitusiya mühüm əhəmiyyət daşıyır. Konstitusiya yalnız hüquqi çərçivə deyil, həm də dövlət suverenliyinin, ərazi bütövlüyünün və xalqın iradəsinin, milli birliyin rəmzidir.**

Suverenlik – ölkənin daxilində və ondan kənarda müstəqilliyin ifadəsi kimi dövlətin siyasi və hüquqi xüsusiyyəti olub onun öz daxili və xarici funksiyalarını azad və sərbəst şəkildə dövlətin konstitusiyası və qanunları, beynəlxalq hüququn hamılıqla tanınmış prinsipləri və normaları əsasında həyata keçirmək, habelə xalqın sərbəst və müstəqil şəkildə öz idarəetmə formasını müəyyən etmək hüququndan ibarətdir. Konstitusiya Suverenliyə hüquqi forma verir. Əgər suverenlik dövlətin siyasi iradəsidirsə, konstitusiya həmin iradənin yazılı şəkildə təsbit olunmuş hüquqi təcəssümüdür.

Suveren Azərbaycan Respublikasının Konstitusiyası – hüquqi və milli təhlükəsizliyin zəmanəti. Azərbaycan 1991-ci ildə müstəqilliyini elan etməklə dövlət suverenliyini bərpa etdi. 1990-cı illərin əvvəllərindən Ermənistanın hərbi təcavüzü ilə üzləşən ölkəmiz beynəlxalq birlik tərəfindən tanınmış və suveren Azərbaycan hakimiyyətinin coğrafi sərhədləri daxilində yerləşən ərazilərinin 20 faizinin işğal edilməsi ilə qarşı-qarşıya qaldı. BMT Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycana qarşı təcavüzkar siyasət həyata keçirən Ermənistan hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərini işğal etmişdi. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuş, XX əsrin dəhşətli soyqırımları törədilmişdir. Bu ərazilər işğal edilsə də suveren Azərbaycan ərazisi olaraq tanınırdı.

Çünki suverenlik dövlətin davamlılığını və qarşılıqlı münasibətlərini təmin edən əsas amil kimi çıxış edir. Ermənistanın müasir dövlət prinsiplərinə yanaşması orta əsr yanaşmasına əsaslanırdı. Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi nəticə vermədi. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilmədi.

1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası müstəqil dövlətimizin əsas qanunu kimi çıxış etdi. Bu sənəd xalqın iradəsinə əsaslanır və onun hüquqlarını, azadlıqlarını, vətəndaş cəmiyyətinin əsas prinsiplərini təsbit edir. 1995-ci il iyunun 5-də yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın ilk iclasında geniş nitq ilə çıxış edən Ulu öndər Heydər Əliyev dövlətimizin konstitusiya quruculuğu tarixinə geniş şəkildə toxunmuş və qeyd etmişdir ki, müstəqil dövlətimizin ilk Konstitusiya layihəsinin hazırlanması tarixi nöqteyi-nəzərdən olduqca böyük və mühüm bir hadisədir. Həmin çıxışında Ümummilli lider qeyd etmişdir: “Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Ona görə də mən dedim ki, üzərimizə düşən vəzifə həm şərəflidir, həm də çox məsuliyyətlidir”.

Zəfər Günü – Hər bir xalqın tarixində unudulmaz, şərəfli və qürurverici günlər vardır. Azərbaycan xalqı üçün belə günlərdən biri 8 Noyabr – Zəfər Günüdür. Bu gün 30 ilə yaxın müddət işğal altında olan torpaqlarımızın azad edilməsi, təkcə hərbi qələbənin deyil, həm də siyasi iradənin, xalq-dövlət birliyinin və milli birliyin təntənəsidir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu torpaqlarımızı azad etdi və tarixi ədaləti bərpa etdi. Bu zəfər, eyni zamanda ölkəmizin tam suverenliyinin təmin olunmasının başlanğıcı oldu.

Antiterror əməliyyatları-əbədi və əzəli suverenlik. 2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxri-

batların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror tədbirlərinə başlandı. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşıya qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi. Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyaraq, döyüş mövqelərindən və hərbi postlardan çıxdılar. Bu lokal antiterror tədbirlərinin sonunda Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış bütün əraziləri üzərində suverenliyini tam təmin etdi.




Hakimiyyətin aliliyi və nəzarət funksiyası tam şəkildə bərpa olundu. Bu, Azərbaycanın dövlət suverenliyinin təşəkkülündə mühüm bir mərhələ hesab edilir. Müstəqilliyini əldə etdikdən sonra daim təcavüz və işğala, eləcə də beynəlxalq qurumların təzyiqlərə məruz qalan Azərbaycan dövlət müstəqilliyinin bütün atributlarını təmin etməyə nail oldu. Xalqımızın həyatında müstəsna əhəmiyyət kəsb edən bu möhtəşəm Zəfər sayəsində Azərbaycanın şanlı Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalandı.

Xüsusilə onu da qeyd edək ki, Prezident İlham Əliyev 2024-cü il sentyabrın 19-da “Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında” Sərəncam imzalayıb. Azərbaycan dövlətinin, xalqımızın tarixində ən parlaq səhifələrdən biri olan sentyabrın 20-si Sərəncama əsasən hər il ölkəmizdə Dövlət Suverenliyi Günü kimi qeyd edilir. Şəhidlərimizin qanı, canı bahasına qazanılan suverenliyimizi gələcək nəsillər qoruyacaq, bu günün həm tarixini, həm də əzəmətini heç vaxt unutmayacaq.

2025-ci il – Konstitusiya və Suverenlik ili. 2025-ci il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan 28 dekabr 2024-cü il tarixli sərəncam ilə Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” elan edilib. Bu sərəncam dövlətçilik tariximizin daha da dərindən öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən imzalanan sərəncam ölkəmizin keçmişi, bu günü və gələcəyi üçün xüsusi məna ifadə edərək, hüquqi dövlətçilik və suverenlik dəyərlərinin yeni qlobal çağırışlar əsasında formalaşdırılması üçün bir fürsət kimi dəyərləndirilə bilər. Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

**Bahar Bayramzadə,**
**Saatlı rayon prokurorluğunun müstəntiqi,**
**III dərəcəli hüquqşünas.**

# *"Konstitusiya və Suverenlik İli"...* Suveren dövlətimiz yeni qələbələrə doğru inamla irəliləyir

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik ili" elan edilməsi, ölkəmizdə hüquqi dövlət quruculuğu prosesinin daha da inkişaf etdirilməsi, suverenliyin möhkəmləndirilməsi istiqamətində atılan addımların davamı kimi mühüm əhəmiyyət daşıyır.

Bu Sərəncam olduqca mühüm bir dövrə təsadüf etdi: 2025-ci il müstəqil Azərbaycan Respublikasınının ilk milli Konstitusiyasının qəbul edilməsinin 30-cu, eləcə də Vətən müharibəsində Ermənistan ordusu üzrədinə qazanılan böyük Qələbəmizin 5-ci ildönümündə imzalandı.

Bəli, 30 il əvvəl, 1995-ci il noyabr ayının 12-də Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası hazırlanaraq ümumxalq səsverməsi – referendum yolu ilə qəbul edildi. Azərbaycan Respublikasının Konstitusiya layihəsinin hazırlanması barədə danışarkən, heç bir mübaliğəyə yol vermədən, qeyd etmək olar ki, bu, müstəqil dövlətçiliyimizin qurucusu, Ümummilli Lider Heydər Əliyevin şah əsərlərindən biridir. 1995-ci il iyunun 5-də Heydər Əliyevin Sədrliyi ilə Konstitusiya Komissiyasının ilk iclasından başlayaraq, 12 noyabr referendumunadək Ümummilli Lider Azərbaycanın Əsas Qanununun hazırlanmasına, onun bütün prinsipial müddəalarının geniş ictimaiyyət tərəfindən müzakirəsinə şəxsən nəzarət edib, məsələlərlə yaxından maraqlanıb. Heydər Əliyev bu sənədin təkcə dövrün tarixi və siyasi reallıqlarının deyil, bütövlükdə, xalqın milli-mənəvi dəyərlərinin süzgəcindən keçərək qəbul olunmasına çalışırdı və buna da nail oldu. Ulu Öndər Heydər Əliyevin 1996-cı il 1 noyabr tarixli Fərmanına əsasən, hər il noyabrın 12-si ölkədə Konstitusiya Günü kimi qeyd edilir.

Azərbaycan Konstitusiyasının mühüm cəhətlərindən biri Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyinin Azərbaycan xalqı olmasını, Azərbaycan xalqının vahidliyini və bunun Azərbaycan dövlətinin təməlini təşkil etməsini, Azərbaycan Respublikasının bütün vətəndaşlarının ümumi və bölünməz vətəni olmasını bəyan etməsidir.

Ulu Öndər Heydər Əliyevin də dediyi kimi: "Azərbaycan Azərbaycanda yaşayan bütün millətlərin doğma vətənidir. Azərbaycan vətəndaşları, Azərbaycan xalqı deyəndə biz Azərbaycanda yaşayan bütün millətlərin birliyini dərk edirik".

Azərbaycan xalqı artıq beşinci ildir ki, qalib xalq olmağın qürurunu yaşayır. 27 sentyabr 2020-ci ildə başlayan və qırx dörd gün davam edən, Azərbaycan Ordusunun qalibiyyəti ilə bitən müharibə otuz ilə yaxın Ermənistanın işğalında qalmış ərazilərimizi bizə qaytardı. Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi bütöv və suveren Azərbaycanda bərqərar oldu. Azərbaycan özünü bölgənin ən güclü və qalib dövləti kimi təsdiqlədi.

Vətən müharibəsində ağır məğlubiyyətə uğrayan işğalçı Ermənistan isə yenə də xari- ci havadarlarına güvənirdi. Azərbaycan dövlətinin və xalqının qətiyyəti bədxahların niyyətini puça çıxardı. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu işğalçılara Qarabağda son zərbəni 2023-cü ilin sentyabrında endirdi. Sentyabrın 19-20-də keçirilən bir günlük lokal xarakterli antiterror əməliyyatları nəticəsində torpaqlarımızda təxribat və terror əməllərini davam etdirən Ermənistan silahlı qüvvələrinin qalıqları və separatçılar məğlub olaraq ağ bayraq qaldırdılar. Azərbaycan bu qalibiyyətlə suverenliyinin tam bərpasına nail oldu.

Əsrlər boyu başına bəlalar gətirilmiş, yadelli işğalçıların hücumlarına məruz qalmış Azərbaycan xalqı indi ən ali məqsədinə, ən uca amalına və ən böyük arzusuna çataraq tarixinin ən xoş çağlarını yaşayır. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Sərəncamında bildirildiyi kimi: "Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüz illər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir".

Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir. Qeyd edildiyi kimi, 2025-ci il Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümüdür. Dövlətimiz və xalqımızın bu bayramı təntənə ilə qeyd etməyə haqqı çatır.

Bu Sərəncam Azərbaycan tarixində dövlətçilik ənənələrinin daha da möhkəmləndirilməsi, hüquqi dövlətin daha da inkişaf etdirilməsi və xalqın milli birlik ruhunun gücləndirilməsi istiqamətində mühüm addımlardan biridir. Bu, həm də Azərbaycanın beynəlxalq arenada müstəqil və suveren dövlət kimi mövqeyini daha da möhkəmləndirəcək.

**Emil VƏLİZADƏ,**
**Şəmkir Rayon Prokurorluğunun müstəntiqi,**
**I dərəcəli hüquqşünas.**